# YENİ DÜNYADA YENİLƏŞƏN AZƏRBAYCAN İQTİSADİYYATI

**(məqalələr toplusu)**

**BAKI - 2006**

**“QLOBALLAŞAN AZƏRBAYCAN” Sivil İnkişaf Mərkəzi**

**Biz kimik?**

QASİM 2005-ci ildə yaradılıb. Təşkilatın məqsədi Azərbaycanı çağdaş dünya standartlarına uyğunlaşdırmaq istiqamətində layihələr, proqramlar hazırlamaq, araşdırmalar aparmaq, Azərbaycanı dünyaya təkcə təbii sərvətləri ilə deyil, həm də fikir istehsal edən beyinləri və beyin mərkəzləri ilə tanıtmaqdır.
QASİM-də Azərbaycan, Türkiyə, Fransa, Almaniya, İngiltərə, eləcə də ABŞ və Kanadada təhsil almış 50-dən çox mütəxəssis çalışır.
Təşkilatın 15 nəfərdən ibarət İdarə Heyəti, 3 nəfərdən ibarət İcra Aparatı və 9 departamenti fəaliyyət göstərir.

**Bizim kitabxana**

QASİM “Qlobal kitabxana” adlı yeni bir layihəni sizə təqdim edir. Bu layihə çərçivəsində hər il müxtəlif sahələri, mövzu və problemləri əhatə edən kitabları nəşr etməyi nəzərdə tuturuq. Məqsədimiz mütəxəssislərin ən yeni araşdırmalarını, Azərbaycanın problemlərinə müxtəlif və yeni baxış tərzlərini ictimaiyyətə təqdim etmək, çağdaş dünyada mövcud olan ən yeni və yayğın elmi, kulturoloji yanaşmaları Azərbaycana gətirmək, ciddi elmi-konseptual müzakirələrə nail olmaqdır.
Bu seriyadan ilk bir neçə kitabı sizə təqdim edirik. Kitablar haqqında fikir və rəylərinizi bizə yaza bilərsiniz: info@qasim-az.com

****

**REDAKTOR**
Dr. Şahin ƏHMƏDOĞLU

**KORREKTOR**
Günel XALIQVERDİYEVA

**KOMPÜTER TƏRTİBATI**
Talıb ATAKİŞİYEV

**KOMPÜTER OPERATORU**
Maya CAMALOVA
****
**“QLOBALLAŞAN AZƏRBAYCAN” Sivil İnkişaf Mərkəzi (QASİM)**
Bakı, Azərbaycan, 2006
Ünvan: Azərbaycan, Bakı şəhəri, Qarabağ küçəsi, ev 59.
Telefon: +99412 496-19-65
www.qasim-az.com

S 0605010407-31 / On-047-06 qrifli nəşr

ISBN 5-8133-1054-6

© “QLOBALLAŞAN AZƏRBAYCAN” Sivil İnkişaf Mərkəzinin Kitabxanası

# MÜƏLLİFLƏR



**İlkin Sabiroğlu**

1999-cu ildə Ankarada Qazi Universiteti İqtisadi və İdarəetmə Fakültəsinin "Menecment" Bölməsindən məzun olub. 2001-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetindən "Ümumi İqtisadiyyat" istiqamətinin "İqtisadi Nəzəriyyə" ixtisası üzrə magistr dərəcəsi alıb. Hal-hazırda İstanbul Universitetinin "İqtisad" ixtisası üzrə doktorantıdır.



**Əkbər Eldaroğlu**

1999-cu ildə Ankara Universiteti Siyasi Elmlər Fakültəsinin "İqtisad" Bölməsindən məzun olub. 2001-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetindən "Ümumi İqtisadiyyat" istiqamətinin "İqtisadi Nəzəriyyə" ixtisası üzrə magistr dərəcəsi alıb. Hal-hazırda İstanbul Universitetinin "İqtisad" ixtisası üzrə doktorantıdır.



**Bəhruz Məmmədli**

2000-ci ildə İstanbul Universiteti İqtisad Fakültəsinin "Beynəlxalq Münasibətlər" Bölməsindən məzun olub. 2003-cü ildə Mərmərə Universitetindən "Beynəlxalq Münasibətlər" ixtisası üzrə magistr dərəcəsi alıb. Hal-hazırda Mərmərə Universitetinin "İqtisadi Siyasət" ixtisası üzrə doktorantıdır.



**Natiq Sabiroğlu**

2001-ci ildə Türkiyədə Erciyes Universiteti İqtisadi və İdarəetmə Fakültəsinin "Menecment" Bölməsindən məzun olub. 2004-cü ildə İstanbul Universitetindən "İqtisadi Siyasət" ixtisası üzrə magistr dərəcəsi alıb. Hal-hazırda İstanbul Universitetinin "İqtisad" ixtisası üzrə doktorantıdır.



**Xəzər Bəşirov**

1998-ci ildə İstanbul Universiteti İqtisad Fakültəsinin "İqtisad" Bölməsindən məzun olub. 2002-ci ildə Mərmərə Universitetindən "İqtisadi Siyasət" ixtisası üzrə magistr dərəcəsi alıb. Hal-hazırda İstanbul Universitetinin "İqtisad" ixtisası üzrə doktorantıdır.



**İbrahim Nəzirli**

2001-ci ildə İstanbul Universiteti Menecment Fakültəsinin "Menecment" Bölməsindən məzun olub. 2004-cü ildə İstanbul Universitetindən "Finans" ixtisası üzrə magistr dərəcəsi alıb. Hal-hazırda İstanbul Universitetinin "İqtisad" ixtisası üzrə doktorantıdır.



**Ceyhun Qədirli**

1999-cu ildə Azərbaycan Dövlət İqtisad Universiteti "İqtisadiyyatın Tənzimlənməsi" Bölməsindən məzun olub. 2003-cü ildə Mərmərə Universitetindən "İqtisadi Siyasət" ixtisası üzrə magistr dərəcəsi alıb. Hal-hazırda İstanbul Universitetinin "İqtisad" ixtisası üzrə doktorantıdır.



**Əfsun Ələkbər**

1998-ci ildə Azərbaycan Dövlət İqtisad Universiteti "Beynəlxalq İqtisadi Münasibətlər" Bölməsindən məzun olub. 2001-cü ildə İstanbul Universitetindən "Beynəlxalq Menecment" ixtisası üzrə magistr dərəcəsi alıb. Hal-hazırda Yıldız Texnik Universitetinin "İqtisad" ixtisası üzrə doktorantıdır.



**Müzəffər İsmayılov**

2004-cü ildə Qaradəniz Texnik Universiteti İqtisadi və İdarəetmə Fakültəsinin "Menecment" Bölməsindən məzun olub. Hal-hazırda İstanbul Universitetinin "Menecment" ixtisası üzrə magistrantıdır.



**Vüqar Səlimov**

1999-cu ildə Ankara Universiteti Siyasi Elmlər Fakültəsinin "İqtisad" Bölməsindən məzun olub. 2003-cü ildə Ankara Universitetindən "İqtisad" ixtisası üzrə magistr dərəcəsi alıb. Hal-hazırda Ankara Universitetinin "İqtisad" ixtisası üzrə doktorantıdır.



**Rahib Bayrambəyli**

1999-cu ildə Qazi Universiteti İqtisadi və İdarəetmə Fakültəsinin "Beynəlxalq İqtisadiyyat" Bölməsindən məzun olub. 2005-ci ildə Orta Doğu Texnik Universitetinin "Avrasiya Çalışmaları" bölməsindən magistr dərəcəsi alıb. Hal-hazırda Ankara Universitetinin "Beynəlxalq Münasibətlər" ixtisası üzrə doktorantıdır.



**Mətin Həsənov**

2002-ci ildə Azərbaycan Dövlət İqtisad Universiteti Beynəlxalq İqtisadi Münasibətlər Fakültəsindən məzun olub. 2005-ci ildə Fransanın Nice Sophia Antipolis Universitetindən "Avropa İnteqrasiyası" ixtisası üzrə magistratura məzunu (professional yönümlü), hal-hazırda "Makroiqtisadi Dinamika və İnteqrasiya Prosesləri" ixtisası üzrə magistratura (tədqiqat yönümlü) tələbəsidir. 2006-cı ilin sonundan etibarən eyni universitetdə doktorantura təhsilinə başlayacaq.



**Fariz Hüseynov**

2000-ci ildə Mərmərə Universitetinin "Bank İşi" üzrə natamam ali təhsil məktəbindən, 2003-cü ildə isə İstanbul Universiteti Biznesin Təşkili və İdarə Olunması Fakültəsindən məzun olub. 2004-cü ildə ABŞ-ın İndiana Ştatında yerləşən Ball State Universitetindən "Maliyyə istiqamətli Biznesin Təşkili və İdarə Olunması" ixtisası üzrə MBA dərəcəsi alıb. Hal-hazırda ABŞ-ın Tennessee Ştatında Memphis Universitetinin "Finans" ixtisası üzrə doktorantıdır.

*Bu kitab bilginin*
*paylaşdıqca artacağına inananlara*
*ithaf olunur*

# İçindəkilər

Qloballaşma və Stiglitz ........................................................ 15
*Natiq Sabiroğlu*
Qloballaşma məsələsi ............................................................ 27
*Vüqar Səlimov*
Qloballaşma prosesində əməyin keyfiyyəti dəyişərkən ... 31
*Natiq Sabiroğlu*
Qloballaşma bir seçimdirmi? ............................................... 35
*Əkbər Eldaroğlu*
Qloballaşma və Azərbaycan .................................................. 39
*Natiq Sabiroğlu*
Beynəlxalq Valyuta Fondu tənqid hədəfidir ...................... 43
*İlkin Sabiroğlu*
Beynəlxalq Valyuta Fonduna qulaq asmağa dəyərmi? ..... 47
*Bəhruz Məmmədli*
İslam ölkələri niyə geri qalır? ............................................... 51
*Bəhruz Məmmədli*
Asiya Böhranı və BVF ........................................................... 57
*Vüqar Səlimov*
Xarici borclardan səmərəli istifadə edirikmi? ..................... 63
*Bəhruz Məmmədli*
Dünya Ticarət Təşkilatı və Azərbaycan .............................. 67
*Əkbər Eldaroğlu*
Avropa Birliyi Türkiyədən niyə ehtiyatlanır? .................... 71
*Xəzər Bəşirov*
Avropa Birliyi büdcə böhranını necə aşdı? ......................... 75
*Xəzər Bəşirov*
Dünya İqtisadi Böhranı niyə baş vermir? ........................... 79
*Əfsun Ələkbər*

Azərbaycanda valyuta böhranı gözlənilirmi? .................... 83
*Vüqar Səlimov*
Bilgi Çağı və zehniyyət dəyişikliyi ...................................... 89
*Xəzər Başirov*
Yeni iqtisadi gerçəkliklər ..................................................... 93
*Ceyhun Qədirli*
İctimai transformasiyada informasiyanın rolu .................. 97
*Xəzər Başirov*
Həqiqi inkişafa gedən yol .................................................... 101
*Mətin Həsənov*
Bilgi İqtisadiyyatı, Texnologiya və İnnovasiya ................. 105
*Natiq Sabiroğlu*
Kapital, yoxsa bilgi? ............................................................. 111
*Əkbər Eldaroğlu*
Əsl inqilab ............................................................................. 115
*Bəhruz Məmmədli*
Telefon biznesi rəqabətə hazırlaşırmı? ............................... 119
*Bəhruz Məmmədli*
E-dövlətə doğru .................................................................... 123
*Əkbər Eldaroğlu*
E-Azərbaycan ........................................................................ 125
*Bəhruz Məmmədli*
Elektron seçkilərin iqtisadi əhəmiyyəti .............................. 129
*İlkin Sabiroğlu*
İctimai transformasiya və texnoloji inkişaf ........................ 133
*Bəhruz Məmmədli*
İnkişafın bugünkü lokomotivi - Bilgidir! ............................ 137
*Əkbər Eldaroğlu*
Ensiklopediya və virtual kitabxana ..................................... 141
*İlkin Sabiroğlu*
Markanın və Bill Gateslə görüşün əhəmiyyəti .................. 145
*Müzəffər İsmayılov*

Keyfiyyət nədir? ........................................................................ 149
*Müzəffər İsmayılov*
Holdinqlər və Azərbaycanda holdinqləşmə ........................ 155
*Müzəffər İsmayılov*
Yeni dövrə biz hansı şirkətlərlə gedirik? ............................. 161
*Müzəffər İsmayılov*
Korporativ idarəetmədə inkişafımız niyə ləngiyir? .......... 165
*Fariz Hüseynov*
Dövlət payı necə qiymətləndirilir? ....................................... 169
*Fariz Hüseynov*
"Hamı yerli mal alsın! Xeyir Vətənə qalsın!" ..................... 173
*İlkin Sabiroğlu*
Niyə hər kəs yerli mal alsın? ................................................ 177
*Əkbər Eldaroğlu*
Manat bahalaşsın, yoxsa ucuzlaşsın? .................................. 181
*Natiq Sabiroğlu*
"Dünya bizim malı alsın, xeyir Azərbaycana qalsın!" ...... 185
*Natiq Sabiroğlu*
İxrac ölkənin gəliri, idxal isə zərəridirmi? .......................... 189
*Natiq Sabiroğlu*
Məzənnəni qabaqcadan bilmək olarmı? .............................. 193
*Əkbər Eldaroğlu*
Kiçik və Orta Sahibkarlıq nədir? .......................................... 197
*Natiq Sabiroğlu*
Dünyada KOS-lara yönəlik təşviqlər .................................. 203
*Natiq Sabiroğlu*
Azərbaycanda KOS-lara yönəlik təşviqlər .......................... 211
*Natiq Sabiroğlu*
Milli İnnovasiya Sistemi və Kiçik və Orta Sahibkarlıq ...... 219
*Bəhruz Məmmədli*
İnkişafın memarı: Burjuaziya ............................................... 229
*Bəhruz Məmmədli*

Kapitalizmin memarı: Sənayeləşmə .................................... 233
*Bəhruz Məmmədli*
Hansı kapitalizm? ................................................................ 237
*Bəhruz Məmmədli*
Burjuaziya və demokratiya ................................................. 243
*Natiq Sabiroğlu*
Oriental demokratiya .......................................................... 247
*Natiq Sabiroğlu*
Türkiyədə "İkinci Cümhuriyyətçilik" müzakirələri .......... 251
*Natiq Sabiroğlu*
Sosial müdafiə qurumları .................................................... 255
*İbrahim Nəzirli*
İqtisadi dirçəliş və institusional investorlar ........................ 259
*İbrahim Nəzirli*
Sosial müdafiənin problemləri ........................................... 265
*İbrahim Nəzirli*
Əhalinin sosial müdafiəsi nə səviyyədədir? ....................... 269
*İbrahim Nəzirli*
Tarixin sonu, yoxsa ideoloji çağın sonu? ............................ 273
*Natiq Sabiroğlu*
Kuhn paradiqmaları və ya Aristotel niyə liberal deyildi?. 283
*Natiq Sabiroğlu*
Alternativsizlik böhranı?! ..................................................... 289
*Natiq Sabiroğlu*
Gəlirlərin formalaşması və yoxsulluq problemi ................ 293
*Əkbər Eldaroğlu*
Struktur islahatları və idarəetmə sistemi ............................ 297
*Əkbər Eldaroğlu*
Struktur reformlarını gecikdirmə limiti tükənib ................ 301
*İlkin Sabiroğlu*
Mülkiyyətin toxunulmazlıq prinsipi pozulmaqdadır ....... 305
*Əkbər Eldaroğlu*

Özəlləşdirmə və iqtisadi təhlükəsizlik problemi ............... 309
*Əkbər Eldaroğlu*
İnsan və xarici kapital ........................................................ 313
*Natiq Sabiroğlu*
Neft üzərində qurulan iqtisadiyyat .................................... 317
*Natiq Sabiroğlu*
Tədiyyə balansının müasir vəziyyəti .................................. 319
*Əfsun Ələkbər*
Azərbaycanda su sektorunun perspektivləri ..................... 323
*Əfsun Ələkbər*
Konstitusiya və iqtisadi inkişaf ........................................... 327
*İlkin Sabiroğlu*
Kənd təsərrüfatında "bolluq paradoksu" ........................... 331
*Bəhruz Məmmədli*
Əlvida, proletariat! ............................................................... 335
*Əkbər Eldaroğlu*
Biz Qərbə çata bilərikmi? .................................................... 339
*Əkbər Eldaroğlu*
Kim? Kimin üçün? ................................................................ 343
*Əkbər Eldaroğlu*
Bürokratik dövlətdən rifah dövlətinə doğru ...................... 347
*Əkbər Eldaroğlu*
Dünya yenidən yaranır? ...................................................... 351
*Əkbər Eldaroğlu*
Daxili imkanlar iqtisadiyyatı ............................................... 355
*Rahib Bayrambəyli*
Yüngül sənayenin dirçəldilməsi yolları axtarılırmı? ......... 359
*Əkbər Eldaroğlu*
İşsizlikdə Yaponiyanı geridə qoya bilərik ........................... 363
*İlkin Sabiroğlu*
Azad İqtisadi Zonaların əhəmiyyətli .................................. 365
*Əkbər Eldaroğlu*

Azərbaycan öz iqtisadi modelini necə yaratmalıdır? ........ 369
*Əkbər Eldaroğlu*
Neft Fondunun vəsaitlərindən necə istifadə etməli? ......... 373
*Əkbər Eldaroğlu*

# Qloballaşma və Stiglitz*

*Natiq Sabiroğlu*

Joseph E. Stiglitz günümüzdə dünyanın ən məşhur iqtisadçılarından biridir. Xüsusilə Yeni İqtisadiyyatda asimmetrik bilgi nəzəriyyəsi sahəsindəki çalışmaları ilə məşhur olan Nobel İqtisad Mükafatı Laureatı alim, son illərdə daha çox Clinton administrasiyasındakı 4 illik (1993-1997) İqtisadi Məsləhətçilər Şurası Başqanı və Dünya Bankındakı (IBRD) 3 illik (1997-2000) Baş İqtisadçı və Başqan Yardımçısı kimi vəzifələrdə çalışma nəticəsində əldə etdiyi şəxsi təcrübələrə dayanaraq qələmə aldığı və yenicə dilimizə də tərcümə edilən "Qloballaşma və onun doğurduğu narazılıqlar" adlı kitabı ilə dünyanın müzakirə mövzusuna çevrilib. Kitabın şübhəsiz ən böyük xüsusiyyəti müəllifin qloballaşma prosesinə - son illərdəki məşhur ideoloji reaksiyaların əksinə - elmi paradiqmadan yanaşmasıdır. Əvvəlcədən qeyd edək ki, biz Stiglitzin fikirlərinə qloballaşmanın doğurduğu nəticələr baxımından qoşuluruq. Lakin bunun səbəblərinin BVF kimi qlobal güclərdən çox, lokal güclərdən qaynaqlandığını düşünürük. Kitabda qloballaşmanın daha insani bir çöhrəyə büründürülməsinin zəruriliyi, beynəlxalq maliyyə qurumlarının – xüsusilə Beynəlxalq Valyuta Fondunun - lokal şərtləri çox diqqətə almadan ifrat müdaxiləçiliyinə yönəldilən tənqidlər fikrimizcə yerindədir. İnkişaf etməkdə olan ölkələri beynəlxalq təşkilatların yardımına möhtac buraxan lokal hökumətlərin bu məsələdəki rolu isə başqa bir yazının mövzusudur.

Lakin biz bu məqalədə Stiglizə, başqa bir Nobel Laureatı Robert Mundellin (1999) görüşləri çərçivəsində, obyektiv kri-

---

* *18 avqust 2004.*

teriyalar işığında razılaşmadığımız bəzi məqamlara elmi tənqidlər yönəltməyə çalışacağıq.

İlk əvvəl beynəlxalq rəsmi qurumlarla əlaqədar qısa bir arayış vermək yerində olacaq. Bilindiyi kimi Beynəlxalq Valyuta Fondu (IMF) və Dünya Bankı 1944-cü ilin iyul ayında ABŞ-ın New Hampshire əyalətinin Bretton Woods qəsəbəsində keçirilən BMT Pul və Maliyyə Konfransında İkinci Dünya Müharibəsi sonrası "yeni qlobal düzənin şəkillənməsi" məqsədilə yaradıldı. Dünya Bankı müharibənin səbəb olduğu dağıntıların yenidən inşası və üzv ölkələrin iqtisadi inkişaf səylərinin dəstəklənməsi, BVF isə, qlobal iqtisadi sistemin stabilliyini təmin etmək üçün yaradıldı. Daha sonra bu prosesin davamı olaraq beynəlxalq ticarətin sərbəstləşdirilməsi məqsədilə Tariflər və Ticarət Üzrə Baş Saziş (GATT - daha sonra bu ad 1995-ci ildə Dünya Ticarət Təşkilatı - WTO şəklində dəyişdirildi) yaradıldı. Ayrıca bu qurumların maraq dairəsinə - daha doğrusu ixtisas sahələrinə - daxil olmayan sahələrdəki boşluqları doldurmaq üçün də BMT-nin UNCTAD, ILO, UNIDO, UNDP kimi müxtəlif qurum və proqramları dövriyyəyə daxil oldu. Fikrimizcə bu qurumlar arasında günümüzdə yaşanan müzakirə və fikir alış-verişləri olduqca faydalıdır. Belə ki, Dünya Bankı uzun müddətli struktur proyektləri ilə maraqlanırkən, daha qısa müddətli maliyyə qeyri-stabillikləri də BVF-nin əhatə dairəsinə daxildir. Yenə ölkə xalqının böyük bir bölümünü müflisləşdirərkən, kiçik bir elitaya yüksək faydalar təmin edən gömrük və kvotalar kimi beynəlxalq ticarət önündəki əngəlləri qaldırmaqla məşğul olan DTT-yə qarşılıq, BMT-nin alt qurumları da bu proseslərdə daha çox insani boyutları ön plana çıxarırlar. Dolayısı ilə ayrı-ayrı sahələrdə ixtisaslaşan bu qurumlar əslində bir-birini tamamlamaqdadırlar. Xüsusilə BVF ilə Dünya Bankı arasında yaşanan fikir ayrılıqlarını klassik Amerikan-Avropa çəkişməsindən uzaq tutaraq elmi prizmadan yaxınlaş-

maq daha doğru olacaqdır - təbii ki, Stiglitz bu kateqoriyaya aid deyil (bilindiyi kimi, yazılı olmayan ənənəyə görə Dünya Bankı başqanları hər zaman Amerikadan, BVF başqanları da Avropadan seçilir).

Yazar kitabda ardıcıl olaraq BVF, Dünya Bankı və ABŞ Xəzinədarlığı arasında imzalanan Washington Konsensusunu tənqid etməkdə və BVF-nin də daha çox bu konsensusa sadiq qaldığını qeyd etməkdədir. Bilindiyi kimi sözü gedən konsensus üç başlıca maddəyə əsaslanmaqdadır: Liberallaşma, özəlləşdirmə və maliyyə intizamı.

Yazar bu üç sahədəki BVF praktikalarını tənqid etməkdədir. Unudulmamalıdır ki, BVF yardım deyil, bir kredit qurumudur və heç bir ölkə BVF ilə "stand by" anlaşması imzalamaq məcburiyyətində deyil. Ayrıca qurumun beynəlxalq arenada gözə ilk çarpan aktyor olmasının da bu düşüncədə rolu böyükdür. Yazar BVF-nin kredit vermə yoluyla ölkələri istədiyi politikaları həyata keçirməyə məcbur etdiyini söyləməkdədir. Lakin 1990-cı illərdən sonra beynəlxalq arenada kredit axımındakı dəyişikliklərə baxdığımızda mənzərənin heç də belə olmadığı anlaşılır. Belə ki, son illərdə beynəlxalq özəl kreditlərin həcmi rəsmi kreditləri aşmışdır. 1990-cı ildə inkişaf etməkdə olan ölkələrə yönələn sərmayənin yarısından çoxu (56 faizi) rəsmi mənbələrdən və təsdiqli sərmayə ikən (dövlətlər və beynəlxalq qurumlar), indi bu pay 10 faizin də altına enmiş vəziyyətdədir. Bunun müqabilində özəl mənbələrdən maliyyələşdirmənin payı da 44 faizdən 90 faizə yüksəlmişdir. İstisna olaraq, 1997-1998-ci illərdə beynəlxalq rəsmi kreditlərin nisbəti yüksəlmişdir. Bu hadisə, 1997-ci ildəki "Asiya Böhranı" sırasında rəsmi qurumların bu ölkələrə ayırdığı kredit miqdarlarının artması nəticəsində gerçəkləşmişdir. Fəqət böhranın təsiri azaldıqdan sonra, 1999-cu ildə, rəsmi kreditlərin həcmində təkrar azalma tendensiyası müşahidə edilməyə başladı. 2003-cü ildə dünya səviyyəsində, 41,4 milyard dollar olan toplam

özəl kreditlərin, Beynəlxalq Maliyyə Qurumuna (International Financ Corpooration - IFC) görə, 2004-də 50 milyard dollara yüksələcəyi proqnozlaşdırılır. Dolayısı ilə əgər bir məcbur etmə davranışı varsa bu BVF, Dünya Bankı kimi qurumlardan deyil beynəlxalq özəl maliyyə qurumlarından gəlməkdədir. Ayrıca ayrı-ayrı ölkə təcrübələrindən bilindiyi kimi, BVF-dən borc alan ölkələrin ödəmə müddəti yekunlaşdığında borclarının müddətini uzatma şansı da mövcuddur (borcların konsolidasiyası). Fəqət özəl qurumlar ölkəni beynəlxalq arbitraj məhkəməsinə şikayət etməkdə və ölkəni çox çətin vəziyyətə salmaqdadırlar. Məsələn, ölkənin kredit notu düşməkdə, borc verən ölkə tərəfindən iqtisadi sanksiyaya məruz qalmaqda, hətta bəzən, Cənubi Koreya timsalında olduğu kimi, borcları ödəyə bilməyəcəyi yönündəki açıqlamalar böhrana da yol açmaqdadır. Ayrıca bu durumun neqativ reaksiya doğurması fikrimizcə yersizdir. Belə ki, özəl kreditlər, rəsmi kreditlərdən fərqli olaraq, daha çox məcburedici xüsusiyyətə sahib olmaları ilə ölkələri daha çox kontrol etməkdə, beləcə kredit alan ölkələri də tənbəllikdən qurtarmaqdadırlar. Bu yönü ilə adətən demokratik inkişaf, dolayısilə ictimai nəzarət səviyyəsinin yetərsiz olduğu inkişaf etməkdə olan ölkələrdə bu boşluğu doldurmaqdadırlar. Dünya Bankının konkret proyektlər qarşılığı ayırmış olduğu ucuz faizli və uzun müddətli kreditlərin nə qədərinin həqiqətən bu proyektlərə xərcləndiyi sual altındadır. Bu fikrə qoşulmayanlara inkişaf etməkdə olan ölkələr üzərinə qısa bir araşdırma aparmağı tövsiyə edirəm. Amma özəl kreditləri istifadə edən ölkələrin belə bir şansı – daha doğru ifadə ilə "şanssızlığı" - yoxdur.

Yenə lokallaşma, regionallaşma yoluyla yaşanan qloballaşma prosesində Washington Konsensusu kimi onun təbii nəticələri tənqid edilə bilər, fəqət önlənə bilməz. Çünki bu günəşin doğuşunu əngəlləməyə çalışmaq kimi bir şey olardı. Avro-

pa Birliyi timsalında konkretləşən qloballaşma prosesi bunu keçərsiz qılmaqdadır. Avro düşüncəsinin qatı tərəfdarlarından biri olan Mundell sərmayə hərəkətlərinin liberallaşdırılması, sabit valyuta kursu və milli mərkəzi bankçılığın üçünün bir arada yürüyə bilməyəcəyini söyləməkdədir. Sadəcə ikisini birlikdə tətbiq etmək mümkündür. Bu nəzəriyyəni "Uyğunsuzluq Üçbucağı" adlandırmaqdadır. Yəni əgər ölkə sərmayə hərəkətlərinin liberallaşdırılmasına gedirsə, o zaman ya sabit valyuta kursunu - avro misalında olduğu kimi milli pulundan vaz keçərək - ya da mərkəzi bankçılığı seçə biləcəkdir. 1990-cı illərə qədər sərmayə hərəkətlərinin liberallaşdırılması çox aşağı səviyyədə olduğu üçün bunun mahiyyəti anlaşılmamışdı. Məsələn, birbaşa xarici investisiya daxilolmaları 1981-1990-cı illər arasında 5,3 faiz, 1991-2000-ci illər arasında isə 20.8 faiz artmışdır. Bilindiyi kimi milli dövlətin əsas xüsusiyyəti vergi alma gücü, mərkəzi bankçılıq kimi geniş mənada sərbəst iqtisad politikaları həyata keçirmə gücüdür. Fəqət Avropa Birliyində (AB) Mərkəzi Bankın qurulması bu birliyə üzv olan milli dövlətlərin sərbəst pul siyasəti yeritmə xüsusiyyətini böyük ölçüdə əlindən almışdır. Yenə AB-nin Maastricht Kriteriyaları ilə maliyyə və pul politikalarına gətirdiyi bəzi məhdudiyyətlər mövcuddur: büdcə açıqlarının ÜDM-yə olan nisbəti 3 faizi, toplam dövlət borclarının ÜDM-yə nisbəti 60 faizi keçməməli, inflyasiya AB-də ən aşağı inflyasiyaya sahib (ən yaxşı performans göstərən) üç ölkənin illik inflyasiya səviyyəsi ortalamasının ən çox 1,5 xal üzərində və uzun müddətli faiz nisbətləri, 12 aylıq dönəm etibarı ilə, ən aşağı faiz nisbətlərinə sahib üç ölkənin ən çox 2 xal üzərində olacaqdır və nəhayət, son 2 il etibarilə ölkə pulu başqa bir üzv ölkə pulu qarşısında devalvasiya edilmiş olmamalıdır. Bu da ölkələrin iqtisadiyyata keyfi bir şəkildə müdaxiləsini ciddi bir şəkildə azaltmaqdadır. Qısaca milli dövlət klassik funksiyalarına (ədalət, mühafizə və müdafiə) geri dönməkdədir. Artıq mal və xidmətlər, sərmayə hərə-

kətlərinin sərbəstliyindən sonra sıra fiziki əmək və bilgiyə gəlmişdir.

BVF kimi beynəlxalq rəsmi qurumlar da ölkələrə əslində yuxarıda qeyd etdiyimiz məhdudiyyətləri gətirməkdədirlər. Yəni ölkələr iqtisadi artımı bəhanə edərək inflyasiyaya yol verməməlidirlər (bilindiyi kimi Keynes 1929 Böhranının əsas səbəbi kimi tələb yetərsizliyini göstərməkdə və buna bağlı olaraq genişləndirici maliyyə politikalarını tövsiyə etməkdə idi). Çünki inflyasiya orta və uzun müddətdə neqativ artım gətirdiyi kimi, yüksək real faizlərə, devalvasiyaya səbəb olmaqdadır. Ayrıca inflyasiya yolsuzluğa, yoxsulluğa (inflyasiya həm bütün ölkə vətəndaşlarının real gəlirini azaltmaqda, həm də yoxsullardan zənginlərə doğru gəlir transferi yolu ilə yoxsulları daha da yoxsullaşdırmaqdadır), gizli və yeraltı iqtisadiyyata da səbəb olmaqdadır.

Günlük sərmayə hərəkətlərinin 2,5 trilyon dollara yüksəldiyi bir zamanda qloballaşmanın durdurulmasını istəmək olduqca absurddur. Unudulmamalıdır ki, Asiya və daha sonra Rusiya Böhranı sərmayə hərəkətlərinin liberallaşdırılmasından deyil, bu sərmayəni sağlam bir şəkildə dəyərləndirəcək zəruri və yetərli infrastruktura (həm iqtisadi, həm də hüquqi) sahib olmamasından ortaya çıxmışdır. Əslində qloballaşma əleyhdarları ilə tərəfdarları (belə bir bölgüyə gedilməsi əslində doğru deyil, çünki hər iki qrup əslində qloballaşmanın nemətlərindən faydalanmaqdadır) arasındakı əsas fərq ehtiyatların beynəlxalq bazarlar tərəfindənmi, yoxsa milli dövlət hökumət və bürokratiyası tərəfindənmi bölüşdürüləcəyi sualına cavab axtarışının məhsuludur.

Mütəmadi tənqid edilən özəlləşdirmənin məqsədini sadəcə dövlətə müvəqqəti bir gəlir təmin etməkdən çox, o müəssisənin daha məhsuldar və dəyişən şərtlərə daha tez adekvat cavab verərək adaptasiya olma (elastiki istehsal paradiqması)

xüsusiyyətinə qovuşdurulması, dövlətin sənaye və ticari aktivliyinin minimuma endirilməsi və maliyyə yükünün azaldılması (sərbəst bir bazar sistemi yaratmaq), sərmayə sahibliyinin yayğınlaşdırılması (sərmayəni geniş kütləyə yaymaq) və istifadəsiz ehtiyatların effektli istifadəsi (iqtisadiyyatın effektliliyini yüksəltmək) şəklində sıralaya bilərik.

36 inkişaf etməkdə olan ölkə üzərinə aparılan bir araşdırma hər 1 dollar özəlləşdirmə gəlirinin 0,88 dollarının birbaşa xarici investisiya yoluyla gəldiyini göstərmişdir. 1990-cı illərdə müstəqilliklərini yenicə qazanan Şərqi Avropa ölkələrinin iqtisadi müvəffəqiyyətini qismən bu hadisə açıqlamaqdadır. Məsələn, Çexiyanın 1994-1996-cı illər arasında çəkdiyi 4,852 milyard dollarlıq birbaşa xarici investisiyanın 3,226 milyard dolları (66.5 faizi), Macarıstanın 1993-1996-cı illər arasında çəkdiyi 9,921 milyard dollarlıq xarici investisiyanın 7,552 milyard dolları (76.1 faizi) və Polşanın da 1993-1996-cı illər arasında çəkdiyi 4,997 milyard dollarlıq xarici investisiyanın 3,387 milyard dolları (67.8 faizi) özəlləşdirmə yoluyla təmin edilmişdir.

Stiglitz böyük transmilli şirkətlərin lokal bazarda haqsız rəqabət yoluyla yerli firmaları əzəcəyini söyləməkdədir. Fəqət dünyanın toplam ÜDM-si içərisində KOS-ların (Kiçik və Orta Sahibkarlığın) sahib olduğu paya diqqət yetirdiyimizdə bu narahatçılığın bir az yersiz olduğu anlaşılır. Vurğulanmalıdır ki, böyük şirkətlərin kapital üstünlüyünə qarşın KOS-ların davranış üstünlüyü (elastiki istehsal, sıfır inventarla tam zamanında istehsal) mövcuddur. Yeni İqtisadiyyatda KOS-lar böyük şirkətlərdən daha aktiv yer tuturlar. 1990-cı illərin başından etibarən texnoloji əsaslı daha çox KOS firma hissələrinin yerləşdirildiyi NASDAQ indeksinin bu qədər yüksəlməsi və önəmli hala gəlməsi bunun nəticəsidir.

Yenə kitabda Stiglitz böyük beynəlxalq bankların onsuz da yetərsiz olan yerli kapital ehtiyatlarını New York kimi maliyyə mərkəzlərinə aparacağını söyləməkdədir. Lakin inkişaf etmək-

də olan ölkələrdə kapitalın potensial marjinal məhsuldarlığının yüksək olduğu və bu ölkələrdə yetərsiz müddətli əməliyyat bazarlarının mövcudluğu nəzərə alınarsa, bu bankların əslində ev sahibi ölkədə investisiya qoyaraq uzun müddətdə daha qazanclı çıxacaqları düşünülə bilər. Bu isə ölkənin gələcək iqtisadi performansına dayalı müsbət gözləmələrdən asılıdır.

Yazar yerli bazardakı böyük beynəlxalq bankların nəhəng beynəlmiləl və yerli böyük firmalara rahat bir şəkildə kredit verirkən, KOS-lara kredit vermədə istəksiz davrandığını qeyd etməkdədir. Fəqət bu daha çox inkişaf etmiş ölkələrin problemidir. Belə ki, klassik funksiyası kiçik sərmayə yığınlarını toplayaraq real sektora kredit vermə yolu ilə investisiyaları maliyyələşdirmək olan banklar, real sektorda qazanc nisbətlərinin düşməsi səbəbindən daha çox ölkə daxili və xarici qiymətli kağızlar birjası, qısa müddətli dövlət və özəl sektor borclanma bazarı kimi sahələrə yönəlmişlərdir. Dolayısilə bank və firma sahibliyinin ayrı-ayrı əllərdə tutulmasının Qərb ölkələrində gedərək daha da yayğın hala gətirildiyi bir durumda real sektorun (KOS-lar da daxil) kredit əldə etmə şansı daha da azalmaqdadır. Fəqət bank və firma sahibliyinin eyni əldə tutulduğu, müxtəlif sahələrdə fəaliyyət göstərən firmaların bir araya gətirildiyi Yaponiyadakı "zaibatsu" ( sonraları "keiretsu"), Cənubi Koreyadakı "chaebol", Türkiyədəki "holding" misallarında real sektor firmalarının kredit əldə etmə şansı daha yüksəkdir. Lakin bu durum böhranlara adətən dəvətnamə yazmaqdadır. Çünki bankların qısa müddətli məqsədləri ilə firmaların orta və uzun müddətli maraqları uyğun düşməyə bilər. Məsələn, banklar yüksək faiz nisbətlərinə həssasdırlarsa, real sektor firmaları faiz nisbətlərinin aşağı səviyyədə olmasından müsbət təsirlənməkdədirlər. Qeyd edək ki, Cənubi Koreyadakı böhranda bu faktorun da payı vardı.

Dolayısilə inkişaf etməkdə olan ölkələr siyasi və iqtisadi stabilliyi, yetərli infrastrukturu təmin etdiyi, dövlətin borclanma ehtiyacını azaltdığı zaman xarici (birbaşa və portfel) investisiyanın, o cümlədən beynəlxalq bankların zərərini minimuma endirmiş olacaqlar. Bütün bunlar yerinə yetirildikdən sonra da beynəlxalq banklar ev sahibi ölkəyə və onun bir neçə yerli böyük firmasına kredit verməkdənsə KOS-lar da daxil bütün iqtisadi aktyorlara kredit vermə yoluna gedəcəklər. Beləcə verilən kreditlər geniş dabana yayılaraq dərinlik əldə edərkən bankın kredit riski azalacaq və yuxarıda da qeyd etdiyimiz kimi kapitalın marjinal məhsuldarlığı yüksək və banklar üçün yeni investisiya fürsətləri olduğu üçün banklar daha çox qazanc əldə edəcəklər. Yəni qloballaşma özünü buna hazırlamayan ölkələrə zərər vurmaqda, hazırlıqlı olanlara isə fayda verməkdədir.

Stiglitz liberallaşdırmanın fondların mənbəyini çeşidləndirərək stabilliyi artırdığı düşüncəsinə etiraz etməkdədir. Amma Asiya Böhranı sırasında xarici kommersiya bankları milyardlarla dollar krediti bölgədən bir neçə gündə geri çəkərkən, birbaşa xarici investisiyalar isə səviyyəsini qorumuş və hətta müsbət gözləmələr içində bəzi bölgə ölkələrində artım göstərmişdir. Başqa ifadə ilə bir xarici kapital mənbəyinin (qısa müddətli investisiyanın) ölkə iqtisadiyyatına vurduğu zərərin bir qismi başqa bir xarici kapital mənbəyi ilə (birbaşa xarici investisiyalar) balanslaşdırılmışdır.

Son olaraq qeyd edək ki, günümüzdə yaşanan qloballaşma fenomeni yeni deyildir. Dani Rodrikin "Qloballaşma Sərhədi Aşdımı" (Globalization Has Gone Too Far) adlı kitabında söylədiyi kimi, 19-cu əsrin sonlarında mal və xidmət ticarətinin dünyanın toplam ÜDM-si içərisindəki payı (xüsusən o zamankı inkişaf etmiş ölkələr baxımından) indikindən çox idi. Məsələn, o zamankı ABŞ-ın xaricə açıqlıq səviyyəsi indikindən daha yüksək idi. Yenə yeni qitəyə müstəmləkə ölkələrindən gəti-

rilən yüksək miqdarda əmək axını da əməyin mobilliyini (hərəkətliliyini) günümüzdəkinə görə daha da artırmışdı. Həmçinin sərmayə hərəkətləri rahat bir şəkildə ölkələr arasında dolaşa bilməkdə idi. Fəqət o zamankı dünya şərtləri əlverişli olmadığı üçün qloballaşma prosesi də daimi olmadı. Çünki milli dövlətlər buna hazır deyildi və ölkə bazarları istehsal edilən mal və xidmətlərin tamamını istehlak edə biləcək vəziyyətdə idi. Yenə iki dünya müharibəsi və ardından yaşanan iki qütblülük bu prosesi ciddi bir şəkildə axsatdı. Xüsusilə 1960-cı illərdə, Afrikada yaşanan milli dövlətləşmə (müstəqillik) hərəkatları da bunda rol oynadı.

Lakin günümüzdə yaşanan milli institutları tərk edərək dövlət üstü qurum və quruluşlara yönəlmə meylləri qloballaşma prosesini geri dönülməz hala gətirmişdir. Ayrıca keçmişdə xaricə açılma nisbətlərinin indikindən yüksək olmasına baxmayaraq, günümüzdə xüsusən mal, xidmət və sərmayə hərəkətləri qarşısındakı əngəllər daha azdır. Yəni bu əməliyyatların yerinə yetirilə bilmə asanlığı daha yüksəkdir. Belə ki ölkələr mal və xidmətlərin önündəki əngəlləri ortadan qaldırmaq üçün rəqabət və ticarət hüquqlarını uyğunlaşdırmaqda, sərmayə hərəkətlərinin önündəki əngəlləri qaldırmaq üçün birbaşa vergi nisbətlərini azaltmaqda (ölkələr daha çox Əlavə Dəyər Vergisi kimi dolaylı vergilərə yönəlməkdədirlər, məsələn, 1996-2002-ci illərdə OECD ölkələrində mənfəət vergisi 7 faiz azalmışdır - 38 faizdən 31 faizə düşmüşdür) və nəhayət əməyin sərbəst hərəkəti önündəki əngəlləri azaltmaq üçün çalışma və sosial təminat hüquqlarını uyğunlaşdırmaqdadırlar. Hələlik bilginin özünə məxsus hüququ formalaşmadığından gələcəyin əsas mübahisələrinin daha çox bu müstəvidə gerçəkləşəcəyini söyləyə bilərik. Çünki süni əngəllər Stiglitzin də dediyi kimi asimmetrik bilginin varlığına, bu da lazım olan strateqik

bilgini әldә edә bilmәmә vә ya gec әldә etmәyә sәbәb olmaqdadır.

Qısaca qloballaşma tәnqid edilә bilәr, daha insani bir çöhrәyә bürünmәsi üçün mübarizә aparıla bilәr, fәqәt bu WTO-nun 1999-ci ildә Seattle vә 2001-ci ildә Genova Toplantılarında gerçәklәşәn hadisәlәrdә olduğu kimi ifrat emosional reaksiyalar yerinә daha elmi vә soyuqqanlı müzakirәlәrlә hәyata keçirilmәlidir. Qloballaşmanın nemәtlәrindәn bütün dünya ölkәlәrinin eyni ölçüdә faydalanmadığı hәqiqәtdir. ILO-nun (Beynәlxalq Әmәk Tәşkilatı) 2004-cü ilin fevral ayında hazırladığı "Qloballaşmanın Sosial Tәsirlәri İlә Әlaqәdar Dünya Komissiyası Raportu"na görә, qloballaşmanın әn geniş olaraq yaşandığı 1990-cı illәrdә dünya iqtisadiyyatındakı artım 1980-ci illәrdәn daha aşağı olmuşdur. Ayrıca 1960-1962-cı illәr arasında әn zәngin 20 ölkәnin adam başına gәlir ortalaması әn yoxsul 20 ölkәnin ortalamasından 55 qat artıq ikәn, bu rәqәm 2000-2002 dönәmindә 121 qata çıxmışdır. Fәqәt bunda nәticә etibarı ilә qloballaşmaya qarşı dirәnәn vә mәsafәli dayanaraq xalqını bu nemәtlәrdәn mәhrum buraxan milli ölkә elitalarının, ideoloji baxışların tәsiri altında problem çözücü olma yerinә hәlә dә әmәyin keçirdiyi dәyişikliklәri anlamamaqda dirәnәn әmәk haqqı sendikaçılığının dә böyük payı var.

Son Söz Әvәzi: "Rüzgarın yönünü dәyişdirә bilmәdiyin zaman, yelkәnlәri rüzgara görә tәnzimlә." (Xsentius)

# Qloballaşma məsələsi*

*Vüqar Səlimov*

XIX əsrin axırlarında başlayan qloballaşma prosesi, ən geniş mənada, ölkələr arasındakı maneələrin ortadan qalxması nəticəsində ölkələrin bir-birilərinə yaxınlaşması, bütünləşməsi deməkdir. Bu maneələrin növlərindən asılı olaraq, qloballaşma da müxtəlif istiqamətlərdə ola bilər; məsələn, siyasi, iqtisadi, hüquqi qloballaşma və sairə. İqtisadçılar üçün daha maraqlı olan iqtisadi qloballaşmanın özü də üç istiqamətdə ola bilər: beynəlxalq ticarətin sərbəstləşməsi, beynəlxalq kapital hərəkətlərinin sərbəstləşməsi və nəhayət istehsalın qloballaşması (internationalization of production).

İqtisadi qloballaşmanın təsirləri haqqında elmi ədəbiyyatda uzun müddətdən bəri davam edən müzakirələr aparılmaqdadır. Təbiidir ki, müxtəlif iqtisadçılar, hansı "pəncərədən" baxdıqlarından asılı olaraq, qloballaşmanın ya xeyrinə ya da əleyhinə mövqelər ortaya qoymaqdadırlar. Bu gün çox az iqtisadçı uzun müddətdə ticarətin sərbəstləşdirilməsinə və birbaşa xarici investisiyalar nəticəsində istehsalın sərbəstləşməsinə qarşıdır. Əsasən qızğın mübahisələr beynəlxalq kapital hərəkətlərinin sərbəstləşdirilməsi mövzusu ətrafında toplanmışdır. Məqaləmdə, bu müzakirələrdən günümüzdə əldə edilən bəzi nəticələrin xülasəsinə baxaraq öz rəyimi bildirmək istəyirəm.

Məncə iqtisadi qloballaşma məsələsini, qısaca, bu dörd sual ətrafında təhlil etmək məqsədə daha uyğun olar:

1. Qloballaşma bizim idarəmiz altında olan bir prosesdirmi?

Qloballaşma bu gün elə bir səviyyəyə çatıb ki, bu prosesdə iştirak etmək artıq zəruri hala gəlib. Bu, xüsusilə də bizim ki-

---

* *7 may 2005.*

mi kiçik ölkələr üçün daha böyük bir məna kəsb edir. Əlbəttə ki, hər hansı bir ölkənin hökuməti tək tərəfli olaraq bu prosesdə iştirak etməyi rədd edə bilər. Ancaq bu gün telekommunikasiya texnologiyaları elə bir səviyyəyə çatıb ki, belə bir qərarın təsiri məhdud olacaq. Bundan başqa, iqtisadi olaraq belə bir qərardan doğacaq daxili və xarici təzyiqlərə tab gətirə bilmək çox çətindir. Həmçinin belə bir siyasət bugünkü dünyada rasional deyildir.

2. İqtisadi qloballaşmanın potensial faydaları nələrdir?

Bizim maraqlandığımız kapital hərəkətlərindəki qloballaşmanın potensial faydaları ilə əlaqədar olan fikirləri aşağıdakı kimi cəmləyə bilərik:

- Beynəlxalq kapital bazarlarına daxil olma ölkələrə, istehlaklarını zaman boyunca hamarlaşdırma (consumption smoothing) fürsəti verir.
- Ölkələr ehtiyac duyduqları kapitalı cəlb edərək daha yüksək investisiya səviyyəsinə və iqtisadi artıma nail ola bilərlər. Bundan başqa cəlb edilən kapitalla birlikdə ölkələrə texnoloji "know-how" da daxil olmaqdadır. Bunun nəticəsində də ölkədə məhsuldarlıq artmaqdadır.
- Sərbəst kapital hərəkətləri hökumətləri makro iqtisadiyyatı daha səriştəli idarə etməyə təşviq və məcbur edir.
- Sərbəst kapital hərəkətləri ölkənin daxili maliyyə bazarlarının dərinliyini və genişliyini artırır.

3. İqtisadi qloballaşmanın görünən mənfi təsirləri nələrdir?

Bu mənfi təsirlərin ən önəmlilərini aşağıdakı kimi cəmləyə bilərik:

- Böyük miqyaslı kapital hərəkətləri ölkədə makro iqtisadi natarazlıq yarada bilər.
- Qısa-müddətli kapital hərəkətlərinin köçəri olması ölkə iqtisadiyyatını kövrək vəziyyətə gətirə bilər.

- Kapital marketlərindəki asimmetrik informasiya nəticəsində kapital effektli bir şəkildə hərəkət etməyə bilər.

4. Bütün bunlara baxaraq, bir ölkə kapital hərəkətlərinin müsbət təsirlərindən ən üst səviyyədə faydalanmaq və mənfi təsirlərini minimumda tutmaq üçün nələr etməlidir?

Qloballaşma prosesində iştirak etmək ən rasional variantdırsa, bir ölkə aşağıdakı islahatları aparmağa məcburdur:

- Makro iqtisadi sabitliyi təmin eləmək üçün, həm dünyadakı, həm də ölkə daxilindəki vəziyyəti nəzərə alan məntiqli maliyyə və pul siyasəti tətbiq eləmək;

- Daxili maliyyə sisteminin effektli işləməsini təmin eləmək;

- Lazım olan hüquqi və struktur islahatları aparmaq.

Bütün bunlar üçün siyasi baxımdan qətiyyətli bir hökumət lazımdır. Ekonometrik araşdırmaların nəticələrinə görə, bu islahatları apara bilən ölkələr kapital hərəkətlərinin müsbət təsirlərindən daha çox faydalanırlar. Ancaq belə ölkələrin sayı çox azdır.

Ölkələrin əksəriyyəti bu islahatları, bir neçə dəfə iqtisadi böhrana məruz qaldıqdan sonra məcburən aparırlar. Deməli, qloballaşma prosesinə daxil olan bir ölkənin önündə iki variant var: ya əvvəlcə könüllü olaraq lazım olan islahatları aparacaq, ya da bu islahatları böhranlardan sonra məcburi olaraq aparacaq. Joseph E.Stiglitz o nöqtədə haqlıdır ki, BVF ölkələrin bu islahatları aparıb aparmadıqlarına baxmadan onlara kapital hərəkətlərini sərbəstləşdirmək üçün təzyiq edir.*

Ölkələr müəyyən müddətə kapital hərəkətlərini məhdudlaşdıra bilərlər. Ancaq bu qiymətli zamanı, lazımi islahatları aparmaq üçün xərcləməlidirlər.

---

* Fürsətdən istifadə edib qeyd etmək istəyirəm ki, Stiglitzin özü qloballaşmaya qarşı deyildir. Stiglitzin əsas tənqid etdiyi nöqtə, qloballaşma prosesinin böyük ölkələr və beynəlxalq təşkilatlar tərəfindən ədalətsiz bir şəkildə tətbiq edilməsidir.

Nəticədə qeyd eləmək istəyirəm ki, iqtisadi çətinliklərlə üzləşən ölkələrin əksəriyyətində hökumətlər öz siyasi nüfuzlarını itirməmək üçün bütün günahın qloballaşmada olduğunu bəyan edirlər. Çünki bu lazımi islahatları aparmaqdan daha asandır. Ancaq bilməliyik ki, böyük ölkələr və ya beynəlxalq təşkilatlar nə rol oynayırsa oynasın, qloballaşma prosesindən səmərəli bir şəkildə istifadə eləmək bizim özümüzdən asılıdır.

# Qloballaşma prosesində əməyin keyfiyyəti dəyişərkən*

*Natiq Sabiroğlu*

Günümüzdə getdikcə bütün dünyanı saran qloballaşma fenomeninə əslində dörd mərhələli tarixi bir prosesdən keçilərək gəlinib: Sənətkarlıq, manufaktura, mexanikləşmə və avtomatlaşdırma.

Sənətkarlıq dövründə əmək ən əhəmiyyətli istehsal vasitəsi olub. Öz başının ağası olan əmək özü üçün istehsal etməkdə idi. Ayrıca bazarda da əmtəə-əmtəə mübadiləsi keçərli idi.

Manufaktura mərhələsində isə, əmək sahibi, əvəzində istehsal etdiyinin bir qismini almaq şərti ilə əməyini satmaqda və ya müəyyən bir əmək haqqı almaqda idi.

Mexanikləşmə dövründə əmək gerçək mənada ilk dəfə texnologiya ilə tanış oldu. Karl Marxın ölümündən üç il əvvəl 1880-ci ildə gerçəkləşən məhsuldarlıq (productive) inqilabı, bu mərhələdə fəhləni (proletariatı) işçiyə çevirdi. Makina böyük ölçüdə əməyi əvəz etməyə başladı. Dolayısı ilə əmək keyfiyyət dəyişdirərək makinanın başında gözləyən, ehtiyatları, nasazlıq və problemləri nəzarətdə saxlayan bir mövqeyə gəldi.

Avtomatlaşdırma mərhələsində isə, daha əvvəl aşağı keyfiyyətli əməyin gördüyü və görə bilmədiyi bütün işləri müasir robotlar artıqlaması ilə yerinə yetirə bilməkdə idilər. 1950-ci illərə gəlindiyində isə, idarəetmə inqilabı gerçəkləşdi. Bu da mavi yaxalı işçinin bəyaz yaxalı işçiyə çevrilməsinə səbəb oldu. A.Tofflerə görə, sənətkarlıq və manufaktura mərhələlərini əhatə edən əkinçilik inqilabı (birinci dalğa) ən əhəmiyyətli istehsal faktoru olaraq torpaq və əməkdən istifadə etməkdə idi.

---

* *11 iyun 2004.*

Mexanikləşmə və avtomatlaşdırma mərhələlərini əhatə edən ikinci dalğa olan sənaye inqilabı isə, kapitalı ən əhəmiyyətli istehsal faktoru halına gətirdi.

1990-cı illərdə yaşanan üçüncü dalğa isə, istehsal prosesində bilgini əsas alan informasiya çağını ifadə etməkdədir. Mexanikləşmə dövrünün canlı şahidi olan Marx, kapitalizmin yüksək inkişaf mərhələsində firmalar arasında ifrat rəqabət olacağını, qazanc hədlərinin düşəcəyini, işçilərin kütləvi şəkildə işdən çıxarılacağını, istehsal artığı yaranacağını və nəhayət, son mərhələdə inqilabın gerçəkləşəcəyini söyləyirdi. Günümüzdə bunların heç birinin gerçəkləşmədiyini gördük. Bizcə Marx əməyin keyfiyyətindəki dəyişikliyi düzgün proqnozlaşdıra bilməyib. Əmək artıq bir istehsal faktoru, dolayısı ilə sinif olmaqdan çıxıb. Çünki əmək yaşanan prosesdə yekcins və standart olmaqdan çıxaraq bilgi işçisi, idarəçi, bəşəri və sosial kapital, fiziki işçi kimi müxtəlif şəkillərə bürünüb. Bilgi işçisi, çalışma saatları qeyri-müəyyən, zehni istehsaldan istifadə edən olduqca keyfiyyətli bir əməyi ehtiva edir. İdarəçi, mövcud qurumlarda yerinə yetiriləcəkləri planlayan, təşkil və koordinasiya edən, əhəmiyyətli qərarlar alan üst səviyyəli işçidir. Sosial kapital isə, idarəetmə iyerarxiyasının nə qədər yastı və üfüqi olduğunu müəyyənləşdirir. Qurumun təşkilati quruluşunun üfüqi olması iyerarxiyanın aşağı olduğu mənasına gəlməkdədir. Bu da aşağıdakıların zəruri olduğu zaman üstdəkiləri atlayaraq bir üst quruma varması deməkdir. Sosial kapitalın inkişaf etmiş olması, çalışan şəxslərin səsvermə və özü ilə əlaqədar qərar alma prosesinə qatıla bilməsi, şəxsi təşəbbüsünü ortaya qoya bilməsi anlamına gəlməkdədir. Çalışanların belə bir bölgüyə getməsi sinif şüurunu ayaqda tutan sendikalizmi sahibkarlar qarşısında təsirsiz hala gətirməkdədir. Çünki fərqli keyfiyyətlərə sahib işçilərin ortaq maraq və hərəkət sahələri də azalır. Bu baxımdan gələcəyin siniflərinin bilgi isteh-

sal edənlərlə istehsal etməyənlər arasında şəkillənəcəyini söyləyə bilərik. Məsələn, ilk kateqoriyaya informasiya və kommunikasiya texnologiyaları sahələrindəki təşəbbüskarlarla daima özünü yeniləyən, nəzəri araşdırma və tətbiqi inkişaf fəaliyyətlərinə həsr edən, ömür boyu öyrənən işçilər daxil olacaqdır.

Artıq formal təhsilin çox da böyük əhəmiyyəti qalmayıb. Ömür boyu öyrənmə (learning by living) adlandırılan hadisə, qurum daxili (çalışaraq öyrənmə - learning by doing) və qurum xarici təhsili yayğınlaşdırmaqdadır. Yəni dörd illik təhsil prosesinin sonunda əldə edilən universitet diplomu iki il sonra heç bir şey ifadə etməməkdədir. Araşdırmalar 1960-1961-ci illəri əhatə edən iki il ərzində elmin əldə etdiyi yeni icadların o zamana qədər (yəni bizə məlum olan ən qədim tarixdən 1960-cı ilə qədər) əldə ediləndən iki qat daha artıq olduğunu ortaya qoyur. Buna sosial elmlərdə bilgi qatlaması deyilir. 1959-cu ildə universitetdən məzun olan bir şəxs iki il sonra dünyadan üç dəfə geri qalacaq. Eyni şəkildə, bir gündə istehsal edilən bilgini oxumaq 45 gün zaman almaqdadır. Bu fərqin daha sonra iş yerindəki qurum daxili təhsillə azaldılmasına çalışılır.

BMT-nin İnsan İnkişafı İndeksindəki təhsil səviyyəsi Azərbaycan kimi ölkələrdəki 11 illik formal təhsili nəzərdə tutmamaqdadır. Çünki az inkişaf etmiş ölkələrdəki təhsilli insan qeyri-məhsuldar, yəni bazarın axtardığı xüsusiyyətlərə sahib olmayan ümumi mədəniyyət məlumatlarına yiyələnmiş işçidir.

ABŞ və Meksika iqtisadiyyatlarındakı nominal əmək haqqı səviyyələri ilə bağlı aparılan geniş bir tədqiqat iki ölkə arasındakı əmək haqqı səviyyələrindəki fərqlərin 80 faizinin Meksikadakı işçilərin məhsuldarlığının aşağı olması (bilik və bacarıq səviyyəsinin aşağı olması) və real alıcılıq qabiliyyətlərindəki fərqliliklərdən ortaya çıxdığını göstərir. Azərbaycanda bu gün bir işçiyə hesablanmış orta aylıq əmək haqqının miqdarı 77 dollar kimi yoxsulluq həddinə yaxındır ki, bu da təqribən 950

dollara ekvivalent bir illik gəliri ifadə etməkdədir. İnkişaf etməkdə olan ölkələrdəki adambaşına düşən milli gəlir 5000 dolların üstündədir. Aradakı fərqin nə qədərinin Azərbaycandakı alıcılıq qabiliyyəti ilə açıqlanacağı vacib deyil. Amma reallıq budur ki, həmin fərqin böyük bölümü yerli işçimizlə dünya işçisi arasında ciddi məhsuldarlıq fərqinin mövcudluğundan ortaya çıxmaqdadır. Bu baxımdan Azərbaycanda ilk iş olaraq sürətlə fərdlərin bilik, bacarıq və qabiliyyətinə söykənən təhsil sisteminə keçməyin zamanı gəlib çatıb.

Son söz əvəzi: "XXI əsrin cahilləri oxuma-yazma bilməyənlər deyil, öyrənməyi öyrənməyənlər olacaq." (Alvin Toffler)

# Qloballaşma bir seçimdirmi?*

*Əkbər Eldaroğlu*

Qloballaşmaya tək bir tərifin verilməsi çətin olsa da, mütəxəssislər bunun "kapitalizmin yenidən qurulması ideologiyası" kimi ortaq bir tərifi üzərində birləşirlər. Hələ 1947-ci ildə Cenevrədə ticarətin sərbəstləşməsi istiqamətində başlayan müzakirələr, 1970-ci illərdə kapital hərəkətlərinin sərbəstləşməsini də gündəminə daxil etdi. Bu gün isə artıq dünya miqyasında istehsalın qloballaşma prosesi başlayıb.

"Microsoft"un qurucusu olan Bill Gatesdən əvvəlki və sonrakı dünya tamamilə fərqlidir. Hətta son vaxtlar mütəxəssislər tərəfindən 1985-ci ilin yeni miladi ili adlandırılmasına dair təkliflər də səslənir. Artıq bu günün dünyası bir-birindən coğrafi baxımdan nə qədər uzaq və kültür baxımından nə qədər fərqli olursa olsun, insanları eyni qlobal informasiya mənbələri ilə bağlı olan bir dünyadır.

Şübhəsiz ki, informasiyanın yayılma sürəti fərqli ola bilər. Ayrıca da avtoritar rejimlər buna müxtəlif maneələr və nəzarətlər gətirməyə təşəbbüs göstərə bilərlər. Lakin, buna cəhd etsələr belə, maneələr sonsuza qədər sürməyəcək və bu sədlər hər yerdə aşılacaq. Müxtəlif insan qrupları, hansı mədəniyyətə mənsub olursa olsunlar, indi başqa insan qruplarının necə yaşadığını, hansı növ malları satın aldığı, istehlakçı olaraq zövq və davranışlarının necə dəyişdiyi haqqında anında məlumat almaqdadırlar.

Həmçinin qloballaşma inkişaf etməkdə olan ölkələrdən də yan keçmir. Sadəcə 2.5 milyonluq bir əhalisi ilə heç bir təbii sərvətə malik olmayan Sinqapur qlobal iqtisadiyyatı dəvət etməsəydi indiki rifaha çata bilməzdi.

---

* *7 fevral 2004.*

Aqrar sektorun və fermerçiliyin olmamasına baxmayaraq, Sinqapurlular Yaponlardan çox daha ucuz və keyfiyyətli kənd təsərrüfatı məhsulları istehlak edirlər. Eyni şey Sinqapurda çox daha ucuz olan inşaat materialları üçün də keçərlidir. Ayrıca, əhalisi bizimlə haradasa eyni olan İrlandiya son on il ərzində ölkəyə 157 milyard dollar xarici kapital cəlb etməyi bacarıb ki, bu da ölkənin sürətli inkişafını təmin etmişdir.

İqtisadi sərhədlərin getdikcə ortadan qalxdığı bir dünyada, milli dövlətlərin iqtisadi həyata himayəçi (proteksionist) və keyfi müdaxilələri iqtisadi baxımdan bir məna kəsb etməkdədirmi? Bunun üçün dünyada 4 fərqli faktordakı dəyişmələri incələmək gərəkir:

Birincisi, inkişaf etmiş ölkələrin kapital bazarında investisiya üçün ifrat miqdarda kapital ehtiyatları mövcuddur. Məsələn, Yaponiya 10 trilyon dollarlıq bir kapital ehtiyatına malikdir. Əsas məsələ bu kapitalın olduğu ölkələrdə yetərincə investisiya fürsətinin olmamasıdır. Ona görə də bunu başqa ölkələrdə dəyərləndirmək üçün müxtəlif mexanizmlər ortaya atılır. Harada olursunuzsa olun, əgər cəlbedici fürsətləriniz varsa kapital sizə də göz atacaqdır.

İkincisi, sənayelərin on il öncəsi ilə müqayisədə daha da qlobal hala gəlməsidir. Bu gün Amerika və Avropa şirkətləri Çin və Hindistana öz gələcəklərini orada gördüklərinə görə getməkdədirlər. Hissələrinin 80 faizi idxala dayanan bir amerikan məhsulunun sadəcə bu ölkəyə mənsub olması da mübahisəlidir.

Üçüncüsü, inkişaf edən informasiya texnologiyası firmanın, hər ölkədə ayrı bir müəssisə qurmadan, dünyanın istənilən yerində işlərini yürüdə bilməsini təmin edir.

Dördüncüsü isə istehlakçıların zövq və davranışlarının da qlobal hala gəlməsidir. Milli hökumətlərin yerli malların satın alınmasıyla bağlı çağırışları da daha diqqətə alınmır və isteh-

lakçılar getdikcə haradan gəlirsə gəlsin daha keyfiyyətli, eyni zamanda ucuz mal və xidmət tələb edirlər.

İndi demək olar ki, çağa gedən tək yol var. Bu da müasir çağın tələblərinə uyğun, dünyadakı dəyişməyə açıq olmaq və ondan faydalanmaqdır. Bir ölkə nə qədər özgürləşərsə bir o qədər də zənginləşər, nə qədər zənginləşərsə bir o qədər də demokratikləşər. Beləliklə də dünya özgürləşir, zənginləşir, demokratikləşir və bütövləşir. Hətta, məhsuldarlığı artırmaq üçün dünya həbsxanaların özəlləşməsinə də start verib. Artıq demək olar ki, həbsxana şirkətləri Amerikada ən rentabelli şirkətlər sırasındadır.

# Qloballaşma və Azərbaycan*

*Natiq Sabiroğlu*

Bir vaxtlar məşhur Şotlandiyalı iqtisadçı Adam Smithin söylədiyi "Laisses faire, laisses passer" (imkan verin etsinlər, imkan verin keçsinlər) zəmanəmizdə özəlləşdirmə və liberallaşma fenomenlərini təmsil edir. Bu iki fenomen birlikdə ələ alındıqda qloballaşmanın nəhəng boyutu daha yaxşı başa düşülür. Qloballaşma özünü əsasən üç sahədə göstərir: iqtisadi, siyasi və mədəni.

Qloballaşmanın siyasi boyutu beynəlxalq siyasi və iqtisadi birlik formasiyalarıdır. Bu prosesdə, başda qərar almaq olmaq üzrə, bəzi təməl milli hegemonluqlar Beynəlxalq Amnistiya Təşkilatı, Beynəlxalq Şəffaflıq Təşkilatı, Avropa İnsan Haqları Məhkəməsi, İnsan Haqları İzləmə Komitəsi və s. kimi transmilli, Avropa Birliyi, NAFTA, BMT kimi beynəlxalq qurumlara transfer edilməkdədir. Yəni iqtisadi, siyasi, sosial, mədəni və s. sahələrdə səlahiyyətlər əlaqədar qurumların məsuliyyətinə buraxılmaqdadır. Bu proses daha çox məşhur futurist Peter Drackerin "lokallaşma, regionallaşma və qloballaşma" mərhələlərini keçərək meydana gəlir.

Qloballaşmanın mədəni boyutu universal ictimai normaların lokallaşmasıdır. Yəni, liberal-demokratik dəyərlər artıq millətlərin rutin praktikaları halına gəlməkdədir.

Qloballaşmanın üçüncü və bizcə ən önəmli boyutu iqtisadi sahədə özünü göstərməkdədir. Bu boyutun qlobal arenadakı aktyorları beynəlxalq (çoxmillətli-international) və transmilli (millətüstü-transnational) firmalardır. İqtisadi boyut üç mərhəlelidir:

---

* *20 fevral 2004.*

- Mal və xidmətlərin sərbəst hərəkəti (beynəlxalq ticarətin sərbəstləşdirilməsi);
- Sərmayə hərəkətlərinin derequlyasiyası;
- Əməyin sərbəst hərəkəti (mobilitəsi).

Qloballaşmanın milli dövlətlər üzərindəki təsirini araşdırmaq üçün üç ölçüdən istifadə edilir: Ölkənin xaricə açılma nisbəti (ixracat + idxalat/ÜDM), xarici risklərə məruz qalma meyli (xarici ticarət səviyyələrinin qeyri-müəyyənlik səviyyəsi, yəni alqı-satqısı gerçəkləşdirilən malların miqdar və qiymətlərindəki qeyri-müəyyənlik) və dövlət xərcləri (sosial təminat xərcləri və cari dövlət xərcləri). ABŞ-ın Harvard Universitetinin iqtisadçı professoru Dani Rodrik "Qloballaşma Sərhədi Aşdımı?" (Has Qlobalization Gone Too Far?) adlı kitabındakı ampirik araşdırmaları nəticəsində xarici risk nəzarət altına alınmadan xaricə açılma nisbəti artarsa dövlətin iqtisadiyyatdakı çəkisinin də artacağını müşahidə etmişdir.

Yuxarıdakı məlumatlar işığında Azərbaycanı dəyərləndirməkdə fayda var.

Azərbaycanın ÜDM-si 7,17 milyard dollardır (2003-cü il). 2003-cü ilin yanvar-noyabr aylarında ixracatın həcmi 2,163 milyard dollar, idxalat isə 2,316 milyard dollar olmuşdur. Buna görə, ölkənin xaricə açılma nisbəti 62,5 faizdir. Göründüyü kimi, son on bir ayın xarici ticarət rəqəmləri ölkənin xaricə açılma nisbətinin kifayət qədər yüksək olduğunu göstərməkdədir. Xatırladaq ki, buraya xarici investisiyalar toplamı (birbaşa və dolaylı) daxil deyildir. Qeyd edək ki, xaricə açılma nisbətini müəyyənləşdirən başqa bir amil də, xarici ticarət əməliyyatlarını reallaşdırmadakı asanlıq dərəcəsidir. Azərbaycanda isə, neft sektoru xaric bu olduqca çətin və qalmaqallı prosedurlara tabedir.

Dövlətin iqtisadiyyatdakı çəkisi 30 faizdir. Bu rəqəm, kiçik görünsə də, bizcə dövlətin iqtisadiyyatdakı ağırlığını müəy-

yənləşdirən əsas amil iqtisadi qərarlarda onun üzərinə götürmüş olduğu təyinedici (imperativ) roldur. Bu gün Azərbaycanda əsas iqtisadi qərarlar sərbəst bazarda deyil, dövlət nəzdində alınmaqdadır.

İxracatın 85 faizi xam neft və neft məhsullarının payına düşməkdədir. İdxalatın da böyük hissəsini neft avadanlıqları təşkil edir. İxracatda ən çox pay İtaliyaya (52 faiz) düşməkdədir. İdxalatda isə ən çox pay 14,82 faizlə Rusiyaya məxsusdur. Göründüyü kimi, ixracatımız həm məhsul, həm də ölkə bazında ifrat şəkildə xarici konyukturadan asılıdır. 120 ölkə ilə ticarət əməliyyatları apardığımız halda, ixracatımızın yarısından çoxu bir ölkəyə aiddir. Qısacası, xarici risk olduqca yüksəkdir ki, bu da xarici ticarət səviyyələrinin qeyri-müəyyən olduğu mənasına gəlməkdədir. Xarici bazarlarda neftin qiymətindəki ani düşmə ölkədə ciddi durğunluq yarada bilər. Hətta həmin proses bir neçə il davam edərsə ölkədə sözün həqiqi mənasında iqtisadi böhran baş verə bilər.

Əslində toplam idxalatımızın tərkibində neft və əlaqəli məhsulların çəkisi yüksək olmaqla yanaşı, ölkə müxtəlifliyi də aşağı səviyyədədir. Ayrıca, bu gəlirlər ixracat yönümlü sektorlara yönləndirilmədiyi kimi, daxili tələbatın artırılmasına da sərf edilməməkdədir və ya edilməsi BVF kimi beynəlxalq təşkilatlar tərəfindən əngəllənməkdədir. Yəni, ölkə Holland deyil, Banqladeş sindromu ilə qarşı-qarşıyadır. Xarici ticarət quruluşumuz dəyişdirilmədiyi müddətcə xarici risk nisbəti də yüksək qalmaya davam edəcəyinə görə, Azərbaycanın daha çox xaricə açılması demək, neftin toplam xarici ticarət içindəki payının daha da artması, dövlət sektorunun daha da böyüməsi mənasına gələcəkdir. Bu da daha müdaxiləçi dövlət, özəl təşəbbüsün zəif olduğu özəl sektor deməkdir. Unutmayaq ki, özəl sektorun toplam ÜDM içindəki payı 70 faiz olsa da, bunların istehsal etdiyi bir çox məhsulun ən böyük alıcısı (monopson) qismində çıxış edən dövlətdir.

Əgər həqiqətən özəl sektoru, dolayısilə sahibkarlığın inkişafını istəyiriksə, xarici ticarətimizdəki (daha çox ixracatımızdakı) qeyri-neft gəlirlərinin payını artıraraq xaricə daha çox açılmalıyıq. Bunun üçün ixracatda mal və xidmət müxtəlifliyinə gedilməli və özəl sektor ixracata təşviq edilməlidir. Beləliklə, qlobal iqtisadi inteqrasiya sayəsində dünya vətəndaşı olmaqla birlikdə, dövlət də ortalama hər 7 nəfərdən birini sosial partlayış olmasın deyə dövlət sektorunda çalışdırmaqdan və xaricə yüz minlərlə işçi ixrac etməkdən qurtulacaq. Dövlət sektorunun kiçilməsi isə, özəl həyatımızın daha yaşanılacaq hala gəlməsi, daha çox sərbəstlik deməkdir. Ayrıca, adambaşına düşən milli gəlirimizin 879 dollardan (2003-cü il) daha yüksək olması deməkdir. Xarici ticarətimiz içərisində neftə olan asılılığımızı azaltmadıqca (xarici ticarət səviyyəmizdəki qeyri-müəyyənliyi azaltmadığımız müddətcə), məhsul və ölkə bazında çeşidləndirməyə getmədikcə xarici riski kontrol edə bilməyəcəyimiz kimi, dünyanın axtardığı xüsusiyyətlərə sahib yaradıcı işçidən də məhrum olacağıq. Çünki, dünya qloballaşdıqca, xarici kapital ölkələrin sahib olduğu müqayisəli üstünlükləri daha yaxşı dəyərləndirməkdədir. Əgər keyfiyyətli, yüksək texnologiyalı xarici kapitalı ölkəyə dəvət etmək istəyiriksə, yeraltı sərvətlərimizdən daha dəyərli sərvətimiz olan insanımıza investisiya qoymalıyıq.

# Beynəlxalq Valyuta Fondu tənqid hədəfidir*

*İlkin Sabiroğlu*

Son illərdə dünya Beynəlxalq Valyuta Fondu (BVF-IMF) və Dünya Bankının fəaliyyətinə yönəlik tənqidlər güclənməkdədir. Xüsusilə Amerikada bu təşkilatlara soyuq münasibət bəsləyən cümhuriyyətçilərin iqtidara gəlməsi ilə birlikdə tənqidlərin dozası da yüksəlmiş oldu. Bu yaxınlarda ABŞ Konqresinin Ortaq İqtisad Komitəsində təşkil olunan toplantıda da, BVF və Dünya Bankının fəaliyyətləri ciddi tənqid hədəfi oldu.

Ümumiyyətlə bu vaxta qədər BVF-yə yönəldilən tənqidləri üç əsas başlıq altında cəmləşdirmək mümkündür:

- Birincisi, kredit ala bilmək üçün üzv ölkələr BVF-nin irəli sürdüyü şərtləri yerinə yetirməlidirlər. Həmin şərtlərin üzv ölkələrin problemlərinə bir mənada müdaxilə xüsusiyyəti daşıması, bu ölkələrdə hər zaman ciddi mübahisələr predmeti olmuşdur.

- İkincisi, BVF bir çox ölkələrin problemlərinin oxşarlığından çıxış edərək standart təkliflər irəli sürür. Lakin problemlər nə qədər bir-birinə bənzəsə də yerli şərtləri nəzərə almadan həyata keçirilən proqramlarla ciddi nəticələr əldə etmək mümkün deyil. Argentina başda olmaqla Latın Amerikası ölkələrində və Türkiyədə tətbiq olunan proqramlar buna sübut kimi göstərilir.

- Üçüncüsü, BVF bu gün də beynəlxalq pul sisteminin tənzimlənməsindən səlahiyyətli olan əsas təşkilat xüsusiyyətini daşımaqdadır və beynəlxalq pul münasibətlərinin sistemli və uyum içərisində inkişafını nəzarət altında saxlamaq onun əsas

* *5 aprel 2001.*

vəzifələrindən biridir. Ona görə də bir böhran ortaya çıxdığı zaman ilk tənqid hədəfi BVF olur.

Lakin diqqət edilərsə, ikinci və üçüncü problemin ortaya çıxmasının əsas səbəbi də əslində birinci problemdir. Yəni BVF yerli xüsusiyyətləri nəzərə alaraq (korrupsiya kimi) daha tələbkar davrandığı zaman həmin ölkələr təşkilatı problemlərinə həddindən artıq müdaxilə etməkdə günahlandırırlar.

Məsələn, hələ 1995-ci ildə BVF-nin Azərbaycan hökuməti ilə birgə hazırlamış olduğu birinci proqramda struktur reformlarının həyata keçirilməsi, daha sonra hazırlanan ikinci proqramda korrupsiyaya qarşı mübarizənin aparılması qərarlaşdırılmışdır. Məgər BVF, deyilən sahələrdə ciddi bir nəticə hasil olmadan Azərbaycanda iqtisadi inkişafa nail olmanın mümkünsüz olduğunu bilməyirmi? Və ya Türkiyədə illərlə üst-üstə yığılan və bu gün on milyard dollarlarla ölçülən, bankların "vəzifə zərəri" (görev zararı) adlandırdıqları problemin bir gün partlayacağını bilməyirdimi? Lakin məsələlərlə bu qədər dərindən maraqlanmaq daxili problemlərə müdaxilə sayılır, baxmayaraq ki, son nəticədə tənqid hədəfi BVF olur.

Qısacası, BVF-nin üzərində böyük məsuliyyət var. Lakin, Fondun prinsiplərinə əməl etməmənin heç bir hüquqi məsuliyyəti olmasa da, bu təşkilatın təkliflərinin də böyük bir çəkisi var. Bu quruluşdan və ya Dünya Bankı kimi digər rəsmi quruluşlardan, ya da özəl finans təşkilatlarından kredit əldə etmək istəyən ölkələrin BVF ilə olan münasibətlərini yaxşı yöndən inkişaf etdirməyə diqqət etmələri lazımdır. Azərbaycanda iki pilləli bank sistemi mövcud olduğu kimi (birinci pillədə özəl kommersiya bankları, ikinci pillədə Milli Bank), yeni dünya sistemində də bu beynəlxalq rəsmi finans quruluşları ən üst üçüncü pilləni əmələ gətirir.

Eyni zamanda fond, üzv ölkələrlə dövrü formada həyata keçirdiyi iki tərəfli görüş toplantıları vasitəsilə nəzarət funksi-

yasını yerinə yetirə bilir. Bunlara dördüncü maddə "məsləhətləşmə toplantıları" da deyilir. Bu zaman bir BVF mütəxəssislər qrupu əlaqədar ölkəni ziyarət edir, toplantılar vaxtı üzv ölkə, makroiqtisadi siyasətlər və proseslər haqqında məlumat verir. Beləliklə, bəhs edilən görüşlər Fonda, üzv ölkənin iqtisadi inkişafını və tətbiq olunan siyasətləri təhlil etmək, tədiyyə balansını nəzərdən keçirmək və bu tədbirlərin digər üzvlərin valyuta kursları və xarici balansları üzərindəki təsirlərini analiz etməyə imkan verir.

Lakin BVF öz çəkisindən və imkanlarından səmərəli istifadə edə bilərmi?

Bəzi iqtisadçılar BVF-nin stabillik proqramlarının və Dünya Bankı kreditlərinin çox geniş səviyyədə məhdudlaşdırılmasının tərəfdarıdırlar. Belə ki, bir böhran ortaya çıxdığı zaman BVF-nin müraciət edilə biləcək ən sonuncu kredit mənbəyi olmasını istəyirlər. Üzv ölkələrin bir böhranla qarşılaşdıqları təqdirdə BVF-nin, milyardlarca dollarlıq çarə proqramlarındansa, böhranların önlənməsi üçün daha çox çalışmasını təklif edirlər. Yəni işini səmərəliləşdirməsinin tərəfdarıdırlar. Eyni zamanda BVF-nin yoxsulluğa qarşı mübarizəni Dünya Bankına dövr edərək, kiçik həcmli iqtisadi proqramlara daha yüksək nisbətdə faiz tətbiq etməsinin məqsədə uyğun olacağını düşünürlər.

# Beynəlxalq Valyuta Fonduna qulaq asmağa dəyərmi?*

*Bəhruz Məmmədli*

Bu yaxınlarda Beynəlxalq Valyuta Fondunun (BVF) Yaxın Şərq və Orta Asiya Ölkələri Departamentinin Azərbaycan üzrə missiyası 30 noyabr - 15 dekabr tarixindəki Azərbaycan səfəri ilə bağlı məqamları açıqladı. Bu məqamlar əsasında 2006-cı ilin mart ayında İcraçı Şurada müzakirə edilmək üçün hesabat hazırlanacaq. Missiya Azərbaycan iqtisadiyyatının qısa və orta müddətdə qarşılaşa biləcəyi problemlərlə əlaqədar hökumət rəsmiləri ilə fikir mübadiləsi aparıb.

Missiyanın fikrincə, qısa müddətdə Azərbaycanda ümumi daxili məhsulun (ÜDM) real artımı müsbət perspektiv göstərsə də, inflyasiya təzyiqləri meydana gələ bilər. Bunun qarşısını almaq üçün hökumətin valyuta məzənnəsinin daha elastik olmasına şərait yaratmaq, qiymətli kağızlar bazarını inkişaf etdirmək və pul siyasətində inflyasiya hədəflərinin tutdurulmasına daha çox yer vermək niyyəti missiya tərəfindən təqdir edilib. Bununla bərabər, makroiqtisadi stabillik və xərclərin daha yaxşı aparılması üçün hökumətə 2006-cı ilin büdcəsini daha ehtiyatlı həyata keçirməsi tövsiyə edilib. Bu kontekstdə missiya prezidentin 2004-cü ildə təsdiq etdiyi neft gəlirlərinin idarə edilməsi üzrə uzunmüddətli strategiyasının gələcəkdə də əldə rəhbər tutulmasının vacibliyini vurğulayıb.

Qeyd edək ki, prinsip olaraq BVF tam elastik valyuta məzənnəsi sisteminin tərəfdarıdır. Lakin yaxın gələcəkdə Azərbaycana böyük neft gəlirlərinin daxil olması gözlənildiyindən elastik valyuta məzənnəsi siyasəti ilə milli valyutanın dəyər-

---

* *29 dekabr 2005.*

lənməsinə imkan vermək ortamüddətli perspektivdə Holland sindromu baxımından da məqsədəuyğun deyil. Ona görə də məhz qısamüddətli perspektivdə inflyasiya təzyiqini önləmək üçün elastik valyuta məzənnəsi siyasətinin həyata keçirilməsi məqsədəuyğundur. Azərbaycan yalnız ixrac potensialı olan qeyri-neft sektorunu inkişaf etdirdikdən sonra daha elastik valyuta məzənnəsi sistemini mənimsəyə bilər.

Missiya eyni zamanda qeyri-neft sahəsində inkişafın təmin edilməsi üçün struktur islahatların sürətləndirilməsini tövsiyə edib. Struktur islahatları bunlardan ibarətdir:

- Dövlət mülkiyyətində olan iki bankın özəlləşdirilməsi də daxil olmaqla bank sisteminin gücləndirilməsi;
- Dövlət müəssisələrində korporativ idarəetmənin təkmilləşdirilməsi;
- Enerji sektoruna subsidiyaların tədricən ünvanlı sosial yardımla əvəz edilməsi;
- Yeni investisiya və antiinhisar qanunlarını vaxtında qəbul edərək biznes mühitinin yaxşılaşdırılması;
- Dünya Ticarət Təşkilatına üzvlüklə əlaqədar danışıqların davam etdirilməsi və gömrüklərdə idarəetmənin daha da yaxşılaşdırılması;
- Antikorrupsiya qanunvericiliyinin tətbiqi, Hesablama Palatasının (yüksək audit qurumu) gücləndirilməsi və çirkli pulların yuyulması ilə mübarizəyə dair qanunvericiliyin qəbul edilməsi.

Ümumiyyətlə, BVF-nin tövsiyələrini dinləməyə dəyərmi? BVF-nin əməkdaşlıq etdiyi bir çox ölkədə ortaya çıxan sıxıntılı hallar bəzilərinin BVF tövsiyələrinə şübhə ilə yanaşmasına səbəb olmuşdur. Halbuki BFV ilə əməkdaşlıq ölkələrin öz istəklərinə bağlıdır. Yəni iqtisadiyyatlarını yaxşı idarə edə bilməyən ölkələr fonda müraciət edirlər. BVF isə öz şərtlərini onların önünə qoyur.

BVF bir xeyriyyəçilər birliyi olaraq başa düşülməməlidir. Ehtiyacı olan ölkələrə daha ucuz vəsait təmin etmiş olsa da, bu kömək bəzi şərtlərin yerinə yetirilməsinə bağlıdır və borc alan bu borcu geri ödəməyə məcburdur. Azərbaycanınsa BVF ilə ciddi borc problemi olmadığından fond Azərbaycana "şərtlərini" yox, məhz "tövsiyələrini" təqdim edir. Bu tövsiyələri isə doğrudan da dinləməyə dəyər.

Yeri gəlmişkən, bir neçə gün əvvəl "tarixi an" olaraq dəyərləndirilən bir hadisə baş verdi. BVF-nin idarəçi direktoru Rodriqo de Rato Çoxtərəfli Borc Yardımı Təşəbbüsü çərçivəsində 19 ölkənin borcunun silinəcəyini açıqladı. Bu qərar BVF-nin 2005-ci ilin iyun ayındakı zirvə toplantısında razılığa gəlmiş 8 "böyüklərin" (G8) təşəbbüsü ilə qəbul olunmuşdu. Bağışlanacaq borcun miqdarı 3,3 milyard dollardır. Borcu bağışlanacaq 19 ölkə bunlardır: Benin, Boliviya, Burkino Faso, Kamboca, Efiopiya, Qana, Qayana, Honduras, Madaqaskar, Mali, Mozambik, Nikaraqua, Nigeriya, Ruanda, Seneqal, Tacikistan, Tanzaniya, Uqanda və Zambiya.

Mavritaniyanın borcunun silinməsi ilə əlaqədar qərarın isə ölkə rəhbərliyinin sosial xərclərə yenidən baxmasından sonra veriləcəyi bildirildi. Borclar yoxsulluqla mübarizəyə dair xüsusi fondu maliyyələşdirən digər ölkələrin də razılığı alındıqdan sonra silinəcək. Beləliklə, bu ölkələr yoxsulluğun azaldılması, inkişafın sürətləndirilməsi və Minilliyin İnkişaf Hədəflərinin əldə edilməsi yolunda daha çox vəsait ayırma imkanına sahib olacaqlar.

19 ölkə və sonradan daha bir neçə ölkənin borclarının silinəcəyi, kim nə deyirsə desin, BVF tərəfindən bir xoş niyyət nümayişidir. BVF-nin təklif etdiyi maliyyə və iqtisadi siyasətlərin Azərbaycan kontekstində ələ alındığında doğru olduğunu söyləyə bilərik. BVF deməsə belə, biz nəyin Azərbaycan üçün daha doğru olduğunu bilirik. Ancaq BVF ilə əməkdaşlıq etməyimiz bizə zaman qazandırmaq baxımından əhəmiyyətli-

dir. Bizim əsas problemimiz zəruri olan maliyyə və iqtisadi siyasətləri doğru bir şəkildə icra edib-etməməyimizlə əlaqədardır.

# İslam ölkələri niyə geri qalır?*

*Bəhruz Məmmədli*

Türkiyənin Müstəqil Sənayeçi və İş Adamları Dərnəyinin (MÜSİAD) ev sahibliyində 8-ci Beynəlxalq İş Forumunda iştirak etmək üçün İstanbula gələn Malayziyanın sabiq Baş Naziri Mahathir Muhammed Forumun açılış toplantısında çıxış etdi. Bilindiyi kimi, Asiya Böhranından sonra Mahathir Muhammed Beynəlxalq Valyuta Fondunun (BVF) irəli sürdüyü reseptləri qəbul etməyərək Malayziyanı böhrandan öz iqtisadi siyasəti ilə çıxarmağa müvəffəq olmuş və beləliklə BVF-ni tənqid edənlərin tez-tez nümunə göstərdiyi bir şəxsə çevrilmişdir.

Mahathir Muhammed çıxışında İslam ölkələrini həmrəyliyə çağıran mesajlar verdi. İslam ölkələri arasındakı bərabərsizliyin bütün dünyadakı bərabərsizlikdən daha çox olduğunu söylədi. Muhammedin fikrincə: "İslam dünyasında kiçik bir azlığın lüks içərisində yaşadığı halda əhalinin böyük qisminin səfalət içərisində yaşamasının günahını Qərb ölkələrində deyil özümüzdə axtarmalıyıq".

Dünyadakı regional iqtisadi bloklara toxunan Muhammed, müsəlman ölkələr arasında da belə bir ticarət blokunun yaradılmasının mümkün olduğunu irəli sürdü. Belə ki, Qərb ölkələri bütün dünyanı sərbəst ticarətin sərhədləri içinə salmaq istəyirlər. Müsəlman ölkələr paranoyaya qapılmadan diqqətli bir şəkildə Dünya Ticarət Təşkilatı kanalı ilə beynəlxalq ticarət qaydalarının yaradılmasında iştirak etməlidirlər. Bir-birlərini Avropa Birliyi və ya NAFTA kimi iqtisadi blok olaraq görməli və bir-birlərinə öncəlik tanımalıdırlar. Malayziyanın ABŞ-la geniş ticarət əlaqələrinin olduğunu bildirən sabiq baş nazir

* *21 sentyabr 2004.*

əsas ticarət ortaqları ilə olan əlaqələri zəiflətmək istəmədiklərini ancaq digər müsəlman ölkələri ilə əməkdaşlığı inkişaf etdirmək istədiklərini qeyd etdi.

Sədəqə vermək mövzusuna toxunan Mahathir Muhammed sədəqə verənin zaman keçdikcə buna alışdığını və investisiya qoymadığını deyir. İslam ölkələri investisiyalarını müsəlman ölkələrə qoymaqla bu ölkələrdəki insanların vəziyyətini yaxşılaşdıra bilərlər.

Başqa bir nüans İslamda məqbul görülməyən faiz gəliri ilə əlaqədardır. Sabiq baş nazir müsəlman sərmayənin əslində Qərb maliyyə sistemində faiz gəliri əldə etdiyini və oradakı insanların rifahının yüksəldilməsinə səbəb olduğunu irəli sürür. Halbuki bu sərmayə müsəlman ölkələrinə yönəldilərək həm müsəlman əhalinin vəziyyəti yaxşılaşdırıla bilər həm də xaricə beyin köçünün qarşısı alına bilər. Eyni qayda ilə R&D (innovasiya) fəaliyyətlərinə çəkiləcək xərclər də qarşılana bilər ki, bildiyimiz kimi bu da texnoloji yenilik və innovasiya baxımından çox əhəmiyyətlidir. Bütün bunların həyata keçməsi isə ölkə rəhbərlərinin niyyət və səriştələri ilə bilavasitə əlaqəlidir.

Beyin köçündən də bəhs edən Muhammed, müsəlman alimlərinin çoxunun xarici ölkələrdə yaşadığını və öz vətənlərində bunlar üçün şərait olmadığını qeyd edir. Müsəlman ölkələri öz alimlərinin çalışmalarının nəticəsi olan əmtəələri xarici ölkələrə böyük miqdarlarda pul ödəyərək alırlar. Fikri mülkiyyət haqlarını irəli sürən Qərb ölkələri müsəlman ölkələrdə maliyyə yükünü çoxaltmağa çalışırlar. ABŞ və Böyük Britaniya bu ölkələrdə rejim dəyişdirmə haqqına sahib olduqlarını fikirləşirlər. Əslində isə bu ölkələrə beyin köçündən dolayı şərəfiyə* ödəməlidirlər.

---

* Şərəfiyə - ərəbcə bir ifadədir. İngilis dilindəki qarşılığı local improvement tax olan şərəfiyə, bələdiyyələrin yerinə yetirdikləri infrastruktur xidmətlərindən dolayı, daşınmaz mallarının dəyəri artan şəxslərdən bələdiyyə (dövlət)

İslam ölkələri R&D fəaliyyətlərinə əhəmiyyət verməlidirlər. Lazımi sərmayə qoyulmalı və Qərb ölkələrinə gedən alimlər vətənlərinə qazandırılmalıdır. Müsəlman əxlaqını yerinə yetirməli olan müsəlman iş adamları sadəcə müsəlmanlarla deyil, hamıyla iş görməlidirlər. Amma bərabər şərtlər qarşısında müsəlmanlara üstünlük verməlidirlər.

Çıxışının sonunda qədim bir Çin atalar sözü olan "Min millik bir yol bir addımla başlayar" sözünü xatırladaraq, "biz də bu yola çıxmalıyıq, o addımı atmalıyıq" deyir.

Muhammed, Asiya Böhranından sonra həyata keçirdikləri iqtisadi siyasətin hər ölkə üçün eyni olmadığına diqqət çəkir. Ölkəsinin böhran dövründəki vəziyyətini 2001-ci il sonrası Türkiyə ilə müqayisə edən sabiq baş nazir o dönəmdə Malayziyanın xarici borcunun Türkiyəyə görə çox aşağı, üstəlik yığım nisbətlərinin ÜDM-nin 40 faizi qədər olduğunu xatırladaraq bu nisbətlərin Türkiyədə daha aşağı olduğuna diqqət çəkir və dolayısı ilə Türkiyədə həyata keçiriləcək tədbirlərin Malayziyadakından fərqli olacağını söyləyir. Türkiyənin baş naziri olsaydı BVF ilə əlaqədar necə bir siyasət aparacağı sualına isə Türkiyə ilə əlaqədar statistik məlumatları görmədən danışmanın doğru olmayacağını vurğulayaraq belə deyir: "Mən prinsip olaraq BVF-dən hər zaman uzaq durmağa çalışıram".

Asiya Böhranından sonra çətin vəziyyətdən çıxmaq üçün BVF-nin siyasətinə qarşı çıxaraq öz iqtisadi siyasətini həyata keçirən bir ölkə olaraq Malayziya, iqtisadçılar üçün maraqlı bir nümunə təşkil etməkdədir. Xüsusilə, Joseph E.Stiglitz "Qloballaşma və Onun Doğurduğu Narazılıqlar" adlı kitabında Malayziyanın davranışlarını çox tərifləməkdədir. Əvvəlcə

---

tərəfindən məcburi şəkildə alınan bir vergi növüdür. Mahathir Muhammed beyin köçünün qərb ölkələrində zənginlik və əlavə dəyər yaratdığı üçün bu ölkələrin İslam ölkələrinə əvəzini maddi olaraq ödəməli olduqlarını nəzərdə tutur.

də qeyd etdiyimiz kimi Malayziyanın bu siyasəti həyata keçirməsi dönəmin baş naziri olan Mahathir Muhammedin adı ilə bağlıdır. Biz Muhammedin bütün dedikləri ilə razılaşmırıq. Lakin, Mahathirin çıxışında hər şeydən öncə diqqət çəkən və bizim də razılaşdığımız nüans ondan ibarətdir ki, BVF reseptlərinə qarşı çıxan sabiq baş nazir müsəlman ölkələrindəki səfalətin səbəbkarı və günahkarının, Stiglitzdən fərqli olaraq, yenə də məhz müsəlman ölkələrinin özləri olduğunu qeyd etməkdədir. Məsələyə bu tərəfdən baxıldığında BVF reseptlərinin altında gizlənən ölkə rəhbər və bürokratiyasının üzərindəki pərdə qalxmış olur. Nəinki müsəlman ölkələri, demək olar ki, bütün inkişaf etməmiş və ya inkişaf etməkdə olan ölkələrdə ölkə rəhbərliyi yoxsulluq qarşısında BVF reseptlərinin müvəffəqiyyətsizliyindən bəhs edərək BVF-nin günahkar olduğunu, lokal şərtləri diqqətə almadığını iddia edirlər. Sabiq baş nazirin dediklərindən belə bir nəticə çıxartmaq mümkündür ki, ölkədəki geri qamışlığın səbəbi bilavasitə ölkəni idarə edənlərin qusur və səriştəsizliyi ilə əlaqədardır.

Sabiq baş nazir Qərbin təzyiqini dərk edir və bununla mübarizənin yolunun da onlarla olan münasibətləri axsatmadan ancaq müsəlman ölkələrinin bir-birləri ilə əməkdaşlıqlarının inkişaf etdirilməsindən keçdiyini söyləyir.

Forumun açılış toplantısında dünyada ən böyük 1000 müəssisə sıralamasında İslam ölkələrindən cəmi altı firmanın yer aldığı, İslam Konferansı Təşkilatı üzvü 57 ölkənin ixracatının dünya ixracatı içərisindəki payının sadəcə 8 faiz olduğu vurğulandı. MÜSİAD Başqanı İslam dünyasındakı sıxıntıların əsas qaynağının siyasi və iqtisadi durğunluq, islahatları həyata keçirə bilməmək və texnoloji geriləmə olduğunu irəli sürərək vəziyyətdən çıxış yolunun bir mədəniyyət proyektinin və iddiasının olması və onun gerçəkləşdirilə bilinməsində yatdığını söylədi.

Məqaləni toplantıda səslənən bir fikirlə yekunlaşdırmaq istəyirik: "Bizlər ehtiyatlar baxımından yoxsul deyilik. Bizlər birlikdəlik, aksiya, fikri müxtəliflik və doğru istiqamət baxımından yoxsuluq".

# Asiya Böhranı və BVF*

*Vüqar Səlimov*

Bu məqalə, Bəhruz Məmmədlinin 21 Sentyabr 2004 tarixli məqaləsindən sonra "IqtisadNet" oxuyucularının arzusu üzərinə mövzuya bir az aydınlıq gətirmək məqsədilə yazılıb. Məqalədə xüsusilə Malayziyanın iqtisadi böhrandan necə çıxdığı mövzusu ələ alınacaqdır.

Bildiyimiz kimi, Uzaq-Şərqdəki Asiya ölkələri 1997-ci ilin ortalarında böyük bir maliyyə böhranı ilə qarşı-qarşıya qaldılar. Bu böhranın təfərrüatına girmədən, bəzi önəmli xüsusiyyətlərini vurğulamaq istəyirəm:

i) böhranı demək olar ki, heç kim qabaqcadan təxmin etməmişdi;

ii) böhran iqtisad elmində bir "sıçramaya" səbəb oldu. Belə ki, Asiya böhranından sonra iqtisadçılar yeni iqtisadi böhran modelləri (üçüncü nəsil modellər) qurmağa başladılar;

iii) böhran Beynəlxalq Valyuta Fondunun (BVF) tarixində önəmli yerə sahibdir, çünki bu böhran BVF ilə əlaqədar fikirlərdə böyük dəyişmələrə yol açdı. Bundan başqa, böhrandan sonrakı illərdə BVF demək olar ki, quruluşundan bəri tətbiq etdiyi siyasət modelini təshih etməyə məcbur oldu.

Böhrandan sonra üç ölkə, Tailand, İndoneziya və Koreya, BVF ilə müqavilə (stand-by proqramları) bağlamağa qərar verdi. Ancaq aradan bir neçə ay keçmədən müqavilələr islah edilərək yenidən imzalandı. BVF-nin bu müqavilələrdəki məqsədlərini aşağıdakı kimi cəmləyə bilərik:

- xarici öhdəliklərin yerinə yetirilməsini təmin etmək;
- milli valyutaların qiymətdən düşməsini məhdudlaşdırmaq;

---

* *12 fevral 2005.*

- maliyyə balansını bərpa etmək;
- inflyasiyanın yüksəlməsinə hədd qoymaq;
- xarici valyuta ehtiyatlarını bərpa etmək;
- bank sektorunda islahat aparmaq;
- real sektorda islahat aparmaq;
- marketlərdə hökumətlərə olan etibarı bərpa etmək;
- istehsalatdakı azalmanı məhdudlaşdırmaq.

Bu məqsədlərə çatmaq üçün dörd-bəndli bir plan nəzərdə tutulmuşdu:

1) BVF-dən və digər beynəlxalq quruluşlardan alınan fondlarla xarici öhdəlikləri ödəmək. Məqsəd, cari əməliyyatlar balansının qaydaya salınması prosesini yüngülləşdirmək və marketlərdə etibarı təmin eləyərək kapital çıxışını azaltmaqdı.

2) Faiz səviyyələrini yüksəldərək pul siyasətini məhdudlaşdırmaq. Məqsəd, milli valyutanın qiymətdən düşməyini dayandırmaqdı.

3) Eyni məqsədlə maliyyə siyasəti sahəsində də məhdudlaşdırmanı təmin eləmək.

4) Maliyyə və real sektorlarda struktur islahatları (məsələn, müflis bankların fəaliyyətlərini dayandırmaq, maliyyə sistemində kapital kafilik nisbətlərini tətbiq eləməyə başlamaq, sektorları xarici investisiyalara açmaq və monopolist gücləri zəiflətmək) aparmaq.

Proqramlar həyata keçirilərkən ilk əvvəl müvəffəqiyyət əldə etmək mümkün olmadı. Xüsusilə də marketlərdə etibar təmin edilə bilmədi. Kapital çıxışları və milli valyutaların qiymətdən düşməsi davam etdi. Ölkələr dərin bir istehsal azalmasına məhkum oldular. Ona görə də, proqramlarda islahatlar aparıldı. Mütəxəssislərə görə bunun əsas səbəbi, xüsusilə kapital çıxışlarının həcminin səhv təxmin edilmiş olması idi. BVF-yə görə isə səbəb, hökumətlərin proqramları vaxtında və lazımi səviyyədə tətbiq etməməsi idi.

Ən başından bəri BVF-nin proqramları ilə əlaqədar müxtəlif tənqidlər dilə gətirildi. BVF bunların bəzilərini qəbul edib, digər bəzilərinə qarşı isə özünü müdafiə etməkdədir. Tənqidləri aşağıdakı kimi cəmləyə bilərik:

i) Pul siyasəti ilə əlaqədar olanlar:

- Milli Bankların "borc verən son qurum" (lender of last resort) olma xüsusiyyətinin ləğv edilməsi ajiotajı artırdı.
- Faizlərin artırılması iqtisadiyyatın lazımsız yerə kiçilməsinə səbəb oldu.

ii) Maliyyə siyasəti ilə əlaqədar olanlar:

- Onsuz da böyük bir daralmanın yaşandığı bir vaxtda, büdcə balansının müsbət saldosunu artıraraq bu daralmaya dəstək vermək məntiqsiz idi.

iii) Struktur islahatları ilə əlaqədar olanlar:

- Böhran vaxtı bankları kapitallarını sürətlə bərpa etməyə məcbur eləmək səhv idi.
- Yenə böhran vaxtı bəzi bankların ləğv edilməsi ajiotajı artırdı.
- Struktur islahatları kimi qeyri-ənənəvi metodları tətbiq eləmək, vəziyyətin çox ağır olduğu təəssüratını yaradaraq böhranı dərinləşdirdi.

iv) Əxlaqi xətər (moral hazard) ilə əlaqədar olanlar:

BVF böhran yaşayan ölkələrə kömək etdiyi üçün, bu ölkələrdəki hökumətlər, banklar və bu ölkələrə borc verən kreditorlar diqqətsiz davranmağa davam edəcəklər.

Qeyd edək ki, BVF-nin təmsilçiləri yuxarıdakı tənqidlərin çoxuna məntiqli cavablar verib. Ancaq kimin haqlı olduğunu söyləmək asan deyil. Lazım olsa bu mövzuya başqa bir məqalədə yer verilə bilər.

Yuxarıdakı tənqidləri irəli sürənlərin çoxu Malayziyanı nümunə göstərməkdədirlər. Bu mövzunu anlamaq üçün Malayziyanın böhrandan əvvəlki və sonrakı vəziyyətinə baxmaq faydalı olar.

Digər qonşu ölkələrdə olduğu kimi, 1997-ci ilin ortalarında Malayziya da investor etibarının yox olmasına və böyük miqdarda kapital çıxışına məruz qaldı. Bunun nəticəsində, 1998-in ortalarına qədər birja indeksi 60 faiz düşdü, milli valyuta (ringgit) real olaraq 25 faiz qiymətdən düşdü və valyuta ehtiyatları 25 faiz azaldı.

Bütün bunlara baxmayaraq, Malayziya iqtisadiyyatı, böhrandan əvvəlki bəzi xüsusiyyətləri səbəbindən, digər qonşu ölkələrə nisbətən ifrat maliyyə çətinlikləri çəkmədi.

Birincisi, Malayziya, digər qonşu ölkələrdə olduğu kimi, böyük müsbət büdcə saldosuna, kiçik inflyasiyaya və yüksək yığım (saving) nisbətinə sahib idi.

İkincisi, digərlərindən fərqli olaraq, Malayziyanın valyuta açıqlıq mövqeyi (open position) daha yaxşı idi, yəni xarici valyuta ilə olan ümumi passivlərinin aktivlərinə nisbəti, digərlərinə görə daha yüksək idi.

Üçüncüsü, Malayziya daha yaxşı nizamnamə (regulation) və mühasibat konstruksiyasına sahib idi.

Dördüncüsü, yoxsulluğun nisbətən az və əmək bazarının elastikliyinin daha yüksək olması, böhranın sosial təsirlərini yüngülləşdirməyə kömək etdi.

Malayziya hökumətinin böhrana reaksiyası, BVF proqramının tətbiq olunduğu ölkələrdəkinə çox bənzəyirdi. Pul siyasəti sahəsində, faizlər əvvəla sürətlə artırıldı. Gecəlik faizlər iyundakı 6 faizlik səviyyəsindən iyulda 35 faizə çıxdı. Bir neçə həftə sonra isə faizlər yenidən 10 faizin altına endirildi. Pul siyasətindəki məhdudlaşdırma, maliyyə qurumları üçün kredit planlaması və əmlak sektoruna kredit verilməsinin qadağan edilməsi kimi, birbaşa metodlarla təmin edildi. Maliyyə siyasəti sahəsində, 1997-ci ildə müsbət büdcə saldosu ümumi daxili istehsalın (ÜDM) 2,5 faizinə yüksəldildi. BVF proqramını tətbiq edən digər ölkələrdə olduğu kimi, 1998-ci ilin ortaların-

da büdcənin ekspansionist olmağına izin verildi və ilin axırında büdcə ÜDM-nin 1,5 faizi nisbətində mənfi saldo verdi. Tarixə baxanda, Malayziyada maliyyə siyasətinin daha məhdudlaşdırıcı olduğunu və ekspansionist prosesə BVF dəstəkli ölkələrə görə daha gec başladığını görürük.

1998-ci ilin sentyabr ayında Malayziya hökuməti off-shore ringgit marketini ləğv eləmək və qısa-müddətli kapital girişlərini cəzalandırmaq məqsədilə, geniş miqyaslı kapital məhdudiyyəti (capital control) tətbiq eləməyə başladı. Ancaq, bəzi faktlar, bu məhdudiyyətlərin Malayziyada istiqrarın təmin edilməsində çox az rol oynadığını göstərir.

Birincisi, Malayziya bu əməliyyata böhrandan 14 ay sonra başladı. O vaxta qədər qısa-müddətli spekulyativ kapitalın böyük bir hissəsi ölkəni çoxdan tərk etmişdi.

İkincisi, valyuta pariteti elə sabitlənmişdi ki, qiyməti digər qonşu ölkələrdəkinə görə daha aşağı idi.

Üçüncüsü, məhdudiyyət faiz ödəmələrinə deyil, qazanclara (profits) tətbiq edilməkdə idi. Buna görə də, sabit-qazanclı kapital axımları digərlərinə görə daha az məhdudlaşdırılmışdı.

Bütün bunlardan başqa, böhranın başlanğıcında Malayziya hökuməti maliyyə sektoru ilə əlaqədar mövcud nizam və nəzarət tətbiqatını genişləndirmişdi. Böyük ehtimalla, bu tətbiqat marketlərdə etibarı təmin etmədə və milli valyutanın stabilizasiyasında kapital məhdudiyyətindən daha çox rol oynamışdır.

Nəticədə, BVF siyasətinin böhrandan çıxışda nə qədər faydalı olduğunu söyləmək xeyli çətindir. Qəbul edilmiş görüşə görə, BVF faydalıdır, ancaq beynəlxalq kreditorlar öz riskli qərarlarının cəzasını daha çox çəkməlidirlər.

# Xarici borclardan səmərəli istifadə edirikmi?*

*Bəhruz Məmmədli*

Bu yaxınlarda, 2006-cı ilin dövlət büdcəsinə həsr olunmuş mətbuat konfransında maliyyə naziri gələn il adambaşına düşən xarici borcun 190-95 dollar həcmində olacağının proqnozlaşdırıldığını bildirdi. Hal-hazırda Azərbaycanın xarici borcunun adambaşına düşən miqdarı və xarici borcun Ümumi Daxili Məhsula olan nisbəti baxımından narahatçılığa səbəb olacaq bir hal mövcud deyil. Alınan kreditlərin təqribən üçdə ikisindən bir qədər artığının ölkədə investisiyaların həyata keçirilməsində, geri qalan hissəsinin də iqtisadi islahatların aparılmasında istifadə olunduğu qeyd olunur. Bəs görəsən alınan borclardan səmərəli istifadə olunurmu?

Xarici borclanmanın zərurəti investisiya qoyuluşları üçün lazım olan sərmayə vəsaitinin olmamasından irəli gəlir. Belə ki, inkişaf etməkdə olan ölkələrin qarşısında duran əsas əngəllərdən biri yetərsiz investisiya qoyuluşudur. Yetərsiz investisiya qoyuluşu isə yetərsiz sərmayədən və dolayısilə, yığım nisbətinin kiçik olmasından qaynaqlanır. Bu əngəli aşmaq üçün inkişaf etməkdə olan ölkələrin müraciət etdiyi həll yollarından biri xarici borc almaqdır. Tanınmış iqtisadçı Nurkse bu halı qısaca belə açıqlayır - inkişaf etməkdə olan ölkələrdə sərmayə yetərsizliyi səbəbindən istehsal sahələrinə daha az investisiya qoyulur. Yəni, daha az iş yeri və Ümumi Daxili Məhsul yaradılır. Bu da öz növbəsində daha az kapital yığımına yol açır. Daha az kapital yığımı isə yeni investisiya qoyuluşlarının da limitli olmasına səbəb olur. Beləliklə bir qısır dövriyyə

---

* *13 sentyabr 2005.*

yaranır. Nurkse, sərmayənin bu qısır dövriyyədən çıxarılması üçün ölkələrin xaricdən borc almaları gərəkliliyini irəli sürmüşdür. Beləliklə daha çox infrastruktur və istehsal investisiyaları həyata keçiriləcək və sərmayənin qısır dövriyyəsi aşılacaqdır.

Sərmayə sıxıntısını aradan qaldırmağın bir yolu da ölkəyə birbaşa xarici sərmayə cəlb etməkdir. Azərbaycanda neft sektoruna yüksək miqdarda xarici kapital qoyuluşu olsa da, qeyri-neft sahəsində sərmayə qoyuluşu yetərsizdir. Qeyri-neft sahələrinə də xarici investorların diqqətini çəkə bilmək üçünsə ölkədə iqtisadi azadlıqlar yüksək səviyyədə təmin edilməlidir.

Azərbaycanın daha aşağı faizlərlə borc aldığı qeyd edilir. Bu doğrudur. Ancaq Azərbaycanın xarici borclarının artma trendinə daxil olduğu müşahidə edilir. Ayrıca, xarici borclardan istifadə olunması nə qədər güzəştli olursa olsun faiz məsrəfləri dolayısilə məsrəfli bir qaynaqdır. Burada sadəcə faiz məsrəflərinə də baxılmamalıdır. Əgər kreditlərin istifadəsində sui-istifadə halları mövcuddursa bu kreditlərin real məsrəflərini yüksəldər. Kreditlərdən səmərəli şəkildə istifadə olunması ilk növbədə ölkə hökumətinin öz səriştəsinə bağlıdır. Əslində, əgər səmərəli investisiyalar həyata keçirilirsə, bunların maliyyələşdirilməsində xarici və ya daxili ehtiyatların istifadə edilməsinin fərqi olmamalıdır. Çünki, iqtisadiyyatda əsas məsələ ehtiyatların məhsuldar istifadəsidir.

Bəziləri Azərbaycanın xarici borclara yönəlməsini bu borclardan daha səmərəli istifadə ediləcəyinin zəmanəti kimi dəyərləndirir. Belə ki, xarici donorlar borc verdikləri zaman bu borcun faizi ilə birlikdə geri ödənməsində maraqlı olduqlarından ölkə hökumətini verdikləri vəsaitin daha səmərəli istifadəsinə istiqamətləndirəcəklər. Halbuki dünyadakı bir çox praktika bunun heç də belə olmadığını göstərir. Kreditlərin istifadəçilərinin kimlər olduğu və necə istifadə olunduğuna dair

məşhur hadisələrdən biri Rusiya ilə əlaqədardır. BVF, Rusiyaya iqtisadi islahatların həyata keçirilməsi və sərbəst bazar iqtisadiyyatına keçilməsi üçün 10 milyard dolar kredit ayırmışdı. Ancaq bu vəsaitin aralarında Boris Yeltsin və bir çox idarəçi və "iş adamlarının" da olduğu bir şəbəkə tərəfindən "Bank of New York" və "National Republic Bank" adlı ABŞ banklarına yatırıldığı meydana çıxdı. Ona görə də xarici borcların səmərəli istifadəsi məsələsində beynəlxalq təşkilatların və maliyyə qurumlarının nəzarətinə də arxayın olmağa dəyməz.

Azərbaycanın xarici valyuta ehtiyatları hal-hazırdakı xarici borcundan 1,3 dəfə artıqdır. Xarici qurumlar mövcud ehtiyatlarını dəyərləndirmək üçün Azərbaycan kimi aldıqları borclarını faizi ilə bərabər ödəmə gücünə sahib olan ölkələrə borc verməkdə maraqlıdırlar. Geri ödəmədə çətinlik çəkildiyi zaman da təklif edilən variantlardan biri köhnə borcların və faizlərin ödənməsi üçün yeni borc alınması olur. Beləliklə, ölkələr bir borc bataqlığının içinə düşmüş olurlar.

Əslində biz prinsip olaraq xaricdən borc alınmasının əleyhinə də deyilik. Milli iqtisadiyyatın inkişafı üçün zəruri olan infrastruktur investisiyalarının həyata keçirilməsi və ölkə içində kredit bolluğu yaradılması baxımından xarici borclardan istifadə edilməsi müsbət haldır. Ancaq, alınan borcların səmərəli şəkildə istifadə edilib-edilmədiyi önəmlidir. Azərbaycanda alınan kreditlərin zəruriliyinə və səmərəli istifadə olunmasına nəzarət mexanizminin yaradılması və dövlətin həm daxili həm də xarici borclarını tənzimləməsi baxımından "Dövlət Borcları Haqqında" qanununun qəbulu və həyata keçirilməsi çox vacibdir.

# Dünya Ticarət Təşkilatı və Azərbaycan*

*Əkbər Eldaroğlu*

1947-ci ildən bəri "Rüsumlar və Ticarət Üzrə Baş Saziş"in (QATT- GATT) bütün iclaslarında alınan qərarlar dünya ticarətindəki sərbəstliyi məhdudlaşdıran maneələrin aradan qaldırılmasına yönəlik olmuşdur. 1986-cı ildə Uruqvayda başlayan 8-ci görüş 1993-cü ildə Dünya Ticarət Təşkilatının (DTT-WTO) qurulmasının qərarlaşdırılması ilə nəticələnmişdir. Bununla da Uruqvay raundundan sonra beynəlxalq ticarət münasibətlərini tənzimləmək məqsədilə 1 yanvar 1995-ci ildə Dünya Ticarət Təşkilatı quruldu. Hazırda 140-dan artıq ölkə Dünya Ticarət Təşkilatına üzv qəbul edilmişdir. Təşkilat müəyyənləşdirdiyi qayda və normalar əsasında dünya ticarətinin 95 faizini tənzimləyir.

Dünya Ticarət Təşkilatı, Beynəlxalq Valyuta Fondu (BVF-IMF) və Dünya Bankı (DB-IBRD) ilə birlikdə yaxın gələcəkdə beynəlxalq iqtisadi münasibətlərin inkişaf etdirilməsində ən əhəmiyyətli üç dünya təşkilatından biri olacaqdır. Azərbaycanın yuxarıda adını sadaladığımız üç dünya təşkilatı ilə münasibətlərinə ciddi əhəmiyyət verməsi zəruridir. Yəni, Azərbaycan beynəlxalq iqtisadi münasibətlərini bu təşkilatların müəyyənləşdirdiyi qaydalar çərçivəsində qurmalı olacaq. Azərbaycan 1992-ci ildən Beynəlxalq Valyuta Fondunun və Dünya Bankının üzvü olsa da, 1993-cü ildən QATT-a hələlik müşahidəçi statusu ilə qatılmaqdadır. 2003-cü il üçün DTT-yə üzv olmağı planlaşdırır.

DTT-yə üzvlük isə adətən BVF və DB-yə üzvlüklə müqayisədə daha ciddi müzakirələrə səbəb olur. Hətta, Rusiyanın DTT-yə daxil olarsa, iqtisadi müstəqilliyini könüllü surətdə

* *31 may 2001.*

məhdudlaşdıracağına dair bir məqalə bu yaxınlarda «Nezavisimaya qazeta»da çap olunmuşdur. Müəllif məqalədə qeyd etməsə də, Rusiyanın həqiqi tərəddüdlərinin nədən ibarət olduğunu başa düşmək çətin deyil. Qeyd edək ki, "copy-right" və markanın qorunması ilə bağlı qanunları olduğu halda Rusiya və Çin "Copy-right Birliyi" tərəfindən müəlliflik hüquqlarını ən çox pozan ölkələr sırasına daxil edilmişdir. DTT-nin reqlamentləşdirdiyi qayda və normalarda eyni zamanda müəlliflik hüquqlarının qorunmasına ciddi nəzarət də öz əksini tapmışdır. Ona görə də DTT-yə daxil olmaq Rusiya üçün bu sahədə problem yaradacaq.

Bu təşkilata üzvlüyün inkişaf etməkdə olan ölkələr üçün əhəmiyyəti isə təşkilatın qurulduğu ilk illərdə iki mübahisəli problemdə qeydə alınmışdır. Venesuela və Braziliya Amerika Birləşmiş Ştatlarını, neft məhsullarının ticarəti ilə əlaqədar olan qaydaları pozduğuna görə təşkilata şikayət etdi. DTT-nin konfliktlərin həlli şurası 29 yanvar 1996 tarixli hesabatında şikayəti haqlı qəbul elədi. ABŞ hökuməti 19 iyun 1996-cı ildə bu qərara riayət edəcəyini və təşkilatın reqlamentləşdirdiyi qaydalara zidd olan prinsipləri aradan götürəcəyini elan etdi. 14 mart 1996-cı il tarixində isə Hindistan, ABŞ-ın trikotaj məhsulları ilə əlaqədar tətbiq etdiyi müvəqqəti himayə tədbirlərinin trikotaj və geyim malları ticarətinin qaydalarına zidd olduğunu önə sürərək müzakirə açılmasını istədi. 17 apreldə şikayət qəbul edildi. 24 apreldə isə ABŞ narazılıq doğuran tədbirləri ortadan qaldırdığı üçün şikayət geri götürüldü. Hər iki nümunədə konfliktlərin həlli şurasının çox mükəmməl işlədiyi və DTT sistemindəki ən böyük dövlətlərdən biri olan ABŞ-ın yeni beynəlxalq ticarət sisteminin qaydalarına riayət etdiyi müşahidə edilmişdir. Qısacası DTT-yə üzvlük inkişaf etməkdə olan ölkələr, habelə Azərbaycan üçün də qurtarıcı olmadığı kimi, fəlakət gətirici kimi də birmənalı qiymətləndirilməməlidir.

Təcrübədə görünmüşdür ki, idxalı əvəz etməyə dayalı sənayeləşmənin birinci mərhələsi istehlak malları sənayesinin inkişafı ilə sonra çatır. Bundan sonra ölkələr üçün sənayeləşmə siyasətini inkişaf etdirə biləcək iki istiqamət mövcuddur. Birincisi, xarici bazarlara açılmaqdır. Cənubi Koreya, Tayvan və digər Şərqi Asiya ölkələri kimi, daxili bazarları kiçik olan ölkələr bu yolla inkişaf etmişdir. Çünki sadəcə daxili bazardakı tələbata yönəlik istehsalla bu ölkələr yüksək iqtisadi inkişaf səviyyəsinə nail ola bilmirlər. İkinci yol isə, sənayeləşmə siyasətini yarı emal və investisiya mallarına doğru genişlətməkdir. Türkiyə və bazarı böyük olan bir çox ölkələr bu yolla inkişaf etmişdir. Rusiya da böyük bir daxili bazara sahibdir. Bu bazarı itirməmək üçün sənayeləşmə siyasətini ikinci istiqamətdə aparmaq istədiyi müşahidə edilməkdədir. Azərbaycan üçün isə sənayeləşmə siyasəti daxili bazarları kiçik olan bir çox Şərqi Asiya ölkələri kimi birinci istiqamətdə, yəni ixrac yönümlü olmalıdır. Buna görə də Azərbaycanın DTT tərəfindən tənzimlənən yeni beynəlxalq ticarət sisteminə zamanında uyğunlaşaraq bu sistemin vermiş olduğu fürsətdən səmərəli istifadə etməsi ölkənin iqtisadi inkişafında əhəmiyyətli rol oynaya bilər.

# Avropa Birliyi Türkiyədən niyə ehtiyatlanır?*

*Xəzər Bəşirov*

Bu ehtiyatlanmanın iqtisadi səbəbləri nələrdir?

Avropa Birliyi (AB) son bir neçə ay içərisində iki böyük sıxıntı yaşadı. Bunlar, birliyin gələcəyi üçün mühüm əhəmiyyət kəsb edən konstitusiya layihəsinin Fransa və Hollandiyadakı referendumlarla rədd edilməsi və büdcə ilə bağlı müzakirələrdən nəticə alınmamasıydı. Bu sıxıntılar daxildə və xaricdə AB-nin gələcəyi mövzusunda ciddi mübahisələrin yaşanmasına, hətta birliyin dağılmaq üzrə olduğunu müdafiə edən fikirlərin irəli sürülməsinə səbəb oldu.

3 oktyabr axşamı AB beynəlxalq arenadakı imicini ciddi şəkildə zədələyəcək üçüncü bir sıxıntının astanasından son anda geri döndü və 17 dekabr 2004-cü il tarixində 25 üzv ölkənin ümumi imzası ilə vermiş olduğu qərara uyğun olaraq Türkiyə ilə tam üzvlük müzakirələrinin başladılmasına qərar verdi.

Türkiyəyə yeni bir status qazandıran bu qərar, 1963 tarixli "Ankara sözləşməsi"ndən bəri davam edən 42 illik Avropaya inteqrasiya yolunda yeni və bundan əvvəlki dövrlərdən daha çətin bir prosesi başlatdı. Bir çoxu iqtisadi mövzulardan ibarət olan 35 başlıq altında sürdürüləcək müzakirələrdə üzv ölkələrdən hər birinin 71 dəfə veto etmə haqqı olacağını nəzərə alsaq prosesin çətinliyi anlaşılar. Bu baxımdan birlik daxilində Türkiyənin üzvlüyünə tarixi, mədəni, coğrafi, siyasi və iqtisadi səbəblərlə qarşı çıxanların inandırılması müzakirələrin nəticəsinə təsir göstərən ən əhəmiyyətli amil olacaqdır.

---

* *11 oktyabr 2005.*

İqtisadi səbəblərlə Türkiyənin üzvlüyünə qarşı çıxanlar, üzvlüyün AB-nə iqtisadi yükünün ağır olacağını, bu səbəbdən tam üzvlük xaricində başqa alternativlərin tapılmasının zəruriliyini vurğulayırlar. Bu fikri irəli sürənlər, 70 milyondan artıq (2050-ci ildə 100 milyon olacağı proqnozlaşdırılır) əhalisi ilə birlik daxilində 83 milyonluq Almaniyadan (2050-ci ildə 78 milyon olacağı proqnozlaşdırılır) sonra ikinci ölkə olacaq Türkiyənin adambaşına düşən milli gəlir səviyyəsinin 25 üzv ölkə ortalamasının sadəcə 30 faizi qədər olduğunu, dolayısilə əhalisinin artım sürəti yüksək, kasıb və qeyri-stabil bir Türkiyənin birlik iqtisadiyyatına zərər verəcəyini, ucuz əmək ehtiyatları ilə birliyin əmək bazarlarını alt-üst edəcəyini qeyd edirlər. Belə bir yanaşma bəlkə hazırkı vəziyyət üçün keçərli ola bilər. Amma Türkiyənin üzvlüyünün 10-15 il sonra reallaşacağını, bu müddətdə Türkiyənin ortalama iqtisadi artım sürətinin (4%) Avropa Birliyi (25 ölkənin) ortalamasının (2%) üzərində olacağının proqnozlaşdırıldığını nəzərə aldığımız zaman gəlir fərqinin nisbətən azalaraq birlik ortalamasının 50 faizinə çatacağı anlaşılır. Xatırladaq ki, 2004-cü ildə birliyə daxil olan 10 ölkənin gəliri də təqribən əvvəlki 15 birlik üzvü ölkənin ortalamasının 50 faizinə bərbər idi. Bundan əlavə kənd təsərrüfatı, əmək ehtiyatlarının sərbəst hərəkəti kimi bəzi mövzularda müvəqqəti və ya daimi məhdudiyyətlərin tətbiq edilə biləcəyini nəzərə alsaq bu mövzudakı narahatçılıqların bir az şişirdilmiş olduğunu söyləmək mümkündür.

"Centre for European Policy Studies"in (CEPS) direktoru Daniel Gros bir məqaləsində Türkiyənin birliyə təqribi maddi yükünün nə qədər ola biləcəyini iki fərqli yanaşma içərisində ələ alıb. Gros ilk olaraq Türkiyənin bu gün AB-nin tamhüquqlu üzvü olduğu təqdirdə birliyə maliyyətinin nə qədər olacağını hesablayıb. AB büdcəsinin xərclər hissəsi əsasən adambaşına düşən milli gəliri birlik ortalamasının 75 faizindən az olan

bölgələrə ayrılan Struktur Fondları və birliyin aqrar sektorunu dəstəkləmək üçün təşkil edilən Müştərək Aqrar Siyasət xərcləri olmaq üzrə iki başlıca maddədən formalaşmaqdadır. Türkiyə bu gün üzv olmuş olsaydı hər il Struktur Fondlarından ÜDM-nin 4 faizi qədər, yəni təqribən 9.5 milyard avro, Müştərək Aqrar Siyasət fondlarından isə 9 milyard avro maddi dəstək almış olacaqdı. Türkiyənin AB büdcəsinə ÜDM-sinin 1 faizi qədər pay ayıracağını da hesaba qatsaq bu gün tamhüquqlu üzv olacağı təqdirdə AB-nə maddi yükünün 16 milyard avro, yəni birlik ÜDM-sinin 0.16 faizini təşkil edəcəyi ortaya çıxır.

Türkiyənin mövcud qaydalar və şərtlər daxilində 2015-ci ildə AB-nə tamhüquqlu üzv olacağını fərz edək. Bu halda Türkiyə yalnız digər yeni üzv olan ölkələrə də tətbiq olunan 5-10 illik keçiş mərhələsindən sonra birliyin maliyyə ehtiyatlarından tam şəkildə faydalana biləcək. Maliyyə ehtiyatlarından tam şəkildə faydalanma imkanının yaranması ilə birlikdə, müzakirə prosesində iqtisadi artım sürəti AB-nə nisbətən yüksək olması proqnozlaşdırılan və bu səbəbdən büdcədən alacağı payı artacaq olan Türkiyənin birliyə maddi yükü birliyin ÜDM-sinin 0.2 faizinə çatacaqdır. 20 milyard avrodan yuxarı olan bu məbləğ Türkiyə iqtisadiyyatına əhəmiyyətli dəstək ola bilər. Bəs AB bu məbləği qarşılaya bilərmi? Suala veriləcək cavab isə yenə Türkiyənin üzvlüyünü dəstəkləyən və qarşı çıxanların baxışına görə dəyişməkdədir. Birlik ÜDM-sinin 2-3 faizini təşkil edən, AB-nin xarici ticarətində sadəcə 3 faiz paya sahib olan Türkiyə iqtisadiyyatının birlik iqtisadiyyatına təsiri də məhdud olar. Ayrıca milli büdcələrin ÜDM-nin 40-50 faizinə çatdığını nəzərə alsaq Türkiyəyə ayrılacaq 0.2 faizlik pay əhəmiyyətsiz kimi görünə bilər. Fəqət AB büdcəsinin birlik ÜDM-sinin 1.25 faizi ilə məhdudlaşdırıldığını hesaba qatdığımız zaman büdcədən alınacaq 0.2 faizlik bir payın əhəmiyyəti ortaya çıxır.

Bu rəqəmlər Türkiyənin AB-nə sadəcə maddi yükünü ortaya qoymaqdadır. Türkiyənin üzvlüyünün birliyə faydası olacağı kimi, birliyə uyğunlaşma prosesinin Türkiyəyə maddi maliyyəti də şübhəsiz ağır olacaqdır. Lakin reformları həyata keçirmiş, güclü, dinamik və rəqabətçi bir Türkiyə iqtisadiyyatı həm Türkiyə, həm də AB üçün maddi yükünü aşan müsbət bir sinerji yarada bilər.

# Avropa Birliyi büdcə böhranını necə aşdı?*

*Xəzər Bəşirov*

Avropa Birliyi (AB) büdcəsinin əsası 1958-ci ildə idarəetmə xərclərini qarşılamaq məqsədilə Belçika frankı cinsindən müəyyənləşdirilən və təqribən 7,3 milyon avroya ekvivalent olan büdcə ilə qoyulub. Lakin 1998-ci ilə qədərki 30 illik müddətdə Müştərək Aqrar Siyasətin inkişafına paralel olaraq artan büdcəyə 1988-də struktur fondlarının və innovasiyanın maliyyələşdirilməsi kimi mövzuların, 1993-də isə bəzi xarici yardımların maliyyələşdirilməsi kimi başlıqların əlavə edilməsi ilə 2005-də AB büdcəsi 106 milyard avroya çatmış oldu. Hal-hazırda birliyə daxil olan dövlətlərin milli gəlirlərinin 50 faizinə çatan milli büdcə xərcləri ilə müqayisə etdiyimiz zaman birliyin büdcəsi AB milli gəlirinin təqribən 1 faizi kimi kiçik bir nisbəti ifadə etməkdədir. Buna baxmayaraq, büdcə AB tarixində ən ciddi müzakirələrə, bəzənsə böhranla nəticələnən proseslərin yaşanmasına səbəb olan başlıca mövzulardan birini təşkil edir.

AB milli gəlirinin 1,24 faizini keçməməsi şərtilə birlik qurumları tərəfindən hazırlanan və qanunla tənzimlənməsi lazım gələn büdcənin gəlirlər hissəsi 4 əsas qələmdən təşkil olunub. Bu gəlir qələmlərindən ilk ikisi ənənəvi mənbələr olaraq bilinən kənd təsərrüfatı və gömrük vergilərindən ibarətdir. ƏDV və üzv ölkələrin milli gəlirləri nisbətində birlik büdcəsinə ödəmələri digər iki əhəmiyyətli gəlir mənbəyini təşkil edir. Büdcə gəlirlərinin 23 faizi Almaniya, 18 faizi Fransa və 14 faizi İtaliya tərəfindən qarşılanarkən, büdcəyə ən çox vəsait köçü-

* *5 yanvar 2006.*

rən ölkə Almaniya, büdcədən ən çox pay alan ölkə isə İspaniyadır.

Büdcə xərcləri isə 6 əsas qələmdən təşkil olunub. Büdcənin 46 faizindən artığı Müştərək Aqrar Siyasətə, 30 faizi Struktur Siyasətinə xərclənir. Büdcənin təqribən 6 faizi idari xərclər, 4 faizi innovasiya xərcləri, 7,5 faizi xarici siyasət və xarici yardım xərcləri, qalan 6,5 faizlik qismi isə digər xərclər qələmindən ibarətdir.

Büdcənin gəlir qələmlərinin təşkili və xərclərin bölgüsündə ortaya çıxan disbalans hər dəfə büdcə hazırlanarkən yeni bir böhranın ortaya çıxacağı ilə bağlı proqnozların yaranmasına səbəb olur. Əslində bu büdcə bölgüsünün təbiətinə xas olan "cəmi sıfır olan oyun" (zero sum game) xüsusiyyətindən qaynaqlanır. Belə ki, böyüklüyü sabit olan bir tortdan birisinin çox pay alması yalnız digərlərinin daha az pay alması ilə mümkündür. 2007-2013-cü illər büdcəsinin hazırlanması sırasında böhran səviyyəsinə varan müzakirələrin mənbəyində də büdcə çalışmalarının bu xüsusiyyəti yatmaqdadır.

AB büdcəsi ətrafındakı müzakirələri 3 əsas başlıq altında cəmləşdirmək mümkündür. Bunlardan ilki büdcənin böyüklüyü ilə əlaqədardır. Avropa Komissiyası büdcə böyüklüyünün AB milli gəlirinin 1,24 faizi səviyyəsində müəyyənləşməsini istədiyi halda, Hollandiyanın öndərlik etdiyi büdcə gəlirlərində əsas paya sahib (büdcəyə ödəmələri aldıqları paydan böyük olan) 5 ölkə büdcənin həcminin 1 faiz səviyyəsində müəyyənləşməsini tələb edirdi.

Bu məsələdə ortaya çıxan mənbə ehtiyacı ikinci müzakirə mövzusunun - İngiltərəyə tətbiq edilən endirimlərin təkrar aktuallaşmasına səbəb oldu. Yuxarıda büdcənin xərclər hissəsi ilə əlaqədar rəqəmləri verərkən Müştərək Aqrar Siyasətin (MAS) xərclər içərisindəki payının 46 faiz olduğunu söyləmişdik. İngiltərə AB üzvlüyü boyunca aqrar sektorun milli gəlir

içərisindəki payının çox az olması səbəbilə MAS-dan mütəmadi olaraq daha az pay alarkən, Commonwelth və Şimali Amerika ölkələri ilə ticari əlaqələrinin yüksəkliyi səbəbindən AB büdcəsinə ciddi həcmdə tarif gəlirləri köçürürdü. 1984-cü ildə Marqaret Tetçer bu halı nəzərə alaraq İngiltərəyə imtiyaz tanınmasını, əks təqdirdə, MAS-dan ayrılacağını bəyan edərək, İngiltərə üçün büdcəyə həyata keçirdiyi köçürmələrin 66 faizinə ekvivalent özəl bir endirim əldə etmişdi. Başda Fransa olmaqla bir çox üzv ölkə artıq şərtlərin dəyişdiyini və büdcə mənbələrinin artırılması üçün İngiltərəyə verilən imtiyazın geri alınması zərurətini irəli sürürdü. Bu tələb isə üçüncü müzakirə mövzusunun əsasını təşkil edirdi.

İngiltərə üzv ölkələrdən gələn bu tələblərin əvəzində, Fransanın da böyük ölçüdə faydalandığı Müştərək Aqrar Siyasətin büdcədən aldığı payın azaldılması və MAS reformlarının həyata keçirilməsi halında ona verilən imtiyazın qaldırılmasını müzakirə edə biləcəyini açıqladı. Toni Bleyr MAS-da islahat tələblərini "Sapir raporu"na istinadən "AB kimi bilgi toplumu olma yolunda ciddi əmək sərf edən bir birliyin büdcə xərclərinin 46 faizini kənd təsərrüfatı sektoruna, 4 faizini isə innovasiyaya ayırmasının heç bir məntiqə sığmadığı" fikri ilə dəstəkləməkdə idi.

Qeyd edək ki, 2003-cü ildə büdcə xərclərinin strukturu mövzusunda tədqiqat aparmaq üçün Avrokomissiya tərəfindən səlahiyyət verilən professor Andre Sapirin rəhbərlik etdiyi mütəxəssis heyəti AB büdcəsinin "tarixi qalıq" olduğu, AB-nin iqtisadi artımına çox az faydası toxunduğu, büdcədən kənd təsərrüfatına ayrılan payın 15 faizə qədər aşağı salınmasının və büdcənin yenidən formalaşdırılmasının zəruri olduğu nəticəsinə varmışdı.

Keçən ilin iyun ayında şiddətlənən və böhrana çevrilən büdcə müzakirələri dekabrın 16-da Avropa Şurasının toplantısında sona çatdı. Fransa və İngiltərə arasında söz atışması ilə

müşayiət olunan mübahisələrlə yadda qalan və hər iki tərəfin də mövqelərindən müəyyən dərəcədə güzəştə getməsi ilə əldə edilən bu nəticə, şübhəsiz, AB-ni rahatlatdı. Bu çərçivədə 2007-2013-cü illəri əhatə edən yeddi illik dönəm üçün AB milli gəlirinin 1,045 faizinə uyğun gələn 862 milyard 363 milyon avroluq büdcə müəyyənləşdi.

# Dünya İqtisadi Böhranı niyə baş vermir?*

*Əfsun Ələkbər*

Dünya bazarlarında neftin qiymətinin durmadan artmasını son illərin əsas iqtisadi hadisələrindən biri kimi səciyyələndirə bilərik. Bəs neft qiymətlərinin artmasını doğuran əsas səbəblər hansılardır və bu artım niyə dünya iqtisadi böhranına səbəb olmur?

Dünya iqtisadi böhranlarına nəzər saldığımız zaman hamısının neft qiymətlərindəki sıçramalarla müşayiət olunduğunu, ya da birbaşa bu sıçramaların nəticəsində ortaya çıxdığının şahidi oluruq. Bu baxımdan, 2001-ci ildən bu tərəfə neft qiymətlərinin 3 dəfədən çox bahalaşması növbəti qlobal iqtisadi böhranının baş verəcəyi və ya baş verməli olduğu ehtimalını ortaya çıxarmaqdadır. Amma bu illər ərzindəki dünya iqtisadiyyatının konyukturuna baxdığımız zaman qlobal ÜDM (Ümumi Daxili Məhsul) kifayət dərəcədə artmış, inflyasiya isə özünü daha təmkinli aparmışdır. Bu vəziyyət daha nə qədər davam edə bilər?

Yüksək neft qiymətinin dünya iqtisadiyyatı tərəfindən hələ ki, "həzm edilməsinin" əsas səbəbi bir çox ölkələrdə, xüsusilə ABŞ-da "ucuz pul" siyasəti ilə xərclərin maliyyələşdirilməsi və beləliklə bahalı neftin təsirini kompensasiyası ilə izah olunur. Dünya iqtisadiyyatının iki hegemon dövləti (eyni zamanda iki ən böyük neft istehlakçısı) ABŞ və Çinin son iki ildəki iqtisadi artımları "ucuz pul" siyasəti ilə izah olunur. Bu baxımdan yüksək neft qiymətləri aşağı faizlərin nəticəsi kimi açıqlana bilər. Dünya iqtisadiyyatında iki ən önəmli qiymətin

* *14 dekabr 2005.*

– neftin və pulun qiymətinin bir-biri ilə yaxın əlaqəsi var. Faizlər anormal şəkildə aşağı olanda qlobal tələb artacaq və nəticədə istehsalının artırılması potensialının məhdud olduğu bir zamanda neftin qiyməti artacaqdır.

Keçən ildəki qlobal ÜDM və qlobal neft istehlakındakı artım son 30 ildəki ən yüksək həddinə çatmışdır. Artan neft qiymətlərini qlobal iqtisadi artımın mövcud istehsal imkanlarını aşmasının bir siqnalı olaraq da izah edə bilərik. Adətən iqtisadiyyatda faizlər bu əlaqəni tənzimləməkdədir. Ancaq maliyyə bazarlarına nəzər saldığımız zaman görürük ki, son illərdə faizlər aşağı səviyyələrdə seyr etməkdədir. Beləliklə yüksək neft qiyməti faizin normal şərtlərdə yerinə yetirməli olan funksiyaları həyata keçirmiş olur. Bu baxımdan, yüksək neft qiymətləri təbiidir və qlobal iqtisadiyyatın ifrat "isinməsinin" qarşısını alır. Daha effektiv yol məhdud pul siyasətinin tətbiqi olsa da, belə siyasət iqtisadiyyatı tənəzzülə sürükləmə riskini artırır.

Daha da irəli getsək söyləyə bilərik ki, artan neft qiymətləri artan tələbata qarşı bazarın təbii reaksiyası olsa da, neft qiymətlərinin sürətlə artması Avropa ölkələri kimi yavaş böyüyən ölkələrdə olduqca mənfi nəticələrə səbəb olmaqdadır. Amerika və Çin kimi ölkələrdəki ifrat tələb neftin dünya bazarındakı qiymətini artırmaqda, bu da digər ölkə iqtisadiyyatlarına tətbiq edilən əlavə vergi effekti yaratmaqdadır.

İqtisadçıların gəldiyi ümumi qənaətə görə, bir dollar əlavə ÜDM yaratmaq üçün inkişaf etməkdə olan ölkələr inkişaf etmiş ölkələrə nəzərən iki dəfə artıq neftdən istifadə etməkdədir. Çin, Hindistan kimi əksər inkişaf etməkdə olan ölkələrdə neft subsidiyalaşdırılmaqdadır. Dünya bazarında neftin qiyməti artdığından belə ölkə istehlakçıları lazım olduğundan daha çox neft toplamaqdadırlar.

Beynəlxalq Valyuta Fondunun hesablamalarına görə son 5 il ərzində dünya neft tələbindəki artımın üçdə ikisi inkişaf etməkdə olan ölkələrin payına düşür. Çin üçün eyni göstərici 30 faiz təşkil edir. Çində adambaşına düşən neft istehlakı ABŞ-dakının on beşdə biridir. Çində iqtisadi artımın artacağını nəzərə alsaq, neftə olan tələbin durmadan artacağı qənaətinə gəlirik.

Dünya neft qiymətlərindəki artımın "günahını" tamamən Çinin üzərinə yıxmaq olmaz. Çünki ABŞ dünya qara qızılının dörddə birini istehlak etməklə dünyada ən böyük neft istehlakçısı ünvanını qorumaqdadır. Amerika Avropa Birliyinə nəzərən hər dollar ÜDM-də 50 faiz daha çox neft istehlak edir, çünki amerikalı istehlakçılar avropalı istehlakçılara nəzərən neftə görə 2 dəfə az ödəyirlər. Amerika iqtisadiyyatının neftdən bu dərəcədə asılı olmağı, sadəcə, ölkə daxilində deyil, həm də dünya ölkələrində neftin qiymətini yuxarıya doğru çəkməkdədir.

Mütəxəssislər mövcud vəziyyətdən uzunmüddətli çıxış yolunu Amerikada benzinə qoyulan vergilərin artırılmasında görürlər. Çünki vergi tənzimlənməsi ilə yanacağa olan tələbi azaltmaq mümkündür. Avropa ölkələrində, xüsusilə də, Türkiyədə bu üsuldan istifadə olunur. Çin də neft istehlakının subsidiyalaşdırılması siyasətindən əl çəksə və vergi tənzimlənməsindən istifadə etsə, uzunmüddətli perspektivdə neftin qiymətinin sabitləşəcəyi qənaətinə gələ bilərik.

Bu gün isə ABŞ və Çində iqtisadi artımın davam etməsi neftə olan tələbatı artırdığından, hazırkı vəziyyət neftin qiymətinin yüksək olmasını şərtləndirir.

# Azərbaycanda valyuta böhranı gözlənilirmi?*

*Vüqar Səlimov*

Bu yaxınlarda "Fitch" Beynəlxalq Reytinq Agentliyi 33 ölkənin maliyyə sektorlarında gərginliyin artmasına dair proqnozları əks etdirən "Bank sektorunda sistemli risklər" adlı növbəti hesabatını açıqladı. Yüksək sistemli risklər ölkələrin 40 faizində müşahidə olunub və bunun səbəbi aktivlərin bahalaşması və milli valyutanın devalvasiyasının yüksək templərlə artması fonunda kreditləşmə prosesinin genişlənməsidir. Hesabatda ən yüksək sistemli risklər kateqoriyasına İslandiya, İrlandiya, Cənubi Afrika, Norveç, həmçinin Rusiya və Azərbaycan daxil edilib. Agentlik kreditləşmənin, milli valyutanın real məzənnəsinin, səhm və daşınmaz əmlakın qiymətlərinin yüksək artım templərini neqativ amil kimi vurğulayıb.

Ümumiyyətlə, son 30 ildə dünyadakı valyuta böhranlarının sayında və tezliyində bir artış müşahidə edilməkdədir. Belə ki, bir sıra ölkələr, xüsusilə də inkişaf etməkdə olan ölkələr müxtəlif zamanlarda valyuta böhranları ilə üzləşmiş və bunların ağır nəticələrinə qatlanmışdır. Əlbəttə ki, bu böhranlardan, ən yaxın tarixdə Rusiya kimi, keçid dövründə olan ölkələr də öz payına düşəni almışdır. Bütün bunlara baxanda insanın ağlına belə bir sual gəlir: Azərbaycanda valyuta böhranı olma ehtimalı varmı?

Əvvəla valyuta böhranının nə olduğuna baxaq. BVF-nun tərifinə görə, maliyyə böhranlarının üç növündən biri olan valyuta böhranı, bir ölkənin pulunu hədəf alan spekulyativ hücum qarşısında o ölkə hökumətinin devalvasiyaya məcbur

---

* *3 mart 2005.*

qalması, yaxud pulunun dəyərini qorumaq üçün valyuta ehtiyatlarının böyük bir hissəsini xərcləməsi və ya eyni məqsədlə faiz nisbətlərini anidən yüksəltməsidir. Buradan belə çıxır ki, bir hadisəyə valyuta böhranı adını verə bilmək üçün ilk növbədə ölkə pulunu hədəf alan bir spekulyativ hücum olmalı və digər tərəfdən hökumətin buna verdiyi reaksiya nəticəsində ya o ölkə pulunun nisbi dəyəri anidən azalmalı, ya valyuta ehtiyatları kəskin bir şəkildə azalmalı, ya da faiz nisbətləri kəskin bir şəkildə yüksəlməlidir.

İqtisadi ədəbiyyatda valyuta böhranlarının bəzi indikatorlarına diqqət cəlb edilməkdədir. Belə ki, valyuta böhranı yaşamış ölkələrin demək olar ki, hamısında böhrandan əvvəl aşağıdakı indikatorların hamısı və ya bəziləri müşahidə edilmişdir: Bu və ya başqa bir şəkildə kontrol altında tutulan valyuta pariteti, olduğundan yüksək qiymətlənmiş (overvalued) yerli pul, cari hesabda böyük mənfi saldo, qısa-müddətli xarici borclarda artış, zəif maliyyə sistemi və sairə.

Azərbaycanın indiki iqtisadi vəziyyəti bu indikatorların bir çoxu ilə üst-üstə düşməkdədir. Azərbaycanın cari hesabı illərdən bəri gedərək artan bir şəkildə mənfi saldo verməkdədir. Neftin dünya bazarlarındakı qiymətinin artması belə bu gedişata mane ola bilməyib. Azərbaycanda uzun müddətdən bəri de-facto olaraq sabit valyuta pariteti tətbiq edilməkdədir. Buna bağlı olaraq da Azərbaycan manatı yüksək qiymətlənmiş haldadır. Belə ki, nominal valyuta pariteti bir neçə ildir demək olar ki, sabit qalmış ikən, ölkə daxili qiymətlər ildən ilə artmışdır. Hətta bu artış son vaxtlarda sürətlənmişdir. Bu isə, manatın real olaraq yüksək qiymətlənməsi ilə nəticələnib. Maliyyə sisteminin və ümumiyyətlə, ölkə iqtisadiyyatının zəif olması isə şübhələri daha da artırmaqdadır. Bu indikatorlara baxan biri belə nəticəyə gələ bilər ki, Azərbaycanda yaxın zamanlarda bir valyuta böhranı gözlənilir.

Ancaq bəzi faktorlar göstərir ki, bu nəticəyə gəlmək üçün tələsmək lazım deyil. Daha əvvəl deyildiyi kimi valyuta böhranı ölkə pulunu hədəf alan spekulyativ hücumla başlamaqdadır. Spekulyativ hücum, yerli pulla ifadə edilmiş maliyyə assetlərindən (yerli pulun özü də daxil olmaqla) xarici pulla ifadə edilmiş maliyyə assetlərinə ani və sürətli keçiş deməkdir. Azərbaycanda belə bir hücumun müvəffəqiyyət qazanma ehtimalının az olduğunu göstərən bəzi gerçəklər mövcuddur. Doğrudur, ötən ilin sentyabrında şənbə günü yaşanan hadisələr göstərdi ki, bir maliyyə assetlərindən digərinə ani keçişlərlə Azərbaycanda belə "bir bardaq suda fırtına" qoparmaq istəyənlərin hər zaman mövcud olması istisna deyil. Lakin, Azərbaycandakı yerli və xarici investorların spekulyativ pozisiya aldıqlarını söyləmək çox çətindir. Bunun bir səbəbi odur ki, yüksək real faizlərə baxmayaraq, Azərbaycanın maliyyə assetlərinə tələbat demək olar ki yoxdur. Bunun əksinin olması üçün Azərbaycan investorların gözündə gələcək vəd edən bir ölkəyə çevrilməlidir. Həmçinin ölkədəki risklər də böyükdür. Ona görə də, xarici investisiyaların demək olar ki, mütləq qisminin neft sektoruna qoyulması (ki, bu maliyyə investisiyası deyil, bir real investisiyadır) təəccüblü deyil.

Bundan başqa, Azərbaycanda spekulyativ pozisiya almağa imkan verən maliyyə infrastrukturu yoxdur. Maliyyə bazarı az inkişaf etdiyi üçün investorların spekulyativ pozisiya almaları çox çətindir.

Digər tərəfdən, spekulyativ hücumun ola bilməsi üçün tədiyyə balansındakı kapital hesabı kəsir verməlidir. Azərbaycan hələ ki valyuta kontrolu tətbiq edən bir ölkədir. Valyuta ticarətini gedərək banklarla məhdudlaşdıran yeni fərman bunun bir göstəricisidir.

Belə çıxır ki, valyuta böhranının meydana gəlməsi, heç olmasa müəyyən dərəcədə inkişaf etmiş maliyyə infrastrukturunun mövcudluğuna bağlıdır. Bundan başqa, ölkə, kapital hə-

rəkətləri baxımından dünya ilə heç olmasa müəyyən dərəcəyə qədər bütünləşmiş olmalıdır. Görünən odur ki, bu şərtlər Azərbaycanda hələ ki təşəkkül etməyib.

Əlbəttə ki, bütün bunlardan "Azərbaycanda heç vaxt valyuta böhranı olmaz" mənasını çıxarmaq düzgün olmaz. Azərbaycanın mövcud şərtlərində, əgər hökumət populist bir siyasət izləyərək pul emissiyasını davamlı bir şəkildə artırsa, ölkənin xarici valyuta ehtiyatları qurtarana yaxın böhran özünü göstərə bilər (Rudiger Dornbusch bunu "köhnə növ" valyuta böhranı adlandırırdı). Ancaq bu o qədər bilinən bir örnəkdir ki, bir hökumətin bilə-bilə bu səhvə getməsi real görünmür. Növbəti məqalədə Dornbuschun "yeni növ böhranlar" dediyi modern valyuta böhranlarının anatomiyasını təhlil edəcəyik. Bu təhlildə, "inkişaf yolunda olan Azərbaycan böhrandan özünü necə qorumalıdır?" sualına da cavab axtarılacaq.

"Fitch" Beynəlxalq Reytinq Agentliyinin hesabatına isə yuxarıdakı aspektlərdən yanaşmaq lazımdır. Yəni, xarici investorların intensiv bir şəkildə istifadə etmədiyi bir maliyyə sistemində "yeni növ" valyuta böhranı olma ehtimalı çox azdır. Azərbaycanın maliyyə assetlərinin nə qədəri xaricilərin əlindədir? Və bunların nə qədəri qısa-müddətlidir? Bu rəqəm çox aşağıdır, çünki Azərbaycanda sözün həqiqi mənasında inkişaf etmiş bir maliyyə sistemi yoxdur. Əgər tədiyyə balansına baxsaq, Azərbaycanın (banklar daxil olmaqla) özəl sektorun xarici borcu böyük deyil. Həmçinin xaricilərin rəğbət bəslədiyi bir birjamız da yoxdur. Ona görə də Azərbaycanda olsa-olsa "köhnə növ böhran" ola bilər. Çünki hökumət son vaxtlarda pul kütləsini gedərək artırmaqdadır. Bu isə, xüsusilə də non-tradable malların qiymətini artırdığı üçün manat gedərək daha çox qiymətlənməkdədir. Bu çox klassik bir örnəkdir, amma bizim hökumətin bu sadə tələyə düşmə ehtimalı öz mövcudluğunu qoruyur. BVF də bu nöqtəyə diqqət çəkir. Digər tərəf-

dən, sentyabrdakı hadisə müvəffəqiyyətsiz bir hücum idi. Bunun səbəbi də, mətndə qeyd etdiyim kimi, zəif və dayaz maliyyə sistemidir. Hökumət asanlıqla hücumun qarşısını ala bilmişdi. Yeri gəlmişkən, bu hücumdan təqribən 10 gün əvvəl mərkəzimizin digər eksperti İlkin Sabiroğlunun "Gündəlik Azərbaycan" qəzetinin 6 sentyabr tarixli nömrəsində yayımlanan "Manat daha nə qədər möhkəmlənəcək?" adlı məqaləsinin son abzasında aşağıdakı fikirlər yer almışdı: "Lakin indiki halda manatın möhkəmlənməsi haraya qədər davam edəcək? Bu tendensiya başqa fəsadlar da törədə bilər... Anti-inflyasiya tədbiri kimi manatın möhkəmlənməsi də mütəmadi davam edə bilməz... Milli Bankı çətin sınaqlar gözləyir." Bu yazımız isə, hökuməti ehtiyat tədbirlərini artırmağa ikinci çağırışımızdır. Çünki son illərdəki iqtisadi canlanmanın "köhnə növ" bir valyuta böhranının kölgəsində qalması bütün əziyyətlərimizi boşa çıxarmış olar.

# Bilgi Çağı və zehniyyət dəyişikliyi*

*Xəzər Bəşirov*

İnformasiya və Telekommunikasiya Texnologiyaları (İKT) sektorunda müşahidə edilən tendensiyalar və yaşanan paradiqma dəyişikliyi bir çox sahədə olduğu kimi iqtisadi ədəbiyyatda da köhnə-yeni bölgüsünün ortaya çıxmasına səbəb oldu. Bu bölgü əslində iqtisadi inkişafın əsas dinamikalarında ciddi bir transformasiya prosesinin yaşandığının göstəricisidir. Gələcəyə doğru səyahətdə müvəffəqiyyətli ola bilmək üçün keçmişin strategiyaları və müvəffəqiyyət reseptləri artıq yetərli deyil. Çünki gələcəyin dünyasında iqtisadi müvəffəqiyyətin şərtləri keçmişdən fərqli olacaq. Tanınmış ingilis iqtisadi şərhçisi Hamish McRae 2020-ci ilin dünyasını anlatdığı kitabında bu nöqtəni xüsusi vurğulamaqdadır. McRaeyə görə 2020-ci ilə qədər torpaq, kapital və təbii ehtiyatlar kimi "köhnə iqtisadi artım motorları" istər ölkələrin istərsə də şirkətlərin iqtisadi müvəffəqiyyəti baxımından əhəmiyyətini nisbi olaraq itirəcəkdir. Bunun əvəzində keyfiyyət, təşkilat, motivasiya (həvəsləndirmə) və insanların özü-özünə nəzarəti kimi keyfiyyət xüsusiyyətləri müvəffəqiyyət üçün daha əhəmiyyətli hala gələcəkdir. Keyfiyyətli insan potensialını ön plana çıxaran bu təsbit, bizim, məşhur iqtisadçı Lester Thurowun "köhnə üslubdakı rəqabət üstünlüyü" anlayışı dediyi, sənaye çağı rəqabət anlayışımızda radikal bir dəyişikliyə getməyimizin zərurətini ortaya qoymaqdadır.

Thurow "köhnə üslubdakı rəqabət üstünlüyü" anlayışının iki əsas dayanağı olduğunu irəli sürməkdədir. Bunlar təbii ehtiyat və istehsal nisbətləridir. Bu anlayışa görə əgər ölkənizdə neft varsa neft istehsal edərək, geniş əkin sahələrinə sahibsi-

---

* *24 avqust 2004.*

nizsə kənd təsərrüfatı məhsulları istehsal edərək, sərmayə ilə zəngin ölkəsinizsə daha çox sərmayə tələb edən malları istehsal edərək bu sahələrdəki rəqabət üstünlüyü ilə dünya iqtisadiyyatında layiq olduğunuz yeri tutarsınız. Yəni bir mənada hər ölkənin dünya iqtisadiyyatında rəqabət üstünlüyünü əlində tutduğu təbii bir yeri var.

Thurow bilgi toplumunda təbii rəqabət üstünlüyünün aradan qalxması ilə "rəqabət üstünlüyü" anlayışının dəyişdiyini və ölkələr arasında "başabaş rəqabət" imkanının yarandığı bir prosesin başladığına işarət etməkdədir.

Rəqabət formasındakı bu dəyişmə kompüterlər, proqramlar, yarımötürücülər (semiconductor), çiplər (chip) kimi məhsullar istehsal edən "beyin gücünə dayanan sənayelər"in təbii bir yerə sahib olmamasından qaynaqlanır. Yəni sahib olduğu beyin gücünü effektli bir şəkildə təşkilatlandıran hər ölkə və ya şirkət dünyanın istənilən bir ölkəsi və ya şirkəti ilə rəqabət edə bilmə potensialına yiyələnə bilər.

Thurow "beyin gücünə dayanan sənayelər" olaraq adlandırdığı İKT məhsullarının rəqabət quruluşundakı bu dəyişmənin inkişaf etməkdə olan ölkələr üçün geniş imkanlar yaratdığını söyləməkdədir. Məsələn, az inkişaf etmiş bir ölkə olan Hindistan, İKT məhsullarında inkişaf etmiş ölkələrlə rəqabət edə bilmə potensialını rəqabətin quruluşundakı dəyişikliyin yaratdığı fürsət və imkanları dəyərləndirərək əldə etmişdir.

McRaein və Thurowun bu təsbitlərindən iki önəmli nəticə hasil olmaqdadır. Birincisi gələcəyin müvəffəqiyyət əldə edən iqtisadiyyatları arasında yer almaq üçün keyfiyyətli insan potensialı və insan beyni digər amillərdən daha əhəmiyyətlidir. İkincisi müvəffəqiyyət əldə edən iqtisadiyyatı torpağa, təbii ehtiyatlara və ya kapitala dayanan "rəqabət üstünlüyü" anlayışı deyil, "başabaş rəqabət" anlayışı müəyyənləşdirəcəkdir. Bu çox önəmlidir. Çünki köhnə "rəqabət üstünlüyü" anlayı-

şında hər sahədə üstün olan ölkə (kimin daha çox neft, kənd təsərrüfatı məhsulu, sərmayə tutumlu məhsul istehsal etdiyi) təbii şərtlər səbəbindən öncədən məlum idi. İKT məhsulları ilə meydana çıxan "başabaş rəqabət" anlayışı isə dinamik bir rəqabət quruluşunun doğmasına səbəb olub. Birinciliyin mütəmadi əl dəyişdirdiyi və yeni fürsətlərin ortaya çıxdığı bu dinamik rəqabət quruluşunda oyunu qaydalarına görə oynayan, çağın tələbatlarını doğru anlayan hər şirkət və ölkə gələcəyin inşasında söz sahibi olacaqdır.

Bu gün McRaein iqtisadi müvəffəqiyyət üçün ən önəmli amillər arasında göstərdiyi keyfiyyət göstəricilərindən olan elastiki istehsal paradiqmasının tələblərinə cavab verəcək təşkilati struktura, dəyişmənin və inkişafın ön şərti olan motivasiyaya sahib olmayan bir inkişaf prosesi yaşayan, sənaye toplumu olma yolunda arzu etdikləri müvəffəqiyyəti əldə edə bilməyən inkişaf etməkdə olan ölkələr, yeni çağın rəqabətçi və fürsətlər yaradan özəlliklərindən faydalanaraq bilgi toplumuna transformasiya imkanına sahibdirlər. Fəqət bu imkanın istifadəsi böyük ölçüdə digər sahələr üçün tətbiq edilən köhnə-yeni bölgüsünün zehniyyət quruluşunda da müzakirəyə açılması ilə mümkündür.

Newton fizikasının düşüncə sistemimizə yerləşdirdiyi və sənaye çağında çox işimizə yarayan, qaydalar və dəmir qanunlar sayəsində formalaşdırılan zehniyyət quruluşumuz, gələcəyi anlamada çətinlik çəkməyimizə səbəb olmaqdadır. Bu zehniyyət quruluşu bizə transformasiya prosesinin lineer (düzxətli) və mütəmadi olduğunu, gələcəyin nəzarət altına alına biləcəyini və düzgün proqnozlaşdırıla biləcəyini öyrətmişdir. Rostowun beş mərhələli inkişaf modeli bu anlayışın bir təzahürüdür. Buna görə bir ölkənin inkişaf məqsədlərində müvəffəqiyyətə nail olması üçün inkişaf etmiş ölkələrin tarixi prosesdə keçdiyi mərhələləri keçmək yetərlidir. Yeni elm adlandırılan kvant fizikasının və xaos nəzəriyyəsinin isə bizə

transformasiya prosesinin əslində lineer olmadığını, gələcəyin qeyri-müəyyən, kontrol altına alınması imkansız və proqnozlaşdırıla bilməyən olduğunu öyrətməkdədir. Lineer olmayan transformasiya prosesi və gələcəyin qeyri-müəyyənliyindən doğan fürsət və imkanlar, inkişaf etməkdə olan ölkələrə inkişafın, sahib olduqları gənc fəal insan potensialını yüksək bir təhsil prosesindən keçirərək və "beyin gücünü" effektli bir şəkildə təşkilatlandıraraq, inkişaf etmiş ölkələrin tarixi prosesdə keçdiyi mərhələləri bir-bir keçməyə ehtiyac duymadan, bir sıçrama ilə mümkün ola biləcəyi ümidini verməkdədir.

Bu ümidin gerçəkləşməsi, öz beyninin önəmini qavrayan fərdlərdən təşkil olunan bir toplumun formalaşması ilə, bu isə öz növbəsində fərdin önəminin fərqinə varan çağdaş və elmi idarəetmə anlayışının hakim qılınması ilə mümkündür. İnkişaf etməkdə olan ölkələrin iqtisadi problemlərini çözmək, ictimai transformasiyasını gerçəkləşdirmək və dünya iqtisadiyyatına inteqrasiyasına nail olmaq üçün zəruri olan keyfiyyət parametrlərini qazanması böyük ölçüdə bu ölkələrdə hakim olan mövcud zehniyyət quruluşunun bu yöndəki dəyişməsinə bağlıdır.

Bu prosesdə bizlər bir fərd olaraq dünyada hər şeyi olmasa belə, çox şeyi dəyişdirmə gücünə sahib olduğumuza inanmaq və müvəffəqiyyətə fokuslanmaq məcburiyyətindəyik. Fransız qəhrəmanı Jean Darkın ifadəsi ilə: "Bütün savaşlar ilk öncə insan zehnində qazanılır". İnsanların edə biləcəklərinin, edə biləcəyini düşündükləri ilə məhdud olduğunu unutmamalıyıq.

# Yeni iqtisadi gerçəkliklər*

*Ceyhun Qədirli*

Yeni minilliyin astanasında sənaye cəmiyyətindən informasiya cəmiyyətinə keçid prosesi yaşanmaqdadır. Bundan çox-çox əvvəl isə, XVII əsrdə sənaye inqilabı dalğası vüsət almışdı.

Həmin mərhələdə su və buxar mühərrikləri geniş şəkildə istifadə olunmağa başladı. Dəmiryol şəbəkəsinin inşası ilə birlikdə yük daşıma və nəqliyyat xərcləri aşağı düşdü. Paralel olaraq, dəmir və polad istehsal edən zavodlar sənayeləşmədə önəmli rol oynamağa başladı. Bir sonrakı mərhələ isə, daxili yanma mühərriki, elektrik enerjisi və müxtəlif kimyəvi maddələrin istehsalat prosesində geniş istifadə edildiyi mərhələdir.

50-ci illərdən başlayan və 90-ci illərdə öz inkişafının ən üst mərhələsinə çatan "elektron dövrü" artıq yerini, media, dijital şəbəkə və yeni texnologiyaların istehsalat proseslərində daha aktiv olduğu "yeni iqtisadiyyat" deyilən bir mərhələyə buraxıb. "Yeni iqtisadiyyat" informasiyanın əldə edilməsi, emalı və yayılması proseslərini əhatə edir. Yeni iqtisadiyyatda informasiya əsas istehsal faktoru olaraq ön plana çıxmaqdadır. Yeni iqtisadiyyat sahələrində intellektual sərmayə bəşəri və fiziki sərmayəni tamamlamaqdadır.

Bu gün yaşanan bütün bu proseslər sanki intibah dövrünün yaşandığı XVII əsri xatırladır. Mətbəə ixtira olunmamışdan əvvəl dünyadakı bütün kitabların sayı 30 minə qədər idi. Gutenbergin mətbəəni ixtira etməsindən sadəcə 20-30 il sonra dünyada 10 milyona qədər kitab çap olundu. Kitab çapının artması nəticəsində elmə, sənətə, ixtiralara maraq intibaha yol açdı. Bənzər situasiya bir az fərqli şəkildə bu gün də yaşan-

---

* *16 mart 2004.*

maqdadır. Yeni texnologiyaların inkişafı informasiya mübadiləsini və informasiyanın paylaşılmasını sürətləndirməkdədir. Getdikcə bu proses daha geniş vüsət almaqdadır. Məsələn, kompüter yaddaşının maya dəyəri ildən-ilə aşağı düşməkdədir. 1993-cü ildə 20 Mb 900 ABŞ dollarına ekvivalent olduğu halda, artıq 1998-ci ildə 4 Gb 300 ABŞ dolları dəyərində idi. Və bu proses davam etməkdədir. Kompüter yaddaşı artdıqca qiymətlər daha sürətlə aşağı düşməkdədir.

İnformasiya cəmiyyətinə keçid iqtisadi inkişafı sürətləndirməkdə və bu proses ənənəvi istehsal faktorlarında dəyişikliklərə yol açmaqdadır. Sənaye iqtisadiyyatında investisiyaların əsasını maşın və avadanlıq, fabrik və zavod binası kimi əsaslı fondlar tutarkən, günümüzdə investisiyalar əsasən informasiyanın artırılması, yayılması və insan zəkasının geniş şəkildə istehsal prosesinə cəlb edilməsinə istiqamətlənmişdir.

İnformasiyanı daha geniş şəkildə istifadə edən şirkətlər pul və mal dövriyyələrini 2-3 dəfə artırmış, eyni zamanda şirkət işçilərinin sayı 25 faiz azalmışdır. Bu onu göstərir ki, informasiya və yeni texnologiyaların geniş şəkildə istifadə olunduğu sahələr başqalarına görə daha sürətlə inkişaf etməkdə və getdikcə bu sahələr ölkələrin iqtisadiyyatlarının əsasını təşkil etməkdədir. Statistik göstəricilər informasiya sahələrindəki beynəlxalq ticarətin təbii resurslar beynəlxalq ticarətindən 5 dəfə daha sürətlə inkişaf etdiyini göstərir. İnformasiya əsaslı əmtəə və xidmətlərə artan tələbat qlobal iqtisadiyyatın strukturunu dəyişməkdədir. İnformasiyanın rəqabətdə üstünlüyü təmin etməsi onu bütün sahələrdə əhəmiyyətli idarəetmə vasitəsinə çevirmişdir. İnformasiyanı geniş şəkildə istifadə edən şirkətlərin maliyyə göstəriciləri analiz edildiyində informasiya idarəetməsinin nə qədər vacib olduğu təsdiqlənməkdədir. Kommunikasiya, software, biotexnologiya kimi sahələrdə fəaliyyət

göstərən şirkətlərin əsas fondlarının dəyəri həmin şirkətlərin bazar dəyərinin 5-10 faizini təşkil etməkdədir.

Kompüter proqramlaşdırma sahəsində fəaliyyət göstərən "Microsoft"un bazar dəyəri, fiziki mülkiyyətinə görə dünyanın ən böyük şirkəti olan "General Motors"un bazar dəyərindən 8 dəfə çoxdur. "Microsoft" 2 milyar dollar miqdarında olan fiziki mülkiyyəti ilə 500 milyard dolar miqdarında bazar dəyərinə sahibdir. Yəni, şirkət bu bazar dəyərini maliyyə hesabatlarında görünən fiziki mülkiyyətlə əldə etməmişdir. Şirkətin bu dəyəri əldə etməsinin səbəbi mühəndislərinin kodlar və yeni proqramlar yaratması, müştəriləri ilə qurduğu əlaqələr və sahib olduğu sistemlər; ümumi ifadəsiylə informasiyadır. Ən bariz nümunəsi "Microsoft" olmaqla bərabər, yeni iqtisadi mühitdə buna bənzər nümunələr çoxdur. Başqa sözlə, şirkətlərin yeni zənginliyi və dəyər mənbəyi informasiya, yəni intellektual sərmayədir.

Yeni iqtisadiyyatın əlamətləri dünya birjalarında daha yaxşı hiss olunmaqdadır. 10 il bundan əvvəl dünyanın ən böyük bazar dəyərinə malik 20 şirkətinin arasında informasiya sahəsində fəaliyyət göstərən 2-3 şirkət var idi. Bu gün isə tamamən fərqli vəziyyət yaranıb. İndi artıq bu siyahının başında "Microsoft", "İntel", "Oracle" kimi yeni iqtisadiyyatın əsas şirkətləri yerləşib və 20 ən böyük dəyərə malik şirkətlərin 17-si informasiya sahəsində fəaliyyət göstərən şirkətlərdir.

Dünya sürətlə yeni iqtisadiyyatın qanunlarına uyğunlaşmaqdadır və şirkətlər bu istiqamətdə özlərini yeniləməkdədirlər. Artıq rəqiblərindən bir addım önə keçmək üçün şirkətlər informasiyanın əldə edilməsi, emalı və ötürülməsi ilə daha sıx əlaqədə olmalıdır.

# İctimai transformasiyada informasiyanın rolu*

*Xəzər Bəşirov*

İnsanoğlu kainatda mövcud olduğu gündən bəri sahib olduğu mürəkkəb beyin quruluşu, üstün düşünmə qabiliyyəti və əldə etdiyi bilikləri praktik həyata tətbiq etmə bacarığı sayəsində mütəmadi bir inkişaf prosesi keçmişdir. Bu inkişaf prosesi insanlığın (bəşəriyyətin) ibtidai cəmiyyətdən, informasiya cəmiyyəti halına gəlməsi ilə nəticələnmişdir. Elm adamları insanın inkişaf prosesini müəyyən sınma nöqtələrinin müəyyənləşdirdiyi bir neçə mərhələ içərisində izah etməyə çalışmış və cəmiyyətin xüsusiyyətlərini buna görə sinifləşdirmişdir.

Bu sinifləndirmələr içərisində ən məşhuru elmi auditoriyalarda daha çox qəbul edilən birinin, məşhur futurist Alvin Tofflerin sinifləşdirməsidir. Toffler tarixi inkişaf prosesini ictimai strukturda əsaslı transformasiyanın yaşandığı üç dalğa şəklində ələ almış və bu dalğaların dönüş nöqtəsini müəyyənləşdirmişdir.

Bu dönüş nöqtələrindən ilki kənd təsərrüfatında baş verən inqilabdır ki, təqribən on min il əvvəl meydana gəlmiş bu inqilabla insan mənimsəmə və ovçuluqdan oturaq həyat tərzinə keçmiş və kənd təsərrüfatı cəmiyyəti formalaşmışdır. İkinci dönüş nöqtəsi isə 17-ci əsrin sonlarından etibarən Qərbi Avropada başlayan və təsiri qısa müddət ərzində bütün dünyaya yayılan sənaye inqilabıdır ki, bu da sənaye cəmiyyətini ortaya çıxarmışdır. Tofflerin üçüncü dalğa olaraq adlandırdığı – informasiyanın əhəmiyyətinin artdığı və ən önəmli istehsal

---

* *28 fevral 2004.*

amillərindən birinə çevrildiyi - informasiya cəmiyyətinin başlanğıc nöqtəsi isə dəqiq bilinməməklə birlikdə bir çox elm adamı tarix olaraq 1950-ci illəri göstərməkdədir.

İctimai transformasiyanı rəmziləşdirən bu üç dalğanın da ortaq xüsusiyyəti hamısında informasiyanın lokomotiv qüvvət olmasıdır. İbtidai cəmiyyətlər inkişaflarını qarşılaşdıqları təhlükələri aradan qaldırmaq məqsədi ilə, qazandıqları bilik və təcrübənin işığında təbiəti öyrənmə səyinə borcludurlar. Kənd təsərrüfatında baş verən inqilabın ortaya çıxmasında təcrübəyə dayanan bu biliklərin böyük rolu olmuşdur. Kənd təsərrüfatındakı inqilabdan sənaye inqilabına qədər olan prosesin çox uzun sürməsinin əsas səbəbi, informasiyanın keyfiyyətindəki dəyişmənin gecikməsi, təcrübəyə dayanan informasiyanın elmi biliklərə çevrilə bilməməsidir. Sənaye inqilabı isə, informasiyanın keyfiyyətcə xarakterini dəyişdirərək elmi biliklərə çevrilməsi nəticəsində ortaya çıxmış, ictimai və iqtisadi strukturda ciddi dönüş yaratmışdır.

İnsan beynindəki təkamül sayəsində kənd təsərrüfatı cəmiyyəti, sənaye cəmiyyəti sayarkən, 1950-ci illərdə yaşanan inkişaf prosesi informasiya cəmiyyətinin doğmasına zəmin hazırlamışdır. Məşhur futurist Peter Druckerin ifadəsi ilə, sənaye inqilabı nəticəsində qol gücünü əvəz edən informasiya, Taylorun idarəetmədəki inqilabından sonra iş prosesinə tətbiq olundu. 1950-ci illərdən etibarən isə informasiyanın informasiyaya tətbiq olunması ictimai transformasiyaya zəmin hazırlayaraq informasiya cəmiyyətini yaratdı. Bu cəmiyyətdə zənginliyin başlıca mənbəyi və ən əhəmiyyətli istehsal amili informasiyadır. İnformasiyaya sahib olan, onu istehsal edən, ictimai həyatın hər sahəsinə tətbiq edərək effektivliyini və səmərəliliyini artıran cəmiyyətlər inkişafa öncüllük etməkdədirlər.

Artıq informasiya mütəmadi olaraq yenilənməkdə, çox sürətli bir şəkildə dəyişməkdə, dəyişmənin gerisində qalan cə-

miyyətlər isə bunun ağır hesabını ödəməkdədirlər. Bu gün elm və texnologiyadakı inkişaf o qədər sürətlə cərəyan etməkdədir ki, bir elm adamı üçün beş il sonrasını belə proqnozlaşdırmaq və bu mövzuda qəti bir fikir bəyan etmək olduqca çətin və karyerası baxımından təhlükəlidir. Çünki elm inkişaf etdikcə doğru olanlar dəyişməkdə, dəyişən doğrular isə elm adamlarını görüşlərini yenidən nəzərdən keçirmək zərurəti ilə üzləşdirməkdədir. Yaxın tariximiz dəyişmənin sürətini diqqətdən qaçıran, hər biri öz sahəsində mütəxəssis olan şəxslərin yanlış, hətta oxuduğumuz zaman gülməkdən özümüzü saxlaya bilməyəcəyimiz proqnozlarının nümunələri ilə zəngindir.

Məsələn, Amerikan Patent Dairəsi kimi yeniliklərin qeydiyyata alındığı bir qurumun başqanı Charles H.Duell 1899-cu ildə "Artıq yeni heç nə yoxdur. İcad edilə biləcək hər şey icad edildi." demişdir. Fəqət bu sözlər söyləndikdən sonra dünyada nələr dəyişmədi, nələr icad edilmədi ki?

Yenə, 1949-cu ildə, "Popular Mechanics" jurnalında "Kompüterlər gələcəkdə bəlkə də cəmisi 1.5 ton ağırlığında olacaqlar." deyə bir ehtimal irəli sürmüşdür. Bəlkə də bu o dövr üçün insanlarda həyəcan yaradan bir ehtimal idi. Bu gün dizüstü kompüterlər, cib (mobil) kompüterlər keyfiyyət baxımından 1940-cı illərin kompüterləri ilə müqayisə olunmayacaq qədər bacarıqlı və sürətli olmaqla bərabər, çəki olaraq da o dönəmdə xəyal ediləndən belə çox yüngüldür. Hər halda 50 il əvvəl, dünyanın ən dəyərli və hər kəs tərəfindən qəbul edilən elm adamlarından biri qalxıb da, 50 il sonra kompüterlərin sürətinin və bacarığının milyard dəfələrlə artacağını, çəkisinin isə 1.5-2 kiloqrama qədər düşəcəyini söyləsəydi hamı onun ağlına şübhə edərdi.

Bu gün həyatımızın bir hissəsi halına gələn, çoxumuzun evində, iş yerində mövcud olan və zamanımızın önəmli qismini bölüşdüyümüz kompüterlər haqqında 1977-ci ildə Digital Equipment Corp.un başqanı Kenneth Olsen "İnsanların evlə-

rində kompüter saxlamaları üçün hər hansı bir səbəb görmürəm." demişdir. Həqiqətən də belədirmi? Şəxsi kompüterimizdə bir proqramın çökməsi bizim işlərimizi tamamən axsada biləcəyi kimi, internetə bağlana bilmədiyimiz zaman özümüzü dünyadan təcrid edilmiş sayırıq. Bir sözlə, İnformasiya və Telekommunikasiya Texnologiyalarında (İKT) yaşanan sürətli inkişaf, bizi texnologiyadan tamamən asılı hala gətirmişdir. 27 il əvvəl evdə saxlanılması zərurəti hiss edilməyən, hətta saxlanılmasına ehtimal belə verilməyən kompüter bu gün həyatımızın bir hissəsidir.

Yuxarıdakı misallardan da gördüyümüz kimi, informasiyanın yenilənmə sürətini və ictimai transformasiya üzərindəki təsirlərini nəzərdən qaçıraraq bir ehtimal irəli sürmək yanlış olar. Lakin hər zaman keçərli olan qəti bir ehtimal irəli sürmək istəsək, informasiyanın bütün dönəmlərdə işə yaradığını və ictimai transformasiyanın başlıca mənbəyi olduğunu söyləyə bilərik. Bizim vəzifəmiz isə, informasiyadan yararlanaraq ictimai transformasiyanı gerçəkləşdirmək, inkişafa nail olmaq üçün əlimizdən gələni etmək və bu ehtimalın nə qədər doğru olduğunu bir daha isbatlamaqdır.

# Həqiqi inkişafa gedən yol*

*Mətin Həsənov*

Cəmiyyətdə, eləcə də iqtisadiyyatda hər şey hərəkətdə olsa da inkişafda deyil. İnkişaf qanunauyğunluq deyil, bəlkə də bu mifik bir fenomendir. Bunun üçün həqiqətən də qeyri-adi "nə isə" etmək lazımdır. Məhz cəmiyyətin inkişafı da bu "nə isə"-ni harada axtarmasından asılıdır. İlk baxışda bu yol gedilmiş yolu yamsılamaq, təkrarlamaq cəhdi olardı.

Bu gün qərb ölkələrinin nisbətən köhnəlmiş texnologiyalarını, iqtisadi fəaliyyətin təşkili formalarını tətbiq etmək öz-özlüyündə inkişafdır, amma inkişaf etmək deyildir. Çünki bu yamsılama kiminsə daimi irəlidə olduğunu qəbul etməkdir. Əsl inkişaf isə daim irəlidə olmağa cəhdlə şərtlənir. İnkişaf nisbi anlayışdır. Bu nisbilik insan tələbatının sonsuzluğa uzanması qədərdir.

İqtisadi tarix göstərir ki, dünya əhalisinin əksər hissəsinin yaşadığı "inkişaf etməkdə olan" ölkələr heç də inkişaf etmir. Bu tip ölkələr neqativ effekt yardan çevrənin kənarlarından çıxa bilmirlər (cercle vicieux). Başqa sözlə yaratdıqları və düşdükləri bu diabolik zəncirdə nəyin və kimin inkişaf etməkdə olduğunu görmək mümkün deyil. İllərdir borclanan bu ölkələrdə qloballaşan mühitdə yalnız çevrə üzərində hərəkət yox, geriyə, mərkəzə doğru qaçma təhlükəsi daha ehtimal olunandır, nəinki onların fəaliyyəti ilə pozitiv effekt yaradan və zaman keçdikcə mərkəzə yox, irəliyə, yəni daha geniş müstəvi (cercle vertueux) üzərinə keçmələri.

Bəs biz hansı spiraldayıq? "Cercle vicieux", yoxsa "cercle vertuex" də?

---

* *27 mart 2004.*

Suala qəti cavab vermək çox çətindir. Nəzərə alsaq ki, böyük və görünməmiş iqtisadi artım yaşayırıq, ölkənin xarici borcları təhlükəli səviyyədə deyildir, belə təsəvvür yarana bilər ki, birinci spiralda deyilik, amma ikincidə olduğumuzu da əminliklə demək olmaz.

Məhz cəmiyyətin və dövlətin də rolu pozitiv effekt yaradan sistemə transformasiyanın sürətləndirilməsindən ibarətdir. Burda fiziki baxımından sürətlə keçməmək gec keçməklə deyil, ümumiyyətlə keçə bilməməklə nəticələnir.

İdeyanın fonunda o durur ki, nəyinsə bir nöqtədən digər nöqtəyə pozitiv keçidi mütləq deyildir. Ölkənin bu qədər resurslara malik olub hökmən inkişaf edəcəyi inamının özünü asanlıqla doğrultmamaq ehtimalı böyükdür.

Qərb ölkələri bu gün 2 faizlik iqtisadi artım axtarışındadırlar. Biz də cəmiyyət olaraq neft gəlirlərini mənimsədikdən sonra bu gün bizə mütləq görünən ətraf sabah kifayət qədər nisbiləşəcək və bu gəlir bitdikdən sonra 2 faizlik iqtisadi artım məqsədində olacağıq.

İndi məhz həmin dövrə hazırlaşmaq lazımdır. Bu isə yer üzərindəki ən mükəmməl varlıq olan insanın potensialından asılıdır. Yalnız insan özünü mükəmməlləşdirdikcə ətrafını da dəyişmiş olur. Bu da elə inkişaf deməkdir. Cəmiyyətdəki insan davranışlarını da iqtisadi münasibətlərin doğurduğunu nəzərə alsaq, yolumuz aydınlaşır: Təhsilin əvəzedilməz rolu sayəsində insanın öz inkişafına nail olmaq.

Bu gün yalnız bilgi çağının prinsiplərinə köklənmək bizə imkan verə bilər ki, dinamik spiralda fəaliyyət göstərək. İkinci və optimal yol budur. Yalnız belə iqtisadiyyat dəyərin əlavə dəyər yaratmasına və onun da yenidən əlavənin əlavəsini yaratmasına şərait yarada bilər.

Cəmiyyətdə inkişaf və iqtisadi artım anlayışları bəzən qarışdırılır. Bu fərq yalnız terminoloji mənada deyil, eyni zaman-

da konseptual baxımdan insan və dövlət davranışında geriləməyə səbəb olan effekt yarada bilər. Hazırda ərəb ölkələrinin varlı olması onların inkişaf etdiyinə dəlalət etmir. İnkişaf kəmiyyət göstəricisi olan iqtisadi artımdan daha geniş anlayış olub daha güclü səy tələb edir. İnkişaf iqtisadi artımın keyfiyyətləndirilməsidir.

Bu eyni zamanda inkişafda "kim" və "nə"yin qarşılıqlı struktur dəyişikliyidir. "Kim"in, yəni insanın struktur dəyişikliyi onun beyin strukturunun, başqa sözlə düşüncə tərzinin dəyişməsidir. "Nə" isə bu beynin öz ətrafının strukturunu iqtisadi artımın təkanverici qüvvəsi ilə dəyişməsidir.

Sənaye dövründə bu anlayışları fərqləndirən elementlər (məsələn, əhalinin tərkibi, sənaye, kənd təsərrüfatı, xidmətin payı və s.) öz yerini daha əhəmiyyətli olan bir göstəriciyə, bilginin payı deyilən bir anlayışa verməkdədir. Bu isə tamam başqa davranış tələb edir və fərqli bir davranış doğurur.

# Bilgi İqtisadiyyatı, Texnologiya və İnnovasiya*

*Natiq Sabiroğlu*

Məşhur futurist Alvin Toffler istehsalatda heyvan gücünün tətbiqi ilə "Aqrar İnqilab"ın (birinci dalğa), qol gücünün (fiziki əmək) tətbiqi ilə "Sənaye İnqilabı"nın (ikinci dalğa) və nəhayət beyin gücünün (insan kapitalı) tətbiqi ilə də "Bilgi İnqilabı"nın (üçüncü dalğa) gerçəkləşdiyini söyləməkdədir.

Rus iqtisadçısı Nikolay Kondratiyevin (1925) izindən gedən Joseph Schumpeter "Ardıcıl Sənaye İnqilabları" və ya "Ardıcıl Texnoloji Dəyişmə Dalğaları" olaraq adlandırdığı texnoloji transformasiyaların bir-birini əvəz etməsini ortalama olaraq yarım əsrlik inkişaf dövrlərinə ayırmışdır. Hər dövr bir meta-paradiqmaya dayanmaqdadır. 1990-cı illərdən sonra başlayan və bilgi iqtisadiyyatı, yeni iqtisadiyyat, elektronik-iqtisadiyyat, rəqəmli (dijital) iqtisadiyyat və ya çəkisiz iqtisadiyyat (weight-less economy) kimi terminlərlə ifadə edilən çağda təməl istehsal faktoru mikro-elektronikadır.

Bilgi çağı mübahisələrində ciddi bir əlavə dəyər yaradan William Knoke "Cəsur Yeni Dünya: 21-ci Əsrin Əsas Yol Xəritəsi" (Bold New World: The Essential Road Map to the 21st Century) adlı kitabında qeyd edir ki, mənimsəmə və natural iqtisadi dönəmlərdə, insanlar ya istehsalatla məşğul deyildilər, ya da istehsal etdikləri sadəcə özlərini təmin edirdi. Yəni iqtisadi münasibətlər sıfır (nöqtə) boyutlu idi. Daha sonra torpaq yolları üzərində ticarətin inkişafı ilə düz xətli iqtisadi münasibətlərə yəni, birinci boyuta (bir ölçülü müstəviyə) keçildi. Su kanalları və dəniz yollarının ticarətdə önəmli hala gəlməsi ilə,

* *24 iyun 2005.*

iki boyutlu (iki ölçülü müstəvi) iqtisadi münasibətlər ortaya çıxdı. Daha sonra, insanoğlunun yerin cazibə qüvvəsindən qurtularaq təyyarəni icad etməsi və kosmosa çıxması ilə, iqtisadi münasibətlər üç boyutlu (üç ölçülü müstəvi-fəza) hala gəldi. Və nəhayət, internetin icad edilməsi ilə məkansız (virtual) və qismən də zamansız iqtisadi münasibətlərin təməli qoyulmuşdur. Yəni artıq dördüncü boyutda yaşayan məkansız və zamansız cəmiyyətə keçmişik.

Əkinçilik cəmiyyətində geniş ailələr (qəbilə, tayfa və s.) ictimai həyatın ən sadə və ən müqəddəs vahidləri idi. Daha sonra sənaye cəmiyyətinə keçilməklə çəyirdək ailə (ata, ana və uşaqlar) ictimai həyatın ən müqəddəsi halına gəldi. Və nəhayət, bilgi cəmiyyəti insanı müqəddəslərin müqəddəsi halına gətirdi.

Maraqlıdır bilgi çağına keçməyimizə rəğmən, iqtisadi ədəbiyyatda bilginin iqtisadi inkişaf və artım, məşğulluq səviyyəsi, xarici ticarət, məhsuldarlıq və s. kimi makro və mikro-iqtisadi təsirlərini araşdıran və analiz edən çalışma olduqca məhduddur. Ümumiyyətlə, mal və xidmətlərin texnoloji ömrünün gedərək qısaldığı bir zamanda bu problem, sadəcə bilgi iqtisadiyyatı ilə deyil, texnologiya araşdırmaları ilə də bağlıdır. Jewkes və digərlərinə görə, iqtisadçıların böyük əksəriyyətinin texnoloji dəyişmə və inkişaf mövzularını - və fikrimizcə, bilgi iqtisadiyyatını - araşdırmamaqlarının üç səbəbi mövcuddur:

- İqtisadçıların texnik elmlər və texnologiya mövzusunda cahilliyi;
- Bütün zamanlarını qısa dönəmli konyunktura hərəkətləri ilə məşğulluq problemlərinə ayırmaları;
- İstifadə edilə biləcək statistikaların olmaması.

Chris Freeman və Luc Soeteyə görə, keçmişdə icadların, kəşflərin və yeniliklərin, günümüzdə də bilgi iqtisadiyyatı çalışmalarının ehmal edilmiş olması, sadəcə iqtisadçıların bu

mövzudakı məlumatsızlıqlarından və ya digər iqtisadi sahələrdəki fəaliyyətlərindən qaynaqlanmamaqdadır. İqtisadçılar daha çox öz versiyalarının və ümumən qəbul edilmiş düşüncə sistemlərinə bağlılıqlarının qurbanıdırlar. Bu düşüncə sistemi, bütün yenilikləri "ekzogen" olaraq qəbul etməkdə idi. Yəni, icad və kəşflər şəxsi keyfiyyətlər nəticəsində təsadüfən ortaya çıxmaqdadır. Məsələn, James Watt çaynikdən çıxan buxarı görüb təsadüfən buxar makinasını, Isaac Newton başına alma düşməsi ilə yerin cazibə qüvvəsini kəşf etmişdir və s. Halbuki çaynikdən buxar çıxmasını Wattdan əvvəl də müşahidə edənlər olmuşdu. Alma daha öncə də bir çoxlarının başına düşmüşdü. Dolayısilə, bu önəmli kəşflər təsadüfi deyildi. Ayrıca bu icadçılar kəşflərini sadəcə doğuşdan gətirdikləri xüsusiyyətlərə deyil, daha çox sonradan sistematik öyrənmə yolu ilə əldə etdikləri bilgilərə borcludurlar. Qısaca, həm Watt, həm də Newton, çox dahi doğulsaydılar belə, bu sistematik təhsil olmadan icadçı ola bilməzdilər.

Günümüzün iqtisadi artım nəzəriyyələri texnologiyanı və dolayısilə bilgini artıq "endogen" olaraq qəbul etməkdədirlər. Yəni nəzəri araşdırma – icad - praktiki inkişaf - innovasiya prosesi artıq sistematik və koordinasiyalı fəaliyyətlərin məcmusudur. Bu gerçəyi anlayan firmalar özlərinin müstəqil R&D departamentlərini qurmaqdadırlar. Qısaca, Marxın makinalar haqqında söylədiyi elmin sənaye sisteminə "giriş nöqtəsi" günümüzdə firmaların R&D (research and development) departamentləri üçün keçərli bir tərifdir. Hesablamalar R&D üçün xərclənən hər 1 ABŞ dolarının yeni makinalara xərclənən hər bir dollara nisbətlə səkkiz qat daha yüksək qazanc gətirdiyini ortaya qoyur.

Əvvəllər bilgi fiziki malların bir kölgəsi idi. İndi isə bilgi artıq mallardan tamamən qopmuş və özünə xas bir gerçəklik qazanmışdır. Məsələn, əvvəl mağazaya gedib bir paltar aldığımızda, o paltarla bağlı bütün informasiyanı (marka, qiymət,

ölçü, keyfiyyət tərkibi və s.) üstündəki kağızdan əldə edə bilirdik. Günümüzdə öncə internet üzərindən bir paltar ilə əlaqədar bütün informasiyanı əldə edirik, daha sonra kredit kartı ilə paltarı satın alırıq.

Burada qısa bir haşiyə açıb informasiya (information) və bilgi (knowledge) arasındakı fərqi vurğulamaq lazımdır. Belə ki, informasiya üzərində işlənmiş və istifadəyə hazır hala gətirilmiş, parçalar halında kodlana bilən, rahat bir şəkildə əldə edilən və hər kəsin anlaya biləcəyi bir tərkibə sahibdir. Bilgi isə, daha texnik, əldə edilməsi daha çətin və əldə edilsə belə anlaşılması çətin olan bir tərkibdədir.

Bəzi tarixçilər elm və texnologiyanın avtonom və bir-birlərindən böyük ölçüdə müstəqil proseslərdə inkişaf etmiş iki alt-sistem olduğu görüşünü müdafiə etməkdədirlər. Bu iki alt-sistemin fərqli məsləklər tərəfindən fərqli metodlarla ortaya çıxdığı fikri doğrudur. Belə ki, elm adamları üçün yeni bilginin elmi kriteriyalara uyğunluğu və elmi jurnallarda nəşri daha önəmlidir. O bilginin tətbiq edilə bilmə imkanı isə ikinci dərəcədə önəmlidir, hətta bəzən tamamən ehmal edilə bilər. Fəqət mühəndislər və texnoloqlar üçün bu durumun tam tərsi keçərlidir. Onların birinci öncəliyi işə yarayacaq bir praktikanın mümkün olmasıdır.

Reallıqda isə bu fərqli metodoloji xüsusiyyətlərinə baxmayaraq, bunlar arasında qarşılıqlı bir əlaqə mövcuddur. Dolayısilə prosesin tək yönlü hərəkətini ifadə edən "elmə dayalı" (science-based) texnologiya terminin yerinə "elmlə əlaqəli" (science-related) texnologiya, termini daha uyğun bir ifadədir. Yəni elm texnoloji inkişafı təmin etdiyi kimi, texnoloji dəyişmələrdən də öz nəsibini alır.

Son olaraq qeyd edək ki, icadlardan sonra sənaye praktikası (innovasiya) üçün keçən müddət getdikcə azalmaqdadır. Məsələn bu müddət:

- Fotoqraf üçün (1727-1829) 102 il;
- Telefon üçün (1820-1876) 56 il;
- Radio üçün (1867-1902) 35 il;
- Televizor üçün (1922-1936) 14 il;
- Radar üçün (1926-1940) 14 il;
- Atom bombası üçün (1939-1945) 6 il;
- Tranzistor üçün (1948-1953) 5 il olmuşdur.

Son söz əvəzi: Əgər R&D investisiyaları sabit və dəyişkən kapital investisiyalarını keçməyə başlarsa, firmanın bir istehsal mərkəzi olmaqdan çıxıb bir düşüncə mərkəzi halına gəldiyi söylənə bilər. (Fumio Kodama)

# Kapital, yoxsa bilgi?*

*Əkbər Eldaroğlu*

1950-ci illərdə inkişaf etməkdə olan ölkələrin ən əsas problemi, onların yetərli kapital yığımına sahib olmamasıydı. Yaşadığımız XXI əsrdə isə dünya kapital azlığının deyil, tam əksinə kapital çoxluğunun, xüsusilə 1997-ci ildəki Uzaq Şərqi Asiya Böhranında olduğu kimi qısa müddətli kapital hərəkətlərinin yaratdığı böhranın sıxıntılarını yaşayır.

XX əsrin bəlkə də ən mühüm yeniliklərindən biri kapitalın elektronlaşması olmuşdur. Artıq kapitalın 15 saniyədə dünyanı 3 dəfə dolaşdığı bir əsrdə yaşayırıq. Bu gün milli dövlətlər kapital üzərində nəzarəti təmin edə bilmirlər. Bununla bərabər, milli dövlətlər artıq informasiyanı da nəzarətdə saxlaya bilmirlər. Təbii ki, bunu da təmin edən son illərdəki, informasiya və telekommunikasiya texnologiyalarında baş verən yeniliklərdir. Bu yeniliklər ayrıca milli dövlətlərin sütunlarını da laxlatmaya başlayıb. Dünya milli dövlət modelindən millət üstü təşkilatlanmalara doğru yelkən açıb.

Günümüzdə gəlir gətirəcək hər bir biznes layihəsi, anında bunu maliyyələşdirəcək kapitalı dünya bazarlarından təmin edə bilməkdədir. Belə ki, özünüzə bir dəst iş kostyumu ala bilmədən, arzuladığınız kapitalı dünya bazarından anında təmin edə bilərsiniz. Yetər ki, gəlir gətirəcək bir proyektiniz olsun.

Torpaqdan asılılıq dövrünün ardından, qol gücünə dayanan sənayeləşmə dövrü geridə qaldı. XIX əsrin iqtisad elmi istehsalın əsas amillərinə torpaq, kapital və əməyi daxil edirdi. XX əsrin əvvəllərində təşəbbüskarlıq da bu sıraya qoşuldu. XX əsrin sonlarında isə istehsalın beşinci və həm də əsas amili rolunda bilgi çıxış edir. Bilgi, XXI əsrdə xalqların qarşısında du-

---

* *29 iyun 2005.*

ran ən böyük mübarizə mənbəyi olacaqdır. Çünki, dünyada gəlir əldə etməyin forması da dəyişmişdir. Bu əsrdə bilgiyə investisiya qoyaraq, yenilik yarada bilənlər rəqabət edə biləcəklər.

Bütün inkişaf etmiş ölkələrdə universitetlər elmi araşdırmaların aparıldığı, müstəqil qurumlar kimi fəaliyyət göstərirlər. Çünki elmi araşdırma eyni zamanda yenilikləri öyrənmə və özünü inkişaf etdirmə fəaliyyətidir. Araşdırmaçı, çalışması sırasında bir çox yeni bilgiləri öyrənir və ayrıca, göstəriciləri seçmə, qruplaşdırma, analiz etmə və təhlil kimi sahələrdə qabiliyyətini inkişaf etdirir.

Araşdırma hər şeydən əvvəl insana nizamlı çalışma və sistemli düşünmə vərdişi qazandırır. Deyilə bilər ki, insanın dünya görüşünü zənginləşdirən, hadisələrə baxış bucağını genişləndirən amillərin başında araşdırma və tədqiqat yer almaqdadır. İsraildə 6 milyon əhali 1 ildə 9 min 167 məqalə, İsveçrədə isə 7 milyon əhali 13 min 605 elmi məqalə yayımlayır. Türkiyədə isə 75 milyon insan bir ildə sadəcə 3 min 774 elmi məqalə ortaya qoyur. Təəssüf ki, Azərbaycanda belə bir statistika ilə tanış olmaq cəhdlərimiz boşa çıxdı.

Ayrıca da Almaniyanın Hamburq şəhərində 1978-ci ildə qurulan, 1999-cu ildə 3500 tələbəsi, 100-dən yuxarı professoru, 500 müəllimi olan universitet təqribən ildə 100 patent alaraq həm elmin həm də iqtisadiyyatın lokomotivi olmaqdadır.

Bizdə isə universitetlər Sovet dövründə olduğu kimi təhsili ikinci planda tutmaqla daha çox mütləq doğruları və doqmaları olan, kvant fəlsəfəsindən uzaq qurumlar kimi fəaliyyət göstərirlər. Hansı ki, tək fikrin hakim ideologiya olduğu cəmiyyətlərdə nə elm inkişaf edə bilir nə də azad düşüncə.

Əslində insan inkişaf indeksinə görə dünyanın 91-ci ölkəsi olmağımız müasir çağın tələblərinə cavab verə bilməyən təhsil sistemimizdə axtarılmalıdır. Çünki, dünyamız ideologiyaların

deyil, elmin hakim olduğu bir mərhələyə qədəm qoyub. İndi bilgini əldə rəhbər tutanlar və bununla bəslənməyi bacaran cəmiyyətlər zəngin və özgür yaşamaq haqqına sahibdirlər.

Bu gün bunları düşünmək belə, heç olmasa dünənə görə daha ağıllı olmaq deməkdir.

# Əsl inqilab*

*Bəhruz Məmmədli*

"The Economist" jurnalının 17-23 sentyabr tarixli ingilis dilindəki sayının üz qapağında bu sözlər yer alıb: "How the internet killed the phone business". Yəni internet telefon biznesini necə öldürdü? Bu ifadə telefon biznesi üçün ölüm mənasına gəlsə də bizə görə böyük bir inqilabdır. Bəs səbəb nədir?

Bunu yaxşı başa düşmək üçün belə bir müqayisə aparaq. Çox deyil, 7-8 il bundan əvvəl birinə klassik mənada məktub göndərmək üçün poçt xidmətindən istifadə edirdik. Məktub gedəcəyi yerdən asılı olaraq müxtəlif nəqliyyat vasitələri ilə daşınırdı. Bir məktubun lazım olan ünvana çatması üçün ən azı 3-4 gün, hətta 1 aya qədər zaman keçirdi. Bəzən isə heç çatmırdı və bizə də nəyə görə çatmadığına dair məlumat gəlmirdi. Ancaq günümüzdə yazdığımız məktubun istənilən ünvana çatmasına 2-3 saniyə kifayət edir. Hamımızın bildiyi kimi, bəhs etdiyimiz elektron məktubdur (e-məktub). Burada tamamilə fərqli bir texnologiyadan istifadə olunur. Klassik məktubun daşınmasında maşın, qatar, təyyarə kimi nəqliyyat vasitələrindən istifadə olunurdusa, e-məktubun göndərilməsində isə sadə dildə desək, elektrik axımından istifadə edilir. Göründüyü kimi, e-məktubun daşınmasında istifadə olunan texnologiya tamamilə başqa bir məntiqə dayanır. Buna informasiya və kommunikasiya texnologiyaları deyirik. Bu texnologiya klassik məktub göndərmək üçün istifadə edilən texnologiyanın inkişaf etdirilmiş forması deyil; tamamən fərqli, inqilabi xarakterli, yeni bir texnologiyadır.

* *6 oktyabr 2005.*

Yuxarıdakı prosesə paralel olaraq yaşanan bir inqilab da internetin, telefonun yerini almasıdır. Bu inqilab "VOIP" və "Skype" texnologiyası sayəsində baş verib. "VOIP" (voice over internet protocol) - internet üzərindən səs ötürülməsi, yəni telefon əlaqəsi mənasına gəlir. "VOIP" texnologiyasına dayanan "Skype", bu yaxınlarda "eBay" adlı internet üzərindən kommersiya fəaliyyəti göstərən bir firma tərəfindən 2,6 milyard ABŞ dollarına satın alındı. "Microsoft", "Apple" və "AOL" da bu texnologiyalara fokuslanıb. Bu texnologiya ilə, internet üzərindən bir dəqiqəlik telefon danışığının qiyməti beynəlxalq zənglər də daxil olmaqla cəmisi 2 sentdir. Hal-hazırda "Skype" hər gün 150 minə yaxın yeni müştərini heç bir investisiya qoymadan üzv edə bilər. Çünki, müştərinin öz kompüteri və internet əlaqəsinin olması kifayətdir. Yəni, "Skype" baxımından yeni bir müştərinin yaradacağı məsrəf (marjinal məsrəf) sıfırdır. Mümkün olduğu qədər çox müştəri daha çox qazanc əldə olunması deməkdir. Bu fakt rabitə firmalarının köhnə iş modellərinin sonunun gəldiyini göstərir. Müştərilər baxımından isə daha keyfiyyətli və daha ucuz olan rabitə mənasına gəlir.

Bəs yeni model necə olmalıdır? Yeni iş modeli "VOIP" texnologiyasına dayanmalıdır. Belə ki, artıq ABŞ-da "VOIP" xidməti verən və 3 milyon müştəriyə sahib olan 1100 firma var. Yaponiyada bu rəqəm 8 milyondur. "Skype" 54 milyon müştəriyə sahibdir. Dünyada köhnə telefon rabitəsi sistemi telefon görüşməsinin müddəti və qarşı tərəfin uzaqlığından asılı olaraq artan bir məbləğ tələb edən bir iş modelinə sahib idi. "VOIP" bu iki faktoru əhəmiyyətsiz qılır. Mütəxəssislərin fikrinə görə, mobil telefon və sabit telefonlar (ev və iş telefonları) tamamilə "ölməyəcək", ancaq tələbi və gəliri gedərək azalacaq və buna paralel olaraq da bu firmaların bazar qiymətləri ucuzlaşacaq. Bunun qarşısını almaq üçün rabitə firmaları da

"VOIP" texnologiyalarına keçməlidirlər. Hətta bəzi rabitə firmaları artıq müştərilərinə sabit bir qiymətlə xidmət göstərmək təşəbbüsünü də başlatmışlar. Ancaq Çin kimi bəzi ölkələr "VOIP" texnologiyalarını qadağan etməklə problemi həll etdiyini fikirləşir.

Mütəxəssislər mobil telefonların sabit telefonlarından daha çox zərər görəcəyini fikirləşirlər. Çünki mobil telefonların xidməti daha çox səs məhsulundan ibarətdir və xidmət haqqı sabit telefon haqqından bir neçə dəfə çoxdur.

Yuxarıda qısa da olsa rabitə sektorunda inqilab mənasına gələn innovasiyaları açıqlamaya çalışdıq. Məsələyə sırf iqtisadi cəhətdən baxsaq, bu sahədəki innovasiyaların əhəmiyyəti, daha az məsrəflərlə daha çox tələb yaradılması, rabitə firmalarının keyfiyyətli xidmət göstərməsi və bu firmaların bazar qiymətlərini qoruması və artırmasından ibarətdir.

Maraqlıdır, Azərbaycanın rabitə sektoru inqilaba hazırlaşırmı?

# Telefon biznesi rəqabətə hazırlaşırmı?*

*Bəhruz Məmmədli*

Son məqaləmizdə "VOIP" (voice over internet protocol) texnologiyasından bəhs etmişdik. "VOIP" - internet üzərindən səs ötürülməsi, yəni telefon əlaqəsi mənasına gəlir. İnternet texnologiyasındakı bu innovasiya sayəsində dünyanın istənilən nöqtəsi ilə çox ucuz qiymətə danışmağın mümkün olduğunu bildirmişdik. Rabitə şirkətlərinin gələcəkdə rəqabət apara bilmələri üçün bu innovasiyaları mənimsəmənin zəruriliyini vurğulamışdıq. Bu məqalədə isə mövzunun daha konkret məqamları üzərində dayanmaq istəyirik.

İnternet üzərindən telefon əlaqəsi əsasən "Skype" texnologiyası vasitəsi ilə həyata keçirilir. "Skype"dan müxtəlif ölkələrə zəng etmənin faydasının nə olduğu yəqin ki, hamı üçün maraqlı olar. "Skype"ın internet səhifəsində bununla əlaqədar bir qiymət cədvəli var. Bəzi ölkələrə zəng etmək nisbətən baha olsa da, internet və rabitə infrastrukturunun yaxşı inkişaf etdiyi ölkələrə telefon açmaq qat-qat ucuzdur. Fikrimizi əsaslandırmaq üçün həmin cədvəldən bəzi ölkələrlə bir dəqiqəlik danışıq qiymətlərini seçdik. Qeyd edək ki, qiymətləndirmədə çox sadə bir prinsipə riayət edilir. Başqa sözlə, burada əsas məsələ haradan yox, haraya zəng etməyinizdir.

Dünyanın istənilən ölkəsindən Azərbaycanla sabit telefonla (ev-ofis telefonları) "Skype" üzərindən danışmağın qiyməti bir dəqiqə üçün 21,2 sentdir. Azərbaycandakı hər hansı mobil telefonla danışığın bir dəqiqəlik qiyməti isə 23,7 sentdir. Bu qiymət Rusiya ilə 4,8, Moskva ilə 2,1 (mobil 4,9), Türkiyə ilə 13,7,

---

* *22 oktyabr 2005.*

İstanbulla 6,8 (mobil 21,3), İranla 13,3 (mobil 16,8), ABŞ-la isə cəmisi 2,1 sentdir. Danışıqlar üçün əlavə dəyər vergisini yalnız Avropa Birliyi ölkələrinin vətəndaşları ödəyirlər. Bu qayda digər ölkələrin vətəndaşlarına şamil edilmir, yəni onlar heç bir əlavə dəyər vergisi ödəmirlər. Telefon danışıqlarının hazırkı tarifləri ilə müqayisədə bu, olduqca ucuzdur. Bizi "VOIP"dən bəhs etməyə məcbur edən də məhz bu reallıqlardır.

Bəzi ölkələrdə telekommunikasiya şirkətləri artıq "VOIP" texnologiyasını mənimsəməyə başlayıblar. Ancaq buna "Ludizm" məntiqi ilə qadağa qoyan Çin kimi ölkələr də mövcuddur. Əlbəttə, belə davranış çıxan günəşin qabağını almaq istəyindən başqa bir şey deyil. Ona görə də bunu əngəlləməyə çalışmaqdansa, zəruri hazırlıq tədbirləri görmək daha rasional davranış olar.

Rabitə şirkətlərinin "internet biznesi"nin qabağında duruş gətirməsi yalnız və yalnız onların yenilikçi dəyişiklikləri həyata keçirməsi ilə mümkün ola bilər. Bu, bizim ölkəmiz üçün də keçərlidir. Çünki ölkəmizdə internetdən istifadənin genişlənməsi və onun tariflərinin enməsi ilə birlikdə rabitə şirkətlərinin daha da çətin vəziyyətə düşə biləcəyini proqnozlaşdırmaq elə də çətin deyil. Məsələn, keçən ay "Barmek Azərbaycan Elektrik Şəbəkəsi MMC"-nin prezidenti Azərbaycanda reallaşdıracaqları bir layihə sayəsində internet tariflərinin iki dəfə düşəcəyini söylədi. "Dünyada analoqu olmayan" layihə kimi təqdim olunan bu layihənin əslində analoqu var. Amma təbii ki, onun Azərbaycanda da olması çox gözəl olardı. Bu layihənin digərlərindən fərqi və üstünlüyü internetə elektrik xətləri vasitəsilə qoşulmasındadır. Əlbəttə, reallaşacağı təqdirdə bu layihə Azərbaycanda internet istifadəçilərinin sayını da artıracaq. Əgər "Skype" istifadəçisi üçün bir kompüter və internet xəttinin yetərli olduğunu nəzərə alsaq, bu durum ilk baxışda rabitə sektoruna bir zərbə kimi görünə bilər. Ancaq zəruri

hazırlıqlar həyata keçirilsə, rabitə şirkətləri rəqabət gücünü qoruya biləcəklər. Bu rəqabətdən ən çox qazanan isə heç şübhəsiz ki, ölkə vətəndaşları olacaq.

Azərbaycanda rabitə sektoruna son zamanlar yeni investisiyaların qoyulduğunu və radikal innovasiyaların planlaşdırıldığını da qeyd etmək lazımdır. Belə ki, NJN şəbəkəsi (Ən Son Şəbəkə Avadanlığı) texnologiyasının tətbiqi nəticəsində videotelefonlardan hələlik yalnız Bakı ərazisində istifadə olunacaq. Ev telefonu ilə danışan abunəçilər bir-birilərinin video görüntülərini izləyə biləcəklər. Bundan əlavə, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyindən verilən məlumata görə, ev telefonlarından da mesaj göndərmək mümkün olacaq. Digər tərəfdən, ölkədə ADSL (Asimmetrik Rəqəmsəl Abonent Xətti) texnologiyasının tətbiqi ləng də olsa, genişlənməkdədir.

Dünya ölkələrində internet biznesinin, telefon biznesini "öldürdüyünü" iddia edirlər. Ancaq Azərbaycanda rabitə sektoru ilə əlaqədar qeyd etdiyimiz faktlar, hələlik ölkədə telefon biznesinin, internet biznesi ilə rəqabətdə daha üstün olduğunu göstərir. Bu əlbəttə ki, bizdə internetin daha az yayılması və adambaşına düşən kompüterlərin sayının az olması ilə bağlıdır. Əslində bu durum ölkəmizdə rabitə sektoruna yeni texnologiyaları tətbiq etmək və innovasiyaları həyata keçirmək üçün bir fürsət kimi də qəbul edilə və bu layihələr zaman itirilmədən reallaşdırıla bilər.

# E-dövlətə doğru*

*Əkbər Eldaroğlu*

E-dövlət dövlətin vətəndaşlar qarşısında vəzifə və xidmətlərinin elektron rabitə vasitəsilə rahat və təhlükəsiz bir şəraitdə həyata keçirilməsidir. Elektron dövlətdə qeydiyyat vəsiqəsinin, ölkəmizdə olduğu kimi, 1 aya deyil, 1 dəqiqə 52 saniyədə hazırlanması mümkün olur. E-dövlət ayrıca da dövlət vətəndaş münasibətlərinin sürətli, asan, ucuz və təhlükəsiz şəraitdə tənzimlənməsidir. Doğan, ölən, evlənən, boşanan və ölkəni tərk edən insanların sayı hər gün anında izlənə bilir. 2005-ci ildən neçə nəfərin məktəbə başlayacağı, nə qədər insanın səs verə biləcəyi, nə qədər insanın əsgərlik yaşına gəldiyi kimi bilgiləri anında öyrənmək olur.

Kanada və inkişaf etməkdə olan bir ölkə kimi Sinqapur dünyada e-dövlətin ən gözəl modelini formalaşdırıblar. Artıq bizim kimi inkişaf etməkdə olan Ürdün belə bu sahədə böyük uğurlar əldə edib. 1999-cu ildən bu ölkənin yazılım ixracatından əldə etdiyi gəlirlər hər il artmaqda davam edir. 2001-ci ildə 60 milyon dolların 2005-ci ildə 850 milyon dollara yüksəlməsi gözlənilir. Bununla birlikdə, 30.000 insanın bilgi texnologiyaları sektorunda işə cəlb olunması da ayrı bir qazanc saxlamaqdadır. Hansı ki, bizdə aparıcı sektoru olan neft sənayesi gələcəkdə bütövlükdə 30 min insanı işlə təmin edə biləcək. Ürdünün qazancı İsrail və Hindistanla müqayisədə daha azdır. Bilgi sektorunda İsrailin illik qazancı 5 milyard, Hindistanın isə 15 milyard dollar təşkil etməkdədir.

Dünyadakı iqtisadi böhranlar zamanı investisiya qoyuluşları azaldığı təqdirdə, internet istifadəsində və e-ticarətindəki

* *12 fevral 2005.*

müsbət meyllər artmaqda davam edir. Artıq bilgi rahat həyatın, şəffaflığın və dürüstlüyün əsas təminatçısına çevrilmişdir.

Bu gün Qərb ölkələrində internet vasitəsilə mal ticarətində də böyük bir artım yaşanır. Tətil mövsümlərində hədiyyəlik mallar, qalstuk və kitablar internet kanalı ilə ən çox satılan mallar sırasındadır. İnternet vasitəsilə həyata keçirilən hotel, avtomobil və uçuş biletlərin qabaqcadan sifarişi bu günə qədər hər zaman ilk sırada yer aldı.

Amerika Ticarət Odasının məlumatlarına görə, online satışın artım sürəti ənənəvi ticarətdən 19 dəfə daha çoxdur. Ötən il Amerikada e-ticarət həcmi 100 milyard dolları keçdi. 2005-ci ildə internetdən istifadə edən avropalıların 45 faizi internet vasitəsilə ticarət edəcək.

"E-marketer" firmasının araşdırmasına görə, 2004-cü ilin sonu etibarilə dünya miqyasında şirkətlərarası e-ticarət həcmi 1.4 trilyon dollar oldu. Bu rəqəm 2005-ci ilin sonunda isə tam 3.4 trilyon dollara çatacaq.

Sıra artıq internet vasitəsilə seçkilərə çatıb. İnternet vasitəsilə həyata keçirilən və rəsmi orqanlar tərəfindən qəbul edilən ilk elektron seçki Amerikanın Arizona əyalətində, Demokrat Partiyasının əyalət valisi namizədinin seçilməsi sırasında gerçəkləşdi. Biz isə hələ bir dəfə də olsun dünyanın artıq tərk etməkdə olduğu bir sistem üzrə normal seçki keçirə bilməmişik.

Azərbaycan iş adamları və gənc beyinlərimiz dünyadakı yeni fürsətlərdən maksimum dərəcədə pay almaq üçün gecikmədən çalışmalara başlamalıdır. Lakin bu hər şeydən öncə intellektual yaradıcılığın səviyyəsinə bağlıdır. Çünki kompüter insan beyninin düşünmə modelinə əsaslanan bir texnologiyadır. Nə yazıq ki, intellektual yaradıcılığın inkişaf etmədiyi ölkələrdə kompüter və internetdən də təyinatı üzrə istifadə edilməməkdədir. Qol gücünə olan tələb hər gün azaldığı halda, intellektual yaradıcılığa olan tələb artır.

# E-Azərbaycan*

*Bəhruz Məmmədli*

Oktyabrın 21-də ölkə prezidenti tərəfindən "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı (Elektron Azərbaycan)" təsdiq edildi. Proqramın əsasını 2003-cü il fevralın 17-də yenə ölkə prezidenti tərəfindən təsdiq olunmuş "Azərbaycan Respublikasının inkişafı naminə informasiya-kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)" təşkil edir. Son məqaləmizdə Azərbaycanda rabitə və informasiya texnologiyaları sahəsindəki mövcud vəziyyəti bəzi yeniliklərdən də bəhs edərək oxuculara çatdırmağa çalışmışdıq. Ayrıca rabitə sektorunda innovasiyaların həyata keçirilməsinin zəruriliyini qeyd etmişdik.

Haqqında bəhs etdiyimiz dövlət proqramı bu istiqamətdə atılan müsbət bir fakt kimi qeyd edilməlidir. Proqramın məqsədi "Azərbaycanda rabitə və informasiya texnologiyalarının inkişafını təmin etmək və bu yolla ölkənin hərtərəfli tərəqqisi üçün xidmət göstərmək, eyni zamanda informasiya-kommunikasiya texnologiyalarının (İKT) inkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsini təmin etmək, müəyyən edilmiş məqsədlərə və fəaliyyət istiqamətlərinə uyğun olaraq layihələri planlaşdırmaq və icra etmək" dən ibarətdir.

Dövlət proqramında üç istiqamətdə fəaliyyət göstərilməsi nəzərdə tutulur. Birincisi, rabitə və informasiya texnologiyaları sahəsində iqtisadi-struktur islahatlarının aparılmasıdır. Bu islahatlar liberallaşma və tənzimləmə sahəsindəki fəaliyyəti əhatə edir.

---

* *1 noyabr 2005.*

İkinci istiqamət rabitə və informasiya texnologiyaları sahəsində modernləşmə və yeni texnologiyaların tətbiqinin həyata keçirilməsidir. Bu sahədəki fəaliyyət texniki və texnoloji cəhətdən modernləşmə və yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasını nəzərdə tutur.

Üçüncüsü, informasiya cəmiyyətinə keçid üzrə layihələrin hazırlanması və həyata keçirilməsidir. Bu layihələr "elektron hökumət"in formalaşdırılması, İnformasiya Texnologiyaları Texnoparkının yaradılması, milli informasiya təhlükəsizlik sisteminin yaradılması və s. kimi əhəmiyyətli layihələri əhatə edir.

Həyata keçirilməsi planlaşdırılan elektron hökumət layihəsi xüsusi əhəmiyyətə malikdir. Bu layihənin həyata keçirilməsi dövlət idarəçiliyinin təkmilləşdirilməsinə xidmət edir. Ümumiyyətlə, "elektron hökumət" məfhumu dövlət işlərinin elektron mühitə daşınması mənasına gəlir və vətəndaşların dövlətin təklif etdiyi xidmətlərdən 24 saat boyunca internet, mobil telefon, televiziya kimi vasitələrlə faydalanmasını ifadə edir. Layihənin həyata keçirilməsi dövlətin xərclərinin azalaraq daha rentabelli fəaliyyət göstərməsinə səbəb olacaq.

Dövlət xidmətlərindən internet mühitində faydalanılması bürokratiyanın azaldılması, işlərin daha qısa zamanda görülməsi, sui-istifadə hallarının azaldılması ilə nəticələnəcək. Başqa sözlə, daha şəffaf və demokratik idarə şəkli ortaya çıxacaq. Yeri gəlmişkən, "Aztelekom" İstehsalat Birliyinin tabe müəssisələrlə yazışmalarının elektron poçt vasitəsilə aparılması elektron hökumətin tətbiqinə bir nümunə olaraq göstərilə bilər. Məktublar elektron poçt vasitəsilə bir neçə dəqiqə ərzində ünvanına çatır. Bu addım internet istifadəçilərinə çox primitiv görünə bilər. Lakin yeni sistemin tətbiqi ilə "Aztelekom" bir sıra xərclərə qənaət edəcəyi kimi dövlət personalının kompüterə və internetə isinişməsi baxımından da əhəmiyyət kəsb

edir. Digər dövlət qurumlarının da eyni istiqamətdə addımlarına ehtiyac var.

Bəhs etdiyimiz dövlət proqramının qəbulu ilə birlikdə leksikonumuza e-Azərbaycan ifadəsinin daxilolma şansı da doğmuş oldu. Artıq e-Avropa, e-İngiltərə kimi elektron hökumətə doğru irəliləyən ölkələrin sırasına Azərbaycan son sıralarda da olsa daxil olacaq.

Bir dövlət proqramının həyata keçirilməsi, lazım olan maddi vəsaitin ayrılmasından, yaxud da başqa sözlə, maliyyələşdirmə şəklindən çox asılıdır. Ölkəmizin hərtərəfli inkişafı baxımından müstəsna əhəmiyyət daşıyan proqramların həyata keçirilməsi üçün dövlət büdcəsindən də birbaşa ödənək ayrılması, fikrimizcə, daha məqsədəuyğun olardı. Çünki belə olduğu zaman həm daha çox vəsaitin ayrılmasına, həm də xərclərin kontrol edilməsinə imkan yaranır. Məsələyə bu rakursdan yanaşanda Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün nəzərdə tutulan Dövlət Proqramının maliyyələşdirilməsi baxımından bir əskiklik olduğunu deyə bilərik. Belə ki, proqramın maliyyə mənbələri kimi müxtəlif müəssisə və təşkilatların, qeyri-dövlət fondlarının vəsaitləri, beynəlxalq və xarici ölkə təşkilatlarının texniki-maliyyə yardımları, kreditlər, qrantlar, qanunvericiliklə qadağan olunmayan digər mənbələr göstərilmişdir. Belə bir önəmli dövlət proqramı üçün önümüzdəki illərdə dövlət büdcəsindən birbaşa vəsait ayrılmasının vacibliyi açıq şəkildə ifadə edilməmişdir. Halbuki dövlət büdcəsindən vəsait ayrılması bu proqramın həyata keçirilərək e-Azərbaycanın yaradılmasına təminat verərdi.

Ümumiyyətlə, bu proqramım müvəffəqiyyətlə həyata keçirilib-keçirilməməsi eyni zamanda keçmiş Rabitə Nazirliyinin adının dəyişdirilərək Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi adlandırılmasının sadəcə bir ad dəyişikliyi, yoxsa ça-

ğımızın şərtlərinin yaxalanması zərurətini ehtiva edən bir addım olduğunu da göstərəcək.

# Elektron seçkilərin iqtisadi əhəmiyyəti*

*İlkin Sabiroğlu*

İnternet şəraitində həyata keçirilən və rəsmi qurumlar tərəfindən qəbul edilən ilk elektron səsvermə ABŞ-ın Arizona əyalətində, Demokrat Partiyası əyalət valiliyinə namizədini müəyyənləşdirərkən gerçəkləşdirilib. Eyni zamanda elektron seçki Yaponiyada yerləşən Nimi şəhərində də sınaqdan keçirilib. Burada 15000 seçici cib telefonu vasitəsilə səs verib.

Zaman irəlilədikcə elektron seçkinin əhəmiyyəti daha yaxşı anlaşılmaqdadır. Əhalisinin sayına görə dünyanın ən böyük ikinci ölkəsi olan Hindistanda həyata keçirilən Xalq Palatasına seçkilərdə seçicilər seçki qutularına zərf atmaq əvəzinə elektron səsvermə adlanan üsulla kompüterə toxunaraq səs verirlər.

Hindistanda sayı 660 milyonu aşan seçicilər beş turda həyata keçiriləcək olan seçkilərdə kompüter vasitəsilə səs verirlər. Yeni metod ən çox oxuma-yazma qabiliyyəti olmayan hindlilərin işinə yaradı; indiyədək mürəkkəbə barmaq basaraq səsvermək məcburiyyətində qalan yüz milyonlarca seçici artıq kompüterin tuşlarına toxunurlar. Hindistandakı bu beş turlu seçkilər bütün ölkə səviyyəsində üç həftə davam edir. Bunun üçün təqribən 1 milyon ədəd kompüter paylandı. Hindistan kimi böyük bir ölkənin seçkiləri elektron səsvermə vasitəsilə həyata keçirə bilməsi Braziliya, ABŞ, Hollandiya kimi ölkələri də elektron səsverməyə keçməyə təşviq edəcək.

Elektron səsvermənin mühüm iqtisadi əhəmiyyəti də var. Seçici sayının 660 milyonu aşdığı Hindistanda elektron səsvermə kağız istifadəsinə görə iqtisadi cəhətdən ciddi bir qənaətə imkan yaradacaq. Milyonlarca kağız zərflərini əvəz edən kom-

---

* *23 aprel 2004.*

püterlər seçici başına düşən seçki məsrəflərini aşağı salacaq. Meşələri gedərək azalan Hindistanda, seçkilər üçün 8 min ton kağız istifadə olunurdu. Bu rəqəm 16 milyon ağacın kəsilməsi demək idi. Buna qarşılıq, bir kompüterə minlərcə seçici düşür. Ağaclar kəsilmədiyi kimi, eyni kompüter seçkilərdən sonra israf edilən kağızların əksinə, seçkidən sonra digər işlərdə də istifadə edilir.

Elektronik səsvermə sisteminin kağız səsverməyə görə bir digər üstünlüyü də, kağız səsvermədə ortaya çıxan seçki saxtakarlıqlarının önlənməsinə imkan verməsi. Ənənəvi kağız səsvermə qutuları, paramilitar qrupların dövlət hakimiyyətinə rəqib çıxdıqları ucqar sərhəd kəndlərində meydana gələn seçim saxtakarlıqlarına münbit şərait yaradır. Silahlı çətələr, seçki günü seçki mərkəzlərinə hücum edərək səsvermə qutularını ələ keçirir və bir-bir səs verirlər. Ancaq, elektron səsvermə sistemində hər seçici öz fərdi nömrəsini kompüterə daxil etmək məcburiyyətində olduğundan, seçki saxtakarlıqlarının həyata keçirilməsi praktiki olaraq çətinləşəcək. Hindistan Seçki Mərkəzinin üzvləri elektron səsvermənin seçki saxtakarlıqlarını əngəlləyəcəyi ilə bağlı iddialıdırlar. Kompüterlərə yüklənən proqramlar sayəsində saxtakarlıqların və fiziki güc istifadələrinin böyük ölçüdə azalacağına ümid edilir.

Elektron səsvermənin önündəki tək əngəl isə, kompüterdən anlamayan bir xalqın ən önəmli demokratik haqqını kompüter vasitəsilə istifadə edərkən çətinliklər yaşaması. Ona görə də Hindistanda seçki komissiyalarının üzvləri kompüterlərin istifadəsi və bir problem ortaya çıxması durumunda necə davranacaqları mövzusunda kurs keçiblər. Ancaq, milyonlarca seçicinin birdən səsverməyə getdiyi seçki günlərində nə cür texnoloji axsaqlıqların ortaya çıxacağı isə başqa bir mövzudur. Birdən Azərbaycandakı kimi işıqlar və telefon əlaqəsi kəsilsə,

həmçinin hind filmlərində olduğu kimi ani şiddətli hava dəyişikliyi ilə peyk rabitəsi də pozulsa...

Azərbaycanda da elektron seçki keçirilməsi seçkilərin nəticələrinin saxtalaşdırılması kimi təcrübənin önünə müəyyən qədər sədd çəkə, ölkədə demokratik prinsiplərin reallaşmasına öz yardımını göstərə bilər. Bu məsələ "Elektron seçki" İctimai Birliyinin qısa müddət əvvəl "Elektron seçkinin keçirilməsinin müasir Azərbaycanda əhəmiyyəti" mövzusunda keçirilən dəyirmi masada da qaldırıldı. Dəyirmi masada elektron seçkinin müasirliyi və zəruriliyi haqqında danışılaraq, içində seçici haqqında məlumat yerləşdirilmiş kartlar nümayiş etdirildi. Kartın tutumu 256 baytdır. Seçicinin kodu mikrosxemdə yerləşdirilib ki, bunu da xüsusi qurğu vasitəsilə oxumaq mümkündür. Səsvermə zamanı həssas monitorda (sensor) seçdiyin namizədin şəklinin üstünə barmaq toxundurmaqla səs vermək olar. Bu qurğular seçki bitdikdən sonra xüsusi nömrələnmiş protokolları da çap edir. Elektron səsvermənin bir özəlliyi də bundadır ki, 50 il istifadə oluna bilər. Bundan əlavə, seçici ölkənin istənilən yerindən, 3 yolla - mobil telefon, seçici kartları və evdən çıxmadan televizorun pultundan istifadə etməklə - səs verə bilər. Belə ki, bu zaman seçici müəyyən kanallara siqnallar göndərməklə səs verir. Seçici 24 saat ötəndən sonra kimə səs verdiyini saat və saniyəsinədək öyrənmək imkanına da malikdir. Səsvermə tam anonim şəkildə həyata keçirilir. Seçkinin elektronlaşdırılması iqtisadi baxımdan da sərfəlidir. "Belə ki, hər bu cür kartın ən bahası 5 sentə başa gəlir. Seçki zamanı çoxsaylı müşahidəçiyə də ehtiyac qalmır".

# İctimai transformasiya və texnoloji inkişaf*

*Bəhruz Məmmədli*

"The Economist" dərgisi və IBM tərəfindən həyata keçirilən bir araşdırma olan Texnoloji İnkişaf reytinqində Azərbaycanın ən son pillədə olduğu qeyd edilib. Yeni texnologiyaların bütün dünyaya yayılmağa başladığı, hətta bəzi ölkələrin informasiya çağını yaşadığı iddia edilən bu günlərdə Azərbaycanın Yeni Çağa keçidi təmsil edən texnoloji inkişaf göstəriciləri baxımından sonuncu yerdə olması çox məyus edicidir.

Bu məqalədə haqqında böyük həsəd ilə bəhs etdiyimiz texnoloji inkişaf və yeni çağ ifadələri ilə nəyi nəzərdə tutduğumuzu və daha da önəmlisi bunlardan nəyə görə çox bəhs etməli olduğumuzu aydınlığa qovuşdurmaq istəyirəm.

Tarixə nəzər yetirdiyimiz zaman texnoloji inkişaf ilə əlaqədar 3 önəmli hadisənin cəmiyyətləri səciyyələndirdiyini görə bilərik. Bunlar əkinçilik inqilabı, sənaye inqilabı və informasiya texnologiyaları inqilabıdır. Bu inqilablara uyğun olaraq cəmiyyətləri aqrar cəmiyyət, sənaye cəmiyyəti və informasiya cəmiyyəti (və ya sənaye sonrası cəmiyyət) olaraq adlandırmaq mümkündür. Aqrar cəmiyyətə keçişi, kotan və yel dəyirmanının kəşf edilməsi nəticəsində torpaq işləri və əkinçiliyin mexanikləşməsi təmsil etməkdədir. 1768-ci ildə James Wattın icad etdiyi buxar maşını, kömür, polad, montaj xətti və böyük zavodlar sənaye cəmiyyətini səciyyələndirmişdir. İnformasiya cəmiyyətinə keçişi təmsil edən və informasiya texnologiyaları inqilabına səbəb olan texnologiyalar isə kompüterlər, kommunikasiya texnologiyaları, mikro-elektronika, robotlar, bio-tex-

* *15 may 2004.*

nologiya və fiber optiklərdir. Üçüncü mərhələ Texno-ekonomik paradiqmanın Fordist-Taylorist istehsal sistemi və təşkilatlanmasından informasiya və kommunikasiya texnologiyalarının geniş istifadə edildiyi istehsal sistemi və modellərinə təkamülüdür.

Yuxarıda bəhs etdiyimiz inqilabları, yeni meydana çıxdığında ilk olaraq və ya çox gecikmədən həyata keçirən cəmiyyətlər yüksək yaşayış standartlarını əldə etmişlər. 200 il əvvəl sənaye inqilabını ilk həyata keçirən İngiltərə dövrünün ən güclü və rifah səviyyəsi ən yüksək ölkəsi olmuşdur. Daha sonra Almaniya, ABŞ, Fransa və Yaponiya İngiltərəyə yetişmiş və onu geridə qoymuşlar. 19-cu əsrin sonu və 20-ci əsrin başlanğıcında Fransa, Almaniya, İsveç və ABŞ kimya sektorunu inkişaf etdirərək və elektriki yayğınlaşdıraraq iqtisadi inkişafı təmin edən yeni texnologiyaları ortaya çıxartmış oldular. İkinci Dünya Müharibəsindən sonra texnoloji inkişaf sürətləndi və 1920-ci illərdən etibarən istifadə edilən yarı avtomatik montaj xəttinə istinad edən Fordizm yerini avtomatlaşdırmaya buraxdı. Bunu həyata keçirən ölkələr yenə dünya iqtisadiyyatına öndərlik etdilər.

Göründüyü kimi, burada əhəmiyyət kəsb edən xüsusiyyət, dövrün mövcud olan ən son texnologiyalarının istifadə və istehsalını həyata keçirməkdir. Eyni durum günümüzdə yeni texnologiyaları təmsil edən informasiya və kommunikasiya texnologiyalarını əldə etmə prosesi ilə də əlaqədardır. Beləliklə, "yeni çağ cəmiyyəti" olmaq və iqtisadi inkişafı təmin etmək üçün informasiya cəmiyyətini səciyyələndirən informasiya və kommunikasiya texnologiyaları və digər yeni texnologiyaların ilk mərhələdə istifadəçisi və daha sonra istehsalçısı olmaq qaçınılmazdır. Ancaq belə olduğu təqdirdə cəmiyyətlər və ya ölkələr, öz insanlarına iqtisadi və siyasi baxımdan daha yüksək standartlı həyat səviyyəsi vəd edə bilərlər.

Yeni Çağa öz rəngini verən bu yeni texnologiyaların istehsal sistemi və əmək prosesində əmələ gətirdiyi yeniliklərə toxunmaqda böyük fayda var. Belə ki, texnoloji inkişaf səviyyəsi ilə əlaqədar olaraq meydana gələn istehsal sistemi və əməyin təşkilatlanması, cəmiyyətlərin xarakterinə də təsir edir. 1970-1980-ci illərdə ortadan qalxan Fordist-Taylorist sistem - kütləviliyi, enerji yoğunluğunu, standartlaşdırmanı, sabit əmtəə istehsalını, avtomatlaşdırmanı, iyerarxiyanı, təmərküzləşməni, kiçik bir sahədə ixtisaslaşmanı və dövlət idarəsini, nəzarətini və planlamasını vacib qılırdı. Onu əvəz edən Elastiki İstehsal Sistemi, Sadə İstehsal Sistemi, Postfordizm və ya Toyotizm olaraq adlandırılan sistem isə yeni informasiya və kommunikasiya texnologiyaları anlayışına istinad edən informasiya yoğunluğunu, adaptasiyanı, elastikliyi, üfüqi təşkilatlanmanı, informasiyanın sürətli yayılmasını, bir neçə sahədə ixtisaslaşmanı, dövlətin koordinasiya, dəstək və əməkdaşlığını zəruri edir. Yeni sistem kiçik və orta miqyaslı müəssisələr üçün daha münasibdir. İstehsal münasibətlərini Elastiki İstehsal Sisteminin müəyyənləşdirdiyi Yeni Çağa və ya informasiya cəmiyyətinə keçidin motoru kompüterlərdir.

Fordist sistem, xüsusiyyətindən dolayı, daha az təhsil görən və istər əqli, istərsə də fiziki olsun, az bacarığa sahib insanlara ehtiyac duyurdu. Yeni istehsal sistemi və yeni çağımız isə hər tərəfli, bacarıqlı, yüksək təhsilli, qərarlı və daha çox imkan tələb edən insanların hazırlanmasına şərait yaradır. Yeni İstehsal Sistemi sayəsində məhsuldarlıq artmaqda, məsrəflər düşməkdə və bu müsbət tendensiya ortalama əmək haqlarının yüksəlməsində öz əksini tapmaqdadır. Bu da öz növbəsində cəmiyyətin daha çox hüquqi, siyasi və sosial haqq tələb etməsi ilə nəticələnməkdədir.

Yuxarıda ifadə etməyə çalışdığım həqiqətlər bizim ciddi olaraq texnoloji inkişaf mövzusuna diqqət yetirməmizin əhə-

miyyətini ortaya qoyur. Azərbaycanın həm iqtisadi, həm də siyasi inkişafı bilavasitə günümüzün yeni texnologiyalarının mənimsənməsindən keçir. İlk mərhələdə yeni texnologiyaların istifadəsini öyrənməliyik ki, yeni texnologiya inkişaf etdirmək üçün lazım olan bacarıq və vizyona yiyələnək. Ancaq çox təəssüf olsun ki, yeni texnologiyaların bəsit bir simvolu olan internet şəbəkəçiliyində belə xeyli geri qalmamız, qarşımızda qət edəcəyimiz çox uzun bir yol olduğunu göstərir.

# İnkişafın bugünkü lokomotivi – Bilgidir![*]

*Əkbər Eldaroğlu*

Neft sənayesi bilgi çağında ömrünü başa vurmuş sənaye sahələrindən biri hesab olunduğu halda, bizdə iqtisadiyyatın lokomotiv sektoru kimi qəbul edilir. Amma nəzərdən qaçırılır ki, ölkə Küveyt və Səudiyyə Ərəbistanı kimi neft avantajı ilə qismən zənginləşsə də, post sənaye çağında stabil və davamlı inkişafı təmin edə bilməyəcək.

Bunu əslində xarici investisiyaların 70 faizinin neft sənayesinə yatırılması və ixracatda neft və ya neft məhsullarının payının təqribən 90 faiz təşkil etməsinə baxmayaraq, bütövlükdə neft sektorunda, xarici şirkətlər də daxil olmaqla işləyənlərin sayının təqribən 65 min nəfər olması da təsdiq edir. Bu rəqəmin iqtisadiyyatda məşğul olanların ümumi sayında xüsusi çəkisi təqribən 2 faizdir. Lakin ölkənin neft sektorunda 65 min nəfər belə olduqca böyük rəqəm hesab olunur.

Dünya praktikasındakı standartlara görə hər milyon ton hasilata ortalama 1000 nəfər işçi düşür. Xarici neft şirkətlərinin "Əsrin Müqaviləsi" çərçivəsində qurduğu struktur da bu standartlar çərçivəsindədir. ARDNŞ isə ildə 8-9 milyon ton neft hasil edir. Təbii ki, onun strukturuna təkcə hasilat deyil, digər həlqələr də daxildir. Amma ekspertlərin qənaətinə görə hətta bu müəssisələrlə birgə şirkətdə maksimum 30 min adam çalışa bilər. Bu gün isə şirkət lazım olduğundan iki dəfə artıq işçi saxlayır.

Artıq sənaye çağından bilgi çağına keçidin sancıları ölkəmizdə də hiss olunmağa başlayıb. Bu gün baş verənlər əslində sənaye inqilabının və onun aparıcı qüvvəsi olan fəhlə sinfinin hakimiyyətini itirdiyi, bilginin daha çox zənginlik yaratdığı,

[*] *28 fevral 2005.*

mavi yaxalı işçilərin yerini bəyaz yaxalı mühəndislərin aldığı dövrə təsadüf etməkdədir. Artıq inkişaf etməkdə olan ölkələrdə də fəhlə sinfi azalırkən bilgi və xidmət sektorunun "yeni orta təbəqəsi" mütəmadi olaraq inkişaf etməyə başlayıb.

Dünənin aparıcı sektoru olan neft və avtomobil sənayesi yerini informasiya və telekommunikasiya texnologiyalarına təslim edir. 1920-ci illərin əsas istehsalı olan avtomobildə xammal və enerjinin payı 60 faiz olduğu halda, bilgi çağının əsas istehsalı olan mikro-mexanizmlərdə xammal və enerjinin payı 2 faizdir. Bu onu göstərir ki, XXI əsr "çoxlu neft ehtiyatı olan, ən çox avtomobil istehsal edənlərin deyil, ən sürətli və güclü mikro-mexanizmləri ən ucuz qiymətə istehsal edən ölkələrin əsri olacaqdır."

Buna görə də "XXI əsrin aparıcı ixtisasları" sırasında "Kompüter Elmi" ilk sırada yer alır. Bu sahədə ixtisaslaşan hər kəsin önü hər yerdə açıq görünür. "Kompüter mühəndisliyi" isə ikinci sırada yer almaqdadır. Kompüterlə əlaqədar olan "Proqram Analitiki" ixtisası isə yeni əsrin aparıcı iş sahələrindəndir. Dördüncü sırada yer alan sahə isə səhiyyə ilə əlaqədardır. Belə ki getdikcə insan ömrü uzandığına görə bu "fərdi və ailə tibb xidmətləri"ni də ön plana çıxardır.

Beşinci sırada yenə səhiyyə ilə əlaqədar olan bir sahə önə çıxmaqdadır. Bu da "Fizioterapiya"dır. Bunun ardınca da "Kompüterlə mətbəəçilik və marketinq" işləri gəlməkdədir.

Bitməkdə olan sənaye dövrü yeni işsiz insan ordusu da yaratdığı halda, OECD araşdırmaları informasiya və telekommunikasiya texnologiyaları sektorunda dünya miqyasında işçi tələbatının 600 min ilə 1 milyon arasında olduğunu göstərir. Araşdırmalar, hələ 2002-ci ildə Almaniyanın 200 min, İngiltərənin isə bu sahədə 90 mindən çox işçi açığı olduğunu ortaya qoymuşdur. Ona görə də Almaniya sadəcə Hindistandan bu sahədə çox sayda mühəndis idxal etmişdir. Hətta Türkiyənin

də 2003-ci ildə bu sahədə mütəxəssis ehtiyacı 30 minin üzərində idi.

Azərbaycan 1000 adam başına düşən 29 kompüter sayısı ilə qonşuları Ermənistan (16) və Gürcüstanı (20) qabaqlasa da, dünya ortalamasının (450-500) çox altındadır. Bunun da əsas səbəbi inkişaf etmiş ölkələrdə informasiya texnologiyalarına yatırılan investisiyaların milli gəlirin 5-6 faizi olduğu halda, Azərbaycanda bu nisbətin 0.001-0.002 faiz belə olmamasıdır.

Halbuki, sənaye çağına keçidin "lokomotivi" buxar maşınları və neft sənayesi idisə, bilgi cəmiyyətinə də keçidin "lokomotivi" kompüterlər olacaq.

# Ensiklopediya və virtual kitabxana*

*İlkin Sabiroğlu*

Dünyanın ən məşhur ensiklopediyası olan "Encyclopedia Britannica" ilk dəfə 1768-ci ildə, yəni 236 il bundan əvvəl 3 cild şəklində İngiltərənin Edinburg şəhərində çap edildi. Britaniya imperatorluğunun genişlənməsinə, ingiliscənin ən yayğın bir dil halına gəlməsinə paralel olaraq inkişaf etdi, yayğınlaşdı. Qərb dünyasının ən məşhur informasiya mənbəyi halına gəldi. 1930-cu illərdə amerikalılar tərəfindən satın alınaraq Chicagoda Chicago Universitetinə bağlı olaraq nəşr edilməyə başladı.

"Encyclopedia Britannica" niyə bu qədər məşhurdur?

Bu ensiklopediya, 1768-ci ildən bu yana dəfələrlə yenilənərək, genişləndirilərək nəşr edildi. "Encyclopedia Britannica", Chicago Universiteti və ABŞ-dakı bir sıra universitetlərlə yanaşı olaraq, Almaniya, İngiltərə, İtaliya, Hollandiya, İspaniya, Fransa, Portuqaliya və Kanadadakı 26 universitetin elmi əməkdaşlığı ilə nəşr edilir. 5 mindən artıq yazar, araşdırmaçı və elm adamının mütəmadi dəstəyini alır. Və ən əhəmiyyətlisi odur ki, içindəki bilik və məlumatların obyektivliyinə kimsə şübhə etmir. Hətta ABŞ məhkəmələri tərəfindən "Encyclopedia Britannica"dakı faktlar dəlil olaraq qəbul edilir.

Azərbaycanın dövlət başçısı 2004 -2008-ci illərdə "Azərbaycan Milli Ensiklopediyası"nın (AME) nəşr olunması haqda sərəncam imzalayıb. Sərəncamda 1976-87-ci illərdə çap olunmuş Azərbaycan Sovet Ensiklopediyasının (ASE) Azərbaycan tarixində bilik və məlumatların bütün sahələrini əhatə edən ilk universal əsər olduğu deyilir. O cümlədən, Azərbaycan dövlət müstəqilliyini qazandıqdan sonra xalqın həyatında mühüm ic-

---

* *17 yanvar 2004.*

timai-siyasi, tarixi, elmi və mədəni dəyişikliklər baş verdiyi və bununla bağlı AME-nin yeni latın qrafikasında hazırlanmasına ehtiyac olduğu vurğulanır.

Dövlət başçısı həmçinin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" sərəncam imzalayıb. 2004-cü ildə latın qrafikası ilə çapı nəzərdə tutulan əsərlərin siyahısı sərəncama əlavə olunub. Siyahıda Azərbaycanın klassik ədəbiyyatı, dünya ədəbiyyatı, eyni zamanda, lüğətlər və ensiklopediyalar var. 2005-2008-ci illər üçün də yeni siyahı tərtib ediləcək. Sərəncam ilə yenidən çapı nəzərdə tutulan kitabların mətnlərinin elektron daşıyıcıları və internet vasitələri ilə yayılması, latın qrafikasında "Azərbaycan ədəbiyyatının virtual kitabxanası"nın yaradılması nəzərdə tutulur.

Bütün bunları vaxtilə latın qrafikasına keçidi tənqid edənlərə cavab kimi qiymətləndirmək mümkündür. Çünki belə bir zərurəti yaradan başlıca amillərdən biri sistem dəyişikliyidirsə (sosialst sistemin dağılması), digər mühüm amil də latın qrafikasına keçiddir. Nəticədə, Azərbaycan, əksər yazılı ədəbiyyatının virtual kitabxanasını yarada bilən dünyanın nadir ölkələrindən birinə çevrilə bilər.

Hazırda ensiklopediyaların elektron variantlarından istifadə imkanları genişləndiyindən Azərbaycan Milli Ensiklopediyasının da elektron variantının hazırlanması planlaşdırılır. Ensiklopediyaların mütəmadi olaraq yenilənməsi, nəşri və satışı çox çətin işdir. Lakin elektron variantının yaradılması bu prosesi asanlaşdıracaq. Məlumatları dövri olaraq yeniləmək və internet üzərindən yayımlamaq mümkün olacaq.

Yazımızın əvvəlində də qeyd etdiyimiz kimi ensiklopediyanın dəyərini artıran əsas amil içindəki bilik və məlumatların sıxlığı və obyektivliyidir. Ona görə də yeni nəşr ediləcək ensiklopediyada subyektiv mülahizələrə, şərhlərə yer verilməməlidir.

Bu faktı informasiya çağına doğru bir addım kimi də qiymətləndirmək mümkündür. Bunu izləyəcək ikinci və daha önəmli addım isə bu bilik və məlumatları sərbəst bir şəkildə təhlil edə biləcək azad düşüncə mühitinin yaradılması olmalıdır.

# Markanın və Bill Gateslə görüşün əhəmiyyəti*

*Müzəffər İsmayılov*

Marka və markalaşmaq son illər leksikonumuzda xüsusi yer tutan ifadələr arasındadır. Marka anlayışının sadəcə bir məhsul loqosu ya da qutunun üstündəki emblemdən ibarət olmadığını da artıq çoxumuz bilirik. Markanı əmələ gətirən fikir və fəaliyyətlərin, bir firmanın kimliyini, gələcək proyektlərini, sektordakı mövqeyini bütünlüklə müəyyənləşdirəcək bir əhəmiyyətdə olması və markalaşma anlayışını daha da önə çıxaracağı artıq şübhə doğurmur.

Dünya, piştaxtalarında hər ölkənin məhsul və xidmətlərinin müştərilərə təqdim olunduğu bir "qlobal bazara" bənzəməyə başladı. Dünya bazarında dövlətlərin iqtisadi və mədəni gücü, beynəlxalq arenada marka olmuş məhsul, xidmət və bilgi istehsal edən qurum və quruluşlarından qaynaqlanır. Digər bir ifadə ilə rəqabətdə dövlətləri məhsul, xidmət və bilgi istehsalında dünya standartlarını müəyyənləşdirən qurum və quruluşlar əvəz etdi. Onların rəqabətdə ən güclü və ən təsirli silahı da, illər içində əmələ gələn və köklü dəyərlərə sahib ad ya da markalarıdır. İqtisadi və mədəni dünyadakı uğur və davamlılıq da böyük bir diqqətlə inşa edilmiş markalara əsaslanır.

Silahlardan daha çox markaların savaşdığı dünyada, hətta ordu gücü ilə belə fəth edilə bilməyən ölkələr markalar vasitəsilə "fəth" edilməkdədir. Markalar iqtisadiyyatdan mədəniyyətə, idmandan siyasətə hər sahədə müvəffəqiyyətin mənbəyi, dünya səviyyəsində simvolu və digər tərəfdən həyatın bir par-

---

* *12 fevral 2006.*

çasıdır. Bunu anlayan hər bir şirkət, qurum, təşkilat yeni məhsul və xidmət istehsalına investisiya qoyduğu kimi, firma mədəniyyəti və markalarına da investisiya qoymaqdadır.

İçində yaşadığımız bilgi çağında bir məhsul, xidmət ya da bilginin harada istehsal edildiyi deyil, hansı firma, hansı təşkilat tərəfindən, hansı marka ilə bazara çıxarıldığı önəmlidir. İstehlakçı məhsul və xidmətin Amerikada və ya Yaponiyada istehsal edilməsindən çox keyfiyyətinin təminatı olan markasına baxmaqdadır. Bu səbəbdən, Azərbaycanda da planlı və şüurlu bir şəkildə şirkətlərin markalaşma tədbirlərini həyata keçirmələri zəruridir. Əlbəttə, daxili və xarici bazarlarda markalaşmaq olduqca çətin və uzun bir prosesdir. Bunun üçün olduqca yüksək məbləğlərdə investisiyalara ehtiyac var. Hal-hazırda isə, Azərbaycanda qlobal bir marka olmaq üçün lazımi vizyona və investisiyaya sahib olan firmaların olduğunu söyləmək çox çətindir. Elə buna görə də, maddi investisiyadan çox, intellektual investisiya tələb edən sahələr seçilməlidir. Bunun üçün ilk olaraq uğur qazana biləcəyimiz sahələr müəyyənləşdirilməli və bu yöndə addımlar atılmalıdır. Digər sektorlarla müqayisədə investisiya maliyyətlərinin az olması, buna baxmayaraq yaratdığı "əlavə dəyər"in yüksəkliyi informasiya və texnologiyalar (İT) sektorunu markalaşma baxımından əlverişli qılmaqdadır. Son illərdə Hindistanın da bu yöndə atdığı addımlar və qazandığı uğurlar nümunə olaraq göstərilə bilər.

Bilindiyi kimi, "Microsoft", Bill Gatesin universitet təhsilini yarımçıq qoyaraq, kompüter proqramlaşdırması işinə girməsi ilə ortaya çıxan bir dünya markasıdır. Sənaye cəmiyyətində güclü markaların böyük fabrikləri, geniş torpaqları, zəngin yeraltı və yerüstü sərvətləri və böyük göydələnləri var idi. Qurucusunu dünyanın ən zəngin biznesmeninə çevirən "Microsoft"un gücü isə heç də zəngin təbii ehtiyatlara və böyük maddi sərvətə əsaslanmır. Bu markanın gücünün arxasında yük-

sək səviyyədə təhsil görmüş proqramçılar dayanır. "Microsoft" da həmçinin bina və dəzgahlara deyil təhsilə investisiya qoymaqdadır. İT sektoru yüksək intellektual investisiyaya ehtiyac duyduğu üçün daim inkişafa açıq və ekstern faydası çox yüksək olan bir sektordur. Fərqli məhsul və xidmətlərin markalaşması prosesində təbii və maddi ehtiyatlardan daha çox bilgi və texnologiyaya əsaslanan ehtiyatlar effektli rol oynamaqdadır.

Ötən həftə "Microsoft"un qurucusu Bill Gatesin İstanbula gəlişi və burada dünyadakı ən böyük İnformasiya və Texnologiya mərkəzlərindən birinin qurulması qərarını verməsi, digər tərəfdən, Lissabonda "Microsoft"un dəstəyi ilə keçirilən 9-cu "Avropa Hökumət və İnformasiya Texnologiyaları sahəsi üzrə Rəhbərləri Forumu - 2006" toplantısında, Azərbaycanın Rabitə və informasiya texnologiyaları nazirinin Bill Gateslə görüşü və bu zaman "Microsoft"un Cənubi Qafqazda ilk ofisinin Azərbaycanda açılacağının bildirilməsi bizim üçün bir fürsət olaraq görülməlidir.

Nisbətən subyektiv bir fikir olsa da, məncə Allahın xalqımıza bəxş etdiyi ən böyük sərvət heç də neft və ya bənzəri təbii ehtiyatlar deyil, yüksək istedada sahib gənclərimizdir. "Microsoft"un Türkiyə və Azərbaycanda belə investisiyaya təşəbbüs etməsi də, regiondakı intellektual potensialın varlığını qəbul etdiyini göstərməkdədir. Bu sərvəti isə indidən hazırlanacaq bir strateji planla doğru zamanda, doğru yönə istiqamətləndirmək lazım gəlir. Burada da üzərimizə düşən ciddi vəzifələr var. Bu vəzifələr nələr ola bilər? İlk başda, ölkədə İT ilə əlaqədar təhsil verən qurumların keyfiyyətinin yüksəldilməsi və tələb olunan standartlara çatdırılması lazım gəlir. Digər tərəfdən, lazımi təcrübəyə yiyələnmək üçün gənclərin xarici ölkələrə göndərilməsi, Silikon Vadisinin Türkiyədə qurulacaq olması səbəbi ilə hər il ali təhsil üçün bu ölkəyə göndərilən tələbələrin İT ilə əlaqədar ixtisaslara istiqamətləndirilməsi

və sayının artırılması, indidən gələcək üçün böyük əhəmiyyət kəsb etməkdədir.

Qlobal bazarda tanınan bir markanın bilgi istehsal edən və ya İT sektorunda fəaliyyət göstərən qurumlardan çıxa bilmə şansının yüksəkliyini nəzərə alsaq, bu yöndə təhsilə investisiya qoymağın əhəmiyyəti daha rahat anlaşılmaqdadır. Çünki, bilgi çağında təhsilə bu gün qoyulan investisiya, gələcəklə birlikdə markaya qoyulan investisiyadır.

# Keyfiyyət nədir?*

*Müzəffər İsmayılov*

Ötən əsrin 50-60-cı illərinə qədər dünyada, istehsal etdiyi məhsulu rahatlıqla sata bilən istehsalçılar üçün ən əsas məsələ daha çox istehsal edə bilməkdi. "Nə qədər çox istehsal etsəm o qədər çox qazanaram" yanaşması keçərli idi. Bu illərdən sonra əvvəlki hakim anlayış, yerini qiymətə buraxmış, qiymət ən önəmli rəqabət vasitəsi olmağa başlamışdı. 80-ci illərdən sonra isə gedərək güclənən rəqabət şəraitində istehsalçıların rəqabət üstünlüyü əldə etmələri üçün müraciət etdikləri faktor, "məhsul keyfiyyəti" oldu. Əlbəttə günümüzdə artıq rəqabət üstünlüyü əldə etmək üçün sadəcə "keyfiyyətli məhsul" yetməməkdə, buna əlavə olaraq müştərini məmnun salmaq və sədaqətini artırmaq üçün fərqli metodlardan istifadə edilməkdədir. Bu məqalədə, "keyfiyyət"ə əlavə olaraq istifadə edilən metodları nisbətən kənarda qoyaraq, bu gün Azərbaycan bazarı üçün aktuallığını qoruyan "keyfiyyət" və ya keyfiyyətli məhsul üzərində dayanacağıq.

Əvvəla qeyd etmək istəyirəm ki, keyfiyyət dedikdə, ağlımıza ilk olaraq məhsul və ya xidmətin keyfiyyəti gəlməkdədir. Ancaq əslində məhsul və ya xidmətin keyfiyyətini bir nəticə olaraq qəbul etdikdə, keyfiyyət sözünə olduqca geniş bir məna yüklənməkdədir. İstehsal prosesində, nəticəyə çatmaq üçün diqqətə alınması lazım gələn faktorların keyfiyyəti də nəzərə alınmalıdır. Burada isə biz olduqca geniş mənada işlədilə biləcək keyfiyyət sözünü, "keyfiyyətli məhsul və ya xidmət" mənasında işlədəcəyik.

Artıq, bazarın tələbləri istiqamətində respublikadakı firmalarının strategiyalarında keyfiyyət ön plana çıxmaqda, demək

---

* *23 iyul 2005.*

olar ki, bütün firmalar tərəfindən keyfiyyət sözü tələffüz edilməkdə, "bizim məhsullarımız keyfiyyətlidir" imicinin yaradılması hədəflənməkdədir.

Bu kəlmə bizə nə ifadə edir? İstehsalçı "məhsul keyfiyyəti" dedikdə nə başa düşür? İstehlakçı "keyfiyyətli məhsul" olaraq, nə gözləyir? Firmaların "bizim məhsulumuz keyfiyyətlidir" deməsi ilə keyfiyyət əmələ gəlirmi? Alıcılar, keyfiyyət olaraq əsas nələrə diqqət etməlidirlər.

Bu kimi və buna bənzər bir çox suala cavab vermək üçün, keyfiyyət mövzusunda bir çox araşdırmalar aparılmış, idarəetmə elmində bununla əlaqəli ədəbiyyatın sayı olduqca artmışdır. Ancaq buna baxmayaraq, keyfiyyət məfhumu fərqli şəkillərdə tərif edilmiş, idarəetmə alimləri tərəfindən ortaq qəbul edilən ümumi bir tərif formalaşmamışdır. Bəzi alimlər keyfiyyəti, "məhsul və ya xidmətdə qüsur və yanlışların olmaması", bəziləri isə "bir mal və ya xidmətdə mükəmməllik dərəcəsi" şəklində tərif etmişlər.

Bunu, "keyfiyyət" məfhumunun ortaya çıxması və inkişafının öncüllərindən biri olan, Joseph M. Juran; "keyfiyyət istifadəyə uyğunluq deməkdir" şəklində tərif etməkdədir. Yəni, Jurana görə bir məhsulun istifadəçisi tərəfindən istifadə edilə bilməsi, onun ehtiyaclarına uyğun şəkildə olması o məhsulun keyfiyyətli olması mənasına gəlməkdədir. Yenə bu mövzunun öncüllərindən hesab edilən Philip B. Crosby də Juranın tərifinə bənzər bir şəkildə keyfiyyəti, "keyfiyyət istənilən xüsusiyyətlərə uyğunluqdur" şəklində tərif etmişdir. Ümumiyyətlə mövzunun anlaşılması üçün bu gün; "keyfiyyət müştərilərin, mal və xidmətdən umduqlarının qarşılanması və hətta daha artığının verilməsidir" şəklində bir tərif geniş olaraq istifadə edilməkdədir. Bu təriflərdən də görüldüyü kimi, məhsulun keyfiyyəti, onun istifadəsindən asılıdır. Yəni istifadəçilərin xüsusiyyətlərinə, istəklərinə və məhsul və ya xidmətdən nə um-

duqlarına bağlı olaraq keyfiyyət şəxslərə görə dəyişməkdə və fərqli anlaşılmaqdadır.

Ədəbiyyatda mövcud olan, xüsusilə istehsalçıları maraqlandıran, digər bir görüşə görə keyfiyyətin tərif edilməsində, məhsulun ortaya çıxarılma prosesi diqqətə alınmalıdır. Buna görə bir məhsulun ortaya çıxma prosesi; istehsal öncəsi fəaliyyətlər, istehsal anındakı fəaliyyətlər və istehsal sonrası fəaliyyətlər olmaqla üç mərhələyə ayrılmaqdadır.

Müəyyən bir keyfiyyəti əldə etmək üçün, istehsala başlamadan öncə, marketinq araşdırması, R&D (tədqiqat və inkişaf etdirmə), dizayn, proses mühəndisliyi və bənzəri fəaliyyətlərin yerinə yetirilməsi, lazımi xammal və materialın alınması lazım gəlir. Bu şəkildə istehsalçı, istehlakçıların məhsulda istədikləri özəllikləri müəyyən edə bilər, bu özəlliklərə uyğun xammal, material və hissələri satın ala bilər. Bu mərhələdə məhsulun "dizayn keyfiyyəti" yerinə yetirilmiş olur. Burada məqsəd, məhsulu istifadə edəcək olan istehlakçıların, arzu və istəklərini, məhsulu nə şəkildə görmək istədiklərini müəyyənləşdirib məhsulun dizaynına əks etdirməkdir. Bu mərhələ tamamlandıqdan sonra növbəti mərhələdə yəni məhsulun istehsal edildiyi mərhələdə, ilk mərhələdə müəyyənləşdirilmiş standart və spesifikasiyalara riayət edilməsinə diqqət edilməlidir ki, burada da "uyğunluq keyfiyyəti"ndən bəhs edə bilərik. Bu keyfiyyət məfhumu, məhsulun, daha öncə müəyyən edilmiş özəlliklərə görə istehsal edilib edilmədiyinin müəyyənləşdirilməsi üçün istifadə edilməkdədir. İstehsal sonrası fəaliyyətləri ehtiva edən son mərhələdə; məhsul istehsal edildikdən sonra onun daşınması, müştəriyə çatdırılması prosesləri və müştəriyə çatdırılarkən və satış sonrası mənimsənən xidmətin keyfiyyətini açıqlamaq üçün qəbul edilən keyfiyyət məfhumu isə "istifadə keyfiyyəti"dir.

Bu görüşə görə, yuxarıda bəhs edilən bu üç keyfiyyət məfhumundan hər hansı birində çatışmazlıq meydana gələrsə, nə-

ticədə ortaya çıxacaq olan məhsulun keyfiyyəti aşağı olacaqdır. Yəni, bir məhsulun dizaynı ən mükəmməl şəkildə həyata keçirildikdən sonra istehsal prosesində də ən yaxşı xammal və materialdan istifadə edilərək daha öncə müəyyənləşdirilmiş standartlara riayət edilməsi yolu ilə mükəmməl hesab edilə biləcək bir məhsul ortaya çıxmış olsa belə, bunun müştəriyə çatdırılması mərhələsində yol veriləcək hər hansı bir qüsur, bütövlükdə o məhsulun keyfiyyətsiz olması mənasına gələcəkdir. Son mərhələdə ola biləcək qüsurlara nümunə olaraq; satış işçilərinin müştərilərə qaba davranması, müştərilərdən gələn şikayətlərin dinlənilməməsi, qüsurlu olan bir məhsulun satıldıqdan sonra dəyişdirilməməsi v.s olaraq göstərilə bilər.

Keyfiyyət bir başqa şəkildə "gerçək keyfiyyət" (quality in fact) və "hiss edilən keyfiyyət" (quality in perception) olaraq da incələnməkdədir. "Gerçək keyfiyyət", adından da anlaşılacağı kimi mal və ya xidmət istehsal edən şəxs ya da firmaların, bunları istehsal edərkən, ən son istehsal metodları və texnologiyadan istifadə etməsi, ən yaxşı xammal və materialı işlətməsi, məhsulun təmizliyinə, uzun ömürlü olmasına, sürətli və effektli olmasına diqqət yetirilməsi və bunlara bənzər faktorları nəzərə almaqla məhsulu ən mükəmməl şəkildə istehsalı, "gerçək keyfiyyəti" ortaya çıxarmaqdadır.

"Hiss edilən keyfiyyət" isə nisbətən subyektivdir, yəni şəxsdən şəxsə dəyişməkdədir. Bir mal və ya xidmətin müştərinin istəklərini qarşılaması halında, "hiss edilən keyfiyyət"dən söhbət getməkdədir. Ümumiyyətlə bir məhsulun görünüşü onun keyfiyyəti haqqında müştəriyə müəyyən bir fikir verə bilər. Ancaq müştəri o məhsulun keyfiyyətli ilə əlaqədar daha çox bilgi sahibi olmaq istər. Əli ilə yoxlamaq, dadına baxmaq, geyinmək v.s istər, çünki müştərilərin bunlarla əlaqədar daha öncədən müəyyən gözləntiləri vardır.

Bir firma yeni bir məhsul istehsal etmək üçün aylar və hətta illər boyu araşdırmalar apararaq yüksək maliyyətlərə qatlana bilər. Ancaq, nəticədə heç kim bu məhsula rəğbət göstərməyə bilər. Buradan anlaşılan, bir məhsulun "gerçək keyfiyyəti"nin üst səviyyədə olmasına baxmayaraq, alıcılar tərəfindən, onların istək və arzularına cavab vermədiyi təqdirdə keyfiyyətsiz olaraq hiss edilməsi hər zaman mümkündür. Buna görə də məhsul istehsal edilmədən öncə müştərilərin istək və arzularını diqqətə almaq və məhsulun istehsalından sonra müştəriləri məhsul və bunun özəllikləri ilə əlaqədar daha çox bilgiləndirmək lazımdır.

Müştərilərinsə ümumiyyətlə məhsul keyfiyyətində diqqət etdikləri və ya etmələri lazım gələn və hiss edilən keyfiyyətin ortaya çıxmasında rol oynayan faktorları; görünüş, etibarlılıq, yetərlilik, güvənlik, dürüstlük, nəzakət, şikayətlərinin diqqətə alınması, müştəriyə dəyər vermə və s. olaraq sıralamaq mümkündür. Digər tərəfdən, müştərilər arasında məhsulun keyfiyyəti ilə əlaqədar geniş şəkildə diqqət edilən digər bir faktor kimi də qiymət göstərilə bilər. Ancaq, malın bahalı olması onun keyfiyyətli olması mənasına gəlmədiyi kimi, keyfiyyətli bir malın bahalı olmasının gərəkliliyi də düşünülməməlidir. Çünki, keyfiyyət üçün yuxarıda verdiyimiz tərifindən də göründüyü kimi, hər hansı bir məhsuldan umduğunu alan bir şəxs üçün o malın keyfiyyətli şəkildə hiss edilməsi təbiidir. Burada qiymət ikinci planda qalmaqda, şəxsin istək və arzuları ön plana çıxmaqdadır. Ancaq yenə də yüksək qiymətli bir malın, yüksək keyfiyyətə sahib olma düşüncəsi müştərilər arasında öz yayğınlığını qorumaqdadır.

Burada vurğulanması lazım gələn başqa bir mövzu, müştərinin keyfiyyəti hiss etməsində satıcıların və reklamın böyük rol oynamasıdır. Satıcıların davranışları və bilgisi ya da bu sahədə edilən reklamlar, müştərinin məhsulun keyfiyyəti haqqındakı düşüncələrinə böyük təsir göstərməkdədir.

Əgər bir mal və ya xidmət istehsalçısı ya da satıcısı, yuxarıda müəyyən edildiyi kimi müştəri istəklərini nəzərə alırsa, onun məhsulu keyfiyyətli olacaq və məhsul həqiqi keyfiyyətin özəlliklərini ehtiva edəcəkdir. Əgər firmanın məhsulu keyfiyyətli olaraq hiss edilməzsə, müştəri məhsulun, umduğunu qarşılaya bilməyəcəyinə inanacaq və satış həyata keçməyəcəkdir. Digər tərəfdən, məhsul və ya satışın gerçəkləşməsi halında isə məhsulda mövcud olan bir qüsur və ya daha sonradan meydana gələn bir çatışmazlığın, istehsalçılar tərəfindən diqqətə alınmaması ya da müştəriyə qarşı davranışların qüsurlu olması, müştəriyə önəm verilməməsi, bir daha o müştərinin eyni satıcıya və ya istehsalçıya müraciət etməməsinə səbəb olacaqdır.

Müştəri qazanmanın olduqca çətin olduğu günümüz rəqabət dünyasında, itirilən bir müştərinin maliyyəti, onun şikayətlərini dinləmək, qüsurlu malını yenisi ilə dəyişmək, gülər üzlü və peşəkar satıcılarla işləməyin gətirəcəyi maliyyətlərdən qat-qat çoxdur. Artıq "satılan mal geri qaytarılmaz" prinsipi ilə ticarət fəaliyyətini davam etdirən "iş adamlarının" bu zehniyyəti dəyişdirmələri, özlərini müştərinin qarşısında deyil yanında görmələri və daim onların "səslərini" dinləmələri zəruri hala çevrilməkdədir. Buna görə də müştərilərin öz hüquqlarını daim müdafiə etmələri, müştəriyə onu "soymaq" üçün potensial şəxs olaraq yanaşan satıcılarla bir daha əməkdaşlığa girməmələri gərəkməkdədir.

# Holdinqlər və Azərbaycanda holdinqləşmə*

*Müzəffər İsmayılov*

Bazar iqtisadiyyatına keçidlə birlikdə leksikonumuza daxil olan kəlmələrdən biri də "holdinq" sözüdür. Bu məqaləmizdə, günlük həyatımızda bir az da prestijli səslənən bu kəlmənin mənası, bununla ifadə edilmək istənən şirkət formasının nə olduğu haqqında müəyyən bir məlumat verərək, holdinqləşmənin respublika üçün əhəmiyyəti, gətirəcəyi mənfi və müsbət cəhətlərə toxunacağıq.

Holdinqlər dünyada ilk dəfə 19-cu əsrin sonları və 20-ci əsrin əvvəllərində ABŞ-da "antitrest qanunlar" ilə trest sisteminin qadağan olunması nəticəsində ortaya çıxmışdır. 1929-da Amerikada artıq bu sistemi qəbul edən əyalətlərin sayı 30-a çatmışdı. Bundan sonra isə bu cür formalaşmalar ardıcıl olaraq Fransa, İngiltərə və Almaniyada qanuni hala gətirildi. Azərbaycanda isə, bu sistemin 1990-cı illərdən sonra əhəmiyyət qazanmağa başladığını söyləyə bilərik. Burada sovet dövründə dünyada holdinqlərin bir forması olaraq qəbul edilən "dövlət holdinqlərinin" olduğunu qeyd etmək yerinə düşər.

Holdinq məna etibarilə ingilis dilindəki, tutmaq, bir araya gətirmək mənasına gələn "to hold" felindən törəyib. Qanunlarda isə müəyyən olunmuş hər hansı bir tərifinə rastlaşmaq çətindir. Ölkəmizdə də istər hüquqi şəxslər haqqında və istərsə də qurulacaq ticari müəssisə formaları haqqında tərtib edilən qanunlarda holdinqlərdən bəhs edilməmiş, sadalanan cəmiyyət formaları arasında holdinq sözünə belə yer verilməmişdir. Sadəcə "Banklar Haqqında" Azərbaycan Respublikası-

* *12 fevral 2005.*

nın Qanununda bank holdinq şirkətindən bəhs edilir. Qanun, bank holdinq şirkətini - bank lisenziyasına malik bir və ya bir neçə törəmə bankı olan, fəaliyyəti baş ofisinin yerləşdiyi ölkənin bank tənzimləməsi orqanları tərəfindən tənzimlənən və nəzarət olunan şirkət şəklində tərif edir. Anlaşıldığı kimi, bank holdinq şirkəti bank sektorunu əhatə edən məhdud bir anlayışdır. Halbuki, holdinq iqtisadiyyatın çox müxtəlif sferalarında fəaliyyət göstərən şirkətləri özündə ehtiva edə bilər. Bəs onda qanunlarda yer almayan ancaq praktikada mövcud olan bu formalaşmanı nə ilə izah edə bilərik? Yoxsa bunlar qeyri qanunidirlərmi? Xeyr, holdinqlərin iqtisadi cəmiyyətlər ilə əlaqəli qanunlarda yer almaması, bunların qanunsuz olmaları ilə əlaqəli deyil, bu şəkildəki quruluşların hər hansı bir hüquqi şirkət şəkli deyil, "şirkətlər arası bir əlaqə forması" olmasından qaynaqlanmaqdadır.

Holdinqləri, mövzu ilə əlaqəli ədəbiyyata nəzər saldığımızda qarşımıza çıxan təriflərdən də istifadə edərək, "Ortaq bir qrup məqsədi üçün birliyi əmələ gətirən şirkətlərin tam birləşməsinə ehtiyac qalmadan, səs çoxluğunu əldə edəcək şəkildə bu şirkətlərin səhmlərini əlində tutan şirkət" və ya "Bir səhmdar cəmiyyətin, digər bir ya da bir neçə alt səhmdar cəmiyyətə, idarələrində söz sahibi olacaq şəkildə iştirakı, yəni bunların səhmlərini alması və idarəetmə şurasında fəal hala gəlməsi forması" şəklində tərif etmək mümkündür. Yuxarıdakı təriflərdən də görüldüyü kimi burada bir neçə nöqtə üzərində durulmaqdadır. Bunlardan ilki, iqtisadi bir bütünlük-iqtisadi bir güc əldə etmək. Digər nöqtə isə başqa bir şirkətə iştirak etməkdir. Bir başqa məqam isə iştirak edilən şirkətin idarəetmə və müşahidə şurasında üstünlük imkanı əldə edilə biləcək şəkildə iştirak etməkdir. Burada vurğulanması lazım gələn bir başqa məsələ isə bir idarə altında toplanan şirkətlərin hüquqi

kimliklərini itirmədikləri və qurulan əlaqənin də davamlılıq göstərdiyidir.

Ümumiyyətlə holdinqlərin qurulmasında, rahat səhm dəyişikliyinə şərait hazırladığı üçün "səhmdar cəmiyyət" forması mənimsənilməkdədir. Holdinqlərin qurulma prosesində, ana şirkət daha öncə var olan alt müəssisələrin səhmlərini əldə etmə yolunu izləyə biləcəyi kimi, alt şirkətlərin birbaşa ana şirkətin özü tərəfindən qurulması şəklində də bir holdinq strukturunun əmələ gətirilməsi mümkündür.

Dünyada qloballaşma hərəkətləri ilə yanaşı şirkətlərin də rəqabət sahəsi genişlənmişdir. Bu sahədə rəqiblərin sayısının gündən-günə artması, qlobal rəqabətdə üstünlük əldə etmə və yüksək rentabelliliyə qovuşma istəyi şirkətləri holdinqləşməyə yönləndirən səbəblərdən bir neçəsidir. Azərbaycanda son illərdə - bir çoxu xarici investorlar vasitəsilə olsa da - bir holdinqləşmə yarışının başladığını müşahidə etməkdəyik. Ona görə də burada holdinqlərin müsbət və mənfi cəhətləri üzərində durmağı vacib hesab edirik.

Holdinqlərin faydalarını və zərərlərini iki tərəfli olaraq, yəni həm ölkə iqtisadiyyatı, həm də şirkət sahibləri tərəfindən dəyərləndirməmiz zəruridir. Belə ki, ölkə üçün faydalı olacaq bir faktor şirkət sahibləri üçün və ya əksinə, şirkət sahibləri üçün faydalı olan bir xüsusiyyət isə ölkə üçün faydalı olmaya bilər.

Ölkə iqtisadiyyatı üçün holdinqlərin faydaları:

- Holdinqlər, böyük şirkətlərin əmələ gəlməsinə yol açaraq sərmayə birjasının inkişafına köməklik edə bilər.
- Holdinqlərin ölkə iqtisadiyyatı üçün bəlkə də ən böyük yararı yeni iş yerlərinin açılmasındakı rolunun çox yüksək olmasıdır.
- Holdinqlər, yeni istehsalat texnologiyalarından yararlanaraq ölkə ehtiyatlarının səmərəli istifadəsinə köməklik edə bilər.

- Holdinqləşmə ilə əmələ gələn böyük şirkətlər, beynəlxalq şirkətlərlə rəqabət gücü əldə edərək həm ölkənin beynəlxalq arenadakı imicinin yüksəlməsinə həm də xarici ölkələrdəki kapital qoyuluşu yolu ilə ölkənin valyuta gəlirlərinin artmasına yol aça bilər.

Holdinq sərmayədarları üçün holdinqlərin faydaları:

- Holdinqlərin sərmayədarlar üçün ən böyük yararlarından biri, az bir sərmayə ilə böyük varlıqlara sahib bir şirkət üzərində söz sahibi olmağa imkan verməsidir.
- Fərqli sektorlarda fəaliyyət göstərən şirkətlərin olması ilə risklər bölüşdürülmüş olur.
- İştirak edilən şirkətlər üzərində daha fəal nəzarət əldə etməyə imkan verir.
- Holdinq strukturu, şirkətlər arası əlaqələrin qurulmasında və böyümədə üstünlük əldə etmə imkanı verir.
- Daha rahat kredit alma imkanı əldə edilir.
- Müəyyən funksiyaların müştərək (məsələn, inşaat, bank və s.) yürüdülməsi nəticəsində maliyyətlər aşağı salınır.
- Səhm satışında güvənlik və rahatlıq əldə edilir.

Ölkə iqtisadiyyatı üçün holdinqlərin zərərləri:

- Holdinqlərin ölkə iqtisadiyyatı üçün ən böyük zərəri, ölkə iqtisadiyyatının "onurğa sütunu" olan KOS'ların fəaliyyət sahələrinə daxil olaraq ortadan qalxmalarına səbəb ola bilərlər.
- Holdinqlər vergi itkisinə də səbəb ola bilərlər.

Holdinq sərmayədarları üçün holdinqlərin zərərləri:

- İdarəçilərin qabiliyyətsiz olması və ya lazımi səviyyədə idarəetmə bacarığına sahib olmaması holdinqlərin inkişafına maneə təşkil edə bilər.
- İşləyənlərin çoxalması nəticəsində onlarla kommunikasiya qurulması çətinləşə və nəticədə idarəetmə zəifləyə bilər.

Yuxarıda ümumi mənada holdinqlərin müsbət və mənfi cəhətləri üzərində durduq. Bunlar əlbəttə daha da genişləndirilə bilər.

Ölkədə mövcud olacaq güclü sərmayəli holdinqlərin respublikanın iqtisadi inkişaf prosesində yüksək rol oynamaları, dünya şirkətləri ilə rəqabətdə ölkə imicini yüksəltmələri, ölkəyə yeni texnologiyanın gətirilməsi, mənimsəyəcəkləri modern elmi idarəetmə metodları ilə digər şirkətlərə nümunə olacaqları və digər bu kimi səbəblərdən belə şirkətləşmələrin ölkə iqtisadiyyatına müsbət təsir edəcəyi şübhəsizdir. Ancaq burada holdinqlərin də sosial məsuliyyəti nəzərdən qaçırmamalarına və "inhisarlaşma"ya yönəlməmələrinə diqqət edilməlidir.

# Yeni dövrə biz hansı şirkətlərlə gedirik?*

*Müzəffər İsmayılov*

"Keçid dövrü qurtardı, yoxsa qurtarmadı? Qurtardısa, hansı dövr başladı?" kimi müzakirələrin aparılması, çox zəruridir. Lakin əsas məsələlərdən biri də keçid dövrünün hansı uğurlu nəticə ilə bitib-bitməməsidir. Yəni biz artıq sərbəst bazar iqtisadiyyatına hazırıqmı? Bu şəraitə bazar iqtisadiyyatının təməl daşlarını təşkil edən şirkətlərimiz hazırdırmı?

Bir anlığa, Azərbaycanda sərbəst bazar iqtisadiyyatının tam mənası ilə formalaşdığını, bütün sahibkarların bərabər rəqabət şərtlərində fəaliyyət göstərdiyini fərz edək. Görəsən, bu gün respublikada fəaliyyət göstərən şirkətlərin, xüsusilə yerli şirkətlərin neçəsi fəaliyyətlərini davam etdirə bilmə qabiliyyətində olacaq? Görəsən, neçə sahibkarımız düzgün strateji qərarları ilə rəqiblərindən fərqlənəcək və rəqabət üstünlüyü əldə edəcək? Görəsən, neçə firmamız ömrünü davam etdirə bilmək üçün yüksək keyfiyyətli məhsulu ən ucuz maliyyətlə istehsal edəcək? Görəsən, neçə şirkətimiz qlobal rəqabətə atılacaq? Görəsən, neçə şirkətimiz beynəlxalq tenderlərə qatılacaq və onlardan qalib olaraq ayrılacaq?

Bu gün, ABŞ-da və eləcədə dünyanın müxtəlif yerlərində, fərqli zamanlarda, şirkətlərin ömürləri üzərində aparılan araşdırmaların nəticəsi, ortalama şirkət ömrünün 15-20 il olduğunu göstərir. Hətta bir araşdırmaya görə, "Fortune" jurnalının "500 ən böyük" siyahısına daxil olan şirkətlərin belə 25 faizi 10 il içərisində ortadan qalxır. Yəni 10-15 ilə əvvəl qurulan bir şirkət artıq bu gün yaşamır - ya iflas edir, ya da başqa bir şirkətə satılır. Bizim şirkətlərin də bundan nəticə çıxarması pis olmazdı.

---

* *18 oktyabr 2005.*

Bu nəticənin müxtəlif səbəbləri arasında ən əsas yeri şirkətlərin "şirkətləşə" bilməməsi və şirkət idarəsinin ailədən ikinci nəslə keçəndə ortaya çıxan problemlər olduğu göstərilir. Bununla yanaşı, informasiya və texnologiya çağının gətirdiyi baş gicəlləndirici dəyişikliklərə elastiki struktura sahib olmamaları səbəbindən uyğunlaşa bilməyən şirkətlər bu dəyişikliyin xaricində qalırlar.

Ümumiyyətlə, Azərbaycandakı firmaların köklü olmaması, ağır, dəyişdirilməsi çətin struktur formaların əmələ gəlməmiş olması səbəbindən, yerli sahibkarlıqlarımız üçün yuxarıda sayılan səbəblərdən, şirkətləşmə məsələsi əsas problem kimi ələ alınmalıdır. Sadəcə, rəsmi qeydiyyatdan keçən şirkət qurmaqla şirkətləşmək mümkün deyil. Şirkətləşmək bir firmada şirkət mədəniyyətinin formalaşması, strukturun qurulması, iş və vəzifə bölgüsünün açıqca müəyyənləşdirilməsi kimi tədbirləri ehtiva edən bir prosesdir. Bir firmada yerləşmiş və hamı tərəfindən mənimsənilmiş dəyərlər və inanclar şirkət mədəniyyətini əmələ gətirir. Bunun üçün firmaların idarəetmə sahəsində bəzi beynəlxalq prinsipləri qəbul etməsi və bunların firma tərəfindən mənimsənilməsi lazım gəlir. Bunun başında şirkətdə insan olaraq bütün işləyənlərə dəyər verilməsi, müştəriyə ən yaxşı və keyfiyyətli məhsul və xidmətin təklif edilməsinin məqsəd olaraq seçilməsi, komanda çalışmasına əhəmiyyət verilməsi, sosial məsuliyyət anlayışına sahib olunması lazım gəlir.

Hər hansı bir firmada müəyyən dəyər və inancların əmələ gəlməsinə ancaq zaman içərisində, təlimlərin – treninqlərin keçirilməsi və mədəni inkişaf yolu ilə nail olmaq mümkündür. Düzdür, şirkətləşmə prosesi çətin, önündə bir çox əngəlin olduğu, maddi vəsait tələb edən bir prosesdir. Ancaq bütün bu çətinliklərindən öncə bunun bir ehtiyac olaraq hiss edilməsi lazım gəlir ki, bu da sahibkarlarda vizyonu zəruri edir. Bu-

nun üçün ən başda lider və üst səviyyə idarəçilərin bir vizyona sahib olması, beynəlxalq dəyərləri tanıması və bu dəyərlərə əhəmiyyət verməsi lazım gəlir.

Lüğəti mənası etibarilə vizyon - qabaqcadan görmə qabiliyyəti, arzu, xəyal mənasına gəlir. Strateji idarəetmədə bir termin olaraq vizyon, şəxslərin və ya qurumların, özlərinin və ya firmalarının gələcəkdə olmasını arzu etdikləri yerin ifadəsidir. Digər bir ifadə ilə vizyon, firmaların çatmaq istədikləri gələcəyin təsviridir. Elə buna görə də vizyon firmanın fəaliyyəti ilə əlaqədar tətbiq ediləcək strategiyalara yol göstərəcək yeganə başlanğıc nöqtəsidir. Bu mənada vizyon firmaların bir hədəfə fokuslanmasını və bu hədəfə yönəlməsini təmin edən bir vasitə olaraq göstərilə bilər. Bununla yanaşı vizyon, daha öncədən müəyyənləşdiriləcək strategiyalar ilə qeyri-müəyyənlik və gözlənilməyən şəraitlərlə üz-üzə qaldığından firmanın nə etməsi lazım gəldiyini ortaya qoyar.

Dünyada müəyyən səviyyəyə gəlmiş uğurlu firmaların ümumi xüsusiyyətləri, strategiyalarını çevrə şərtlərindəki dəyişikliklərə görə müəyyənləşdirə bilmələri ilə yanaşı müəyyən bir vizyon, məqsəd və hədəfə sahib olmalarıdır. Cəmiyyətlərin, ölkələrin, quruluşların və hətta insanların başarı hekayələri incələndiyində hamısının özlərinə məxsus bir vizyonu olduğunu görürük. İş dünyasından Henry Ford (Ford Motor Co.), Konosuke Matsushita (Matsushita, JVC, Panasonic), Robert Bosh (Bosh), Bill Gates (Microsoft), Michel Dell (Dell Computer) kimi təşəbbüskar və sahibkarların vizyonları sahibi olduqları şirkətlərin beynəlxalq aləmdə böyüməsində və inkişafında əsas rol oynamışdır.

"Rotası olmayan bir gəmi" heç vaxt limana çata bilməyəcəyi kimi, vizyonu bəlli olmayan bir firmanın da xaosa, uğursuzluğa yönəlməsi gözləniləndir. Belə firmaların təsadüflərlə uğur qazanmasını, böyüməsini gözləmək səhvdir. Vizyonun mövcudluğu və ya müəyyənləşdirilməsi birbaşa sahibkar və

ya üst səviyyəli idarəçidən asılıdır. Vizyonun mənimsənilməsi və həyata keçirilməsi üçün bir liderə ehtiyac duyulur. Vizyoner lider adlandırılan bu adamların əsas xüsusiyyətləri insanları həyəcanlandıraraq, performanslarını üst səviyyədə tutmalarıdır. Vizyon işçilərin bir hədəfə yönləndirilərək motivasiyalarının artırılmasına da köməklik göstərir. Yuxarıda adlarını saydığımız insanların güclü vizyon sahibi olduqları isə şübhəsizdir.

Gələcəkdə, sərbəst bazar iqtisadiyyatının qanunlarının tam mənası ilə tətbiq edildiyi mühitdə hansı şirkətlərin ömürlərini davam etdirə biləcəkləri sualına gəldikdə isə gələcəyini indidən düşünən, bunun üçün lazımi strategiyaları müəyyənləşdirən, yəni strateji düşünmə qabiliyyətinə sahib olan, özünü gələcəkdə - 20 il, 30 il, hətta 50 il sonra görmək istədiyi yeri zehnində canlandıran və bunu yazılı hala gətirərək işçiləri tərəfindən də mənimsənilməsinə nail olan, ona görə də zamanında şirkətləşmə ehtiyacını hiss edən və bu yöndə addımlar atan, bunun üçün işçilərin lazımi təlim-treninq ehtiyacını zamanında müəyyənləşdirən və bunu gerçəkləşdirən, qısamüddətli gəlirlərin yerinə uzunmüddətli rentabelliyi hədəfləyən sahibkarlara - yəni vizyon sahibi sahibkarlara, liderlərə sahib olan firmalar uzunömürlü olacaqlar.

Çevrənizdəki sahibkarlar və ya liderlər güclü vizyona sahibdirmi? Və ya içində işlədiyiniz təşkilatın - firmanın vizyonundan siz də xəbərdarsınızmı? Siz də o vizyonu mənimsəmisinizmi? Bunlara cavabınız "bəli" isə demək, firmanız sərbəst bazar iqtisadiyyatı şəraitində yüksək rentabelliliklə fəaliyyət göstərməyə ən güclü namizəddir. Azərbaycanın qeyri-neft sektorunu inkişaf etdirə bilməsi üçün xarici rəqabətdən qorxmayan vizyon sahibi şirkətlərə ehtiyacı var.

# Korporativ idarəetmədə inkişafımız niyə ləngiyir?*

*Fariz Hüseynov*

Son vaxtlar beynəlxalq maliyyə təşkilatlarının ölkəmizə sərmayəyə kapital qoyuluşlarının həcmi artmaqdadır. Təsadüfi deyil ki, Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) da ölkəmizlə bağlı strategiyasını artıq daha çox sərmayəyə kapital qoyuluşları üzərində qurmaqdadır. AYİB-in son illərdə "Unibank", "Mikromaliyyələşdirmə Bankı" və bir neçə gün əvvəl "Bank of Baku"ya sərmayə qoyması dediklərimizi təsdiq edir. AYİB-in sərmayə qoyuluşlarındakı məqsədi şirkətin idarəsini ələ keçirmək deyil, korporativ idarəetməni inkişaf etdirməkdir. Çox vaxt AYİB şirkətin səhmlərinin 25 faizini əldə edərək şirkətdə pay sahibi olur. Beynəlxalq maliyyə təşkilatlarının ölkəmizlə bağlı strategiyasında korporativ idarəetmə sahəsi də getdikcə geniş yer tutmağa başlayıb. Korporativ idarəetmə, şirkəti idarəetmə prosesində biznesdə və ya şirkətdə maraqlı olan tərəflərin, xüsusilə də səhmdarların hüquqlarının nə qədər qorunduğunu göstərən qanunlarla maraqlanır. Artıq 26 yanvar 2005-ci il tarixində Beynəlxalq Maliyyə Korporasiyası (BMK) Azərbaycanda korporativ idarəetmə layihəsinin rəsmi açılışını bəyan etmişdir. Bu strategiyalarda əsas yeri banklar tutmaqdadır. BMK daha çox korporativ idarəetmənin hüquqi bazasının güclənməsinə və konseptin tədrisi ilə məşğuldursa, AYİB bilavasitə səhmdar olaraq prosesdə iştirak etməkdədir. Xarici sərmayə qoyuluşları, əsasən, kiçik və orta həcmli şirkətləri kreditlə təmin edən bankları əhatə etməkdə-

---

* *20 oktyabr 2005.*

dir. Bu da həm maliyyə sektorunun, həm də kiçik və orta sahibkarlığın inkişafına kömək edir.

Korporativ idarəetmənin əsas məqamlarından biri az sayda səhmlərə sahib olan səhmdarların hüquqlarının qorunmasıdır. Bu amil şirkətə sərmayə cəlb edilməsi prosesini gücləndirir. Son 10 ilin maraqlı müzakirə mövzularından biri şirkət xaricindən sərmayə qoyuluşlarında hüquqi sistemin əhəmiyyəti olmuşdur. Bu müzakirəni gücləndirən faktorlardan biri "La Porta və digərləri"nin 1997-ci ildə yazdıqları "Şirkət xarici fond təminində hüquqi dəyişkənlər" məqaləsidir. Bu məqalədə müxtəlif ölkələrdə istifadə olunan ümumi hüquq (ingilis sistemi) və mülki hüquq sistemləri (Kontinental Avropa, onların keçmiş müstəmləkələri və Asiya ölkələri) müqayisə edilmişdir. Müəlliflər mülki hüquq sistemindən istifadə edən ölkələrdə şirkətlərin şirkət xaricindən daha az nisbətdə sərmayə cəlb etdikləri nəticəsinə gəlirlər. Buna səbəb kimi mülki hüquq sisteminin az sayda səhmlərə sahib səhmdarların hüquqlarının ümumi hüquq sisteminə nisbətən daha zəif qoruduğu göstərilir. Beynəlxalq maliyyə qurumları inkişaf etməkdə olan ölkələrin hüquq sistemində dəyişikliklər etməklə bu ölkələrdə səhmdar hüquqlarının daha yüksək səviyyədə qorunmasını təmin etməyə çalışırlar. Bu məqsədə gedən mümkün yollardan biri ölkədəki müxtəlif maliyyə qurumlarının korporativ idarəetmə barədə tədrisi, digəri isə bilavasitə az sayda səhmə sahib olaraq hüquqların artırılmasını tələb etməkdir. Təsadüfi deyil ki, birinci yol BMK-nin, ikinci yol isə AYİB-in bu sahədəki fəaliyyətlərinin əsasını təşkil edir.

Bəs korporativ idarəetmə baxımından Azərbaycanda vəziyyət necədir? 2000-ci ildə qəbul olunan Mülki Məcəllədə 2004-cü ilin mart ayında bu istiqamətdə bəzi dəyişikliklər edildi. Eyni ayda qəbul olunan Banklar Qanunu da korporativ idarəetmə barədə müəyyən müddəaları əhatə edir. Yuxarıda

görüldüyü kimi, korporativ idarəetmənin ölkədəki qiymətli kağızlar birjasının inkişafına da paralel təsiri var. Ölkəmizdəki qiymətli kağızlar birjasının reytinqi isə Beynəlxalq Qiymətli Kağızlar Komissiyaları Təşkilatı (BQKKT) tərəfindən "çox aşağı uyğunluq" səviyyəsində dəyərləndirilmiş və həm hüquqi, həm də operativ baxımdan çox aşağı səviyyədə olduğunu bəyan etmişdir. Korporativ idarəetmə hüququ İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına (OECD) üzv olan ölkələrlə müqayisə edildikdə ölkəmizin korporativ idarəetmə reytinqi də "çox aşağı uyğunluq" səviyyəsində qiymətləndirilmişdir.

Bu dəyərləndirmələrə görə Azərbaycan region ölkələri arasında sonuncu yerlərdən birini tutmaqdadır. Son illərdə digər ölkələrdə irəliləyiş olsa da, bizdə elə bir irəliləyiş olmamışdır. Ölkəmizdə əsasən idarə heyətinin vəzifələri və informasiya şəffaflığı göstəricisi çox aşağıdır. İnformasiya şəffaflığını təmin etmək investor cəlbində çox vacibdir. Dövlət şirkətlərin fəaliyyətlərinin nəticələrini hər səhmdara eyni vaxtda və eyni səviyyədə bəyan etməsində maraqlı olmalıdır. Belə olduqda səhmdarlar əldə etdikləri informasiyanın doğruluğuna güvənərək sərmayə qoyuluşu prosesində aktiv iştirak edərlər. Bu da ölkədəki maliyyə fondlarının hərəkətini sürətləndirər. Səhmdarların bərabərhüquqlu qarşılanması da ölkəmizdə problem olaraq qalır. Bu çox sayda səhmlərə sahib olan səhmdarların əlavə hüquqları olduğunu göstərir ki, bu fakt investorları sərmayə qoyuluşundan uzaqlaşdıra bilər. Xarici investisiya qoyuluşu həcminə görə bizdən çox geridə qalan ölkələr korporativ idarəetmə baxımından daha böyük irəliləyişə nail olublar. Ölkəmizə sərmayə qoyuluşunda indiyə qədər həm enerji sektorunun böyük pay alması, həm də böyük həcmli səhmlərin əldə olunması tərəfləri az saylı səhmlərə sahib səhmdarların hüquqlarının qorunmasında maraqlı etməmişdir. Halbuki səhmdar hüquqlarının qorunması kiçik və orta həcmli şirkətlərimizə həm ölkə daxilindən həm də xaricdən sərmayə qoyuluşları-

nı artıra bilər. Bu həm də qiymətli kağızlar birjasının fəaliyyətinə müsbət təsir göstərər. Əks halda qiymətli kağızlar birjası formal xarakter daşıyacaq və təkrar bazar ölü vəziyyətindən çıxa bilməyəcəkdir.

Hər halda beynəlxalq təşkilatlar bilavasitə banklarımıza sərmayə cəlb etməklə bir növ az sayda səhmlərə sahib olaraq qanundakı çatışmazlıqları düzəltməyə çalışırlar. Hökumət gələn il özəlləşdirilməsi nəzərdə tutulan "Beynəlxalq Bank"dakı dövlət səhmlərini AYİB-ə satmağı təklif etmişdir. Belə olacağı təqdirdə AYİB eyni anda bir neçə bankımızda səhmdar olacaq və AYİB-in bu təklifə cavabı maraq doğurur. Çünki "Beynəlxalq Bank" da uzun illərdir ki, inhisarçı mövqeyinə görə diqqətləri çəkirdi. Hər halda özəlləşdirmə zamanı daha çox sayda və fərqli investorları cəlb etmək üçün ölkədə korporativ idarəetmənin səviyyəsi çox yüksəldilməlidir. Hüququn qorumadığı yerə maliyyə vəsaiti çətin gəlir. Bu zaman şirkətlər sərmayə təmini üçün maliyyə bazarlarından lazımınca istifadə edə bilmirlər. Hökumət özəlləşdirdiyi şirkətlərdə beynəlxalq təşkilatlara da müəyyən sayda səhmə sahib olmağı təklif etməlidir. Bu təşkilatlar vasitəsilə səhmdar hüquqları hüquqi bazasının inkişafı daha da sürətlənər. Yenə də vurğulamaq istərdim ki, sərmayə qoyuluşlarının geniş miqyasa yayılması hüquqi bazanın inkişafından çox asılıdır. Çünki sərmayə qoyuluşları sadəcə enerji sektoru ilə kifayətlənməməlidir. Bundan əlavə, sərmayəsini hər hansı bir şirkətə cəlb edən investor da o səhmləri istənilən anda nağda çevirmək imkanına sahib olmaq istəyir. Bu isə təkrar bazara bağlıdır. Beynəlxalq maliyyə qurumları daha çox təkrar bazarda səhmləri tədavüldə olan şirkətlərə sərmayə qoyuluşuna cəlb edilməlidir. Beləliklə təkrar bazarda alqı-satqı həcmi də genişlənər.

# Dövlət payı necə qiymətləndirilir?*

*Fariz Hüseynov*

Özəlləşdirmənin məqsədlərinə çatması baxımından, özəlləşdirilən şirkət dəyərinin düzgün hesablanması böyük əhəmiyyət daşıyır. Qoyulan yüksək məbləğ investorları prosesdən uzaqlaşdırdığı kimi, aşağı məbləğlərdə də dövlət əldə edə biləcəyi dəyərin bir hissəsini itirmiş olur. Şirkət fəaliyyətinin gələcəyi haqda şəffaf olmayan informasiya və istifadə olunan metodların tətbiqindəki xətalar da tərəfləri real dəyərlərdən uzaqlaşdırır. Şirkət qiymətləndirilməsi metodlarından ən çox istifadə olunanları gələcəkdə yaradılacaq dəyərlərin bugünkü dəyərlərlə ifadə edilməsi, yəni qısaca GDBD və şirkət varlıqlarının dəyərinin ölçülməsi metodudur.

Şirkət varlıqlarının dəyərinin hesablanması metodu, hər nə qədər sağlam metod olmasa da, daha çox istifadə olunan metoddur. Bu metod varlıqların məsrəf dəyərləri və yenilənmə dəyərləri nəzərə alınmaqla iki üsulla hesablanır. Məsrəf dəyərləri metodunda şirkətin varlıqlarının əldə olunma dəyərləri amortizasiya nəzərə alınmaqla və borclar çıxılmaqla hesablanır. Yenilənmə metodu isə şirkət varlıqlarının cari bazar dəyərləri nəzərə alınaraq və yenə borclar çıxılaraq hesablanır. Bu qiymətləndirmə metodlarında inflyasiyanın təsiri də hesablanır. Bu metodların mühasibat uçotlarının zəif olduğu şirkət və ölkələrdə istifadəsi dəqiq nəticələr verməyə bilər. Mühasibat uçotlarından daha çox maliyyə axımlarını göstərən uçotların istifadəsi daha məqsədə uyğundur. Bu metodlar həm də gələcəkdə yaradılacaq dəyərləri diqqətə almır. Halbuki şirkətlərin fəaliyyətinə investisiya qoyuluşu və səhmlərinin alınmasında əsas faktor gələcəkdə yaradılacaq dəyərlərdən gözlənilən ar-

* *30 sentyabr 2005.*

tımdan əldə olunan gəlirlərdir. Bu çatışmazlıqları isə GDBD metodu aradan qaldıra bilər.

İnkişaf etmiş ölkələrdə GDBD metodu özəl şirkətlərin birləşmə və satın alma proseslərində və investisiya qoyuluşlarının qiymətləndirilməsində ən çox istifadə olunan metoddur. Bu metodun bir varlığın qiymətini onun gələcəkdə yarada biləcəyi dəyərlərlə ifadə etməsi inkişaf etməkdə olan ölkələrdəki özəlləşdirmə proseslərində istifadə olunmasını çətinləşdirir. Həm gələcəkdə yaradılacaq dəyərlərin təxmini, həm də onları bugünkü dəyərə bərabərləşdirəcək faizin hesablanması çətinlik yaradır. Bu faizi daha çox investisiyadan əldə edilməsi istənilən gəlirlilik olaraq da adlandıra bilərik. Şirkət fəaliyyətinin gələcəyi haqda qeyri-dəqiq məlumat, xüsusilə Azərbaycan kimi maliyyə bazarları zəif inkişaf etmiş ölkələrdə gələcək dəyərləri hesablamada problem yaradır. Belə olduqda hökumət də sahib olduğu şirkətlərin gələcək dəyərlərinin yüksək olacağını vurğulamaqda çətinlik çəkir. Bu təxminlər zamanı bir digər problem də sektorların ümumi həcminin bilinməməsidir. Araşdırmaların azlığı şirkətin məhsullarına potensial tələbi hesablamağa imkan vermir və hesablamalarda xətalar yaranır. Nəticə etibarilə, Azərbaycan kimi ölkələrdə gələcəkdəki dəyərləri hesablayarkən potensial dəyərləri onların əldə olunması ehtimalına görə dəyərləndirmək və ortalama gözlənilən dəyəri hesablamaq daha doğru olacaqdır. Bu da potensial dəyərlərin riskini də qiymətləndirmə prosesinə daxil edəcəkdir. Bu halda isə, riski yüksək olan investisiya qoyuluşundan daha çox gəlirlilik tələb olunacaq. Daha çox gəlirlilik isə öz növbəsində daha az dəyər deməkdir. Yəni investor daha yüksək gəlirlilik tələb etdiyi varlığı riskli olaraq gördüyü üçün bunun müqabilində daha az dəyər verməyə razı olur. Azərbaycanda da özəlləşdirmə zamanı eyni situasiya yaranır. Deməli investor riskini azaltsa daha yüksək dəyər verməyə razı olar. Ona

görə də hökumət özəlləşdirmədən yüksək gəlir götürə bilmək üçün riski azaltmaq istiqamətində tədbirlər görməlidir. Burada riski azaltmaq dedikdə şirkətin fəaliyyətlərindən yarana biləcək riskdən yox, daha çox bazardakı şəffaflığı artırmaq və investor hüquqlarını qorumaqdan söhbət gedir.

Risk və qeyri-şəffaflığın olduğu mühitdə investor şirkətlərə yüksək dəyər verməyə razı olmur. Bu halda özəlləşdirdiyi varlıqdan yüksək gəlir əldə etmək istəyən dövlət bazarda şəffaflığı artırmalıdır. Əks-təqdirdə şirkətə əlavə investor cəlbi yaranmayacaq və şirkət ən yaxşı ehtimalda "Bakcell" nümunəsində olduğu kimi, əgər xarici səhmdarı varsa ona satıla bilər. Çünki bu səhmdar şirkətlə bağlı məlumatlara digərlərindən daha yaxındır.

Ölkəmizdə də özəlləşdirmə zamanı dövlət şirkətin həqiqi dəyərini əldə etmək istəyirsə şəffaf bazar prinsipindən hərəkət etməlidir. Bunun bir yolu özəlləşdiriləcək şirkətlərin bir hissəsinin qiymətli kağızlar birjası vasitəsilə satılmasıdır. Bu zaman şirkətin maliyyə vəziyyəti investorlara daha aydın olar. Bir digər variant isə özəlləşdirmədə iştirak edən investorlara daha şəffaf məlumat verilməsidir. Maraqlı fakt odur ki, fəaliyyəti müddətində 125 milyon dollar investisiya qoyuluşu həyata keçirən "Bakcell" 5,1 milyon dollara digər səhmdara satıldı. "Azercell" fəaliyyəti müddətində 340 milyon dollara yaxın investisiya qoyub. Şirkətin dəyəri isə ilkin olaraq 150-195 milyon dollar aralığında müəyyən edilib. Maraqlıdır ki, 2004-cü ilin mart ayındakı qiymətləndirmədə dövlət öz payını 30 milyon dollara satmağı qərara almış sonra isə özəlləşdirməni təxirə salmışdı. Bir ildə dəyərin 5-6 dəfə artması qiymətləndirmə metodunun sağlamlığına da şübhə salır. Belə olan halda sual yaranır ki, görəsən bir il də gözləsək "Azercell"in dəyərində nə qədər dəyişiklik yarana bilər? Bir neçə gün əvvəl "Azercell"in özəlləşdirilməsi yenidən təxirə salındı. Bu dəfə isə 2005-ci ilin fəaliyyət nəticələri də nəzərə alınacaq. Bütün bunlar onu gös-

tərir ki, qiymətləndirmə statik aparılır və gələcəkdəki dəyərlər nəzərə alınmır.

Bir başqa maraq doğuran məsələ odur ki, "Azercell" əvvəlcə dövlətin hazırkı ortağına, yəni cari səhmdara təklif ediləcək. Bu səhmdardan qalan səhmlər isə başqa şirkətə satılacaq. Maraqlıdır, görəsən həmin səhmdar şirkəti bu qiymətə almaqdan imtina etdiyi təqdirdə şirkət haqda daha az məlumata sahib olan başqa bir investoru prosesə necə cəlb etmək olar? Deməli, hazırkı səhmdarın səhmləri almaq istəməməsinin mümkün səbəblərindən biri kimi şirkətin hesablanmış dəyərinin həqiqi dəyərindən daha yüksək olduğu iddia edilə bilər. Deyilə bilər ki, prosesi bu qədər uzatmaqla dövlət tətbiq etdiyi dəyərləndirmə metodu ilə ən yüksək dəyəri əldə etmək istəyir. Belə olduqda dövlət bir müddət də "Azercell"in bazarda güclü rəqibinin olmamasını təmin edəcək. Bu isə öz növbəsində rəqabətə mənfi təsir göstərəcək və anti-inhisar siyasətə xələl gətirəcəkdir. Belədə "Azercell"ə öz gəlirlərini artırmaq şəraiti yaradılır. Belə çıxır ki, hər ilin ortasında özəlləşdirmə prosesi canlanacaq, ilin sonunda isə həmin ilin də nəticələrini nəzərə alma istəyi yaranacaq. Bütün bunların səbəbi isə dəyərləndirmə prosesinin çox zəif aparılmasıdır.

# "Hamı yerli mal alsın! Xeyir Vətənə qalsın!"*

*İlkin Sabiroğlu*

İqtisadi İnkişaf Nazirliyi (İİN) 4 avqust 2005-ci il tarixdə Hyatt Regency mehmanxanasında "Milli istehsalın dəstəklənməsi" mövzusunda Konfrans keçirib. Konfransın əsas devizi isə belə olub: "Hamı yerli mal alsın! Xeyir Vətənə qalsın!". İndi maraqlı bir sual yaranır: "Görəsən İqtisadi İnkişaf Naziri bir addım daha irəliyə gedərək öz işçilərinə yerli istehsalın dəstəklənməsi məqsədilə xidməti və minik avtomobillərini Gəncə Avtomobil Zavodunun məhsulları ilə dəyişdirmə göstərişini verəcəkmi?". Əks təqdirdə yuxarıdakı deviz effekt qazana bilməz. Eynilə, "Yerli malı, yurdun malı, hər Türk onu kullanmalı!" devizi altında Türkiyədə başladılan kompaniyaların heç bir müsbət effekt vermədiyi kimi.

"Amerikan Malı Satın Al" Fondunun sədri (Buy America Foundation) William J.Lynott deyirdi ki, bir ölkənin dünyadakı iqtisadi mövqeyini müəyyənləşdirən əsas amil, həmin ölkənin istehsal gücüdür. XVIII əsrdə İngiltərə, bu sayədə İspaniyanın; XIX əsrdə də Amerika, İngiltərənin yerinə keçmiş, digər ölkələri də kontrol edə bilən, dünyanın ən böyük iqtisadi gücü halına gəlmişdir. Lakin bununla belə amerikalılar istehsalda "Fordist İnqilab"ın banisi Henry Fordun avtomobillərindənsə daha çevik olan yapon avtomobillərinə üstünlük verirlər.

Devizdəki məntiq çox sadədir: Mən keyfiyyətsiz, zəmanətsiz yerli məhsul almalıyam ki, bu məhsulu istehsal edən yerli şirkət istehsalını genişləndirsin və nəticədə bir başqa vətəndaşımız iş tapa bilsin. İqtisad elmində belə "emosional fədakar-

---

* *16 avqust 2005.*

lıq"lara yer yoxdur. Bunun belə olduğunu əslində İİN də başa düşür. Nazirliyin rəsmi saytında yer alan məlumatda deyilir: "Konfransın keçirilməsində məqsəd milli istehsalın dəstəklənməsi üzrə dövlət siyasətinin səmərəliliyinin artırılması, istehsalın keyfiyyətinin yüksəldilməsi, sertifikatlaşdırma sisteminin təkmilləşdirilməsi, ixrac qabiliyyətinin artırılması, yerli istehsalın təbliğinin gücləndirilməsi və milli istehsalın dəstəklənməsi məsələlərin müzakirəsi idi." Yəni keyfiyyətli məhsul istehsal etmədikcə vətəndaşlarımıza da niyə yerli məhsul almırsınız - deyə irad tuta bilmərik.

William J.Lynott əlavə edərək deyirdi ki, öz mallarımızın, öz ölkəmizdəki satışını artırmaq; nəhayət bunları, "keyfiyyətli" dünya məhsulları halına gətirərək, xaricə satmaq; milli iqtisadiyyatımızın sağlam işləyə bilməsi üçün əsas şərtdir. Bu şərti yerinə yetirə bilməsək, ixrac gəlirlərimizdən vaz keçmək məcburiyyətində qalacağıq ki, bu da milyonlarca vətəndaşımızın işsiz qalması, hərbi-sivil bütün investisiyaların kökünü kəsmək, yəni ölkəmizin süqutunu hazırlamaq deməkdir.

Amma məsələ ondadır ki, hələ keyfiyyətli məhsul istehsal etmək də problemdən çıxış yolu deyil. İstehsalla məşğul olanlar gözəl bilirlər ki, ciddi bir marka yaratmaq keyfiyyətli məhsul istehsal etməkdən qat-qat çətin olan bir işdir. Marka yaratmadan isə nə daxili bazarda, nə də xarici bazarda güclü mövqeyə sahib olmaq və bu mövqeni qorumaq mümkün deyil. Azərbaycan kimi ölkələrdə marka yaratmaq isə xüsusilə çətindir. Ona görə də daha optimal variantlar axtarılmalıdır.

Məsələn, bir neçə il əvvəl xəbər gəldi ki, Gəncə Avtomobil Zavodu ilə Fransanın "Reno" şirkəti maraqlanır. Daha sonra isə, zavodun avtomobil istehsal edən xarici şirkətlərdən birinə icarəyə verilməsi ilə bağlı "KamAZ", "İrankhodro" kimi şirkətlərin adları çəkildi. Ardınca Almaniyanın "Volkswagen" konserninin Gəncə avtomobil zavodunun yenidən qurulması

ilə bağlı ilkin razılığını verməsi barədə məlumat yayıldı. Paralel olaraq eyni danışıqların Rusiyanın "QAZel" şirkəti ilə də aparıldığı söylənildi. Nəhayət, 1989-cu ildən tikintisi yarımçıq qalan zavodda, 2004-cü ilin dekabrın 24-də ilk "OKA" markalı avtomobilin buraxılışı oldu. Rusiyanın daha bir avtomobil şirkəti ilə əldə olunmuş razılaşmaya əsasən zavodda "UAZ" markalı avtomobillərin 7 modelinin yığımı da təşkil ediləcək. Gəncə Avtomobil zavodunda paralel olaraq Çinin iki iri avtomobil şirkətləri ilə də danışıqlar aparılır...

Halbuki qəti şəkildə marka yaratmağın çətinliyi və yaxşı bir markanın gətirəcəyi üstünlüklər nəzərə alınaraq "Volkswagen" kimi məşhur markalardan birinə üstünlük verilməli idi. Məsələn, Türkiyə "Gömrük Birliyi"nə üzv olduqdan sonra yerli avtomobil markalarının istehsalından daha çox tanınmış dünya markalarının Türkiyədə istehsalına üstünlük verməyə başladı. Nəticədə həm daxili bazarda avtomobil satışını, həm də xaricə avtomobil ixracını artırmış oldu.

Ayrıca, əgər bir sektorda innovasiya fəaliyyətlərinə yönələn xərclər iqtisadi artımın altındadırsa həmin sektor "ömrünü tamamlamış sektor" (metal mədənçiliyi, kömür mədənçiliyi, neft və qaz istehsalı, meşəçiliyə dayanan sənayelər, anorqanik kimya sənayeləri, kauçuk sənayesi, kənd təsərrüfatına dayanan sənayelər, silikatlar, trikotaj və s.) sayılır. Əgər innovasiya xərcləri iqtisadi artımla eyni səviyyədədirsə bu sektor "ömrünü tamamlamaya keçiş mərhələsində olan sektor" (neft-kimya, elektrotexnika, avtomobil sənayesi, makina sənayesi, təyyarə, gəmi, kompüter, sintetik iplik və s.) kimi qəbul edilir. Əksinə, innovasiya xərcləri iqtisadi artımın üstündədirsə bu sektorlar "yenilikçi sektorlar" və ya "yenilikçi sənayelər" (mikroelektronika, biotexnologiya, fəza texnologiyaları, robotik, foto aktiv ləvazimatlar, füzyon enerjisi, membran texnologiyası, telekommunikasiya, elektronik keramikalar və s.) adlanır.

İnkişaf baxımından Azərbaycanla eyni qrupda olan kiçik daxili bazara sahib ölkələr "ömrünü tamamlamış sektor"lara aludə olmadan heç olmasa tədricən "ömrünü tamamlamaya keçiş mərhələsində olan sektor"ları mənimsəmək üçün istehsalda sadəcə keyfiyyət problemini deyil, "ticarət markası" problemini də həll etməyi bacarmalıdırlar.

# Niyə hər kəs yerli mal alsın?*

*Əkbər Eldaroğlu*

Bütün dünyada dəbdən düşmüş və faydasızlığı çoxdan bilinən bir şüarın ortaya çıxması ölkəmizin "bazar iqtisadiyyatı, demokratiya və insan haqlarından" yana olmamasına dəlalət edir.

Müstəqillikdən sonra Azərbaycan sərbəst bazar iqtisadiyyatı yolu ilə inkişaf modelini seçib. Sərt mərkəzləşdirilmiş planlaşdırma sistemindən demokratik istehsal şəraitinə keçid tamamilə yeni iqtisadi təfəkkür tərzi tələb edir. Lakin zaman keçdikcə ölkədə bazar iqtisadiyyatı ilə bağlı öyrəniləcək çox şeylərin olduğu məlum olur.

Bazar iqtisadiyyatının əsasında "ən keyfiyyətli məhsulu, ən ucuz qiymətə" alma düşüncəsi dayanır. Ona görə də bazar iqtisadiyyatı ilə inkişaf edən ölkələrdə alıcılar bazarda hər hansı mal və xidməti seçərkən sadəcə rasional istehlakçılar kimi hərəkət edirlər. Bu gün istehlakçıları məhsulun keyfiyyət və qiyməti onun hansı ölkədə istehsal olunmasından daha çox düşündürür.

Son illərdə fərqli coğrafi məkanlarda yaşamalarına baxmayaraq, eyni qlobal informasiya mənbələrinə bağlılıq, istehlakçıların zövq və davranışlarını da bir-birinə yaxınlaşdırmağa başlayıb. Ayrıca da istehsalın qloballaşması elə bir səviyyəyə çatıb ki, əksər hissələrinin idxala dayandığı hər hansı bir malın əslində hansı ölkəyə aid olması ciddi mübahisələrə səbəb olur. Lakin hər bir halda rasional istehlakçı olmaq, yəni "ən keyfiyyətli məhsulu, ən ucuz qiymətə" tələb etmək həm də iqtisad elminin qanunlarına riayət etmək deməkdir.

---

* *30 avqust 2005.*

Bu günlərdə iqtisadi inkişaf nazirliyi ölkədə "Hər kəs yerli malı alsın, xeyri vətənə qalsın" şüarı ilə bazar iqtisadiyyatı ilə bir araya sığmayan bir kampaniya başladıb. Bu ölkədə kimlərin sahibkar və ya istehsalçı olmasını dövlət özü müəyyənləşdirdiyi kimi, istehlakçıların mal və xidmət seçimini də dövlət özü təyin etməyə çalışır. Həmin şüar da bu yanaşma tərzindən ortaya çıxır.

Ayrıca da nəzərdən qaçırılır ki, sadəcə daxili bazarın tələbinə əsaslanan istehsal ilə heç bir ölkə bu günə qədər yüksək inkişaf səviyyəsinə nail ola bilməyib. Ona görə, Yaponiyanın inkişaf modeli "səylərimizi birləşdirək, mallarımızı dünyaya ixrac edək" fəlsəfəsinə dayanırdı.

Bu gün Türkiyəyə Çindən yaxınlaşan hər bir gəminin bu ölkədə bir fabriki qapatması, bir zamanlar Türkiyədə də dəbdə olan "Yerli malı, Türkün malı, hər kəs onu kullanmalı" şüarının artıq əhəmiyyətini itirməsi ilə bağlıdır. Artıq Türkiyədə mütəxəssislər Çin ilə rəqabət aparmağın çarəsini keyfiyyətli məhsul istehsalını artırmaqda görürlər.

Ölkələrin bəzi mallarda rəqabət qabiliyyətini itirməsi onların inkişaf səviyyəsi ilə də bağlıdır. Necə ki, bir vaxtlar trikotaj sənayesinin ilk inkişaf etdiyi İngiltərə artıq dünya bazarına bu məhsulun əsas ixracatçısı rolunda çıxış etmir. Artıq Türkiyə də trikotaj sənayesini Çinə təslim edərkən, elektronika və avtomobil sənayesini də Avropadan təhvil alır. Yəni hansı yerli sənaye sahələrinin canlanması, hansılarının geriləməsi bu ölkələrin inkişaf səviyyəsi ilə əlaqədardır ki, bizdə hələ bu da tam mənada aydınlaşmayıb.

Əslində bu günün şüarı "Rəqabət və Məhsuldarlıq" olmalıdır. Ölkədə azad rəqabət mühiti yaradılarsa, sadəcə keyfiyyətli məhsul istehsal edənlər ayaqda qala biləcəkdir. Bu, qiymətlərin də aşağı düşməsinə təkan verəcək. O zaman istehlakçılar da seçimlərini doğru edə biləcək. Nəticə etibarı ilə azad rəqa-

bət mühiti məhdud ehtiyatların səmərəli istifadəsinə və gəlirlərin ədalətli bölgüsünə səbəb olacaqdır. Çünki yalnız azad rəqabət şəraiti məhdud ehtiyatların səmərəli istifadəsini təmin edə bilir. Axı bazar iqtisadiyyatı da, siyasi və dini dünyagörüşündən asılı olmayaraq, hər bir vətəndaşın qanunun qadağan etmədiyi istənilən sahibkarlıq növü ilə məşğul ola bildiyi bir modeldir.

İndi ölkədə iqtisadi azadlıqların yetərli səviyyədə olmadığı, ayrıca da bazar qanunlarının işləmədiyi bir şəraitdə "hər kəs yerli mal alsın, xeyri vətənə qalsın" şüarı vətənin deyil, sadəcə inhisarların zənginləşməsinə, xalqın isə bundan yoxsullaşaraq nəsibini almasına səbəb olacaqdır. Necə ki, dünyanın hər yerində belə oldu.

# Manat bahalaşsın, yoxsa ucuzlaşsın?*

*Natiq Sabiroğlu*

Milli Bank hal-hazırda inflyasiya ilə mübarizənin bir forması kimi manatın bahalaşması, yəni revalvasiya siyasətini həyata keçirir. Lakin bir çoxları bu siyasəti qəbul etmir, dolayısilə manatın bahalaşmasını deyil, ucuzlaşmasının zəruriliyini önə sürürlər. Manatın ucuzlaşmasının (devalvasiyanın) ixracat üzərində müsbət təsir edəcəyi qənaətindədirlər. Biz bu yazıda ictimaiyyətdə, xüsusilə də sahibkarlar və iqtisadçılar arasında, müzakirə edilməyə başlayan milli pul vahidi manatın devalvasiya imkanlarından söz edəcək və bu siyasətin ixracatı artıra bilmə potensialını analiz edəcəyik.

Öncə Azərbaycanın xarici ticarəti ilə bağlı qısa bir haşiyə verək. Ölkənin 2004-cü ildə xarici ticarət dövriyyəsi 7324.7 milyon ABŞ dolları həcmində gerçəkləşmişdir ki, bu da keçən illə müqayisədə 37 faiz artımı ifadə etməkdədir. İdxalat 3581.7 milyon dollar və ÜDM-nin 42 faizi, ixracat isə 3743.0 milyon dollar dəyərində və ÜDM-nın 43.9 faizi nisbətində gerçəkləşmişdir. Dolayısilə xarici ticarət balansı ÜDM-nin 1.9 faizi həcmində, yəni 161.3 milyon dollar müsbət saldo vermişdir. Qeyd edək ki, ixracın strukturunun diversifikasiyası, çox kiçik də olsa, ötən illərdəki ənənəyə sadiq qalmışdır. Belə ki, il ərzində ixracın strukturunda qeyri-neft sektorunun xüsusi çəkisi 3 faiz artmışdır. Fəqət bütövlükdə ələ aldığımızda, xarici ticarət həcmi içərisində neft-qaz sektorunun payı gedərək artmaqdadır. Belə ki, 2001-2004-cü illər arasında ixracatda adı çəkilən sektorun payı 6.4 faiz azaldığı halda, idxalatda bu sektorun payı 24.5 faiz artmışdır.

---

* *21 sentyabr 2005.*

Fiziki şəxslərin məkik idxalını (363.5 milyon dollar) və humanitar malları (39.0 milyon dollar) da nəzərə almaqla 2004-cü ildə ölkəmizə 1203.0 milyon dollarlıq xalq istehlakı malları gətirilmişdir ki, bu da ümumi idxalın 33.6 faizini təşkil etməkdədir. Bunun 44.7 faizi, yəni 537.7 milyon dolları ərzaq məhsullarının payına düşməkdədir. İdxalın strukturunda investisiya yönümlü maşın-avadanlıqlarının və mallarının xüsusi çəkisi 48.2 faizə yüksəlmiş və keçən illə müqayisədə 44.1 faiz artaraq 1726.7 milyon dollar məbləğində olmuşdur. Bu artım beynəlxalq neft kontraktları çərçivəsində ölkəyə cəlb olunmuş investisiyaların artımı ilə əlaqədardır. Bundan başqa 2004-cü ildə ölkəyə 252.6 milyon dollarlıq təbii qaz və ümumi məbləği 633.0 milyon dollara bərabər olan istehsal təyinatlı kimya, qara və əlvan metal məhsulları da gətirilmişdir.

Alfred Marshall və Abba Lerner adlı iqtisadçılar devalvasiyadan gözlənilən idxalatı məhdudlaşdırma və ixracatı artırma, qısaca tədiyyə balansı kəsirlərini azaltma nəticələrini əldə etmənin şərtlərini araşdırmışlardır. İqtisadi ədəbiyyatda Marshall-Lerner Şərti deyilən formula görə, bir ölkənin devalvasiya siyasətindən qazanclı çıxması üçün, ölkə daxilində istehsal edilən ixrac mallarının istehsal elastikliklərinin sonsuz olması (yəni, ölkələr ixrac mallarını eyni qiymətdən arzu etdikləri qədər artıra bilməlidirlər) şərtiylə, idxal mallarının ölkə daxili və ixrac mallarının ölkə xarici tələblərinin qiymət elastikliklərinin toplamı birdən böyük olmalıdır. Elastikliklərin toplamı birdən nə qədər böyük olarsa, devalvasiyadan gözlənilən valyuta qazancı o qədər artacaqdır.

Yuxarıdakı nəzəri açıqlamalar göstərir ki, ölkədə devalvasiya olsa ixrac və idxalın bu addıma adekvat cavabı istənilən səviyyədə olmayacaqdır. Çünki idxalatın 66 faizindən yuxarısı qeyri xalq istehlak mallarıdır ki, bu malların da ölkə daxili tələblərinin qiymət elastikliyi birdən kiçikdir. Bu malların bir

qismi (təbii qaz) yaşamaq üçün zəruri olan, bir qismi də istehsal təyinatlı və ölkədə istehsalı qısa və orta müddətdə mümkün olmayan mallardır. Dolayısilə bu malların qiymət artımları idxalat miqdarında arzu edilən azalmanı təmin etməyəcəkdir. 2004-cü ildə idxal mallarının orta qiyməti 23 faiz artdığı halda idxalat həcmi nəinki azalmamış, hətta fiziki həcm olaraq 510 milyon dollar artmışdır. Ümumiyyətlə hesablamalar göstərir ki, malların ixracı üzrə ümumi artımın 82.7 faizi, idxalı üzrə 40.6 faizi qiymət faktoru ilə bağlıdır. Görünən odur ki, milli valyutanın məzənnəsinin necə olmasından asılı olmayaraq biz bu malları ixrac və idxal edəcəkdik.

Digər tərəfdən, idxal malları tələbinin ölkə daxili gəlir elastikliyi də birdən böyükdür. Nəzərə alsaq ki, Azərbaycanı 2005 və 2006-cı illərdə bütün dünyada rekord iqtisadi artım rəqəmi gözləyir, deməli bu artıma bağlı olaraq idxal, xüsusilə qeyri xalq istehlakı malları artacaqdır. Bu mərhələdə yaşanacaq devalvasiya isə, istehsal təyinatlı idxal mallarının qiymətinin artmasına və dolayısilə istehsal məsrəflərinin yüksəlməsinə səbəb olacaqdır (istehsal inflyasiyası). Yəni, Azərbaycan manatının ucuzlaşması sadəcə idxal deyil, həm də istehsal inflyasiyası törədir.

Analoji təhlil ixracat üçün də keçərlidir. Belə ki, ixrac malları arasında 83 faizə yaxın yer işğal edən neft-qaz sektorunun ölkə xarici tələbinin qiymət elastikliyi birdən kiçikdir. Yəni ixrac qiymətlərinin düşməsi xarici ölkələrin bizim mallara olan tələbini artırmayacaqdır. Belə ki, 2004-cü ildə ölkədən ixrac olunan malların orta qiyməti 30 faiz artdığı halda (bu daha çox dünya bazarlarında neftin qiymətinin artması ilə bağlıdır), ixracat fiziki həcm olaraq 193 milyon dollar artmışdır. Qeyd edək ki, neft tələbi neftin qiymətindən daha çox idxal edən ölkələrdəki real iqtisadi artıma bağlıdır. Qısaca, ölkədə həm ixrac, həm də idxal mallarının tələblərinin qiymət elastikliklərinin toplamı, böyük bir ehtimalla, birdən kiçik olduğu üçün

devalvasiya iqtisadi yarardan çox zərər gətirə bilər. Unutmayaq ki, idxal həcmi ÜDM-un 42 faizini təşkil edir ki, bu da idxal mallarının qiymətindəki hər hansı bir artımın ölkədə ciddi qiymət artımı ilə müşahidə olunması və ölkədə inflyasiya həddinin yüksəlməsi deməkdir.

# "Dünya bizim malı alsın, xeyir Azərbaycana qalsın"*

*Natiq Sabiroğlu*

Əvvəlki yazımızda da qeyd etdiyimiz kimi manatın bahalaşması qısa dövrdə antiinflyasiya tədbiri kimi faydalıdır, uzun dövrdə isə "Holland sindromu" baxımından mənfi effekti var. Bizim bu məsələdəki mövqeyimiz isə budur ki, yalnız manatın məzənnəsi ilə oynamaqla "Holland sindromu"ndan yayınmaq mümkün deyil. Bundan yayınmaq üçün qeyri-neft sektorunda ümumi şəkildə istehsalı artırmaq da kifayət eləmir. Qeyri-neft sektorunda xüsusilə elə sahələr inkişaf etdirilməlidir ki, bu sahələrin ixrac potensialı olsun, yəni, ölkəyə xarici valyuta gətirə bilsin.

Azərbaycanda son zamanlar vüsət alan "Hamı yerli malı alsın, xeyir Vətənə qalsın" devizi altında aparılan kampaniyaya da bu aspektdən yanaşmaq lazımdır. Həmin kampaniya daha çox daxili bazara və istehlakçılara xitab edir. Digər tərəfdən kampaniyanın əsas məqsədinin yerli sahibkarlığın inkişafına dəstək vermək olduğu qeyd edilir. Bunun üçünsə devizi elə müəyyənləşdirmək lazım idi ki, birbaşa istehsalçılara xitab etsin. Ayrıca daxili bazarda "imtiyazlı" sahibkar təbəqəsi formalaşdırmaqla da "Holland sindromu"ndan yayınmaq mümkün deyil. Ölkədə məhz xarici rəqabətə dözümlü sahibkarlıq subyektlərinin inkişafına ehtiyac var. Yalnız xarici rəqabətə dözümlü sahibkarlıq subyektləri ölkəyə ixrac vasitəsilə xarici valyuta daxilolmalarına şərait yarada və bu aspektdən neft sektoruna alternativ ola bilər.

---

* *28 sentyabr 2005.*

Ona görə də biz, aparılan kampaniya ilə bağlı yeni yanaşma təklif edirik. İstehlakçılara xitab edən "Hamı yerli malı alsın, xeyir Vətənə qalsın" devizinin, mahiyyətcə istehsalçılara xitab edən "Dünya bizim malı alsın, xeyir Azərbaycana qalsın" şəklində dəyişdirilməsinə ehtiyac var. Çünki beynəlxalq təcrübədə birinci ilə bağlı "Yerli malı Yurdun malı, her Türk onu kullanmalı" və ya "Buy American" kimi kifayət qədər uğursuz nümunələr olduğu halda, ikinci yanaşmadan müsbət nəticə əldə edən ölkələr mövcuddur. Hətta ikinci yanaşmanı şirkət fəlsəfəsinə çevirən nümunələr də var. Məsələn, bu cümlələr texnologiya sektorundakı məşhur bir yapon şirkətinin rəhbər və işçilərinin hər gün işə başlamazdan əvvəl söylədikləri mahnıdan seçilmişdir: "Bir mənbədən çağlayan su kimi, sonsuz və davamlı, mallarımızı dünya xalqına göndərək...".

Tanınmış iqtisadçı Michael Porterə görə, yerli sahibkarlara ixracda dəstək vermək istəyən hökumətlər devalvasiya, firmalar da aşağı əmək haqları kimi müvəqqəti tədbirlərə etibar etməməli, diqqət firma və ya sektorun beynəlxalq rəqabət gücünü müəyyənləşdirən dörd amil üzərində cəmləşdirməlidirlər. Bunlar ölkə daxili mühit, daimi yeniliklər və təkmilləşdirmələr, ölkə xaricində reallaşdırılan birbaşa investisiyalar və qlobal strategiyadır.

Porterə görə, bir ölkənin beynəlxalq rəqabət gücünə sahib olması, onun rəqibləri ilə müqayisədə malın qiyməti, keyfiyyəti, təslim etmədə dəqiqlik, satış sonrası xidmət, müştəri istəklərinə uyğunluq, elastik istehsal sistemi, böyük bazarlara yaxınlıq, texnologiya və insana qoyulan investisiyalar, araşdırma-inkişaf fəaliyyətləri, birbaşa xarici investisiyalar, moda və marka, mal tədarükü, insan və çevrə sağlığına uyğun paketləmə, yeni marketinq metodları kimi qiymət və qeyri-qiymət faktorları baxımından hazırda və gələcəkdə rəqiblərdən daha üstün olması deməkdir. Ölkədə kampaniya çərçivəsində apa-

rılan müzakirələrə firmaların və hökumətin bir də bu aspektdən yanaşması zəruridir.

Yenə əvvəlki yazımızda manatın ucuzlaşmasının həm idxal, həm də istehsal inflyasiyası effekti yaratdığını təhlillərimizlə göstərmişdik. Elə isə ölkənin ixracat potensialının artırılmasında devalvasiya kimi nisbi amillərin əhəmiyyətindən bəhs etmək yerinə, ölkənin beynəlxalq rəqabət gücünü artıracaq tədbirlər üzərində fikirləşməyə dəyər.

# İxrac ölkənin gəliri, idxal isə zərəridirmi?*

*Natiq Sabiroğlu*

Azərbaycanda tez-tez səsləndirilən məşhur iqtisadi fikirlərdən biri də budur ki, daxili istehsalı dəstəkləmək üçün idxalı müxtəlif üsullarla məhdudlaşdırmaq lazımdır. Əslində idxala olan belə ögey münasibətin kökü orta əsrlərin ingilis merkantilizminə qədər gedib çıxır. Amma yaşadığımız XXI əsrdə bu fikir nə qədər keçərlidir?

Artıq ixraca ölkənin gəliri, idxala isə ölkənin zərəri kimi yanaşmalar elmi əhəmiyyətini itirməkdədir. Məsələn, Çinin inkişaf etməkdə olan ölkələrə örnək olacaq ən böyük müvəffəqiyyəti, nisbi proteksionizm tətbiq edən Yaponiya və Cənubi Koreya təcrübəsindən fərqli olaraq, idxalı və birbaşa xarici investisiyanı sərbəst buraxmasıdır. Çin, iqtisadiyyatını xaricə açmaqla əslində üçüncü üsul iqtisadi artım modelini icad etmiş oldu. Belə ki, indiyə kimi bizə idxal əvəzləyici iqtisadi artım və ixraca dayanan iqtisadi artım modelləri məlum idi. Çin isə daha fərqli və yeni bir iqtisadi artım tərzini - xarici ticarətə dayanan iqtisadi artım modelini ortaya qoydu.

Aparılan araşdırmalar nəticəsində bəlli olub ki, Çində məhsuldarlığın artımında idxal ixracdan daha çox faydalı rol oynayır. Çünki idxal ölkə daxilində rəqabəti artırır və istehsalçıları daha keyfiyyətli malları daha ucuza istehsal etməyə məcbur edir. Məncə, Çin sürətli iqtisadi artımını da ən çox bu faktora borcludur.

Azərbaycanda idxalın strukturunda investisiya yönümlü maşın-avadanlıqlarının və mallarının xüsusi çəkisi 48 faizdən yuxarıdır. Və bu maşın-avadanlıqlar əsasən neft sektoruna yönəlikdir. Neft sektorunun ölkənin yüksək iqtisadi artımındakı

* *4 oktyabr 2005.*

yerini nəzərə alsaq, dolayısilə idxalın bu artımdakı əhəmiyyətini də qəbul etmiş olarıq.

Digər tərəfdən Azərbaycan həm əhalisinin sayı və həm də əhalinin alıcılıq qabiliyyəti baxımından çox kiçik daxili bazara sahib bir ölkədir. Oriyentir olaraq daxili bazar seçildiyi təqdirdə ölkədə bir çox sektorların inkişafından danışmaq mümkün olmaz. Ona görə də oriyentir olaraq xarici bazarları seçən ixracat potensialı olan sektorların inkişafına ciddi əhəmiyyət verilməlidir.

Əgər istehsal etdiyimiz məhsullar daxili bazarda idxal olunan rəqib məhsullarla rəqabət edə biləcək qabiliyyətə sahib deyilsə, demək ki, bu məhsulların ixrac potensialı da yoxdur. Öz vətənində idxal məhsulları ilə rəqabət edə bilməyən sahibkar, idxal məhsullardan çəkinir və hökumətin tədbir almasını istəyirsə, demək ki, həmin sahibkarın ixracatçıya çevrilmə potensialı da yoxdur. Amma biz, Azərbaycanda "Holland sindromu"ndan yayınmaq üçün ixrac potensialı olan qeyri-neft sektorunu inkişaf etdirmək məcburiyyətindəyik. Azərbaycanın idxaldan qorxan deyil, xarici bazarlarda rəqabətdən çəkinməyən cəsarətli sahibkarlara ehtiyacı var. Azərbaycan hökuməti sahibkarlarını daxili bazarda idxalı məhdudlaşdıraraq deyil, ixracı təşviq edərək dəstəkləməlidir. İqtisad elmindəki yeni tendensiyalar bizə bunu diktə edir. "İlk əvvəl daxili bazarı proteksionizm siyasəti yürüdərək qoruyaq, daha sonra isə ixracatı təşviq edərik" yanaşmasının hakim olduğu ölkələr əksər hallarda buna müvəffəq ola bilməyiblər.

Azərbaycan bu gün neft ölkəsidir. Amma heç birimiz Azərbaycanın gələcəkdə də bir neft ölkəsi olmasını, taleyini neftin ümidinə bağlamasını istəmirik. Eyni formada Azərbaycanın gələcəyini bir aqrar ölkə kimi təsəvvür etmək də düzgün yanaşma olmaz. Qeyri-neft sektorunun inkişafı dedikdə yanlışlıqla aqrar sektor nəzərdə tutulmamalıdır. Azərbaycan dünya-

nın torpaq ehtiyatı qıt olan ölkələri sırasına daxildir. Hər nəfərə 0,2 hektar əkin sahəsi düşür. Aqrar sektor neft sektorunun alternativi ola bilməz. Ölkəyə ciddi valyuta axımını təmin edə bilməz.

Azərbaycan kimi kiçik daxili bazara sahib ölkələr elm və kapital tutumlu sahələri inkişaf etdirərək dünyada layiqli yer tuta bilərlər. Bunun üçünsə ölkənin elmi potensialını artırmaq və ölkədə kapital bolluğu yaratmaq üçün iqtisadi azadlıqları yüksək səviyyədə təmin etmək lazımdır.

# Məzənnəni qabaqcadan bilmək olarmı?*

*Əkbər Eldaroğlu*

Ötən şənbə milli manatımızda baş verən dalğalanmalar ölkədə ciddi xaos yaratdı. Milli pulun gələcək taleyi bu gün insanlarımızı ən çox düşündürən suallardandır. Dolların kursu sadəcə ixracatçıları düşündürmür. Bu ayrıca da ölkəmizə xarici ölkələrdən daxil olan vəsaitlərlə yaşayışını təmin edən insanlarımızı da ciddi narahat edir. Çünki dollar bu ölkədə vətəndaşların əsas yığım vasitəsi hesab edilir.

Bəs gələcəkdə manatın məzənnəsi necə ola bilər? Bunun gələcək aqibətini dəqiqliklə bilmək mümkündürmü?

Ümumiyyətlə, maliyyə bazarında hər şey dəqiqliklə bilinsəydi, o zaman heç kim zərər etməzdi. Amma valyuta kursunun gələcək seyrini qabaqcadan təxmin etmək üçün valyuta bazarının işləmə mexanizminə təsir edən amilləri izləmək lazımdır.

Valyuta məzənnəsi ya bazardakı tələb-təklif əsasında müəyyənləşə, ya da hakimiyyət tərəfindən təyin edilə bilər. İstifadə olunan rejimə görə əsasən iki növ məzənnə sistemi mövcuddur: Sabit məzənnə sistemi və üzən məzənnə sistemi. Sabit məzənnə sistemi əsasən 1973-cü illərə qədər istifadə olunurdu. Sabit məzənnə sistemində valyuta kursu hakimiyyət tərəfindən müəyyən edilir. Üzən məzənnə sistemində isə valyuta kursu bazardakı tələb təklifə görə müəyyən edilir. Üzən məzənnə sisteminin isə əsasən iki növü mövcuddur: tənzimlənən üzən məzənnə sistemi, sərbəst üzən məzənnə sistemi. Tənzimlənən üzən valyuta məzənnəsindən keçid iqtisadiyyatı ölkələri istifadə edir. Sərbəst üzən məzənnə sistemindən isə inkişaf etmiş ölkələrdə istifadə edilir.

---

* *23 sentyabr 2005.*

Valyuta bazarlarının işinə nəzarəti isə ölkələrin Milli Bankları həyata keçirir. Dolayısı ilə bu bazarda baş verənlərə görə birbaşa məsuliyyəti Milli Banklar daşıyırlar. Milli bankların vəzifələrindən biri iqtisadiyyatdakı pul kütləsinin artım sürətinin və ya milli pul vahidinin xarici valyutaya nisbətinin tənzimlənməsidir. Bir ölkənin milli pul vahidinin daxili stabilliyi dedikdə inflyasiyasız inkişaf, xarici stabillik dedikdə isə milli pul vahidinin məzənnəsinin digər valyutalara nəzərən stabilliyinin qorunması başa düşülür.

Başlıca vəzifəsi qiymətlərdəki stabilliyi təmin etmək olan Milli Bankın son zamanlar kursdakı enməni əngəlləmək üçün o qədər də həvəsli görünməməsi sürpriz sayılmamalıdır. Kurs düşdükcə inflyasiyaya qarşı mübarizə asanlaşır. Ona görə indiki mərhələdə azalan kursun cazibəsinə dayanmaq çox çətindir.

Amma milli valyutanın yüksək, ya da aşağı dəyərli olub-olmadığını müəyyən etmək də bu gün iqtisad elminin ən çətin suallarından biridir. Belə ki, üzən məzənnə sistemində bunu bazarın özü müəyyən edir. Yəni burada milli valyutanın xarici valyuta qarşısındakı dəyəri valyuta bazarındakı tələb və təklif tərəfindən müəyyənləşir. Misal üçün, inflyasiya və xarici ticarət bir-biri ilə əlaqəli şəkildə valyutanın tələb və təklifinə təsir edir. Bir ölkədə, səbəblərindən asılı olmayaraq, inflyasiyanın nəticəsində, rəsmi kurslar inflyasiya səviyyəsinin altında olarsa, bu idxal mallarının qiymətlərinin ucuzlaşmasına, ixrac mallarının qiymətlərinin isə artmasına səbəb olacaqdır. Bunun nəticəsi olaraq, ölkənin xarici ticarət kəsiri artacaqdır.

Üzən məzənnə rejimlərində dolların kursunun seyrini təxminən bilməyi çətinləşdirən ən ciddi amil kapital hərəkətləridir. Xarici ticarətdə böyük bir kəsir düşünək. Eyni zamanda ölkəyə böyük bir həcmdə kapital girişi olsun. Valyuta təklifi tələbin üzərinə çıxınca ölkə pulu dəyər qazanar.

Tərsi də mümkündür. Xarici ticarətdə müsbət saldosu olan bir ölkəni götürək. Xaricə çıxan kapital ticarət saldosundakı artıqdan çoxdursa valyuta tələbi valyuta təklifinin üzərinə çıxar. Müsbət saldoya baxmayaraq, ölkənin milli pul vahidi dəyər itirər.

Aydın olur ki, bundan sonra gələcəkdə kapital hərəkətlərinin trayektoriyasını doğru təsbit edə bilənlər, valyuta kurslarının da hərəkətini doğru təsbit edə biləcəkdir. Buna isə, Milli Bank və ölkəmizin maliyyə qurumlarının daha çox imkanı var. Ötən şənbə baş verən valyuta böhranı bu qurumların vəzifələrinin öhdəsindən lazımi səviyyədə gələ bilmədiklərini sübut etdi.

# Kiçik və Orta Sahibkarlıq nədir?*

*Natiq Sabiroğlu*

Məqaləyə başlamadan əvvəl Kiçik və Orta Sahibkarlığın (KOS) tərifini verməkdə böyük fayda görürük. Çünki bu Azərbaycanda və dünyada KOS-la bağlı fərqli anlayışları spesifik bir şəkildə göstərə bilər. 4 iyun 1999-cu il tarixli və 673-IQ nömrəli Kiçik Sahibkarlığa Dövlət Köməyi Haqqında Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə görə kiçik sahibkarlıq subyektləri:

- Hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər;

- İşçilərin orta siyahı sayı (mövsümi işçilər nəzərə alınmadan) sənaye, nəqliyyat və tikintidə - 50 nəfərədək, kənd təsərrüfatında və elmi texniki sahədə - 30 nəfərədək, ticarət, xidmət, informasiya və digər sahələrdə - 25 nəfərədək olan hüquqi şəxslərdir.

Göründüyü kimi bizdə təsnifat əsasən çalışan işçi sayına görə aparılmaqdadır ki, bu da KOS-ların kapital və texnoloji infrastrukturlarının yanında bəzi davranış xüsusiyyətlərini (yenilik yaratma potensialı, sürətli adaptasiya kimi) nəzərdən qaçırmaqdadır. Dolayısilə vahid və tək faktora dayanan ümumi bir tərif yerinə KOS-ların fəaliyyət göstərdiyi sektoral xüsusiyyətləri nəzərə alan çoxfaktorlu təriflər və bunlar arasında ciddi bir koordinasiyanın təşkili qarışıqlığı önləmədə daha səmərəli ola bilər. Məsələn, mövcud qanunvericiliyə əsasən, 60 işçi ilə mədənçilik sənayesində fəaliyyət göstərən və illik satış həcmi 1 milyon dollar olan bir hüquqi şəxs KOS statusuna daxil edilmədiyi halda, 20 işçi ilə informasiya və kommunikasiya texnologiyaları (İKT) sektorunda fəaliyyət göstərən və illik sa-

* *30 avqust 2004.*

tış həcmi 10 milyon dolları aşan bir firma isə KOS statusunda qəbul edilir.

Avropa Birliyi (AB) Şura qərarı çərçivəsində qabarıq bir şəkildə ortaya qoyulan KOS tərifi işçi sayı, balans böyüklüyü və iqtisadi müstəqillik parametrlərindən meydana gələn ölçüləri əhatə etməkdədir. Burada müstəqil müəssisə dedikdə, kapitalının və ya səhm paylarının 25 faiz və ya daha artığı bir müəssisə tərəfindən sahiblənməmiş olan və ya kapitalı kiçik və orta böyüklükdəki müəssisə tərifi xaricindəki müəssisələrdən meydana gəlməmiş olan müəssisələr nəzərdə tutulur:

- Mikro miqyaslı müəssisələr: 10 işçidən az işçi çalışdıran və iqtisadi müstəqillik parametrlərinə sahib olan müəssisələr;
- Kiçik miqyaslı müəssisələr: 50-dən az işçi çalışdıran, illik satış həcmi 5 milyon avronu aşmayan, illik balans dəyəri 2,2 milyon avronu keçməyən və iqtisadi müstəqillik parametrlərinə sahib olan müəssisələr;
- Orta miqyaslı müəssisələr: 50 ilə 250 işçi çalışdıran və illik satış həcmi 20 milyon avronun altında olan, illik balans dəyəri 10 milyon avronu aşmayan və iqtisadi müstəqillik parametrlərinə sahib olan müəssisələr şəklində tərif edilməkdədir.

Ayrıca inkişaf etmiş ölkələrin çoxunda vahid və ümumi bir rəsmi tərif yerinə sektorlara görə dəyişən, işçi sayı, satış həcmi, makina sayı, sabit varlıqların dəyəri, mənfəət həddi, yaradılan əlavə dəyər, ödənən vergi miqdarı kimi kəmiyyət ölçüləri ilə çalışanların tale birliyi, kapital bazarından sərmayə təmin edə bilmə gücü, iqtisadi müstəqillik kimi keyfiyyət parametrlərini diqqətə alan çoxlu tərif sistemindən istifadə edilməkdədir.

Böyük miqyaslı firmalarla müqayisədə həm firma sahibindən, həm də müəssisənin özündən qaynaqlanan bəzi davranış üstünlüklərinə (elastiki istehsal paradiqması, kiçik hətta sıfır inventarla çalışma texnikasını ifadə edən tam zamanında is-

tehsal tərzi (just in time - JIT), kütləvi istehsal yerinə parçalı istehsal və s.) sahib olan KOS-ların çatışmazlıqlarını və üstünlüklərini ümumi olaraq aşağıdakı tablodakı kimi sinifləşdirə bilərik:

| **Çatışmazlıqlar** | **Üstünlüklər** |
|---|---|
| Satışlara nisbətlə yüksək fəaliyyət məsrəfləri | Daha az investisiya ilə daha çox istehsal, mal və xidmət müxtəlifliyi təmin etməkdədirlər |
| Kapital yetərsizliyi | Daha kiçik investisiya məsrəfləri ilə nisbətən yüksək məşğulluq imkanı yaratmaqdadırlar |
| İnventar problemi | Quruluşları etibarilə iqtisadi dalğalanmalardan daha az təsirlənirlər |
| Borclarını geri qaytarmada yaşanan çətinliklər | Tələb dəyişikliklərinə və çeşidliliklərinə daha asan adaptasiya ola bilməkdədirlər |
| Gərəksiz sabit varlıqlar | Texnoloji yeniliklərə daha çox meyllidirlər |
| Kredit təminində yaşanan çətinliklər | Bölgələr arası tarazlı iqtisadi inkişafı təmin edirlər |
| Keyfiyyətli işçi sıxıntısı çəkməkdədirlər | Gəlir bölgüsündəki ədalətsizlikləri ən aşağı səviyyəyə endirirlər |
| Təşviqlərdən demək olar ki heç faydalana bilməməkdədirlər | Fərdi yığımları təşviq edir, istiqamətləndirir və hərəkətləndirirlər |
| Digər maliyyə vasitələrindən yetərincə faydalana bilməməkdədirlər | Böyük sənaye müəssisələrinin əvəzedilməz dəstəkləyicisi və tamamlayıcısıdırlar |
| Texnoloji səviyyələri çox vaxt aşağıdır | Siyasi və sosial sistemlərin balans və stabillik ünsürüdürlər |

| | |
|---|---|
| Lokal və beynəlxalq texniki və ticari yenilikləri izləyə bilməməkdədirlər | Demokratik cəmiyyətin və liberal iqtisadiyyatın əsas sığortalarından biridirlər |
| KOS-larda müəssisə sahibliyi, təşəbbüskarlıq və idarəçiliyin bir şəxsdə toplanması müəssisənin professionallığını əngəlləməkdədir | KOS-larda müəssisə sahibliyi, təşəbbüskarlıq və idarəçiliyin bir şəxsdə toplanması dəyişən şərtlərə tez cavab verməsini təmin etməkdədir |
| Ailə fərdləri arasındakı ziddiyyətlər (qısqanclıq, qeyri-sağlam rəqabət, kin və s.) müvəffəqiyyəti əngəlləməkdədir | KOS-larda ailə fərdləri bir arada olduğu üçün qeyri-rəsmi münasibətlər çox inkişaf etmiş və hər kəs müvəffəqiyyətə fokuslanmışdır |
| Əmək bölgüsünün səviyyəsi əsasən aşağı səviyyədədir | |

Dinamik quruluşları, elastiki və sürətli qərar alma mexanizmləri ilə yeniliklərə, tələb çeşidliliklərinə və dəyişikliklərinə daha asan adaptasiya ola bilən, daha kiçik investisiya məsrəfləri ilə məşğulluq imkanı yaradan və iqtisadi dalğalanmalardan daha az təsirlənən KOS-lar, stabil və sürdürülə bilən bir iqtisadi inkişaf hədəfinin gerçəkləşdirilməsində təməl ünsürdür. Bu çərçivədə KOS-ları bütün yönləri ilə ələ alaraq tətbiq olunacaq mexanizmləri vahid çətir altında toplayacaq müəssisələrə yönəlik siyasətin formalaşdırılması zərurəti ön plana çıxmaqdadır. Azərbaycanda tam bu nöqtədə ciddi bir qarışıqlıq yaşanmaqdadır. Ən kiçik bir prosedurada belə çoxsaylı bürokratik əngəllər özünü göstərməkdədir. Məsələn, Dünya Bankının (IBRD) keçən il dərc etdiyi və dünyanın 130 ölkəsində şirkət yaratmaq və onu qeydiyyatdan keçirmək, kredit almaq, işçini qəbul etmək, işdən çıxarmaq, müqavilə bağlamaq (qeydiyyatdan keçirmək, hüquqi müdafiəsini təşkil etmək və əgər lazım gələrsə, məhkəmə vasitəsilə iddia qaldırmaq) və öz firmasını bankrot etmək kimi beş meyara əsaslanan məruzədə

dövlətlərdə biznes aparmaq üçün mövcud sistemlər təhlil olunmuşdur.

İdarə sistemləri biznes aparmaq üçün maksimum əlverişli olan dövlətlər onluğuna aşağıdakı ölkələr daxil olmuşdur: ABŞ, Avstraliya, Kanada, Danimarka, Hollandiya, Yeni Zelandiya, Norveç, Sinqapur, İsveç və Böyük Britaniya. Məruzəyə görə, yeni şirkətlər İsveçdə və Yeni Zelandiyada daha asan qeydiyyata alınmaqdadır, bunun üçün üç prosedura kifayət etməkdədir.

Məruzəyə əsasən, Azərbaycanda şirkət yaratmaq üçün 14 proseduranı keçmək, bunun üçün 106 gün sərf etmək və 120 dollar ödəmək lazımdır. Azərbaycanda müqavilə ilə işləməyə 25 prosedura, 115 gün və 20 dollar tələb olunmaqdadır. Ayrıca bankrotluq prosesi də 2,7 il təşkil etməkdədir. Bu məruzə bizim hansı nöqtələrdə axsadığımızı da ortaya qoymaqdadır.

Dünyada KOS-la əlaqədar gerçəkləşdirilən fəaliyyətlərə baxdığımızda xüsusilə, maliyyə qaynaqlarından yetərincə faydalana bilmə mövzusuna daha çox diqqət yetirildiyi və R&D-yə (innovasiyaya) xüsusi əhəmiyyət verildiyi müşahidə edilməkdədir. Bu baxımdan Azərbaycanda – Avropa Birliyində 13 iyun 2000 tarixində qəbul edilən "Kiçik Müəssisələrə Yönəlik Avropa Şərti"ndə bildirildiyi kimi – təşəbbüskar yönümlü təhsilin təşkili, müəssisə qurulmasının daha aşağı məsrəflə və daha sürətli bir şəkildə gerçəkləşdirilməsi üçün lazımı şəraitin yaradılması, idari və hüquqi düzənləmələrin təkmilləşdirilməsi və asanlaşdırılması, elektronik şəraitdə məlumatlandırmanın yaxşılaşdırılması və əməliyyatların elektronik şəraitdə reallaşdırılması, kiçik müəssisələrin bazardan daha çox faydalanmasının təmin edilməsi, vergitutma sisteminin müvəffəqiyyəti mükafatlandıracaq, şirkət quruluşunu təşviq edəcək, kiçik müəssisələrin yayılmasını və iş imkanlarının yaradılmasını təmin edəcək şəkildə uyğunlaşdırılması və maliyyə xidmətlərindən istifadənin sadələşdirilməsi, kiçik müəssisələrin texnoloji

potensiallarının gücləndirilməsi kimi mövzular üzərində ciddi çalışmalara ehtiyac var...

# Dünyada KOS-lara yönəlik təşviqlər*

*Natiq Sabiroğlu*

Keçən yazımızda 4 iyun 1999-cu il tarixli və 673-IQ nömrəli Kiçik Sahibkarlığa Dövlət Köməyi Haqqında Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə görə kiçik sahibkarlıq subyektlərinin tərifini vermişdik. Ayrıca bu tərifin olduqca yetərsiz olduğunu vurğulamış və çatışmazlıqlarını göstərmişdik. Qeyd edək ki, bəhs edilən 3-cü maddə 4 noyabr 2003 tarixli və 508-IIQD nömrəli "Kiçik sahibkarlığa dövlət köməyi haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu əsasında aşağıdakı şəkildə dəyişdirilmişdir:

1. Kiçik sahibkarlıq subyektləri işçilərinin orta siyahı sayı (mövsümi cəlb edilən işçilər nəzərə alınmadan) və illik dövriyyələrinin həcmi əsas götürülməklə müəyyənləşdirilir.

2. İqtisadi fəaliyyət növləri üzrə bu meyarların hədlərinin müəyyən edilməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.

Göründüyü kimi, çatışmazlıqların bir qismi qanunu hazırlayan mütəxəssislər tərəfindən nəzərə alınmış, lakin qaş düzəldən yerdə göz çıxarılmışdır. Bu dəyişiklikdən sonra hətta IqtisadNet olaraq biz belə Azərbaycanda kiçik sahibkarlıq deyiləndə nəyin nəzərdə tutulduğunu müəyyənləşdirə bilmiş deyilik.

Fikrimizcə meyarların təyin edilməsinin sektor birlikləri yerinə müvafiq icra hakimiyyəti orqanlarına həvalə edilməsi yeni qanunvericilikdə ciddi bir nöqsandır. Çünki bu səlahiyyətin icra strukturlarına buraxılması sistemi sui-istifadəyə olduqca açıq bir hala gətirməkdədir. Dolayısı ilə əvvəlki qanun-

* *21 sentyabr 2005.*

da yetərsiz təsnifat mövcud idisə, indikində ciddi qeyri-müəyyənlik mövcuddur. Yəni fəaliyyət növləri üzrə meyarların hədlərinin müəyyən edilməsinin müvafiq icra hakimiyyəti orqanlarına buraxılması və nəticədə hər icra hakimiyyətinin bu meyarlar üçün fərqli hədlər müəyyənləşdirə biləcəyini nəzərə alsaq, belə çıxır ki, bir rayonda kiçik sahibkarlıq subyekti sayılan istənilən bir müəssisə ilə eyni parametrlərə sahib olan, lakin başqa bir rayonda yerləşən müəssisə kiçik sahibkarlıq subyekti kimi qəbul edilməyə bilər.

Bu durum respublika üzrə KOS-lara yönəlik vahid statistikanın aparılmasını və daha əhəmiyyətlisi bunlara yönəlik vahid bir təşviq sisteminin həyata keçirilməsini müşkülə çevirir. Ayrıca bəzi bölgələrdə KOS-lar təşviq edilmək istənilirsə, bunu da yerli icra strukturları deyil, dünyada olduğu kimi, qanun müəyyənləşdirməlidir.

Ona görə də biz, IqtisadNet olaraq Azərbaycanda KOS-lardan bəhs edərkən qanundakı dəyişikliyə qədər olan dövrü ələ almışıq. Çünki qanundakı dəyişiklikdən sonra KOS-ların vəziyyətindən, dolayısı ilə qeyri-müəyyən bir məsələdən bəhs etmək qeyri-ciddilik olardı.

Bu yazımızda dünyada KOS-lara yönəlik təşviqlərdən bəhs edəcəyik. Təşviq (həvəsləndirmə) məfhumu, istifadə məqsədinə görə fərqli şəkillərdə tərif edilməkdədir. Praktikada təşviq məfhumu yerinə subvensiya, subsidiya, iqtisadi qayəli maliyyə yardımı, istehsalçılara ayrılan transfer xərcləri, pul mükafatı, dəstəklər, münasib şərtlərdə kreditlər kimi bəzi məfhumlar da istifadə edilməkdədir. OECD (İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı) tərəfindən verilən tərifə görə isə investisiya təşviqləri, bir investisiyanın məsrəfinə və ya potensial gəlirinə təsir edəcək və ya investisiya ilə əlaqədar risklərini dəyişdirərək investisiyanın böyüklüyünü, bölgəsini və sektorunu istiqamətləndirmək üçün hazırlanan hökumət tədbirləridir. Təşviq məf-

humunun daha yaxşı anlaşıla bilməsi üçün təməl xüsusiyyətlərini gözdən keçirməkdə fayda var. Bu xüsusiyyətləri altı əsas başlıqda incələmək mümkündür:

- Təşviqlər dövlət tərəfindən verilir;
- Təşviqlər çox vaxt özəl sektora verilməklə birlikdə dövlət təşəbbüslərinə də verilə bilər;
- Təşviqlər dövlətə bir məsrəf yüklər. Bu məsrəf, nağd təşviqlərdə ucuz kredit və yardım yolu ilə ayrılan transfertlər səbəbindən dövlət fonlarının azalmasından qaynaqlanacağı kimi, vergi təşviqlərində yaranmış və ya gələcəkdə yaranacaq bir dövlət gəlirinin bağışlanmasından qaynaqlanan gəlir azalması şəklində də ola bilər;
- Təşviqlər, dövlət baxımından gəlir itkisi və ya fon azalmasına səbəb olurkən, firmalar baxımından bir "yararı" ifadə edər;
- Təşviqlərdən, investisiyanın mahiyyətini, bölgəsini, sektorunu, böyüklüyünü və zaman seçimini istiqamətləndirmək məqsədilə istifadə edilir;
- Təşviqlər, dolaylı və ya birbaşa verilə bilər.

Təşviqləri tərkibinə görə, komplekt yeni, genişləndirmə, tamamlama, yeniləmə, modernləşdirmə, daşıma (nəqliyyat), keyfiyyət düzəltmə, darboğaz aşma, birləşmə/bütünləşmə (inteqrasiya), finans kiralaması, bərpa (restorasiya), əmtəə çeşidləndirmə və R&D-yə yönəlik təşviqlər olaraq sinifləşdirə bilərik.

Dünyada investisiya şəraitini yaxşılaşdıraraq KOS-ları daha da effektiv hala gətirmək üçün çox çeşidli təşviq vasitələrindən istifadə edilməkdədir. Bunlar maddi yardım, nağd ödəmə, vergi, qarantiya və təminatlar və s. şəkildə təsnifləşdirilə bilər. Bu ümumi təşviq növlərini də alt növlərə ayırmaq mümkündür. Tabloda göstərildiyi kimi, alt növlər də nəzərə alındıqda, dünyada olduqca çox və qarışıq bir təşviq sisteminin mövcud olduğunu söyləyə bilərik. Bu təşviqlərin hamısı-

nın bir arada istifadə edilməsi, tətbiq olunan ölkə baxımından arzulanan nəticəni verməyə bilər. Önəmli olan bunlar arasından rasional və ölkə ehtiyaclarına uyğun olanları seçib tətbiq edə bilməkdir.

| | |
|---|---|
| **Nağd Pul Şəklində Olmayan Maddi Təşviqlər** | - Torpaq və yer təmini,<br>- Bina təmini. |
| **Nağd Təşviqlər** | **Qarşılıqsız:**<br>- Yardımlar,<br>- Pul Mükafatları.<br>**Qarşılıqlı**:<br>- Uyğun şərtli kreditlər (aşağı faizli, uzun müddətli). |
| **Vergi Təşviqləri** | **Gəlir və Mənfəət Vergisi Təşviqləri**:<br>- Aşağı nisbətli gəlir və mənfəət vergisi,<br>- Vergi istisnası,<br>- Zərər qarşılanması,<br>- Sürətləndirilmiş amortizasiya,<br>- İnvestisiya endirimi,<br>- Bəzi xərclərin vergidən düşülməsi (sosial mühafizə payı, məşğulluqla əlaqədar xərclər, reklam, tanıtma və marketinq, səhiyyə xərcləmələri və s.),<br>- Vergi krediti (maliyyələşdirmə fondu),<br>- Vergi tətili.<br>**ƏDV Təşviqləri:**<br>- Kapital mallarına ƏDV istisnası,<br>- İnkişaf etməmiş bölgələrə və/və ya bəzi mallara aşağı ƏDV nisbəti,<br>**Gömrük Vergisi Təşviqləri**:<br>- Makina-təchizat, xammal, parça |

| | |
|---|---|
| | və yedək parça kimi kapital mallarına gömrük istinası,<br>- Gömrük vergisinin geri ödənməsi. |
| **Qarantiya və Təminatlar** | - Kredit qarantiyaları,<br>- Yüksək ticari risk daşıyan proyektlərə dövlət mənbəli risk kapitalı iştirakı,<br>- İqtisadi və ticari riskləri əhatə edən imtiyazlı dövlət sığortası (devalvasiya, siyasi qarışıqlıq və s.). |
| **Digər Təşviqlər** | - İnfrastrukturun hazırlanması,<br>- Ucuz enerji dəstəyi,<br>- İnvestisiya öncəsi xidmətlər, maliyyə mənbələri, investisiya proyekti hazırlama və idarə etmə, bazar araşdırması, xammal və infrastruktur vəziyyəti, istehsal prosesi və marketinq texnikaları, təhsil, know-how və ya keyfiyyət kontrol inkişaf texnikaları ilə əlaqədar yardımlar,<br>- İmtiyazlı dövlət anlaşmaları. |

Təşviqlərin KOS-ların investisiya qərarları üzərindəki təsirlərini araşdıran müxtəlif araşdırmalar aparılmışdır. Bu çalışmalardan əldə edilən nəticələrə görə təşviqlər KOS-ların investisiya qərarlarında ikinci səviyyədə təsirli amillərdəndir. Birinci səviyyədə təsirli amillər arasında isə ölkədəki investisiya şəraitini, dövlətləşdirməyə qarşı verilən qarantiyaları və minimal dövlət müdaxiləsini, əlaqədar ölkənin siyasi stabilliyini, axtarılan keyfiyyətdə texnik işçilərin və idarəçilər üçün yaşamaya uyğun bir mühitin olmasını, yetərli səviyyədə inkişaf etmiş nəqliyyat və rabitə imkanlarını və hüquqi düzənləmələri göstərmək olar. Fəqət bu durum təşviqlərin investisiya-

lar üzərində təsirinin heç olmadığı mənasına gəlməməlidir. Azərbaycandakı təşviq sistemi içərisində müxtəlif problemlər mövcuddur. Bu baxımdan ilk öncə təşviq praktikasının bəsitləşdirilməsi, stabilliyə qovuşdurulması və effektiv hala gətirilməsi daha zəruridir. Avropa Birliyi ölkələrinin investisiya və ixracatı təşviq rejimləri mütləq nəzərdən keçirilməli, mövcud təşviq rejiminin buna görə inkişaf etdirilməsi və effektiv hala gətirilməsi təmin edilməlidir. Təşviq siyasəti müəyyənləşdirilərkən kəmiyyət parametrləri (kapital miqdarı, işçilərin sayı və s.) ilə yanaşı keyfiyyət xüsusiyyətləri (texnologiyalardan yüksək səviyyədə istifadə, idarəetmə şəkli və s.) də diqqətə alınmalıdır. Dolayısı ilə təşviq sistemi ölkənin ehtiyacı olan yüksək texnologiyanı önə çıxaracaq şəkildə ələ alınmalı, texnopark və texnoloji inkişaf bölgələrinə üstünlük verilməlidir.

Dünyada təşviq növlərindən nağd və vergi təşviqlərinin tətbiqinə daha çox üstünlük verilir. Yardımlar, uyğun şərtli kreditlər kimi nağd təşviqlərin investisiyalar üzərində təsirinin çox məhdud və sui-istifadəyə açıq olması, vergi təşviqlərinin isə nəticə fokuslu, performansa dayanan və effektiv ixracatı inkişaf etdirmə xüsusiyyətindən ötrü, dünyada ikinci növ təşviqlər artıq daha çox tərcih edilir. Hər ölkə öz tələbatları yönündə çeşidli vergi təşviqlərindən istifadə etməkdədir. Bunların içində ən çox istifadə olunan təşviq vasitəsi aşağı nisbətli gəlir və mənfəət vergisidir.

Dünyada KOS-lara təmin edilən digər təşviqlər arasında vergi tətili, sürətləndirilmiş amortizasiya, investisiya endirimi, sosial mühafizə payı endirimi, Əlavə Dəyər Vergisi istisnası, gömrük rüsumlarında güzəşt, gömrük vergisinin geri ödənməsi, investisiya yerinin əvəzi ödənilmədən təmini, gəlir vergisindən məcburi ayırmaların geri ödənməsi, işəgötürənlərin ehtiyat sığorta fondlarına ayırmalardan azad tutulması, enerji dəstəyi, bazar araşdırma dəstəyi, xaricdə mağaza açma, firma

və marka tanıtma, fəaliyyətlərin dəstəklənməsi, patent, faydalı model sənədi, sənaye proyekti, innovasiya dəstəyi və s. göstərmək olar.

Vergi siyasəti və vergi təşviqləri baxımından vurğulanması lazım olan ən önəmli nöqtə, digər bütün şərtlər bərabər olduğu zaman, bu təşviqləri tətbiq edən ölkənin KOS-lar baxımından nisbətən üstünlüyə sahib olacağıdır. Fəqət ölkələr arası fərqliliklər sadəcə tətbiq etdikləri vergi siyasətlərində ortaya çıxmamaqda bunun yanında ticari siyasət, bazar böyüklüyü, idarəetmə şəkilləri, təbii ehtiyat və bəşəri kapital baxımından da önəmli fərqliliklər müşahidə edilməkdədir. Bütün bu şərtlər investisiya qərarının verilməsində önəmli faktorlardır.

Qısacası, önəmli olan təşviqlərin böyüklüyü deyil, effektiv olmasıdır. Məsələn, 1968-1998-ci illəri əhatə edən 30 illik dönəmdə, Türkiyədə ödənən qarşılıqsız yardım 325 milyard dollar təşkil edib. Yenə Sənaye və Ticarət Nazirliyi ixracatçı KOS-lar tərəfindən istifadə edilmək üçün sadəcə 2004-cü ildə 1,5 milyard dollarlıq yeni bir imkanı ölkə iqtisadiyyatına qazandıracaq. Fəqət bu rəqəmlərin ölkənin istədiyi sənayeləşməyə varmada nə qədər yardımçı olduğu və ya ola biləcəyi mübahisəlidir.

# Azərbaycanda KOS-lara yönəlik təşviqlər*

*Natiq Sabiroğlu*

Azərbaycanda KOS-lara (Kiçik və Orta Sahibkarlıq) yönəlik təşviqlərin əsasını 2002-ci ilin avqust ayının 17-də ölkə Prezidentinin Fərmanı ilə təsdiqlənən "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı (2002-2005-ci illər)" təşkil edir. Yeni Dövlət Proqramı 6 bölmədən ibarət olmaqla 63 tədbiri özündə birləşdirməkdədir. Dövlət Proqramının baş icraçısı Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyidir. Proqramın maliyyələşdirilməsinin əsas mənbələri kimi dövlət büdcəsi üzrə olan ayırmalar, Sahibkarlığa Kömək Milli Fondun vəsaiti, əhalinin məşğulluğu üzrə dövlət vəsaitləri, xarici investisiyalar, beynəlxalq və xarici ölkə təşkilatlarının texniki və maliyyə yardımları, bələdiyyə vəsaitləri və digər mənbələr nəzərdə tutulur.

Başda qeyd edək ki, mövcud təsnifat effektiv bir təşviq sistemi yerinə, olduqca ümumi, seçicilikdən (selektivlikdən) uzaq və kəmiyyət əsaslı bir xüsusiyyətə sahibdir.

Proqramın birinci bölməsi sahibkarlığın dövlət tənzimlənməsini nəzərdə tutur. Bu bölmədə eyni zamanda KOS sferasının sərhədlərinin dəqiq müəyyən edilməsi məqsədi ilə sahibkarlıq subyektlərinin ölçülərinin təkmilləşdirilməsi nəzərdə tutulur. Bununla əlaqədar əvvəlki yazımızda ətraflı məlumat vermişdik.

İkinci bölmədə KOS-un inkişafının maliyyə və investisiya təminatının yüksəldilməsi tədbirləri öz əksini tapmışdır. Bu bölmədə KOS-un öncül sahələrinə investisiya qoyuluşunun stimullaşdırılması, KOS subyektlərinin dövlət investisiya proqramlarında iştirak etməsinə dair mexanizmin hazırlanma-

* *21 sentyabr 2005.*

sı, kiçik sahibkarlıq subyektləri üçün vergi sisteminin səmərəliliyinin artırılması, kredit təminatı sisteminin təkmilləşdirilməsi və bununla bağlı girov mexanizminin tətbiqini nəzərdə tutan tədbirlər nəzərdə tutulur, ön sıraya çəkilir.

Proqramın üçüncü - "KOS sektorunda struktur dəyişiklərinə və texnoloji inkişafa kömək" - bölməsində KOS ilə iri müəssisələr arasında kooperasiya əlaqələrinin genişləndirilməsi məqsədilə kompleks tədbirlər, o cümlədən, hüquqi normativ bazanın inkişafı, müəssisələrin kooperasiyasının yaradılması, metodik materialların hazırlanması və digər tədbirlər müəyyən edilmişdir.

Dördüncü bölmədə KOS-a texniki kömək və insan amilinin inkişaf üzrə tədbirlər nəzərdə tutulmuşdur. Bu bölmədə sahibkarlığın informasiya təminatının yaxşılaşdırılması məqsədilə "İnternet-biznes" xidmətinin təşkili, KOS tədris mərkəzinin yaradılması və bu məqsədlə tədris-metodiki və məsləhət yönümlü dərs vəsaitlərinin hazırlanması və s. öz əksini tapmışdır. Fikrimizcə, burada dövlət eyni zamanda qurum daxili təhsilə və bəşəri kapital yetişdirməyə də aktiv bir şəkildə dəstək verməlidir.

Proqramın beşinci bölməsi isə sahibkarlığın regional inkişafının sürətləndirilməsi məsələlərinə həsr olunmuşdur. Bu baxımdan, proqram Azərbaycan Respublikasının regionlarının investisiya xəritələrinin hazırlanmasını, regional inkişafın müvafiq mexanizmlərinin həyata keçirilməsini, regional infrastrukturun yaradılmasını və inkişafını, yerli icra hakimiyyətini və özünüidarəetmə orqanlarının bu sahədə fəaliyyətinin gücləndirilməsini nəzərdə tutur. Bu baxımdan, regional investisiya xəritələrinin hazırlanmasında lokal sahibkarların da qərar mexanizminə cəlb edilməsi faydalı olacaqdır.

Regionlar üzrə fərqli gəlir vergisi dərəcələri 2003-cü il yanvarın 1-dən tətbiq edilməkdədir. Bu qaydaya uyğun olaraq,

Abşeron yarımadasında yerləşən müəssisələr ən yüksək dərəcə ilə - 25 faizlə gəlir vergisi ödəyir. Gəncə, Sumqayıt, Mingəçevir və Əli-Bayramlı şəhərlərində və bu şəhərlərin ətraf ərazilərində işləyən müəssisələr gəlirin - 20 faizi, Azərbaycanın dağ rayonlarında və Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən müəssisələr - 10 faizi, ölkənin digər rayonlarında işləyən müəssisələr isə - 15 faizi həcmində vergi ödəyirlər. Fikrimizcə vergi mexanizmində sahə və regional diferensiallaşdırma sistemini daha da rasional və aktiv hala gətirmək lazımdır. Çünki bu cür vergi tutma sistemi regionların və iqtisadiyyat bölmələrinin balanslaşdırılmış inkişafına xidmət etməkdədir.

Qeyd edək ki, cari ilin ilk 9 ayında maliyyələşdirilmiş layihələrin 75 faizindən çoxu respublikanın regionlarının payına düşməkdədir. Ayrıca kredit ayrılmış layihələrin 94 faizinin istehsal və emal yönümlü olması da müsbət qarşılanmalıdır. Bu layihələr üzrə 6 mindən artıq yeni iş yeri yaradılıb. Müvəkkil kredit təşkilatlarının şəbəkəsi genişləndirilib və onların sayı 24-ə çatdırılıb. Qeyd edək ki, 2004-cü ildə sahibkarlığın inkişafına cəmi 100 milyard manat vəsait ayrılıb. 2005-ci ildə dövlət büdcəsindən Sahibkarlığa Kömək Milli Fonduna 200 milyard manat vəsaitin ayrılması nəzərdə tutulub. Fəqət bu rəqəmin KOS-ların texnoloji infrastruktur investisiyaları üçün çox yetərsiz olduğu aşkardır.

Nəhayət, proqramın altıncı bölməsində sahibkarların hüquqlarının müdafiəsinin gücləndirilməsi üzrə problemlərin həlli öz əksini tapmışdır. Bu bölmə sahibkarların dövlət qeydiyyatı və fəaliyyəti sahəsində onların hüquqlarının müdafiəsinin etibarlı müdafiəsi mexanizmlərinin yaradılması ilə bağlı məsələləri əhatə edir. Burada nəzərdə tutulan tədbirlər eyni zamanda, sahibkarlıq fəaliyyətinə qanunsuz müdaxilələrin aradan qaldırılmasını təmin edəcəkdir. Bunun istənilən səviyyədə tətbiq edilməsi üçün isə tam ixtisaslaşmış və siyasi baxımdan müstəqil məhkəmə sisteminə ehtiyac var.

Qeyd edək ki, Azərbaycanda KOS-la əlaqədar ən böyük problem əlaqəli qanunvericilik hökmlərinin tətbiq mərhələsində yaşanan çatışmazlıqlardır. Ayrıca müəssisələrin hüquqi şəxs meydana gətirmə metodları bürokratik əngəllər minimuma endirilərək asanlaşdırılmalı və bu təşviq edilməlidir. Çünki hüquqi şəxs statusu kommersiya banklarından kredit almaqdan tutmuş dövlət qurumları ilə münasibətlərə qədər bir çox prosesdə ciddi sıxıntıların ortadan qalxmasına səbəb olacaqdır. Yenə hazırda KOS müəssisələrinin 70 faizinin Bakı şəhəri və ona yaxın ərazilərdə yerləşməsi də ciddi bir problemdir. Bu da regionlar arası qeyri-bərabər və ədalətsiz bölgü problemini gündəmə gətirməkdədir. Bundan yayınmanın yolu stimullaşdırılmış regionlar praktikasını effektiv bir hala gətirməkdir. Fəqət bu mövzu təşviqləri aşan, o yerlərdə keyfiyyətli iş gücü, texnoloji infrastruktur, yetərli kapital kimi ümumi investisiya şəraitini maraqlandıran mövzulardır.

Sahibkarlarla bağlı vergi yükü də yüngülləşdirilmişdir. Belə ki, mənfəət vergisi 35 faizdən 25 faizə qədər azaldılmışdır. Bu dünyadakı ümumi trendə uyğundur. Belə ki, 1996-2002 illərində OECD ölkələrində ortalama Mənfəət Vergisi 7 faiz geriləmişdir (38-dən 31-ə). Dolayısilə Azərbaycanda mənfəət vergisi OECD ortalamasından kiçikdir. Fəqət Azərbaycanla, KOS-lardan gözlənən fayda baxımından, müqayisə oluna biləcək bəzi OECD ölkələrinə nəzər saldığımızda bu rəqəmin də (mənfəət vergisinin) yüksək olduğu görülməkdədir. Məsələn, İrlandiyada bu rəqəm 16 faiz, Macarıstanda 18 faiz, İslandiyada 18 faiz və İsveçrədə 24 faizdir. Bu rəqəmlər xüsusilə son 10 ildə ciddi bir iqtisadi sıçrayış göstərən İrlandiyada 22 faiz (38-dən 16-ya) və Macarıstanda da 15 (33-dən 18-ə) faiz düşmüşdür.

Azərbaycan vergi təşviqləri ilə əlaqədar tövsiyə edilə biləcək başqa bir praktika da vergi tətili (tax holiday) olaraq ad-

landırılan mənfəət vergisindən azadolmadır. Xüsusilə, Asiya (13 ölkə) və Mərkəzi və Şərqi Avropa (19 ölkə) ölkələri tərəfindən geniş bir şəkildə tətbiq olunan bu təşviq növü, əlaqədar ölkələrə önəmli miqdarda birbaşa xarici investisiyanın daxil olmasında təsirli olmuşdur. Vergi tətili müddəti sektor bazında fərqli olmaqla birlikdə ümumiyyətlə 5-10 il ola bilər. Orta miqyaslı bir sənaye quruluşu ortalama 2-3 ildə sabit kapital investisiyasını gerçəkləşdirməkdə, bunu təqib edən müddətdə də müəssisə kapitalı investisiyaları qoyulmaqdadır. İstehsala keçildikdən bir neçə il sonra da firmanın başabaş nöqtəsinə çatdığı düşünüldüyündə, bu 5-10 illik müddətin çox da uzun bir zaman olmadığı görülür.

Mövcud praktikaya görə hüquqi şəxslər və sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər torpaq vergisindən birinci stimullaşdırma bölgəsində 70 faiz, ikinci stimullaşdırma bölgəsində isə 100 faiz azad edilməkdədirlər. Bu baxımdan İrlandiyadakı mövcud modelin gətirilməsi daha uyğun ola bilər. Ölkə texnoloji investisiyaları dəstəkləmək məqsədilə, əlaqədar sahədə fəaliyyət göstərəcək firmalara yönəlik pulsuz ərazi təmini praktikasına yönəlmişdir.

Yenə Biznes üzrə Məsləhətverici Şuranın (BMŞ) yaradılması müsbət bir adımdır. Fəqət daha doğru olanı KOS-ların investisiya qərarlarında məsləhət (consulting) sərbəstliyinə sahib olmasıdır. Bu barədə KOS-lar ehtiyac hiss etdiklərində özəl professional investisiya məsləhət şirkətlərinə müraciət edə bilməli və xərcləmələrin bir qisminin də dövlət tərəfindən qarşılanması təmin edilməlidir. Azərbaycandakı mövcud durum diqqətə alındığında bunun effektiv bir korrupsiya vasitəsinə dönəcəyi mübahisəsizdir. Bundan yayınmanın yolu sənayeləşmiş bölgələr yaradaraq KOS-ların bir araya gəlməsinin təşkil edilməsidir. Dünyada, son illərdə yüksək keyfiyyətli əmək qüvvəsi ilə yüksək texnologiyalı istehsalın daha iqtisadi olması kimi səbəblərlə KOS-lar xüsusilə inkişaf etmiş ölkələr-

də toplanmışlardır. Eyni iş sahəsində fəaliyyət göstərən KOS-ların idarəetmə, maliyyə, istehsal və marketinq kimi subyektlərinin bir üst idarəyə dövr edildiyi, fəqət firmaların iqtisadi müstəqilliklərinin qorunduğu bu sistemdə firmalar kapitala daha rahat çata bilməkdə (risk kapitalı idarəsi sistemi), yüksək texnologiyadan istifadə imkanına qovuşmaqda və satın alımlarda bazarlıq gücünü artırmaqdadır. Daha sonrakı mərhələlərdə R&D (innovasiya) fəaliyyətlərinin də tək bir mərkəz altında toplanması gerçəkləşə bilər. Bu da firmaların müştərək öyrənmələrini inkişaf etdirəcəkdir. Məsələn, dünya R&D fəaliyyətlərinin qəlbi sayılan Silicon və Photon Vadiləri əsasən bu tip firmaların araşdırma subyektlərini bir araya gətirməkdə və dünyanın superötürücü, süpermaye, lazer, hardware və software sahələrində həyata keçirilən bütün araşdırmaları demək olar ki öz üzərilərinə götürməkdədirlər. Yenə bu barədə Avropa Birliyindəki İnnovasiya Nəql Mərkəzləri (ICR) nümunə göstərilə bilər. Bu mərkəzlər Avropa Komissiyasının İnnovasiya-KOS proqramları çərçivəsində KOS-lar arasında texnoloji ortaqlığa və texnoloji transferə yönəlik xidmət vermək üzrə 1995-ci ildə qurulmuş, konsorsium quruluşu içində fəaliyyət göstərən müstəqil iş və texnoloji məsləhət təşkilatlarıdır. İNM yeni firmaları ölkədaxili və xarici texnoloji transferlərdə dəstəkləyərək Avropanın texnologiya bazarlarına çıxışını təmin edir. Ayrıca R&D çalışmalarının sənayeyə transferini təmin etmək məqsədilə universitetlər və araşdırma institutlarının da xidmətlərindən yararlanmasını təmin etməkdədir. Qısacası mərkəzin məqsədi; KOS-ların texnoloji və innovasiya bazasını gücləndirərək Avropada rəqabət gücünü artırmaqdır.

**Görülməsi Zəruri Olan Tədbirlər**

Təşviqlər müəyyənləşdirildiyi zaman ümumilik yerinə seçici (selektiv), nağd olma yerinə fiskal, kəmiyyət yerinə keyfiyyət kimi prinsiplər mənimsənməlidir. Burada əhəmiyyət kəsb

edən bir nöqtə də, KOS-la bağlı qanunvericiliyin və təşviq tətbiqlərinin təsirinin, investor firmanın tipinə və fəaliyyət göstərdiyi sektora görə olduqca fərqlilik göstərməsidir. Məsələn, telekommunikasiya, xəbərləşmə, bank işi, sığortaçılıq, fəza vasitələri və bunların təchizatlarına yönəlik fəaliyyət göstərən firmalar, iş və ya çevrə şərtləri mövzusundakı imtiyaz haqlarıyla əlaqədar düzənləmələrdən o qədər də çox təsirlənməzkən, patent, sənaye və fikri mülkiyyət haqlarına yönəlik düzənləmələrə olduqca həssasdırlar. Bu firmalar yüksək iş gücü standartlarından da müsbət istiqamətdə təsirlənməkdədirlər. Ayrıca bu şirkətlərin orta və uzun müddətdə iş qüvvəsinin keyfiyyətinin yüksəldilməsi üzərində də önəmli miqyasda təsirləri mövcuddur. Fəqət daha aşağı texnologiyalı, əməktutumlu sektorlarda fəaliyyət göstərən investor firmalar (trikotaj, mebel sənayesi, mədənçilik, kənd təsərrüfatı və s.) isə, xüsusilə maliyyət düşürücü təşviqlərə daha çox müsbət reaksiya göstərməkdədirlər. Dolayısilə, bir ölkədəki bazar tənzimləmələrinin təsiri, bir yandan istehsal sektorunun və şirkətin mülkiyyət quruluşuna, digər yandan da o ölkənin institusional quruluşuna və hədəflərinə bağlıdır. Azərbaycan da təşviq politikalarını müəyyənləşdirərkən, ehtiyacı olan yüksək texnoloji investisiyalarını cəlb edəcək şəkildə davranmalı və bu baxımdan, texnopark, R&D və texnoloji inkişaf, infrastruktur, keyfiyyətli iş gücü təmin edilməsi və məşğulluq artımına yönəlik fəaliyyətlərə üstünlük verməlidir. Təşviqlərdən minimum maliyyət və maksimum fayda təmin edə bilmək üçün öncəliklə bu mövzulara diqqət yetirilməlidir:

- KOS-ların effektivliyini artırmaq üçün zəruri ilk və ən önəmli tədbir vergi sisteminin bütün ölkə səviyyəsində, makro iqtisadi mühitə uyğun, eyni zamanda beynəlxalq normalara görə düzənlənməsidir.

- Hansı təşviqin iqtisadi baxımdan effektiv çalışacağını təsbit etmədə bəzi problemlər olduğundan tətbiq olunacaq olan

təşviqlərin mütləq şəffaf və vergi qanunlarında açıqca müəyyənləşdirilməsi zəruridir. Fəqət Azərbaycandakı mövcud qanunvericilik dəyərləndirildiyində hökmlərin olduqca ümumi olduğu və özəl şərtlərə dair məlumatların (təşviqlərdən yararlanacaq investisiya miqdarı, məşğulluq kriterləri, istifadə ediləcək texnoloji səviyyə kimi) yer almadığı görünməkdədir. Bu mövzuda son qərarın qanunda əks olunması yerinə əlaqədar rayonların icra strukturlarına buraxılması effektivliyi olduqca aşağı salmaqdadır. Çünki bu mövzular milli innovasiya sistemi içində kompleks bir vizyonla ələ alınmalıdır.

- Əgər vergi təşviqlərindən istifadə ediləcəksə bu təşviqlərdən maliyyəti qarşılana bilən olanlara üstünlük verilməlidir. Məsələn, bu mövzu ilə əlaqədar olaraq investisiya endirimləri, vergi ertələmələri və sürətləndirilmiş amortizasiyalar kimi təşviqlər, vergi nisbətlərinin endirilməsi şəklində tətbiq olunacaq olan təşviqlərdən maliyyət yönündən daha səmərəlidir və maliyyətləri nisbətən daha sonrakı dönəmlərdə qarşılaya bilər.
- KOS-lar üçün finans kiralama (leasing) imkanları inkişaf etdirilməlidir.
- KOS-lara R&D fəaliyyətlərində öncülük etmək və uyğun platform təmin edilməlidir.
- İşsizlərə, xüsusilə gənc əhaliyə və qadınlara məslək öyrənmə imkanı təmin edilməlidir.
- Siyasi, iqtisadi, hüquqi və ictimai sahələrdə yenidənqurmanı hədəf alan məlumatlandırma fəaliyyətləri genişləndirilməlidir.
- KOS-ların təşəbbüskarlıq, sahibkarlıq və professional idarə qabiliyyətləri dəstəklənməli və yaxşılaşdırılmalıdır.
- Dünya iqtisadiyyatındakı tendensiyalar işığında yeni strateji və politikalar inkişaf və tətbiq edilməlidir.

# Milli İnnovasiya Sistemi və Kiçik və Orta Sahibkarlıq*

*Bəhruz Məmmədli*

1950-1960-cı illərdə kiçik Avropa ölkələri də bir çox OECD (İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı) ölkəsinin əldə etmiş olduğu rifah səviyyəsinə çatmış oldular. Skandinaviya ölkələri, Hollandiya, Belçika, İsveçrə və Avstriya kimi kiçik Avropa ölkələrindəki iqtisadi artım sürətləri böyük Avropa ölkələrindəki qədər hətta daha yüksək olmuşdur. Bu dövrdə kiçik Avropa ölkələrinin çoxunun üstün ticari performansı himayəçiliyə deyil, rəqabətçi beynəlxalq ixtisaslaşmaya dayanırdı. Buna kimya, polad və avtomobil sənayelərində mövcud olan həcm iqtisadiyyatı və xarici ölkələrin həyata keçirdikləri idxal məhdudlaşdırmalarına baxmayaraq nail olundu. Kiçik ölkələrdə gömrük rüsumları daha aşağı səviyyələrdə idi, yalnız aqrar sahədə himayəçilik davam etdirilmişdir.

Bu kiçik sənayeləşmiş ölkələrin öz rəqabət qabiliyyətlərini mühafizə etməsi və ya bunu inkişaf etdirməsi ölkədə müəyyən bir sənaye sektorunun olması ilə əlaqədar olmamışdır. Burada müəyyənləşdirici olan vaxtilə F.Listin də qeyd etdiyi kimi, ümumi texnoloji qabiliyyətdir. Başqa ifadə ilə, müəyyənləşdirici olan milli innovasiya sistemidir; müəyyən məhsulların çoxluğu deyil. Yəni iqtisadiyyatdakı struktur dəyişikliklərinin həyata keçirilməsi üçün əsas bazanı universitetlər, müəssisələr, tədqiqat mərkəzləri, texnoloji infrastruktur və digər elmi və texnoloji mərkəzlər təşkil edir. Sadəcə bu qurumların varlığı da kifayət eləmir, qurumlar arasındakı effektli əlaqələr və müştərək öyrənmə şəraitinin yaradılması zəruridir. İnkişaf

* *15 iyul 2004.*

etməkdə olan ölkələr arasında xüsusilə, Braziliya və Cənubi Koreya və bir kiçik ölkə nümunəsi olaraq da Finlandiyanın təcrübələri incələnirsə, bu söylədiklərimiz daha yaxşı başa düşülə bilər. Məsələn, Braziliya elmi və texnoloji infrastrukturun inkişafına böyük ehtiyatlar ayırmaqla yanaşı telekommunikasiya infrastrukturunun inkişafı üçün də böyük investisiyaları həyata keçirmişdir.

Texnologiyada lider olan ölkələrdə böyük quruluşlara məsrəf üstünlüyü tanıyan amillər - mövcud xarici bağlar, hazır infrastruktur və keçmişdən gələn təcrübələrdir. Bununla yanaşı, inkişaf etməkdə olan bir çox ölkədə olduğu kimi, əgər böyük bir qurum yetərsiz infrastruktur və ixtisaslaşmış işçi problemi ilə qarşı-qarşıya qalırsa yüksək məsrəflərin öhdəsindən gələ bilmir.

Yuxarıda söylədiklərimizdən həcm iqtisadiyyatının önəmsiz olduğu anlaşılmamalıdır. Aydındır ki, həcm iqtisadiyyatı, daha böyük kompüterlər, telefon stansiyaları və elastiki (flexible) emal sistemlərində olduğu kimi, kompleks dövrələrin inkişafında, dizaynında, yaradılmasında və satışında da böyük əhəmiyyətə sahibdir. "Müştərək öyrənmə"nin texnoloji tərəqqi baxımından çox əhəmiyyətli rolu vardır. Miqyas iqtisadiyyatı və müştərək öyrənmənin nümunəsini Yaponiya və Cənubi Koreyanın inteqrasiya olmuş elektrotexnika firmalarında müşahidə etmək mümkündür.

Lakin həcm əngəlinin olduğu və böyük qurumların olmadığı kiçik ölkələrdə də məsrəflər və rəqabət baxımından bir çox üstünlüklər əldə etmək mümkündür. Bu məqsədlə, müəyyən bazarlara yönəlik ixtisaslaşmış kiçik və orta miqyaslı müəssisələrin bir arada toplanması zəruridir. Bu firmalar arasında effektli əlaqələr və müştərək öyrənmə şəraiti yaradılmalıdır. Yeni paradiqma (Postfordizm, Sadə İstehsal Sistemi və ya Flexible İstehsal Sistemi) xüsusilə, proqramlaşdırma, yerli tele-

kommunikasiya şəbəkələri ilə əlaqədar belə fürsətlər yaradır. Əldə ediləcək olan yerli informasiya, texnologiya ilə zəruri bağlar qurmaq şərti ilə, ölkəyə müqayisəli üstünlük qazandıra bilər. Bunların həyata keçirilməsində milli innovasiya sisteminin müəyyənləşdirici rolu vardır. Kiçik və orta miqyaslı müəssisələrin dünyadakı elmi və texnoloji infrastrukturla lazımi bağlarının yaradılmasıyla bərabər ixtisaslaşmış işçilərin də varlığı zəruridir. Bu nöqtədə sistematik təhsil sistemi ön plana çıxır.

Ümumiyyətlə, milli innovasiya sistemi və ya elm və texnologiya siyasətinin dayandığı səbəb bazar uğursuzluğudur (market failure). Bazar uğursuzluğu həyata keçirilən iqtisadi fəaliyyətlərin səmərəsini, fəaliyyəti göstərənin yetərli dərəcədə mənimsəyə bilməməsi ya da iqtisadi fəaliyyətin səmərəsinin riskli olmasından qaynaqlanır. R&D (research and development – tədqiqat və inkişaf etdirmə) fəaliyyətlərinin özəl səmərəsinin ictimai səmərəsinin altında olduğunu ifadə edir. Bu durum müəssisələrin R&D fəaliyyətlərini gerçəkləşdirmələrinə mane olur. Əslində bu söylədiklərimizin daha çox inkişaf etmiş ölkələrə aid olan bir problem olduğunu düşünmək olar. Ancaq inkişaf etməkdə olan ölkələr baxımından da bazar uğursuzluğu keçərlidir. Burada bazar uğursuzluğu xaricdən doğru texnologiyaların transfer edilməməsi və transfer formalarından qaynaqlanır. Bu nöqtədə Kiçik və Orta Sahibkarlığın (KOS) texnologiya transferlərini bir sistem daxilində yönləndirmə məcburiyyəti ortaya çıxmaqdadır. Bu problem isə yetkin bir innovasiya sistemini zəruri qılır. Azərbaycan kimi ölkələrdə R&D fəaliyyətləri ilk növbədə yeni texnologiyaların seçimi, yerli şərtlərə uyğunlaşdırılması, idxal edilən texnologiyaların təmiri kimi çalışmaları əhatə edir. Bunu adaptasiyaya yönəlik R&D fəaliyyətləri mərhələsi olaraq da adlandıra bilərik. Bu mərhələnin sonunda nail olunan texnoloji qabiliyyətlər yeni texnologiya, məhsul və istehsal sistemlərinin yaradılması

üçün baza rolu oynayır. Bu mərhələyə çata bilmək üçün isə dövlətin KOS-lara gərəkli və doğru köməyi göstərməsi zəruridir. Dövlətin bu sahədəki fəaliyyəti milli innovasiya sistemi içində, geniş mənada;

- Uyğun texnologiyaların idxalını və idxal formalarının seçimini müəyyənləşdirməyi,
- Fikri və sənaye haqlarının müdafiəsini,
- Dövlətin tələbatlarını KOS məhsullarıyla qarşılama siyasətini,
- R&D çalışmalarına dövlət yardımlarını,
- KOS-larla bazarlar və bazar xarici qurumlar (universitetlər, özəl və dövlətə aid elmi-tədqiqat mərkəzləri, infrastrukturlar) arasında informasiya mübadiləsinin təmin edilməsi üçün lazım olan strukturun inkişaf etdirilməsini əhatə edir.

Yuxarıda çox qısa da olsa xüsusilə kiçik ölkələr və KOS-ların inkişafı baxımından milli innovasiya sisteminin əhəmiyyətini vurğulamağa çalışdıq. İndi isə Azərbaycandakı mühiti dəyərləndirərək ölkəmizdə bu önəmli mövzuda nə kimi dövlət fəaliyyətlərinin həyata keçirilməsinin mümkün olduğunu aydınlaşdırmağa çalışacağıq. Hər şeydən əvvəl onu qeyd edək ki, Azərbaycanda KOS-ların yeni texnologiyaları mənimsəmələrinin önündə ən böyük əngəl maddi vəsaitin yetərli olmamağıdır. Ancaq sahib olunan maddi vəsaitlərin doğru yönləndirilməsi nəticəsində müəyyən bir dönəm sonrasında bu problem aşıla bilər.

Əslində innovasiya sistemindən bəhs edərkən ilk növbədə ölkədə R&D fəaliyyətlərinə ayrılan vəsaitin Ümumi Daxili Məhsuldakı (ÜDM) payına baxmaq lazımdır. Ancaq əfsuslar olsun ki, ölkəmizlə əlaqədar bu məlumatı əldə edə bilmirik. Bu durum, Azərbaycanda R&D fəaliyyətlərinə heç bir önəm verilmədiyini və dolayısilə da R&D-yə ayrılan vəsaitin ÜDM-dəki payının yox deyilə biləcək səviyyədə az olduğunu ifadə

edir. Halbuki sözün həqiqi mənasında inkişaf etmək is-təyən ölkələrdə ÜDM-dəki R&D fəaliyyətlərinin payı önəmli səviyyələrdədir. Aşağıdakı qrafikdə bunu görmək mümkündür. Sütunların üstündəki rəqəmlər ölkənin 49 ölkə arasındakı sırasını göstərir. Siyahıya İsveç 3,8 faizlə liderlik edir.

**Ölkələrin toplam R&D xərclərinin ÜDM-dəki payı (2000-ci il)**




Mənbə: "Türkiye'de Girişimcilik", (WCI-2001), TÜSİAD, İstanbul, Yayın No: 340, Dekabr 2002, səh.67.

Hal-hazırda KOS-ların inkişafı və R&D fəaliyyətlərinə dair həyata keçirilən dövlət tədbirləri çox yetərsizdir. Ona görə də Azərbaycanda milli innovasiya sistemindən bəhs edərkən bir start nöqtəsi olaraq müəssislərin innovasiya prosesinə mane olan amilləri ələ alacağıq. Dilə gətirilən amillər ölkəmizdə milli innovasiya sistemi baxımından nələrin həyata keçirilməsinin zəruri olduğuna dair bizə yol göstərəcəkdir. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi saytında ümumiyyətlə sənaye müəssisələrində innovasiyaya mane olan amillər aşağıdakı cədvəldəki kimi sinifləşdirilib. Göründüyü

kimi, әn önәmli әngәl müәssisәlәrin öz pul vәsaitlәrinin kifayәt qәdәr olmamasıdır. Bunu, tәzә mәhsullara çәkilәn xәrclәrin әvәzinin ödәnilmәsi müddәtlәrinin uzun olması vә dövlәt tәrәfindәn maliyyә yardımının kifayәt qәdәr olmaması izlәmәkdәdir.

Aşağıdakı cәdvәli diqqәtli bir şәkildә incәlәmәklә çox maraqlı nәticәlәr hasil etmәk mümkündür. Belә ki, sadәcә 1 müәssisә ixtisaslı işçilәrin çatışmamağını innovasiya prosesinә mane olan әsas vә ya hәlledici amil olaraq qeyd etmişdir. Halbuki inkişaf etmiş ölkәlәrdә bu amil çox böyük bir әngәldir vә ixtisaslı işçilәrin hazırlanması üçün böyük vәsait ayrılır. Bu ölkәlәrdә ixtisaslı işçilәrә olan tәlәbat isә tәbii ki, istehsal prosesindә istifadә edilәn yeni texnologiyaların varlığından qaynaqlanır.

**Azәrbaycanda sәnaye müәssisәlәrindә innovasiyaya mane olan amillәr**

| | **İnnovasiyalara mane olan amillәri aşağıdakı kimi dәyәrlәndirәn müәssisәlәrin sayı** | | |
|---|---|---|---|
| | әsas vә ya hәlledici | әhәmiyyәtli | az әhәmiyyәtli |
| | 2002 | | |
| **İqtisadi amillәr:** | | | |
| öz pul vәsaitinin kifayәt qәdәr olmaması | 34 | 17 | 7 |
| dövlәt tәrәfindәn maliyyә yardımının kifayәt qәdәr olmaması | 22 | 17 | 16 |
| tәzә mәhsullara ödәniş qabiliyyәtli tәlәbatın aşağı olması | 11 | 14 | 30 |

| | | | |
|---|---|---|---|
| yeniliklərin dəyərinin yüksək olması | 9 | 20 | 24 |
| yüksək iqtisadi risk | 6 | 16 | 31 |
| təzə məhsullara çəkilən xərclərin əvəzinin ödənilməsi müddətlərinin uzun olması | 30 | 14 | 0 |
| **İstehsal amilləri:** | | | |
| müəssisənin innovasiya potensialının aşağı olması | 12 | 18 | 25 |
| ixtisaslı işçilərin çatışmaması | 1 | 10 | 43 |
| yeni texnologiyalar haqqında informasiyanın çatışmaması | 3 | 18 | 33 |
| müəssisələr tərəfindən yeniliklərin qəbul edilməməsi | 6 | 6 | 41 |
| satış bazarları haqqında informasiyanın çatışmaması | 7 | 12 | 35 |
| digər müəssisələr və digər elmi təşkilatlar ilə kooperasiya üçün imkanların olmaması | 6 | 17 | 31 |
| **Digər səbəblər:** | | | |
| daha əvvəlki innovasiyalar nəticəsində təzə məhsullara ehtiyacın olmaması | 3 | 6 | 27 |
| innovasiya fəaliyyətini tənzimləyən və həvəsləndirən qanunvericilik və normativ- hüquqi sənədlərin olmaması | 6 | 10 | 18 |
| innovasiya prosesi müddətinin qeyri-müəyyən olması | 3 | 5 | 27 |
| innovasiya infrastruktu- | 3 | 9 | 18 |

| | | | |
|---|---|---|---|
| runun (vasitəçilik, informasiya, hüquq, bank və s. xidmətlərinin) inkişaf etməməsi | | | |
| texnologiyalar bazarının inkişaf etməməsi | 7 | 14 | 23 |

Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi

Sadəcə 3 müəssisə isə yeni texnologiyalar haqqında informasiyanın çatışmamasını əsas və ya həlledici maneə olaraq irəli sürmüşdür. Buna paralel olaraq 55 müəssisədən 12-si innovasiya potensialının aşağı olmasından əsas mane edici amil olaraq şikayətlənmişdir. Cədvəldən sadaladıqlarımıza bənzər şəkildə bizi təəccübləndirəcək çox faktlar əldə edə bilərik. Azərbaycanda müəssisələr, elmi tədqiqat mərkəzləri və universitetlər arasında əməkdaşlıq və müştərək öyrənmə imkan və infrastrukturunun olmaması innovasiyalara mane olan əsas həlledici amil olaraq irəli sürülməmişdir. Hətta kağız üzərində olan bu rəqəmlərə əsaslanaraq "Azərbaycanda heç bir milli innovasiya sisteminə ehtiyac olmadığı" iddia edilə bilər. Bu faktlar bizdə yeni texnologiyaların tətbiqinin yox deyilə biləcək bir səviyyədə olduğunu və daha da önəmlisi, bu istiqamətdə addım atmanın düşünülmədiyini göstərir.

Əslində yuxarıdakı cədvəl bizə bunu deyir: Azərbaycanda nəinki milli innovasiya sistemi yoxdur, hətta müəssisələrdə belə bir şeyin nə olduğuna dair təsəvvür belə yoxdur.

Bu məqalədə məqsədimiz Azərbaycan üçün pessimist bir mənzərə yaratmaq deyildi. Məqsəd Azərbaycanda mövzumuzla əlaqədar bir durum dəyərləndirməsi həyata keçirməkdi. Əgər Azərbaycan olaraq müəyyən iqtisadi uğurlara nail olmaq istəyiriksə, ilk növbədə özümüzü yaxşı tanımalıyıq. Görünən budur ki, iqtisadi dirçəlişin əldə edilməsi üçün sinequa none (olmazsa olmaz) olan milli innovasiya sisteminin Azər-

baycanda qurulması üçün insanlarımız və dövlətimiz üzərinə çox iş düşür. Bu durum yeni və əhatəli araşdırmaların həyata keçirilməsini zəruri qılır.

# İnkişafın memarı: Burjuaziya*

*Bəhruz Məmmədli*

Azərbaycan müstəqilliyini 1992-ci ildə bərpa etdikdən sonra dövlətin və cəmiyyətin aparıcı qüvvələri qarşısındakı əsas məqsəd - fərqində olaraq ya da olmayaraq - həm sosial-iqtisadi həm də siyasi və hüquqi aspektlərdən inkişaf etmiş modern demokratik ölkələrin yanında yer almaq olub. Modern ölkələri və eləcə də dünyanın hər qarışını istila edən sistemin adı isə kapitalist istehsal münasibətləridir. Dolayısı ilə Azərbaycanın inkişaf etməsi, qloballaşan kapitalizmə inteqrasiya mənasına gəlməkdədir. Kapitalist sistemdən bəhs edərkən isə ilk ağla gələn sənayeləşmə prosesidir. Bu prosesin dinamikasını da milli burjuaziya təşkil etməkdədir. Digər tərəfdən, milli burjuaziyanın inkişafı; milli dövlət, demokratiya və insan haqları baxımından da böyük əhəmiyyət kəsb etməkdədir.

Yuxarıdakı paraqrafda vurğulamaq istədiyim budur ki, Azərbaycanın iqtisadi-siyasi inkişafı və kapitalist sistemə inteqrasiyası milli burjuaziyanın yaradılmasından keçir. Lakin ölkəmizdə milli burjuaziyanın durumu hamımıza məlumdur.

Kapitalist inkişaf yolunu seçmiş və milli burjuaziyaya sahib olmayan ölkələr milli burjuaziya yaratmaq yolunda böyük səylər göstəriblər. Türkiyənin bu mövzudakı səylərinə qısa da olsa nəzər yetirməmiz bizim də bu yolda diqqət etməmiz gərəkən xüsusiyyətləri daha yaxşı anlamamız baxımından faydalı olacağını düşünürəm. Osmanlı İmperiyasındakı torpaq sistemi, İngiltərə, Fransa, Almaniya dövlətlərinə tanınan haqlar (capitulation), hüquq, hərbi xidmət, təhsil kimi məsələlərdə milli azlıqlara verilən imtiyazlar və bir çox digər səbəblərdən dolayı milli burjuaziya inkişaf edə bilməmişdi. Sərmayə xarici

* *7 fevral 2004.*

kapitalistlərlə əməkdaşlıq edən milli azlıqların əlində cəmləşmişdi. Müsəlman sərmayədarlar yox sayıla biləcək qədər az idi və bunların inkişafı üçün dövlət dəstəyinə ehtiyac vardı. Bu yöndə ilk addımlar Osmanlı İmperiyasının son 10-15 ilində, o cümlədən İttihad və Tərəqqi partiyasının iqtidarda olduğu dövrdə atıldı.

1923-cü ildə qurulan Türkiyə Cümhuriyyətinin də əsas məqsədlərindən biri ölkədəki milli burjuaziyanı inkişaf etdirmək olub. Bu yöndə atılan addımlardan böyük əhəmiyyətə sahib olan bir neçəsini aşağıdakı kimi konkretləşdirə bilərik;

-1913-cü ildə Sənayeni Təşviq Qanunu qəbul olundu. Bu qanun bəzi vergi növlərindən azadolmaları və yerli istehsalatda istifadə olunan idxalat mallarından gömrük vergisinin alınmamasını nəzərdə tuturdu. Bundan əlavə, fabrik və zavodların tikilməsi üçün dövlət öz ərazilərindən istifadə edilməsinə icazə verirdi.

- Ticarət qanunu və mülkiyyət əsasları özəl sahibkarlığa uyğun hala gətirildi.

- Sənaye və bankçılıq sahələrində anonim şirkətlər quruldu.

- Sahibkarlar hazırlamaq və sahibkarlığı inkişaf etdirmək üçün dərnəklər quruldu.

- Sənaye sektorunun inkişafı üçün zəruri olan kadrların hazırlanması məqsədilə Almaniyaya tələbə və fəhlələr göndərildi. 10.000 nəfər Birinci Dünya Müharibəsi ərəfəsində iş təcrübəsi qazanmaları üçün alman fabrik və zavodlarına göndərildi.

- Sənaye, ticarət və kənd təsərrüfatı sektorlarında özəl sahibkarları dəstəkləmək (kredit tələblərini ödəmək üçün) məqsədilə banklar quruldu.

- 1922-ci ildə İzmirdə Milli İqtisad Konqresi keçirildi. Konqresə sənayeçi, fəhlə, tacir və kəndlilərin nümayəndələri dəvət

olunmuşdu. İştirak edənlərin istək və təklifləri əsasında qərarlar qəbul edildi. Türkiyə iqtisadiyyatının inkişafinda İqtisad Konqresində alınan qərarların böyük rolu olub. Milli burjuaziyanın canlanması üçün kredit sistemi, təhsil, nəqliyyat, kommunikasiya kimi infrastruktur və texniki xidmətlərin dövlət tərəfindən həyata keçirilməsi qərarlaşdırıldı.

- 1925-ci ildə "Sənaye və Maadin Bankı" quruldu. Məqsəd özəl sektoru kreditlə təmin etmək, özəl sahibkarlarla ortaq şirkətlər qurmaq və dövlətin əlindəki sənaye quruluşlarını özəl sektora transfer etmək idi.

- 1927-ci ildə, 1913-cü ildə qəbul olunan Sənayeni Təşviq Qanununun əhatəsi genişləndirildi.

Göründüyü kimi, milli burjuaziyanın olmaması, Türkiyə və Osmanlı İmperiyasının son illərində iqtisadi və siyasi inkişaf yolunda önəmli bir maneə olaraq görülmüş və bu vəziyyətdən çıxış yolları axtarılmışdır. 1932-1938-ci illər arasında Türkiyədə həyata keçirilən dövlətçilik siyasəti ilə də özəl sahibkarlıq, dövlət tərəfindən dəstəklənib. Bu fəaliyyətlərin nə dərəcədə uğurlu olub-olmaması isə başqa bir məqalənin mövzusudur. Ancaq reallıq budur ki, günümüzə qədər milli burjuaziyanın inkişafına çalışılmış və Türkiyədə kapital yığımı prosesi uzun zaman almışdır. Lakin dövlət-sahibkar münasibətləri sağlam təməldə inkişaf etməmiş, bu da siyasi olaraq özünü demokratiya, insan haqları axsaqlıqlarının ortaya çıxmasıyla göstərmişdir.

Bu fakt bizə Azərbaycanda da milli burjuaziyanın formalaşması məsələsində daha diqqətli davranmağı diktə edir. Milli burjuaziya sadəcə iqtisadi inkişaf üçün deyil, dünyəvi, hüquqi, demokratik, insan haqlarına dayanan, sərbəst ifadə azadlığına yer verən bir dövlətin varlığı üçün də əsas amildir. Buna görə də, ölkəmizdə olmayan milli burjuaziyanın formalaşması prosesinə böyük ehtiyat və diqqətlə yanaşılmalıdır.

# Kapitalizmin memarı: Sənayeləşmə*

*Bəhruz Məmmədli*

Əvvəlki məqaləmizdə, milli burjuaziyanın dövlətin iqtisadi-siyasi inkişafı və sənayeləşməyə gedən yolda başlıca amil olduğunu göstərməyə çalışdıq. Bu məqalədə isə sənayeləşmə konsepti ilə nəyi nəzərdə tutduğumuzu izah edəcəyik.

Sənayeləşmə sadəcə iqtisadi bir məsələ deyildir. Sənayeləşmə siyasi, ictimai, mədəni inkişaf prosesi ilə paralel olaraq ələ alınmaqdadır. Cəmiyyətin hər tərəfli inkişafı ilə bağlı bir konseptdir. Avropada 19-cu əsrin əvvəllərində meydana gələn Sənaye İnqilabı çağdaş sənayeləşmənin başlanğıcı olaraq qəbul edilir. Bu eyni zamanda çağdaş kapitalizmin də başlanğıc tarixidir. Sənaye inqilabı nəticəsində istehsalat, yeni bir iqtisadi orqanizasiya vasitəsi ilə böyük miqyaslı quruluşlarda ortaya çıxmağa başladı. İqtisadi ədəbiyyatda sənayeləşmədən bəhs edərkən "kapitalist sənayeləşmə" nəzərdə tutulmuş və sənayeləşmə kapitalizmə keçiş olaraq görülmüşdür. İnkişaf etmiş (sənayeləşmiş) kapitalist ölkələrində müşahidə edilən hər tərəfli inkişaf, bu prosesdə geri qalan Latın Amerikası ölkələri və İkinci Dünya Müharibəsindən sonra Afrika və Asiya ölkələri tərəfindən sənayeləşmənin ana hədəf olaraq seçilməsinə səbəb olmuşdur. İkinci Dünya Müharibəsindən sonra ortaya çıxan İnkişaf İqtisadiyyatı elmi, ölkələrin arasındakı fərqin aradan götürülməsi üçün sənayeləşmənin zəruri olduğunu irəli sürmüşdür.

Günümüzdə iqtisadi inkişaf və sənayeləşmə konseptləri texnoloji inkişaf təməlli olaraq ələ alınmaqdadır. Yəni yüksək texnologiyalara sahib olan ölkələr inkişaf etmiş ya da sənayeləşmiş ölkələr, istehsalatda geri texnologiyalar istifadə edən

---

* *13 fevral 2004.*

ölkələr isə inkişaf etməmiş (inkişaf etməkdə olan) ya da sənayeləşməmiş ölkələr olaraq sinifləndirilməkdədir. Bir çox iqtisadçı və digər alimlər təməl makro-iqtisadi göstəricilərdəki fərqləri əsas alaraq ölkələrin inkişaf səviyyələrini müəyyənləşdirməyə çalışırlar. Onların fikrincə, iqtisadi-texnoloji inkişaf avtomatik olaraq cəmiyyətdə hərtərəfli inkişafa səbəb olmaqdadır. Belə ki, bu gün inkişaf etmiş ölkələrin tarixi təcrübələri, bizə sənayeləşmənin bu ölkələrdə cəmiyyətin siyasi, ictimai və hüquqi inkişafıyla nəticələndiyini göstərməkdədir. Xüsusilə son 25 ildə texnoloji yeniliklərin cəmiyyətin inkişafında rolu böyük olmuşdur. Bu dəyərləndirmə səhv olmamaqla bərabər çox önəmli bir əskikliyi vardır. Çünki burada sənayeləşmə, praktiki və texniki bir problem olaraq analiz edilməkdədir. Sənayeləşmənin ictimai və siyasi tərəfləri diqqətə alnımamaqdadır. Bu dəyərləndirmə texnologiyanın, içində yetişdiyi tarixi və ictimai mühitdən müstəqil olaraq inkişaf etdiyini fərz edir. Halbuki texnoloji inkişaf və ictimai-siyasi inkişaf arasında qarşılıqlı bir əlaqə mövcuddur. Texnoloji inkişaf və sənayeləşmə cəmiyyətdəki bütün strukturları və ictimai-siyasi münasibətləri dəyişdirir. Eyni zamanda texnoloji inkişaf özü də cəmiyyətdəki ictimai-siyasi güc və münasibətlərin, tarixi şərtlərin təsiri altında qalır. Klassik İqtisadçıların irəli sürdüklərinin əksinə, texnologiya, tərəfsiz (neytral) deyildir, ortaya çıxdığı cəmiyyətin xüsusiyyətlərini daşıyır. Digər tərəfdən texnologiyanın istifadəsi tarixi və iqtisadi şərtlərə bağlıdır. Məsələn, təkərin istifadəsinə, kəşf edildikdən çox uzun zaman sonra başlandı.

Yuxarıda sənayeləşmə prosesinin sadəcə iqtisadi bir məsələ olmadığını göstərməyə çalışdıq. Sənayeləşmə ictimai-siyasi inkişafı, yəni demokratiya, insan haqları kimi modern dünyanın nemətlərini bərabərində gətirməklə yanaşı, cəmiyyətin xarakteristikasını da əks etdirir.

Gəldiyimiz nəticəyə görə, iqtisadi inkişaf, hər ölkədə olduğu kimi Azərbaycanda da arzu edilən demokratiya və insan haqları probleminin həlli üçün vacib amildir. Ancaq bunu tək tərəfli olaraq başa düşməmək lazımdır. Azərbaycanda mövcud olan struktur, iqtidar və cəmiyyətdəki münasibətlər sistemi iqtisadi inkişafı yönləndirəcək və eyni zamanda bu prosesdən təsirlənərək dəyişəcək, inkişaf edəcəkdir.

# Hansı kapitalizm?*

*Bəhruz Məmmədli*

SSRİ-nin dağılması ilə qarşısında bir alternativi qalmayan kapitalizm son sürətlə dünyanın bütün nöqtəsinə yayılmağa başladı. Bir çoxları tərəfindən kapitalizmin zəfəri elan edildi. Hətta 1989-cu ildə Fukuyama "National Interest" adlı nüfuzlu bir siyasi jurnalda yayımlanan məqaləsində "liberal kapitalizm"in qələbə çaldığını irəli sürdü və "tarixin sonu"nun gəldiyini bəyan edərək məşhurlaşdı. Əslində bu fikrin təməli Hegelin tarix anlayışına dayanır. Hegel, insanlıq tarixini "ən yaxşı mərhələyə" doğru inkişaf prosesi olaraq tərif etmişdir. Fukuyama artıq "ən yaxşı mərhələnin" gəlib çatdığını söylədi: bu Liberal Kapitalizmdir. Tarix boyu insanlığın axtardığı, bütün insanlara zənginlik verəcək olan sistem Liberal Kapitalizmdir.

Əlbəttə ki, bu fikir bir mənalı qarşılanmadı. Xüsusilə son 20 ildə baş verən böhranlar, gəlir bölgüsünün pisləşməsi, yoxsulluğun yayılması liberal kapitalizm başda olmaqla kapitalizmə qarşı tənqidləri intensivləşdirdi.

Əksər düşünürlər kapitalizmi tənqid etdiklərində və ya qarşı çıxdıqlarında onu tək bir konsept olaraq (ən yaxşı halda "Amerikan Kapitalizmi" və "Ren Kapitalizmi" olaraq) dəyərləndirməkdədirlər. Halbuki Amerika Birləşmiş Ştatlarındakı kapitalizmlə, Almaniya Kapitalizmi arasında fərqlər olduğu kimi, Yaponiya, Fransa, İtaliya və digər ölkələrin "kapitalizmləri" arasında da önəmli fərqliliklər vardır. Bu yazıda bəzi elm adamlarının görüşlərinə dayanaraq kapitalizmin fərqli növləri arasında qruplaşdırma aparmağa çalışacağıq.

* *15 iyul 2005.*

Albert, Hall və Soskice, ABŞ və Almaniya ilə əlaqədar araşdırmalarına əsaslanaraq kapitalizmin iki növünü müəyyənləşdirmişlər:

1) Sərbəst Bazar İqtisadiyyatları (SBİ - Liberal Market Economies),

2) Koordinasiyalı Bazar İqtisadiyyatları (KBİ - Coordinated Market Economies).

Bu ikisi arasında fərqlilik bir əsas xüsusiyyətdən qaynaqlanır: koordinasiya. SBİ-da koordinasiya, transfer edilə bilən varlıqların investisiyasını təmin edən bazar mexanizmlərinə dayanır. Ancaq KBİ-da investisiya qoyuluşlarının həyata keçirilməsində non-market vasitələr istifadə olunur. Buna strateji koordinasiya deyilməkdədir. Burada müəyyən varlıqlara investisiya qoyuluşları təşviq edilir. Hall və Soskicenin bu sinifləşdirməsi firmalar üzərində yoğunlaşmaqdadır.

Sinifləşdirmə aparıldığında, çeşidli institutlar (qurumlar) araşdırmaya daxil edildiyində daha çox kapitalizm növü ortaya qoymaq mümkündür. Belə ki, Bruno Amable bu institut formalarının ayrı-ayrı ölkələrdəki fərqliliklərini ələ alaraq dörd kapitalizm növü olduğunu irəli sürmüşdür. Amablein istifadə etdiyi institut formaları belədir:

- Finans sektoru,
- Məşğulluq münasibətləri,
- Təhsil sektoru.
- Yuxarıdakı 3 institut formasının ayrı-ayrı ölkələrdəki fərqliliklərindən qaynaqlanan elmi, texnoloji və sənaye ixtisaslaşmasının gətirdiyi ixtisaslaşma.

Bruno Amablein ortaya qoyduğu dörd kapitalizm növü isə belədir:

- Bazar əsaslı model. (SBİ-yə bənzəyir)
- Mesocorporatist model. (Yaponiya)
- Sosial demokratik model. ( Skandinaviya ölkələri)

- Avropa-inteqrasiya modeli.

Bir çox düşünür müxtəlif institutlaşma formaları baxımından ölkələr arasında müqayisə apararaq fərqli tipologiyalar meydana qoymuşdur. Bu tipologiyalarda spesifik institutlar üzərində daha çox yoğunlaşırlar: Məsələn, rifah dövləti və ya dövlətin müdaxilə şəkli kimi.

Fərqli bir tipologiya da beş əsas institusional sahəyə baxılaraq əldə edilən kapitalizm növlərdir. Buradakı institusional sahələr belədir:

- Əmtəə-bazar rəqabəti;
- Əmək haqqı - əmək əlaqəsi və əmək-bazarı institutları;
- Maliyyə intermediativ sektor və korporativ idarəetmə;
- Sosial qoruma və rifah dövləti;
- Təhsil sektoru.

Bu beş sahənin ölkədən ölkəyə dəyişən işləmə şəkilləri və xarakterlərinə baxılaraq (müqayisə edilərək) beş ayrı kapitalizm modelindən bəhs etmək mümkündür:

- Bazar əsaslı model;
- Sosial demokratik model;
- Kontinental Avropa modeli;
- Aralıq Dənizi modeli;
- Asya modeli.

SBİ-yə bənzəyən "Bazar əsaslı model" xaric digər modellər coğrafi əsaslara görə adlandırılmışdır. Bu, kapitalizm modellərini açıqlamaqda ən yaxşı yolun coğrafi olduğu mənasına gəlməməlidir.

"Əmtəə-bazar rəqabəti", "Bazar əsaslı model"in ən önəmli ünsürüdür. Bu rəqabət, firmaları qiymət tənzimləmələri ilə tamamən absorbsiya edilə bilməyən əks şoklara qarşı daha çox həssas qılır. Burada miqdar tənzimləmələri önəm ifadə edir ki, bu da rəqabətin əmək-bazar elastikliyinə dayandığını göstərir. Əmək-bazar elastikliyi, firmaların dəyişən bazar şərtlərinə daha tez uyğunlaşmalarına imkan verir. Maliyyə bazarları da,

firmaların yeni rəqabət şərtlərinə uyğunlaşmalarına kömək edir. Xüsusilə yaxşı inkişaf etməmiş rifah dövlətlərində, şəxslərin müxtəlif risk – çeşidləndirmə alətlərinə sahib ola bilmələrinə yol açır.

"Sosial demokrat model"də güclü bir xarici (external) rəqabət prosesi əmək bazarının elastik olmasını vacibləşdirir. Amma burada əmək bazarının elastikləşməsi bazara dayalı olaraq ortaya çıxmaz. İşçilərin özəl investisiyalarla qorunması, yüksək səviyyədə sosial qoruma və əmək sahiblərinin yenidən təşkilinə şərait yaradan aktiv əmək-bazar siyasətləri ilə olur. Koordinasiyalı əmək haqqı müəyyənləşdirmə sistemi, innovasiya və rentabelliyin artmasına səbəb olan qatı bir əmək haqqı tənzimləməsinə şərait yaradır.

"Kontinental Avropa modeli", "Sosial-demokratik model"-lə bəzi müştərək xüsusiyyətlərə sahibdir. Bu model işçinin yüksək səviyyədə qorunmasına və az inkişaf etmiş Rifah Dövlətinə dayanır. Burada əmək haqlarının müəyyənləşdirilməsi "Sosial-demokrat model"də olduğu qədər koordinasiyalı deyildir. Əməyin yenidən təhsilləndirilməsi sosial demokrat modeldə olduğu kimi rahat deyildir.

"Aralıq dənizi modeli", "Kontinental Avropa modeli"nə görə işçini daha çox qoruyur, ancaq daha az sosial qorumaya sahibdir. Nisbətən daha aşağı səviyyədə olan əmtəə-bazar rəqabəti və maliyyə sisteminin mərkəzləşməsi nəticəsində qısa dönəmli mənfəət məhdudlaşdırmalarının olmaması əməyin qorunmasını mümkün qılır. Bununla birlikdə, yetərli bacarıq və təhsilə sahib olan əmək gücünün olmaması yüksək əmək haqları və yüksək standartlı sənaye strategiyalarının həyata keçirilməsini önləyir.

Kapitalizmin "Asiya modeli"ndə böyük firmalar və dövlət qarşılıqlı əlaqə və işbirliyi içindədirlər. Finans sistemi də mərkəzləşmişdir və aktivdir. Bu durum, uzun dönəmli strategiya-

ların həyata keçirilməsinə yaxşı şərait yaradır. Əmək gücünün qorunması, firma içərisində yenidən təhsilləndirmə və karyera imkanları sayəsində mümkün olmaqdadır. Bu modelin sürdürülməsi üçün böyük korporativ firmaların istiqrarı çox önəmlidir.

Yuxarıda gördüyümüz kimi, kapitalizmlə əlaqədar müxtəlif modellər irəli sürülür. Kapitalist dövlətlərin həyata keçirdikləri kapitalizm praktikaları biri-birindən fərqlənir. Kapitalizmin bu fərqli modellərinin ortaya çıxmasında çeşidli səbəblər vardır. Əlbəttə ki ölkə mədəniyyəti, coğrafiyası, sahib olunan yer altı və yer üstü sərvətlər, insan gücünün keyfiyyəti və bir çox başqa ünsürlər bu fərqliliyin ortaya çıxmasına yol açır. Bəzi kapitalist dövlətlər çox liberal olduqları halda, bəziləri isə sosial və rifah dövləti olaraq bilinməkdədir.

Deməli kapitalizmdən bəhs edərkən hər şeydən əvvəl "hansı kapitalizm"i nəzərdə tutduğumuzu müəyyənləşdirməliyik. Bu, bizim daha obyektiv nəticələr əldə etməyimizə kömək edəcəkdir.

Digər tərəfdən kapitalizmin fərqli tipologiyalarının ortaya çıxması fərqli cəmiyyətlər tərəfindən hansı kapitalizmin qəbul edilə biləcəyi sualını aktuallaşdırmaqdadır ki, bu da kapitalizmə alternativ bir sistemin ən azından yaxın gələcəkdə meydana çıxmayacağına işarət edir.

# Burjuaziya və demokratiya*

*Natiq Sabiroğlu*

Məşhur Yapon düşünürü Fukuyama demokratiyanın cəmiyyət tərəfindən daxilən (endogen) mənimsənməsi üçün sırasıyla İdeologiya, İnstitutlaşma, Açıq Cəmiyyət və Milli Mədəniyyət olmaq üzrə dörd mərhələdən keçməsi gərəkliliyini söyləmişdir. Bizcə bu sinifləndirmə, demokratik cəhətdən az inkişaf etmiş ölkələrdəki mövcud vəziyyəti açıqlayıcı bir model olsa da, demokratiyanın yüksək səviyyədə inkişaf etdiyi ölkələrdəki tarixi inkişaf seyrinə ziddir. Belə ki, demokratik cəhətdən inkişaf etmiş ölkələrin təcrübələri yuxarıdakı mexanizmin tərsinə çalışdığını göstərməkdədir.

İnkişaf etmiş ölkələrdə demokratiya hər şeydən əvvəl, müəyyən bir tarixdə ictimai bir zərurət kimi ortaya çıxmışdır. Bunu izləyən mərhələdə açıq cəmiyyəti təmsilən daha çox siyasi partiyalar önə çıxmışdır. Xalqın əksəriyyətinin səslərinin müəyyənləşdirici rol oynadığı bu klassik demokratiya modelində, idarəetmə təmsili xarakter daşımaqdadır (xalq siyasi partiyalar vasitəsilə idarəetmədə təmsil olunmaqdadır). Dövlət institutlarının (militarist-sivil) da formalaşmasıyla, demokratiya ölkənin rəsmi ideologiyası halına gəlir və bu quruluşun gələcəyi konstitusiya ilə təminat altına alınır.

Yuxarıdan aşağıya doğru bir prosesi izləyən bu təbii inkişaf seyrində, cəmiyyət demokratiyanı daxilən mənimsəmiş, gündəlik həyatının ayrılmaz hissəsi halına gətirmişdir. Tək çətirdən meydana gələn açıq cəmiyyət institutları (siyasi partiyalar) demokratiyanın inkişafı ilə birlikdə gedərək çeşidlənməkdədir. Artıq ayrı-ayrı kiçik mənfəət və təzyiq qruplarının bir araya gəlməsi ilə effektiv bir açıq cəmiyyət təşkilatları meyda-

* *21 may 2004.*

na gəlmişdir və idarəetmədə sadəcə çoxluğun deyil, azlıqların da düşüncələri önəmlidir. Bu təşkilatlar sərbəst seçkilər sonrası siyasi iqtidar üzərində ictimai bir nəzarət-təftiş funksiyasını da öz üstlərinə götürürlər və bu minvalla xalqın idarəetməyə birbaşa qatılmasını təşkil etməkdədirlər. Dolayısilə siyasi iqtidar sadəcə seçicilərinin istəklərini deyil, eyni zamanda qarşı dünyagörüşlü qrupları da təmsil etməkdədir. Ayrıca, ikinci mərhələdə yer alan siyasi partiyaların xalqa, demokratiyanın fəzilətlərini anlatmaq kimi bir funksiyası yoxdur. Tam tərsi, siyasi partiyalar özlərinin ən demokrat partiya olduğunu isbatlamaq çabası içərisindədirlər.

Müasir demokratiyanın ortaya çıxış tarixinə qısa bir nəzər yuxarıda anlatılanları daha yaxşı mənimsəmək baxımından faydalı olacaqdır. İlk parlament 15 iyun 1215-ci ildə Magna Carta ilə İngiltərədə ortaya çıxsa da, bu demokratik dəyərlərin qlobal olaraq yayılması "sərbəstlik, bərabərlik və qardaşlıq" şüarıyla yola çıxan 1789 Fransa Burjua İnqilabına rastlamaqdadır. O zamanlar yeni bir sinfin formalaşması prosesini yaşayan burjua təbəqəsi (o zamankı şərtlərdə nisbətən kiçik sahibkarlar), kəndlərdə özünə ən böyük rəqib olaraq gördüyü torpaq ağalarına qarşı, onların istismarındakı təhkimçi kəndlilərə sərbəstlik vəd edirdi. Burjuanın fabriklərində çalışacaq əməyə ehtiyacı vardı, buna görə də kəndlilərə istədiyi yerdə (istehsal yerləri çox vaxt şəhərdə yerləşdiyi üçün kəndlilərə kəndlərdən şəhərə köç etmə müstəqilliyi verilməliydi) və istədiyi işdə çalışma müstəqilliyi verilməliydi. Beləcə, burjua gələcəkdə özünə ən böyük rəqib olacaq fəhlə-işçi sinfini də yaratmış oldu. Burjuanın şəhərlərdəki ən böyük rəqibi də aristokratiya və kilisə idi. Aristokratiyaya (elit idarəsinə) qarşı xalqa, özünü idarə edəcək olanları sərbəstcə seçmə haqqı (plüralist idarəetmə) vəd edildi. Hər kəsin səsləri bərabər və tək olacaqdı. Beləliklə təmsili demokratiya gerçəkləşəcəkdi. Ayrıca burjua sinfi ilə

Kilisə (ruhani təbəqə) arasındakı mübarizədən də sekularizm (dünyəvilik) doğacaqdı. Nəticə olaraq, burjua torpaq ağasına qarşı kəndlilərə "sərbəstlik", şəhər aristokratiyasına qarşı "bərabərlik" və Kilisənin Xristiyan dininə dayalı Tanrının qardaşlığına qarşı da, yurddaşlığa (torpağa) dayalı "qardaşlığı" təklif etməkdəydi. Dolayısilə sərbəstliklə verilən azadlıq, konstitusion və sosioloji qardaşlıqla tarazlanmış olacaqdı. Göründüyü kimi, qərbdə demokratiya, kiçik humanist bir aydın (intelligence) qrupunun şəxsi seçimindən çox, tarixi bir zərurət olaraq meydana çıxmaqdadır.

Bu təbii inkişaf prosesini yaşamayan ölkələrdə isə, tarixi və nəzəri nöqtələrdən fərqli tendensiyalar müşahidə edilmişdir. İlk öncə, vurğulanmalıdır ki, totalitar və avtoritar rejimlərdə xalqın böyük əksəriyyəti mövcud idarə anlayışına qarşıdır. Fəqət Leninin dediyi kimi, mövcud istismarçı rejimin dəyişməsi üçün, bu yetməməkdə, ayrıca idarə edənlər də köhnə üsuli-idarə ilə idarəetməyə davam etməkdə çətinlik çəkməli və xalqın güclü bir şəkildə təşkilatlanması gərəkməkdədir. Bu nöqteyi-nəzərdən, ikinci mərhələdə yer alan siyasi partiyaların iki alternativi mövcuddur. Birinci və ən çətin olan seçim, partiyanın demokratiyanı cəmiyyətə mənimsətmə səyləridir. Həmin prosesdə partiya əlindəki bütün vasitələri demokratiyanın üstün xüsusiyyətlərini anlatmağa fəda edər. Bu mərhələdə lokal mədəniyyətin demokratiyanı həzm etmə potensialı də müəyyənləşdirici olmaqdadır. Ayrıca açıq cəmiyyət quruluşlarının cılız və olduqca təsirsiz olması, siyasi partiyaların işini daha da çətinləşdirməkdədir.

İkinci alternativ olaraq, partiya tarixi tendensiyaya tərs bir yol izləyərək, yuxarıya doğru yönəlmə prosesinə daxil olur. Burada da iki alt seçim mövcuddur. İlki və nisbətən daha sağlam olanı, siyasi partiyanın ölkə xaricindəki (günümüzdə, qərbdəki) demokratik qüvvələrlə həmrəylik və işbirliyi içərisində olmasıdır. Çox daha qeyri-sağlam olan və daha çox, in-

kişaf etməmiş ölkələrdə müşahidə edilən alternativ isə, siyasi partiyanın iqtidara yamanması və köklü islahatlar yerinə, nisbi dəyişikliklərə razı olmasıdır.

Siyasi iqtidar prizmasından hadisəyə baxdığımızda, iqtidar ya səmimi bir şəkildə demokratiyanı mənimsəyər, cəmiyyətin inkişaf dinamikalarını göz önündə tutar və lokal şərtlərə ən yaxşı şəkildə adaptasiya edər, ya da bir çox şərq ölkəsində göründüyü kimi yuxarıdan aşağıya lokal şərtlərdən müstəqil, xalq adına fəqət xalqa qarşı fəaliyyətlərə girişməkdədir.

Nəticə olaraq, az inkişaf etmiş ölkələr üçün ən uyğun yol, xaricdəki mütərəqqi insan, təşkilat, qrup kimi hər cür formasiyalarla əməkdaşlığa gedilməsi, bu arada xalqa demokratiyanın onun mənfəətinə ən uyğun, onu zənginləşdirəcək tək idarəetmə şəkli olduğunun anladılmasıdır. Burada mütərəqqi qrup deyərkən nəzərdə tutulan sadəcə qərb dünyası olmadığı kimi, bütün qərb dünyası da deyildir. Bu qrup dünyadakı bütün çağdaş dəyərləri müdafiə edənləri əhatə etməkdədir. Mal və xidmətlərin, kapitalın, əməyin qloballaşdığı bir dünyada, sanki bir "internasional" olaraq, bu, düşüncənin qloballaşmasını ifadə edəcəkdir. Unudulmamalıdır ki, inkişaf etmiş ölkələrdə geri düşüncəli qruplara rast gəlmək mümkün olduğu kimi, iqtisadi yöndən inkişaf etməmiş ölkələrdə də çox mütərəqqi görüşlü demokratik insan qruplarına rast gəlmək mümkündür.

Son söz əvəzi: "Demokratiya xalqın qərar alma prosesinə qoşula bilməsinə maksimum şərait yaradacaq şəkildə liderlərin və təşkilatların alternativ dövlət siyasətləri üçün yarışdıqları rəqabətçi bir siyasi sistemdir." (E.E.Schattschneider)

# Oriental demokratiya*

*Natiq Sabiroğlu*

Öncə ideologiya mərhələsini ələ alaq. İdeologiya dedikdə nəzərdə tutulan dövlətin rəsmi olaraq mənimsədiyi inkişaf modelidir. Bu ideoloji seçim sosializmə, faşizmə bənzər despotik, monarxik, totalitar və avtoritar rejimlər ola biləcəyi kimi, liberalizm kimi demokratik rejimlər də ola bilər. Bu seçim ölkənin iqtisadi, siyasi, sosial, hüquqi, texnoloji və s. quruluşunu da şəkilləndirir. Totalitar sistemlərdə Sovet İttifaqı nümunəsində olduğu kimi vətəndaşların heç bir önəmli mövzuda sərbəst fikri ola bilməz, qadağan edilmişdir. Avtoritar sistemlər isə Çin nümunəsində olduğu kimi fərdə bir miqdar iqtisadi sərbəstlik versə də, siyasi mövzularda qatı radikal davranır. Bu gün, fərdiyyətçiliyi təşviq edən, iqtisadi və siyasi fəaliyyətlərin sərbəst olduğu, mülkiyyət toxunulmazlığının qanunla təminat altına alındığı, sərbəst rəqabət şərtlərinin hakim olduğu, dolayısilə layiq olanın öz haqqını əldə etdiyi bir sistemi ifadə edən plüralist-demokratik sistemlərə sahib ölkələrin hərtərəfli inkişaf etdiyinin şahidi olmaqdayıq.

Bir çox halda ölkələr demokratik üsul idarəni ideologiya olaraq, hüquqi baza təməlli qəbul etdikləri halda, bunun praktikasını inkişaf etdirəcək olan institutlaşma mərhələsini yerinə yetirməzlər. Halbuki liberal-demokratik sistemi qəbul etmənin olmazsa olmaz şərti, qanunlar qədər ictimai praktikada da bu prosesin müvəffəqiyyətli bir şəkildə mənimsənməsidir. Bunun üçün klassik qüvvətlər ayrılığı prinsipi (qanunvericilik, idarəetmə və məhkəmə) tətbiq edilməlidir. Xalqın iradə və idarəsi hakim olmalıdır. Yəni xalq seçilmiş və təyin edilmiş sivil bürokratiya üzərində nəzarət qabiliyyətini qoruya bilmə poten-

---

* *26 yanvar 2004.*

sialına sahib olmalıdır. İdarəetmə mümkün olduqca aşkarlıq və şəffaflığı ön plana çıxarmalıdır. Çünki bürokratik quruluş günümüzdə ətaləti, zaman israfını və süründürməçiliyi təmsil etməkdədir. Bundan yayınmanın ən sağlam yolu öncə dövləti iqtisadiyyatın xaricinə çəkmək və əsas klassik vəzifələrinə (ədalət, müdafiə, asayiş və müəyyən səviyyədə təhsil, səhiyyə və ətraf mühit) geri dönməsini təmin etməkdir. Minimal dövlət daha az bürokratiyaya ehtiyac duyar. Ayrıca professional idarəetmə dövlət sektorunda ömür boyu məşğulluğu aradan qaldıraraq idarəni daha effektiv hala gətirəcəkdir. Bu da bürokratiyanın sürətli, dinamik, dəyişən şərtlərə qarşı daha həssas, rasional bir struktura bürünməsini təmin edəcək. Ayrıca bəzi çox önəmli dövlət qurumlarının siyasi iqtidara qarşı müəyyən səviyyədə muxtariyyət qazanmasını təmin edərək kadrlaşmanı əngəlləyəcəkdir.

Yuxarıda bəhs edilən sivil idarəetmənin ictimai nəzarəti (müstəqil məhkəmə nəzarətinə paralel) sadəcə müəyyən intervallarla keçiriləcək sərbəst seçkilərlə də təmin edilə bilməz. Yəni bir kərə sərbəst, demokratik seçki keçirildikdən sonra xalqın passivləşdirilərək siyasətdən uzaqlaşdırılması halı yarana bilər. Bunun üçün bu nəzarəti daimi qılacaq mexanizmlər inkişaf etdirilməlidir. Bu da qeyri-hökumət təşkilatlarına, təzyiq və mənfəət qruplarına mərkəzi bir status qazandıracaq. Vergi verənlər vergilərinin hara xərcləndiyini görə biləcək. Həmkarlar ittifaqları, ixtisas birlikləri və digər açıq cəmiyyət təşkilatları xalqın tamamı və ya bir hissəsi ilə iqtidar arasında vasitəçi olacaq, beləcə J.Rousseaunun "sosial anlaşma" dediyi fenomen sağlam təməllərə oturacaq.

Mədəniyyət mərhələsi isə, bütün bu yuxarıda anlatdığımız proseslərə cəmiyyətin uyğunlaşa bilmə kültürünün (cəmiyyətin demokratiyanı arzulama dərəcəsinin) hansı səviyyədə olması ilə bağlıdır. Bizim kimi oriental kültürlər bu mərhələləri

keçmədiyindən demokratiyanı mənimsəməkdə çətinlik çəkirlər. Vurğulamaq istədiyimiz ana fikir, demokratiyanın şərqə məxsus xüsusi formasının olmamasıdır. Yəni liberal-demokratiya bütün dünyada universal olaraq azad və ədalətli seçkiləri, insan haqq və azadlıqlarını, hüququn üstünlüyünü, sərbəst təşəbbüskarlığı, pozitiv hüquq qarşısında hər kəsin bərabərliyini (irq, irs, milliyyət, din, cins, dil və s. fərqi qoymadan), fərdin üstünlüyünü, inanc və ibadət sərbəstliyini və s. ifadə etməkdədir. Azərbaycana, Amerikaya, İngiltərəyə məxsus ayrı demokratiya formaları yoxdur. Sadəcə olaraq, hər kəs arzuladığı qədər demokratiya istehlak edir. Qısaca, oriental demokratiya yoxdur... Demokratiya adı altında tətbiq edilən Leninizm, Maoizm kimi despotik rejimlər var.

Artıq mövcud dünya konyukturunda demokratiya, bir seçim olmaqdan daha çox məcburiyyət halını almışdır. Dünyanın getdikcə kiçilməsi mənasına gələn qloballaşma fenomeni eyni zamanda informasiyanın daha rahat əldə edilməsini təmin edir. Eyni dünyada yaşadığımızdan özümüzü dünyadan təcrid etmək imkanlarımız da tükənməkdədir. Demokratiyanın milli kültürümüzlə nə qədər uyğunlaşdığı kimi qısır mübahisələr yerinə, ən qısa zamanda liberal-demokratiyanı bölgəmizdə hakim dünya görüşü halına gətirməyə çalışmalıyıq.

Son söz əvəzi: İdarə yuxarıdandırsa, nəzarət aşağıdandır…

# Türkiyədə "İkinci Cümhuriyyətçilik" müzakirələri*

*Natiq Sabiroğlu*

"İkinci Cümhuriyyət" ifadəsinin ilk dəfə səsləndirildiyi 31 yanvar 1991-ci il tarixindən günümüzə qədər on ildən artıq bir zaman keçməsinə baxmayaraq, bu mövzu Türkiyədə hələ də ən çox müzakirə edilən mövzulardan biridir. İkinci cümhuriyyətçiliklə bağlı müzakirələr Türkiyənin Avropa Birliyi (AB) perspektivi ilə birbaşa əlaqəlidir. Bu ifadə ilə cümhuriyyətin demokratikləşməsi zərurəti xüsusi olaraq vurğulanmaqdadır...

İkinci Cümhuriyyətçilər kimi tanınan və əsasən çox yaxşı akademik təhsil infrastrukturuna sahib intellektuallardan təşkil olunan bu insanlar, Türkiyə Cümhuriyyətinin demokratik inkişafının yetərsiz olduğunu və bunu əngəlləyən kifayət qədər amillərin mövcudluğunu qeyd edirlər. Bu şübhə doğurmayan gerçəyin səbəblərini daha yaxşı anlamaq üçün tarixə qısaca nəzər yetirmək faydalı olacaq.

29 oktyabr 1923-cü il tarixində qurulan cümhuriyyət, o zamankı modern dünyada keçərli dəyərləri müəyyən ölçüdə almaya və Türkiyəyə tətbiq etməyə çalışmışdır. Lakin, təəssüf ki, bu işlər görülərkən təqliddən və səthilikdən irəliyə gedilməmişdir. Yəni qərbin istehlak qəlibləri, arxasındakı istehsal münasibətləri diqqətdən qaçırılaraq ölkəyə gətirilməyə (daha doğrusu, məcburi şəkildə idxal edilməyə) çalışılmışdır. İnkişafın öncə insanların beynində olması gərəkliliyi unudulmuş, qərblilər kimi geyim-keçim ön plana çıxmışdır. Qərb üsulu təhsil sistemi burada öyrənmədən çox əzbərləməyə dayanmışdır. Demokratiya mənimsənmiş, fəqət bunun necə və nə şəkil-

* *19 mart 2004.*

də olacağını müəyyənləşdirmək xalqa deyil mərkəzi idarəetməyə buraxılmışdır və s... Qısacası, qərblilərin həyat fəlsəfələri və istehsal münasibətləri sorğulanmadan, Türkiyə şərtləri diqqətə alınmadan formal qəliblər ölkəyə idxal edilmişdir.

Demokratiya konstitusiya səviyyəsində mənimsənilmiş, lakin xalqın iradə və idarəsi mənasına gələn gerçək demokratiyanın yerinə, militar və təyin edilmiş bürokratiyanın (elitist-dövlətçi) hegemoniyasını təmin edən şəkli demokratiya praktikası cümhuriyyətə hakim olmuşdur.

Cümhuriyyətçilik tərifi əsasən, anti-monarxizmi və anti-teokratizmi təmsil etməkdədir. Yəni cümhuriyyət modelində iqtidar atadan oğula vərasət yolu ilə (xanədanlıq sistemi) keçməz. Eyni zamanda bu model dünyəviliyi təmsil edər. Fəqət cümhuriyyət sistemi demokratiya məfhumunu çox vurğulamaz. Məsələn, Türkiyə bir cümhuriyyətdir... Və bu cümhuriyyətin əsasını təşkil edən altı ox, cümhuriyyətçilik, milliyyətçilik, xalqçılıq, dünyəvilik, inqilabçılıq, dövlətçilik prinsiplərini əhatə etməkdədir. Göründüyü kimi, demokratiya bir prinsip olaraq Türkiyə Cümhuriyyətinin təməlində yer almamışdır. Əslində demokratiyanın cümhuriyyət üsul idarəsinin təməlində yer alması məcburiyyəti də yoxdur. Məsələn, İran, Suriya. Liviya, Şimali Koreya və s. da bir cümhuriyyətdirlər. Amma heç biri demokratik bir idarəetmə sistemini mənimsəməmişdir. Böyük Britaniya, Hollandiya, Norveç kimi ölkələr cümhuriyyət olmadıqları halda (hamısı krallıq sistemiylə idarə olunur) çox inkişaf etmiş demokratiyaya sahibdirlər...

Əslində bu müzakirələri Türkiyə ilə məhdudlaşdırmaq yanlış olar. Amerika Birləşmiş Ştatlarının tarixindəki ən önəmli iki partiyanın adının Cümhuriyyətçilər və Demokratlar olması təsadüfi deyil. Bu mübahisələrin başlanğıcı 1861-65-ci illərdəki Amerika Vətəndaş Müharibəsinə qədər uzanmaqdadır. O zamanlar müharibə daha çox müstəqillik və daha çox

haqq və sərbəstliklər istəyən, adəmi-mərkəziyyət idarə sistemini müdafiə edən cənubla, unitar dövlət quruluşunu istəyən və bu məqsədlə bəzi sərbəstlikləri aradan qaldırmağı və ya məhdudlaşdırmağı müdafiə edən şimal arasında baş vermişdi. Demokratlar birinci, Cümhuriyyətçilərsə ikinci qrupu təmsil və müdafiə edirdilər.

Bunun ABŞ-da hələ də belə olduğunu söyləyə bilərik. Son İraq müharibəsi ilə əlaqədar olaraq ölkədə yaşanan mübahisələr bu konteksdən dəyərləndirilməlidir. Cümhuriyyətçilərin sözcüsü J.Bush demokratiya adı altında, artıq ömrünü tamamlamış olan neft və silah burjuaziyasını təmsil edərkən, Demokratlar isə inkişaf etmiş və 21-ci əsrin qabaqcıl sektorları sayılan və gerçək demokratiyanı təmin edən informasiya və kommunikasiya texnologiyaları (İKT) sektorunu təmsil edirlər.

İkinci Cümhuriyyətçilərə görə, Türkiyənin əsas problemi siyasi dövlətdən liberal dövlətə heç bir vəchlə keçə bilməməsidir. Dövlətin iqtisadiyyatdakı çəkisinin çox yüksək olması və bunun nəticəsi olaraq, ifrat dərəcədə israfçı və müdaxiləçi olmasıdır. Ölkədə - demokratiyada, xalqın iradəsinin təcəssümü üçün sərbəst seçkilər qədər əhəmiyyətli olan - ictimai nəzarət prinsipinin lazımi səviyyədə tətbiq olunmamasıdır. İkinci Cümhuriyyətçilər dövlətin funksiya və güclərinin məhdudlaşdırılmasını, fərdin hər şeydən uca tutulmasının vacibliyini vurğulayırlar. Daha çox sərbəstlik üçün, cümhuriyyətin əsaslı bir şəkildə yenidən gözdən keçirilməsi məcburiyyəti ortadadır...

Türkiyənin yuxarıda dilə gətirilən problemlərdən azad olması üçün Avropa Birliyinə üzvlük prosesi çıxış yolu olaraq görünür. Çünki bütün oriental cəmiyyətlər kimi, Türkiyənin də ən önəmli problemi, demokratik dəyişikliklər üçün özünün daxili dinamikalarını formalaşdıra bilməməsidir. Əgər militarist və bürokratik cümhuriyyəti demokratik bir cümhuriyyətə transformasiya etmək istəyiriksə, xarici dinamikaları öz ehti-

yaclarımız yönündə istifadə etməliyik. Bu baxımdan Avropa Birliyinə üzvlük prosesi hər keçən gün İkinci Cümhuriyyətçilərin ölkə içində sahib olduğu güclü mövqeyi getdikçə daha da gücləndirməkdədir.

Bütün azlıqların da haqqını diqqətə alaraq, xalqın qeydsiz şərtsiz dövlətin gerçək hegemonu olduğu liberal-demokrat sistemə keçmənin vaxtı gəlmişdir, keçməkdədir...

Son söz əvəzi: "Bütün güc xalqda toplanır və xalqdan gəlir, səlahiyyətli insanlar xalqın vəkilləridir, xalq üçün çalışırlar, xalqa qarşı hər zaman məsuldurlar." (Virginia İnsan Haqları Bəyannaməsi, Maddə 2)

# Sosial müdafiə qurumları*

*İbrahim Nəzirli*

Həm bir düşüncəni, həm də bu düşüncəyə işləklik qazandıran strukturu ifadə edən sosial müdafiə ifadəsi cəmiyyətin bütün üzvlərinin meydana gəlmə ehtimalı olan sosial risklərin iqtisadi və sosial nəticələrindən qorunması məqsədi ilə lazımi tədbirlərin alınması mənasını daşıyır.

Sosial müdafiə fondlarının qurulmasına bağlı olaraq, müasir sosial müdafiə ifadəsinin əsasları 19-cu əsrin sonlarında atılmışdır. Buna baxmayaraq, "sosial müdafiə" termini ilk dəfə 1930-cu illərdə Amerika Birləşmiş Ştatlarında istifadə edilməyə başlamışdır. Amerika iqtisadiyyatında olduğu kimi digər ölkələrin iqtisadiyyatları üzərində də şiddətli təsirlər yaradan "1929 böhranı" sosial nöqteyi nəzərdən də böyük sarsıntı meydana gətirmişdir. Həmin periodda ABŞ-da mövcud olan sosial müdafiə sistemi xüsusilə sürətlə artan işsizlik və buna bağlı gəlir itkilərini qarşılamaqdan çox uzaq idi. Daha çox inkişaf etmiş olan qərbi Avropa ölkələrinin işsizlik sığortalarının da işsizlik problemi qarşısında çox yetərsiz olduğu anlaşıldı. Bu proseslər nəticəsində 1935-ci ildə məqsədi yaşlıları, şikəstləri, korları və işsizləri sosial risklərə qarşı qorumaq olan sosial müdafiə qanunu çıxdı.

Beynəlxalq hüquq çərçivəsində ilk dəfə Atlantik Şərtində keçən "sosial müdafiə" termini 1942-ci ildə İngiltərədə Lord Bevericin (Lord Beveridge) başçılıq etdiyi bir qrup tərəfindən hazırlanan "Beveric Planı" ilə yayılmağa başlayaraq bugünkü mənasını qazanmışdır.

Sosial müdafiənin tərifi və çərçivəsi mövzusunda dünya ədəbiyyatında bir fikir birliyi yaranmışdır. Ancaq, sosial mü-

---

* *11 aprel 2004.*

dafiənin hansı metodlarla təmin ediləcəyi və hansı resurslarla maliyyələşdiriləcəyi mövzusunda fikir və icraat birliyi mövcud deyil. Son 25 ildə sosial müdafiənin maliyyələşdirilməsində problemlər yaşanması bir çox ölkə tərəfindən sosial müdafiə sistemlərində köklü islahat və dəyişikliklərin həyata keçirilməsinə səbəb olmuşdur. Ölkədən ölkəyə fərqli olmaqla bərabər həyata keçirilən dəyişikliklərdə ortaq icraat və istiqamətlənmələr gözə çarpmaqdadır.

Dünyada tətbiq edilən başlıca iki növ sosial müdafiə rejimi vardır. Bunlar qatılmalı (contributory) və qatılmasız (non contributory) rejimlərdir. Qatılmalı rejimdə əlaqədarlar (sığortalı, iştirakçı, işə götürən) rejimə müəyyən miqdar ödəyərək qatılırlar. Bu rejimdə fondlar yaradılır. Qatılmasız rejimdə isə dövlət ya da müxtəlif dövlət qurumlarının ümumi və ya xüsusi büdcələrindən ölkədə yaşayan ehtiyacı olan şəxslərə yardım edilir. Dövlət xərcləri vergilərlə qarşılanır. Dövlət təşkilatları olmayan cəmiyyət ya da dərnək xüsusiyyətindəki özəl yardım quruluşlarının könüllü xidmətləri də bu kateqoriyaya daxildir. Burada əlaqədarların ödəmələri yoxdur.

Qatılmalı rejim əsasən iki şəkildə işləyir. Birinci halda, əlaqədarlardan toplanan ödəmələrlə bir fond təşkil edilir və müəyyən müddət sonra şərtlər həyata keçərsə bu fonddan sığortalılara yardım edilir. Buna toplama (kapitalizasiya) metodu deyilir. İkinci halda əlaqədarlardan müəyyən bir periodda toplanan ödəmələr həmin perioddaki yardımları maliyyələşdirmək üçün istifadə edilir. Paylama (pay as you go) sistemi deyilən bu sistemdə ödəmələr müəyyən bir müddət üçün toplanmır. Toplama metodunda əlaqədarların ödəmələri ya müştərək bir hovuzda (fond) toplanır, ya da hər əlaqədar üçün ayrıca müəyyənləşdirilən bir hesabda toplanır. Birincisinə ümumi fondlaşdırma, ikincisinə isə özəl (xüsusi) fondlaşdırma sistemi deyilir.

İstər toplama, istərsə də paylama sistemi olsun, qatılmalı sosial müdafiə sistemi dövlət əli ilə qurulur, dövlət tərəfindən yaradılan bir rəsmi qurum tərəfindən işlədilir. Buna qatılmaq məcburidir. Demək olar ki, hər dövlətin dövlət orqanları tərəfindən idarə edilən təməl (basis) xüsusiyyətli bir sosial müdafiə sistemi vardır. Əlaqədarların bunun xaricinə çıxması mümkün deyil.

Özəl (xüsusi) fondlaşdırma və ya özəl təqaüd (private pension) sistemində isə dövlətin başçılığı ilə qurulub onun təftişi daxilində, fəqət özəl sekor tərəfindən işlədilən və sığorta texnikasına əsaslanan və şəxsi ödəmələrdən təşkil olunmuş bir fonddan şəxslərin sosial müdafiə ehtiyacı qarşılanır. Xatırladaq ki, özəl təqaüd sistemi bəzi ölkələrdə qatılmalı sosial müdafiə sisteminin əsasını təşkil etdiyi halda (məsələn Çili), bəzi ölkələrdə əsas rejimin tamamlayıcısı (supplementary retirement) şəklində də qurula bilər.

# İqtisadi dirçəliş və institusional investorlar*

*İbrahim Nəzirli*

Bir ölkənin hər hansı bir perioddakı iqtisadi inkişafı və iqtisadi artımı o periodda həmin ölkəyə qoyulan real aktiv investisiyaların toplamı ilə yaxından əlaqədardır. Bu real aktiv investisiyaların maliyyə mənbəyini isə, o periodda ölkə içində həyata keçirilmiş yığımlar ilə ölkə xaricindən təmin edilən kapital fondları təşkil edir.

Kapital ehtiyatının azlığı inkişaf etməkdə olan ölkələrdə iqtisadi dirçəlişin önündəki ən böyük maneələrdən biridir. Şəxslərin yığımlarından təşkil olunmuş kapitalın iqtisadi dirçəlişə lazım olan investisiyaları həyata keçirmək üçün ehtiyac duyulan kapitaldan az olması inkişaf etməkdə olan iqtisadiyyatlarda artımı azaldan önəmli bir amildir. Bu fərq səbəbi ilə yaranan əngəlin aşılması üçün xarici investisiyaların cəlb edilməsinə xüsusi əhəmiyyət verilir.

Azərbaycanın da bu yolu seçdiyini statistik göstəricilər ortaya qoymaqdadır. Belə ki, Dövlət Statistika Komitəsinin məlumatına əsasən, keçən 2003-cü il ərzində ölkə iqtisadiyyatına yönəldilən toplam 3981,5 milyon ABŞ dolları həcmindəki investisiyanın 3273,3 milyon dollarını, yəni 82,2 faizini xarici investisiyalar təşkil edir. Ümumiyyətlə müstəqillik qazandıqdan sonra isə, Azərbaycan iqtisadiyyatına bütün maliyyə mənbələrindən yatırılan investisiyaların 71,4 faizi xarici sərmayələrin payına düşür. İlk baxışdan xarici investisiyaların bu qədər yüksək payı sevindirici fakt kimi görünür. Fəqət, Azərbaycanın sağlam iqtisadi dirçəlişini arzulayan insanlar üçün, 70 faiz-

* *1 iyun 2004.*

dən çoxu ancaq neft sənayesinə yönəldilmiş xarici investisiyaların çoxluğuna sevinməkdənsə daxili investisiyaların acınacaqlı dərəcədə az olmasına heyfsilənməyin daha məntiqli bir davranış olacağını düşünürük. Çünki bu fakt ölkə daxilində yığılan kapitalın ölkə xaricinə axması və ya "ölü kapital" şəklində şəxslərin daxıllarında mühafizə edilməsi deməkdir. Daha təhlükəlisi isə odur ki, yuxarıdakı fakt ölkə iqtisadiyyatını xarici kapitaldan asılı vəziyyətə gətirərək ölkənin müstəqil iqtisadi siyasət izləməsinə imkan verməyəcəkdir. Xarici kapital isə təbii olaraq öz sahiblərinə daha yüksək gəlir gətirən sahələrə yönələcək və bu prosesdə Azərbaycanın uzun müddətli mənafeyi nəzərə alınmayacaqdır. Bu fikrimizi rəqəmlər də təsdiq edir. Belə ki xarici investisiyalardan neft sənayesinə yönəldilənlərin payı 2001-ci ildə 75 faiz, 2002- ci ildə 76 faiz, 2003-cü ildə isə 86 faiz təşkil etmişdir. 2003-cü ildə Azərbaycan iqtisadiyyatına yönəldilən toplam xarici investisiyalardan neft sektoru xaricindəki iqtisadi sahələrə yönəldilənlərin payı 14 faiz, miqdarı 463,1 milyon ABŞ dollarıdır ki, bu həmin ildə yönləndirilmiş daxili investisiya miqdarından (708,2 milyon dollar) belə azdır. Azərbaycanın başqalarının deyil öz mənafeyinə xidmət edən, ölkənin iqtisadi dirçəlişini və xalqın rifahını təmin edəcək, ancaq bir sahənin deyil bütün gərəkli sahələrin inkişafı üçün gərəkli infrastrukturları formalaşdıracaq investisiyalara ehtiyacı var. Bunun üçün isə müstəqil iqtisadi siyasət izləmək və bu siyasəti həyata keçirə bilmək üçün kifayət edəcək daxili kapital həcminə ehtiyac var.

İqtisadi dirçəliş probleminin kökündən həlli daxili yığımların artırılması və bu yığımlardan təşkil edilmiş kapitalın kapital bazarı (capital market) alətləri ilə investisiya sahələrinə cəlb edilməsidir. Bu nöqteyi-nəzərdən, ölkədə daxili investisiya mənbələri çatışmazlığı probleminin həlli üçün bir-biri ilə yaxın əlaqəli digər iki problemin həll edilməsi gərəklidir. Bu

problemlərdən birincisi daxili yığım həcminin artırılması, ikincisi isə bu yığımların effektiv investisiya sahələrinə istiqamətləndirilməsidir.

Ölkədəki daxili yığım həcmini müəyyənləşdirən əsas amil bu ölkənin milli gəliridir. Adətən yüksək milli gəlirə sahib ölkələrdə şəxslərin yığım tendensiyası da yüksəkdir. Bu cəhətdən deyə bilərik ki heç "bəxtimiz gətirməyib". Belə ki, Dünya Bankının (World Bank) ölkələri gəlir səviyyəsinə görə qruplandırdığı siyahıda Azərbaycan ən az gəlirli 64 ölkə içindədir. Məlumat və müqayisə üçün deyək ki, bu qrupda keçmiş sovet respublikalarından ancaq Azərbaycan, Gürcüstan, Qırğızıstan, Tacikistan və Özbəkistan var. Azərbaycana su və torpaq sərhədi olan ölkələrdən isə ancaq Gürcüstan bu qrupdadır.

Qeyd etməliyik ki, yığım həcmi nə qədər yüksək olsa da, bu yığımlar effektiv investisiya sahələrinə yönəldilmədikcə ölkə iqtisadiyyatına müsbət təsir göstərə bilməz. Effektiv investisiya sahələrinin müəyyənləşdirilməsi və fondların bu sahələrə istiqamətləndirilməsi üçün alternativ investisiya sahələri haqqında informasiyanın toplanması və emalı gərəklidir. Bu funksiyaların yerinə yetirilməsi isə professional kadrlar tərəfindən idarə edilən institusional investorların (institutional investors) mövcud olmasından asılıdır.

İnstitusional investorlar şəxslərin özəl yığımlarını maliyyə sənədləri qarşılığında toplayaraq fondlar təşkil edən və bu fondları investisiya sahələrinə yönəldərək məqbul risk səviyyəsində gəlir maksimalizmi və müddət uyğunluğu prinsiplərinə əsasən idarə edən ixtisaslaşmış maliyyə qurumlarıdır.

Əsas institusional investor növləri aşağıda göstərilmişdir:

1) İnvestisiya şirkətləri (Investment companies),

2) Pensiya Fondları (Pension funds),

3) Sığorta şirkətləri (Insurance companies),

4) Digər institusional investorlar (Vəqf və xeyriyyə fondları, xüsusi investisiya şirkətləri və s.).

Kiçik yığım sahiblərinin az miqdardakı ehtiyatlarını müxtəlif fondlarda toplayaraq rentabelliyi yüksək investisiyalara yönəldən institusional investorlar bütün dünyada kapital bazarının inkişafını və kapitalın ölkə əhalisinə yayılmasını asanlaşdırmaqdadır. Bu xüsusiyyəti ilə institusional investorlar iqtisadi dirçəlişin təminində lokomotiv ola bilməkdədirlər. İnkişaf etmiş ölkələrdə institusional investorlar tərəfindən formalaşdırılan böyük həcmli fondlar şirkətlərin maliyyə tələbatlarının ödənməsində önəmli mənbə rolunu oynayırlar. Müqayisə və məlumat üçün sondakı cədvəldə bəzi ölkələrdə institusional investorların təşkil etdiyi fondların ABŞ dolları cinsindən yekun dəyərləri və bu fondların ölkənin ÜDM-u içindəki payı göstərilmişdir:

Tablodan da göründüyü kimi, xüsusilə inkişaf etmiş ölkələrdə institusional investor fondlarının dəyərləri çox böyük rəqəmlərlə ifadə edilməkdədir. Bir çox inkişaf etmiş ölkədə bu fondların dəyəri ölkənin ÜDM-undan daha çoxdur. Lüksemburqda isə bu fərq 40 dəfədən çoxdur (4366,9 faiz).

Yüksək dəyərə malik institusional investor fondları nəinki ölkənin daxili kapital tələbatını ödəməkdə, hətta ölkəni beynəlxalq bazara investisiya axıdan əhəmiyyətli maliyyə mənbəyinə çevirməkdədir. İqtisadi inkişaf üçün lazım olan strateji investisiyaların həyata keçirilməsinin xarici investisiyalardan asılı olmadan həyata keçirilməsi üçün ölkəmizdə də institusional investorların inkişaf etdirilməsi fövqəladə əhəmiyyətə sahibdir. Ümid edirik ki, əlaqədar qurumlar bu məqsədlə atılması zəruri olan addımların müvafiq planlarını hazırlayıb və bu planları həyata keçirəcəklər.

**Bəzi ölkələrdəki institusional investor fondlarının dəyərləri və bu fondların ölkə ÜDM içindəki payı (2000)**

| Ölkə | İnstitusional investor fondlarının dəyəri (mil. USD) | İnstitusional investor fondlarının ölkənin ÜDM içindəki payı (%) |
|---|---:|---:|
| ABŞ | 19522500 | 198,7 |
| Almaniya | 1506934 | 79,8 |
| Avstraliya | 467922 | 129,6 |
| Avstriya | 139721 | 72,5 |
| Böyük Britaniya | 3017933 | 212,8 |
| Belçika | 244409 | 106,1 |
| Çexiya | 8092 | 15,4 |
| Danimarka | 167435 | 104,9 |
| Finlandiya | 105999 | 87,5 |
| Fransa | 1737114 | 131,8 |
| Hollandiya | 772299 | 206,2 |
| İslandiya | 8680 | 111,8 |
| İspaniya | 361764 | 63,8 |
| İsveç | 361764 | 167,9 |
| İsveçrə | 551168 | 222,4 |
| İtaliya | 1060253 | 97,8 |
| Kanada | 807524 | 113,7 |
| Koreya | 297763 | 72,2 |
| Lüksemburq | 836044 | 4366,9 |
| Macarıstan | 5869 | 12,7 |
| Meksika | 46891 | 8,2 |
| Norveç | 76882 | 55,2 |
| Polşa | 11522 | 7 |
| Portuqaliya | 56699 | 52,8 |
| Slovakiya | 1188 | 6,2 |
| Türkiyə | 5793 | 3,1 |
| Yaponiya | 4367464 | 97,7 |
| Yunanıstan | 37505 | 33 |

Mənbə: OECD Institutional Statistics Database

# Sosial müdafiənin problemləri*

*İbrahim Nəzirli*

Sosial sığortaçılıq əsasına dayanan müasir sosial müdafiə sistemi ilk dəfə 1881-ci ildə Otto Von Bismark tərəfindən qurulmuşdur. Ancaq nəsillər arası köməkləşmə və cəmiyyətin zəngin üzvlərinin yoxsul üzvlərinə resurs ötürməsi kimi yüksək ideoloji düşüncələrlə qurulan bu sistemin dizaynı əsnasında demoqrafik dəyişikliyin sistemə təsirlərinin nə dərəcədə yüksək ola biləcəyi təxmin edilə bilməmişdir.

Bütün dünyada sosial müdafiə sistemlərinin mövcudluğunun səbəbi şəxslərə aktiv iş həyatlarının başa çatmasından sonra da qaneedici və müntəzəm gəlir təmin etməkdir. Bu proses aktiv şəkildə işləyənlərə çox yük gətirmədən həyata keçirilməlidir. Ancaq inkişaf etmiş qərb ölkələrində sosial müdafiə sistemlərinin qurulmasının XIX əsrdə başlaması və zaman içərisində bir çox mərhələdən keçməsinə baxmayaraq, bu gün demoqrafik dəyişikliklərlə əlaqədar ciddi problemlər ortaya çıxmışdır.

Dünya əhalisinin sürətlə yaşlanması sosial müdafiə sistemlərinin üzərinə böyük yük gətirməkdədir. Keçən XX əsrdə həyat şərtlərinin yaxşılaşması, tibb elmindəki uğurlar və s. kimi müsbət səbəblərdən ortalama insan ömrü uzandı. Bundan başqa, xüsusi ilə inkişaf etmiş ölkələrdə, doğum nisbətlərində böyük azalmalar özünü göstərdi. Bir ölkənin demoqrafik strukturunun mühafizə edilməsi üçün 19-45 yaş arasındakı qadınlarda qadın başına düşən doğum sayı 2,1 olmalıdır. Fəqət Avropada bu rəqəm 1,5-dir və ümumiyyətlə doğum nisbəti ölkələrin çoxunda azalmaqdadır. Bu proseslərin nəticəsində həm insanlar təqaüdə çıxdıqdan sonra daha uzun müddət yaşayır-

---

* *20 oktyabr 2004.*

lar, başqa sözlə daha çox təqaüd alırlar, həm də iş qüvvəsinə qoşulan gənclərin sayı azalır, yəni təqaüdçülərə təqaüd ödəyə biləcək işləyənlərin sayı azalır.

Məsələn, BMT-nin raportlarına görə Almaniya 30 il boyunca hər il 500000 emiqrant işçi almasa ya da doğum artım sürətini iki qat artırmasa 2050-ci illərdə əhalisi 83 milyondan 70 milyona düşəcəyi və bu əhalinin də ortalama yaşının 50 olacağı, beləliklə hər işçinin öz maaşının yarısını bir təqaüdçüyə ödəyərək onun "köləsinə" çevriləcəyi təxmin edilir. "The Financial Times" qəzetində verilən bir xəbərdə 2030-cu ildə Amerika Birləşmiş Ştatlarında yaşlı əhalinin bu günə nisbətən iki qat artacağı, sosial müdafiə sisteminə qatılması lazım olan işləyən əhalinin artımının isə 18 faizi keçməyəcəyi irəli sürülür. ABŞ-ın gələcəkdəki xərcləri və gəlirləri arasındakı fərqin bugünkü dəyərlə təxmini miqdarı 44 trilyon dolardır. Bu bir neçə misal belə bütün dünya iqtisadiyyatının necə bir problem ilə qarşı qarşıya olduğunu göstərmək üçün kifayətdir.

Bu proseslər nəticəsində başlanğıcda 7-8 işləyənin qoşulması ilə 1 təqaüdçü maaşını maliyyələşdirəcək şəkildə qurulan sosial müdafiə sistemi yuxarıda saydığımız proseslər nəticəsində hal hazırda qlobal miqyasda 4-5 işləyənin 1 təqaüdçünü maliyyələşdirmə nöqtəsinə gəlmişdir.

Hal-hazırda istər inkişaf etmiş və istərsə də inkişaf etməkdə olan ölkələrin sosial müdafiə sistemləri böhran keçirməkdədirlər. Əhalinin yaşlanması, səhiyyə xidmətlərinin maya dəyərinin artması, siyasi iqtidarların sosial müdafiə sistemlərinə yersiz müdaxilələri, iqtisadi dalğalanmalar, inflyasiya, işsizlik, qeydiyyatsız işçi çalışdırma, kimi səbəblərdən demək olar ki, hər ölkədə sosial müdafiə qurumları ciddi problemlərlə qarşı qarşıyadırlar. İnkişaf etmiş ölkələrdə sosial müdafiə sisteminin işləməsinə mane olan ən əsas faktor demoqrafik xüsusiy-

yәtlәr olduğu halda inkişaf etmәkdә olan ölkәlәrdә aktuerya[*] prinsiplәrinә әmәl edilmәmәsi ön plana çıxır.

Bütün ölkәlәr sosial müdafiә sistemlәrinin qarşılaşdığı problemlәri öz şәrtlәrinә uyğun parametrik tәdbirlәrlә hәll etmәyә çalışmışdır. Alınan bu tәdbirlәri; tәqaüdә çıxma yaşının artırılması, sosial müdafiә kәsintilәrinin yüksәldilmәsi, tәqaüdlәrin real alıcılıq qabiliyyәtinin aşağı salınması, vergi nisbәtlәrinin artırılması, imtiyazlı tәqaüdә çıxmalara son qoyulması, vaxtından әvvәl tәqaüdә çıxma şәrtlәrinin çәtinlәşdirilmәsi, yüksәk tәqaüdlәrin yüksәk nisbәtdә vergilәndirilmәsi, qeydiyyatsız işә götürmәlәrin qeydiyyata alınması vә gәnc әhaliyә sahib ölkәlәrdәn işçi qәbul edilmәsi şәklindә sıralamaq mümkündür. Alınan bu kimi tәdbirlәrә baxmayaraq sosial müdafiә sisteminin neqativ maliyyә disbalansının qapadılmasının mümkün olmaması halında dövlәt büdcәsindәn sosial müdafiә sisteminә transfertlәr hәyata keçirilәcәkdir. Bu da öz növbәsindә dövlәtin borc alma ehtiyacı vә ölkәdәki vergi nisbәtlәrinin ümumi sәviyyәsi üzәrindә zamanla artan tәzyiq amilinә çevrilәcәkdir. Sistemdә lazımi islahatların hәyata keçirilmәmәsi halında yaranan vә bir dәfә yarandıqdan sonra hәndәsi olaraq böyüyәn sosial müdafiә kәsirlәrinin dövlәt büdcәsinә gәtirәcәyi yük dövlәtlәri әn radikal tәdbirlәri almağa istiqamәtlәndirәcәk dәrәcәdә böyükdür.

Yaxın keçmişdә müxtәlif ölkәlәrdә işlәyәn-tәqaüdçü balansını yenidәn qurmaq mәqsәdi ilә islahatlar hәyata keçirildi. Mәsәlәn, Fransada dövlәt sektorundan tәqaüdçü olmaq üçün

---

[*] Aktuerya: (Actuarial Science) Sığorta vә maliyyә sahәsindә bir elm qolunun adıdır. Sığortaçılıq texnologiyası ilә әlaqәdar investisiya, maliyyәlәşdirmә vә demoqrafiya mövzularında ehtimal vә statistik nәzәriyyәlәri tәtbiq edәn, sığortaçılıq mövzusunda cәdvәllәr tәşkil edәn, hüquqi infrastruktura uyğun bir şәkildә tarifә vә texnik әsasları müәyyәnlәşdirәn, rezerv vә dividentlәri hesablayan vә bunlara dair maliyyә raportlarını tәsdiq edәn şәxslәrin fәaliyyәtini әks etdirir.

zəruri minimum iş stajı 37,5 ildən 40 ilə yüksəldildi, yaxın gələcəkdə 42 ilə yüksəldilməsi planlanır. Almaniyada təqaüdə çıxma yaşı 63-dən 65-ə yüksəldildi. 2011-ci ildən sonra mərhələli olaraq 67-yə yüksəldiləcəkdir. Bunlar şəxslərin sistemdə daha uzun müddət qalması məqsədi ilə alınan tədbirlərdir. Daha maraqlısı isə odur ki, Avstriya əhalisinin orta yaş həddi o qədər yüksəldi ki, siyasi olaraq təqaüdçülərin xeyrinə, işləyənlərin isə zərərinə ola biləcək qərarların qarşısını almaq üçün seçici yaşı 16-ya düşürüldü.

Ancaq yuxarıda saydığımız parametrik tədbirlər şəxslərin rifahını təmin etmək deyil, sosial müdafiə qurumlarının gəlir-zərər balansını yenidən təmin etmək məqsədi daşıyır. Dünya təcrübəsi göstərməkdədir ki, primlərin* artırılması, təqaüdlərin azaldılması, təqaüdə çıxma şərtlərinin çətinləşdirilməsi nəticəsində şəxslər iş həyatları boyunca mövcud sosial müdafiə kəsirini qapatmaq üçün daha yüksək prim ödəyəcək, təqaüdçü olduğu mərhələdə isə özündən əvvəlki nəslə nisbətən daha az təqaüd alacaqdır.

Sosial müdafiə sisteminin təmin etdiyi standartın azalması və sosial müdafiə maaşlarının qoyulan məqsədə çatmaqda yetərsiz qalması və yuxarıda sadalanan parametrik tədbirlərin kifayət olmaması nəticəsində problemin başqa həll yolları axtarılmağa başlanmışdır. Bu istiqamətdə şəxslərin ehtiyaclarının sosial müdafiə sistemi tərəfindən qarşılanmayan hissəsinin şəxslərin fərdi yığımları ilə qarşılanması gündəmə gəlmişdir. Sosial müdafiə sisteminin ən əsas fəaliyyət sahələrindən biri olan təqaüd sahəsində yaranmış ehtiyacları qarşılama mexanizmi özəl təqaüd sistemi olmuşdur. Sistemin xüsusiyyətləri haqqında gələcək məqalələrimizdə hörmətli oxucularımıza ətraflı bilgi verməyi planlaşdırırıq.

---

* Prim: Sığorta sistemində, sığorta olunanın, sığorta sözləşməsi müqabilində müntəzəm həyata keçirdiyi ödəmələrdir.

# Əhalinin sosial müdafiəsi nə səviyyədədir?*

*İbrahim Nəzirli*

Məlum olduğu kimi, 2006-cı ilin dövlət büdcəsi layihəsi Milli Məclis tərəfindən təsdiq edildi. Ümumiyyətlə, 2006-cı ilin proqnozlaşdırılmış büdcə gəlirləri 2005-ci ildəkinə nisbətən təxminən 67 faiz çoxdur. Gələn ilin büdcəsindəki xərclərin məbləği də 2005-ci ilə nisbətən təxminən 62 faiz çoxdur. Bildiyimiz kimi, dövlətin əsas vəzifəsi vətəndaşlarının rifahını təmin etmək, gəlirin yenidən bölgüsü funksiyasını yerinə yetirərək cəmiyyətdə sosial ədaləti bərqərar etməkdir. Əlbəttə, bu funksiyaları həyata keçirmək üçün dövlətə müəyyən vəsait gərəkdir. Dövlətin bu vəsaiti haradan əldə edəcəyi (vergilər, rüsumlar və s.) və hara xərcləyəcəyi öz əksini onun büdcəsində tapır. Yəni büdcəyə baxanda dövlətin öz sosial vəzifələrini yerinə yetirmək üçün nələri planlaşdırdığını və bunu hansı vəsait hesabına həyata keçirmək istədiyi aydın görünür.

Büdcədəki bu yüksək nisbətli artım öz əksini gələn ilin demək olar ki, bütün proqnozlaşdırılan xərclərində tapıb. Nəzərə alsaq ki, yoxsulluq proqramının son hesabatında Azərbaycanda yoxsulluq həddinin 194 min manat (43 ABŞ dolları) olduğu müəyyən edilib və hazırda əhalinin 40,2 faizi bu göstəricidən aşağı səviyyədə yaşayır, onda əhalinin sosial müdafiəsi üçün dövlətin hansı tədbirləri görməsi xüsusi əhəmiyyət kəsb edir.

Məlumat üçün qeyd edək ki, müasir sosial müdafiə sistemləri hələ XIX əsrdə formalaşmağa başlamışdır. Bütün dünyada sosial müdafiə sistemlərinin mövcudluğunun səbəbi şəxslərə aktiv iş həyatlarının başa çatmasından sonra da qaneedici və

* *2 noyabr 2005.*

müntəzəm gəlir təmin etməkdir. Bu proses aktiv şəkildə işləyənlərə çox yük gətirmədən həyata keçirilməlidir. Başlanğıcda 7-8 işləyənin qoşulması ilə 1 təqaüdçü maaşını maliyyələşdirəcək şəkildə qurulan sosial müdafiə sistemi dünyada baş verən bəzi demoqrafik və texnoloji dəyişikliklər (əhalinin artım sürətinin azalması, tibb elminin inkişafı ilə insan ömrünün uzanması və s.) nəticəsində hal-hazırda qlobal miqyasda 4-5 işləyənin 1 təqaüdçünü maliyyələşdirmə nöqtəsinə gəlmişdir. Bu hal dünya miqyasında sosial müdafiə sistemlərini çox çətin vəziyyətə salmış və başda inkişaf etmiş ölkələr olmaqla bütün dövlətləri sosial müdafiə sistemlərində çox ciddi islahatlar həyata keçirməyə vadar etmişdir.

Azərbaycanda sosial müdafiə sisteminin necə işləməsi haqqında ilkin təsəvvürə sahib olmaq üçün Dövlət Statistika Komitəsinin məlumatlarına müraciət edək:

2005-ci ilin əvvəlinə aid məlumata əsasən, Azərbaycanda pensiyaçıların sayı təxminən 1 milyon 370 min nəfər təşkil etmişdir. Eyni dövrdə əhalinin məşğul olan qismi 3 milyon 764 min nəfər təşkil etmişdir. Bu rəqəm iqtisadi fəal əhalinin ümumi sayından (3 milyon 820 min nəfər) məşğulluq xidmətində rəsmi status alan işsizlərin (56 min nəfər) çıxılması ilə əldə edilir. Bu məlumatların işığında Azərbaycanda 2,7 nəfər işləyənin bir təqaüdçünü maliyyələşdirdiyi ortaya çıxır. Amma nəzərə alsaq ki, məşğul əhali sayının yuxarıdakı metodla hesablanması zamanı bu rəqəmə rəsmi status almayan işsizlər, xaricdə qeydiyyatsız işləyən Azərbaycan vətəndaşları, əməyi ödənilməyən ailə üzvləri, ölkə daxilində qeydiyyatsız işləyən vətəndaşlar, kiçik torpaq sahəsi olduğu üçün işsiz sayılmayan vətəndaşlar, peşə ixtisası olmadığı üçün üç ildən artıq işsizlik müavinəti ala bilməyən və işsizlik statusunu itirən vətəndaşlar və s. əhali qrupları daxildir, onda Azərbaycanda sosial müdafiə ilə bağlı problemin nə qədər acınacaqlı hal aldığı aydın gö-

rünür. Ən yaxşı halda Azərbaycandakı işləyən-təqaüdçü nisbəti dünya üzrə orta göstəricinin yarısından daha aşağıdır.

Əlbəttə, belə olan halda lazımi sosial müdafiə səviyyəsinə nail olmaq üçün hər bir işləyən əmək haqqının önəmli bir bölümündən bir təqaüdçünü maliyyələşdirmək məqsədilə imtina etməlidir. Azərbaycanda onsuz da aşağı olan əmək haqları ilə bunu həyata keçirmək heç də real görünmür. Nəticə etibarilə sosial müdafiə sisteminin əsas maliyyə mənbəyi mövqeyində olan işləyən əmək haqlarından tutulan kəsintilərlə sistemin maliyyələşdirilməsi qeyri-mümkün hala gəlir. Bu halda gərəkli sosial müdafiənin təmin edilməsi üçün sistemə dövlət büdcəsindən transferlər həyata keçirilir. Fəqət, bu transferlər də Azərbaycanda əhalinin lazımi müdafiəsini təmin etməməkdədir. Belə ki, 2005-ci ilin əvvəlində Azərbaycanda təyin olunmuş aylıq pensiyaların orta məbləği 120 min manatdır ki, bu da sosial minimumun (194 min manat) 60 faizinə bərabərdir.

Keçən illə müqayisədə 62 faiz artan 2006-cı il büdcəsi xərclərində investisiya bölməsi keçən ilə görə 3,7 dəfə, müdafiə xərcləri 2 dəfə, ümumdövlət xidməti xərcləri 2,5 dəfə artdığı halda, sosial müdafiə və sosial təminat xərcləri cəmi 31.6 faiz artırılmışdır. Dövlət büdcəsindən ayrılan bu miqdar, əlbəttə ki, sosial müdafiə sisteminin həlli üçün yetərsizdir. Büdcədə əmək pensiyalarının 20 faiz artırılması planlaşdırılır. Deməli, pensiyaların gələn il də sosial minimumdan bir xeyli aşağı olacağı açıqdır.

Ümumiyyətlə, Azərbaycanda sosial müdafiə sisteminin problemləri dərin və çoxşaxəlidir. Bu problemlərin həlli üçün yalnız büdcədən yetərli məbləğ ayırmaq da kifayət etmir. Ayrılan məbləğin lazımi islahatlara yönəldilməsi məsələnin həllinin ən əsas və zəruri yoludur. Gərəkli islahatlar (işləyənlərin qeydiyyatının düzgün aparılması, vergi islahatları, çoxpilləli pensiya sisteminin tətbiqi və s.) həyata keçirilməzsə, sosial müdafiə sistemi daim böyüyən mənfi saldosu ilə büdcə üçün

qanayan yaraya çevrilə bilər və vətəndaşların uyğun müdafiə ilə təmin edilməsi qeyri-mümkün hala gələr. Vətəndaşlarının sosial müdafiəsini təmin edə bilməyən Azərbaycanın hərbi büdcəsinin Ermənistanın ümumi büdcəsinə təxminən bərabər olması iddiası, razılaşın ki, o qədər də təsirli deyil və qarşı tərəfi qorxudacaq dərəcədə effektli səslənmir.

# Tarixin sonu, yoxsa ideoloji çağın sonu?*

*Natiq Sabiroğlu*

İngiltərədə keçirilən son ümumi seçkilərdə Tony Blairin rəhbərliyindəki Leyboristlər (İşçi) Partiyası üçüncü dəfə ardıcıl qələbə qazanmış oldu. Görəsən Sənaye İnqilabını dünyaya bəxş edən və çox ciddi bir liberal ənənəyə sahib olan İngiltərədə sosial-demokratların bu mütləq qələbəsi nə ilə bağlıdır? Ümumiyyətlə dünyada gedərək artan sosial-demokrat və liberal-demokrat qələbələr nəyi ifadə edir?

Məşhur yapon fikir adamı Francis Fukuyama Sovet Blokunun çökməsindən sonra tarixin sonunun gəldiyini elan etmişdi. Çünki kapitalizm sosializm üzərində mütləq qələbə çalmış və beləcə tarixi dialektizm (tez-sintez-antitez) sona çatmışdı. Yəni kapitalizm son mərhələ idi və qarşısında heç bir antitez yox idi...

İnsanoğlu, on minlərcə il sadəcə təbiətin bəxş etdiyi nemətlərdən faydalanaraq (ovçuluq və yığıcılıq) mənimsəmə iqtisadiyyatını başa vurduqdan sonra əkinçilik və heyvandarlıq inqilabına e.ə. VIII minillikdə keçmişdir. Yəni istehlakın tarixi insanın ortaya çıxışına qədər geriyə getməsinə rəğmən istehsalın tarixi sadəcə səkkiz min il əvvələ dayanır.

Mənimsəmə iqtisadiyyatını natural təsərrüfat izləmişdir. Hər kəs özünə kifayət edəcək miqdarda məhsul istehsal etməyə başlamışdır. Bir müddət sonra istehlak etdiyindən artığını istehsal edən ailələr, əllərindəki artıqları ehtiyacları olan başqa mallarla dəyişdirmək üçün mübadilə yoluna getmişlərdir. Lakin bu zaman bazarda bəzi malların lazımından artıq, bəzi malların isə yetərsiz olduqlarını görmüşlər. Bu da istehsalın planlanmasını və artıq məhsulların mühafizə edilməsini (de-

* *12 may 2005.*

polama) gündəmə gətirmişdir. Çarə olaraq bir "Ağsaqqallar Heyəti" təşkil etmək və burada ortaq qərarlar almaq fikrinə gəlmişlər. Bu heyət, hansı maldan nə qədər istehsal edilməsi gərəkliliyini və hansı ailənin hansı malı istehsal edəcəyini müəyyənləşdirirdi ki, bu da məhdud ehtiyatların israfını önləmə məqsədini güdürdü. Beləcə informasiya qıtlığı aradan qaldırılmış olurdu. Ağsaqqallar Heyətinin toplantıları ilk başlarda bütün xalqa açıq ikən, daha sonra elitist bir quruluşa çevrilmişdir. Göründüyü kimi, kollektivist planlamanın tətbiqi və informativ bilginin önəminin anlaşılması ilk olaraq, bu dövrdə ortaya çıxmışdır.

İlk kənd məskunlaşmalarında bəzi kəndlər həm mövqe (əkinçiliyə əlverişli ərazilər, quru ticarəti və s.), həm də əhalinin çoxluğu ilə daha cazibəli hala gəlməyə başlamışlar. Bu kəndlər daha sonra şəhər halını almışlardır. Bu şəhərlər sadəcə tüccarlar üçün deyil, eyni zamanda köçəri tayfalar üçün də cazibəli hala gəlməkdə idi. Bu köçəri tayfaların tez-tez təkrarlanan basqınlarından qorunmaq üçün şəhərlərdə birbaşa istehsal prosesinə qatılmayan düzənli ordular yaradıldı. Bu arada artıq istehsalın yaranması ilə birlikdə, fiziki mal istehsalına qatılmayan fəqət xidmət istehsalı ilə məşğul olan başqa bir sinif də yaranmaqda idi (alimlər, həkimlər və s.).

Gedərək güclənən şəhərlər, çevrə kəndləri öz hegemoniyalarına alaraq və ya ən azından öz nəzarətləri altında saxlayaraq, şəhər krallıqları halını almışlardır. Bu krallıqlar şəhər dinlərinə sahib idilər. Lakin çevrəyə yayılma prosesi ilə birlikdə, bu dinlər yeni coğrafiyadakı insanları da əhatə etməli idi. Bu da daha universal dinləri gündəmə gətirdi. Səmavi dinlərdən Xristianlığın rəsmi din olaraq məhz Roma İmperiyasının genişləmə dönəminə rast gəlməsi təsadüfi deyil. Yenə İslamın, müxtəlif qəbilələr halında yaşayan və hər qəbilənin öz büttanrılarının olduğu bir zamanda, Ərəbləri birləşdirmə və dün-

yaya yayılma qayəsi ilə ortaya çıxması da buna örnəkdir. Səlib Yürüşləri də verilə biləcək misallardan biridir. Tək istisna olan Yəhudilik dini isə, tarixən reaksioner bir şəraitdə ortaya çıxdığı üçün, milli keyfiyyətini hələ də qorumaqdadır.

İnsanlıq tarixinə tarixi materializm (alt-strukturda yer alan istehsal münasibətləri və istehsal vasitələri üst-strukturu müəyyənləşdirir) aspektindən yanaşan Marxın deyimi ilə, iqtisadi artığın tapınaqlar (məbədgah, kilisə və s.) üzərindən bölüşdürüldüyü din ideologiyasının hegemoniyası erkən kapitalizm dövrünə qədər davam etmişdir. Bilindiyi kimi, erkən kapitalizm dövrü 1492-ci ildə Kristofor Kolumbun "Yeni Dünya" Amerikanı kəşf etməsi ilə başlamışdır. Unutmayaq ki, dəniz ötəri müstəmləkələrə gedən ilk insanlar xəzinə axtaran macərapərəst səyyahlar ilə keşişlər idi. Hətta Türkiyədə "öncə əllərində İncil, sonra silahla gəldilər" deyə bir mahnı sözü də var.

Fəqət "Yeni Dünya"nın kəşfi və Avropada protestantlıq hərəkatının yayılması din ideologiyasını zəiflətmişdir. Bu da bölgünün Kral saraylarında həyata keçirildiyi erkən milliyyətçilik dövrünü başlatmışdır.

Bölgünün aqorada (bazar) gerçəkləşdiyi təkmil milliyyətçilik ideologiyası Sənaye İnqilabının nəticəsində ortaya çıxmışdır. 1789 Fransa Burjua İnqilabı ilə ən təkmil fəlsəfi nöqtəsinə çatan bu düşüncə, müəyyən bir millət-dövlət təməlində yerli bazar və yerli sənayeçi yaratmaq və onu qorumaq üçün daxili ticarət əngəllərinin (məsələn, inqilab zamanı kiçik İsveçrədə 40 dolayında Kanton bölgə vardı və bu bölgələrin hər biri ayrı gömrük divarlarına sahib idi) qaldırılması və xarici ölkələrə qarşı yüksək gömrük vergilərinin tətbiqi kimi məqsədlər daşımaqdaydı. Milliyyətçilik ideologiyasının siyasi müstəvidə ortaya çıxmasında Fransa ilə İngiltərə arasında, Fransız Kralın kim tərəfindən seçiləcəyi üzündən çıxan, "100 İllik müharibə"-nin (1337-1453) və ABŞ-ın İngiltərəyə qarşı müstəqillik mübarizəsinin (1776-1781) danılmaz rolu olmuşdur. Ayrıca siyasi

müstəqillik əldə etmək istəyən əkinçiliyin inkişaf etdiyi cənub ilə, buradakı bazar və xammal imkanlarını əldən vermək istəməyən sənayeləşmiş şimal arasındakı vətəndaş müharibəsi də (1861-1865) milliyyətçilik düşüncəsinin formalaşmasına böyük təsir göstərmişdir. Müharibənin ən önəmli səbəbi, cənubun bahalı şimal malları yerinə ucuz İngilis mallarını almaq istəməsi idi. Lakin müharibəni qazanan şimal, daha sonra, yüksək gömrük divarları ilə İngilis mallarının ölkəyə daxil olmasını əngəllədi.

Bütünün parçalardan (atomlar) ibarət olduğunu və bu parçaların təməl xüsusiyyətlərindən yola çıxaraq bütün haqqında hər şeyi bilə biləcəyimizi önə sürən "Atomçuluq Nəzəriyyəsi" liberalizm düşüncəsinin nüvəsini təşkil etmişdir. Bu düşüncə əslində qədim Yunanıstana qədər gedib çıxmaqdadır. Qədim Yunan düşüncəsində kainatın kiçicik, ayrı, bölünməz və yox edilməz parçalardan təşkil olunduğu haqqında güclü bir qənaət mövcud idi. Atomçuluq təbiətin bütün müxtəlifliyinin çox az sayda bəsit parçalara endirilə biləcəyini düşünürdü (su, torpaq, atəş, günəş və s.). e.ə. V əsrdə yaşayan Demokritusa görə "Tamamən eyni olan atomlar fərqli şəkilləri üzündən bir boşluğun içində mübarizə aparırlar və orada hərəkət edərkən çarpışıb bir-birilərinə bağlanırlar". Yəni bütün atomların təməl xüsusiyyətləri eyni idi, fərqli olan sadəcə onların şəkli idi (formaları və böyüklükləri). Bir buz parçası suya çevriləndə atomlar eyni qalırdı sadəcə olaraq bu atomların birləşmə tərzləri dəyişirdi. Lakin bütün bunlara baxmayaraq, hələ Platon və Aristotel zamanında, atomçuluğun təbiətdəki müxtəliflik və dəyişikliyi tam olaraq açıqlaya bilmədiyi bilinirdi. Atomçu dünyagörüşü insanoğlunun ali məqsədini açıqlamaqda yetərsiz görünürdü.

Rezonans dönəmində güclənməyə başlayan və Isaac Newton mexaniki fizikasında son dərəcə təkmilləşdirilən libera-

lizm düşüncəsi sistematik bir şəklə XVII əsrdə John Lock tərəfindən salınmışdır. Adı keçən mütəfəkkir təməl fərdi haqq və sərbəstliklər, insan haqları, inanc, ibadət, düşüncə və mülkiyyət özgürlüyü kimi dəyərləri ön plana çıxarmışdır.

Son mərhələ olan kommunizmdə dövləti tamamən ortadan qaldırmaq qayəsi güdən, istehsal və bölgü proseslərində metodik holizmi ön plana çıxaran və keçici mərhələ olan sosializmdə dövlətin mütləq hegemoniyasını əsas alan və beləcə dövləti fetiş hala gətirən sosializm düşüncəsi sistematik şəklə Karl Marx tərəfindən gətirilmişdir.

Burada metodik fərdiyyətçilik və holizm haqqında qısa bir arayış verməkdə fayda var. Liberalizmin təməlini təşkil edən metodik və politik fərdiyyətçilik prinsipləri ictimai o cümlədən, iqtisadi hadisələrin açıqlanmasında ayrı-ayrı fərdlərin davranışlarını, onların zövq və seçimlərini əsas alır. Bu düşüncənin iqtisadın müstəqil bir elm kimi inkişafında oynadığı rol açıqdır. Fəqət bu düşüncə fərdiyyətçiliyi təməl alarkən homoeconomicus (iqtisadi insan) kimi abstrakt kateqoriyalar yerinə daha konkret fərdi xüsusiyyətləri diqqətə almalı idi. Çünki bu yanlış versiya üzərinə şəkillənən Ortodoks İqtisad gedərək reallıqlardan qopuq riyazi formulların əsiri altına düşən Ekonometriyaya çevrilmişdir.

Fəqət bu yanlışlıq Marksizm kimi daha böyük bir yanlışlığa səbəb olmamalıdır. Metodik və politik holizm prinsiplərinə dayanan Marksizm bütün fərdi təşəbbüsləri rədd etmiş və bunun yerinə ilk mərhələ olan sosializmdə dövləti, son mərhələ olan kommunizmdə isə, kollektiv birlikləri ön plana çıxarmışdır.

Fəlsəfi arenada liberalizm ilə sosializm arasındakı mübahisələr çox şiddətli bir şəkildə yaşanmışdır. Sosializm kimi holist hərəkatlardan çəkinən metodik fərdiyyətçi Avstriyalı iqtisadçı Von Hayek "Elmçilik və Cəmiyyətin İncələnməsi" adlı məqaləsində pozitiv elmin liberal olduğunu söyləyirdi. Holizmi

müdafiə edən və bunun tamamən sosializmdən fərqli olduğunu haqlı olaraq qeyd edən Karl Popper isə, holizmin başıboş toplumçuluqdan fərqli və liberal dəyərlərin daha təkmil bir versiyası olduğu görüşünü müdafiə edirdi. Popperə görə, holizm tamamən müstəqil fərdlərin meydana gətirdiyi bir toplumu ifadə edir. Yəni fərdlər daha öncə liberal dəyərlər çərçivəsində tam müstəqilləşir və daha sonra ortaq könül bağına söykənən birlikdəlik (konsensus) yaradırlar - Azad İnsanlar Birliyi.

Müasir elmin gəldiyi pik nöqtə olan Kvant fizikasının inkişafı yuxarıdakı son iki görüşü (metodik fərdiyyətçilik və metodik holizm) də zəiflətmişdir. Əvvəlcə qeyd edək ki, yeni elm holistdir. Fəqət bu holizmin fərdiyyətçiliyə daha yaxın durduğu söylənə bilər. Belə ki, yeni holizm əsas vurğunu fərdiyyətçiliyin üzərinə gətirməklə birlikdə, fərdi, sosial münasibətlər, bu münasibətlər nəticəsində yaranan dəyər və normalar təməlində ələ alır. Dolayısilə müasir holizm fərdiyyətçiliyin yanında azad fərdlərin bir araya gələrək meydana gətirdiyi sosial institut və quruluşların da önəmini vurğulamaqdadır (məsələn, Peter Drucker ABŞ-da çalışan əhalinin böyük bir hissəsinin iş xaricindəki zamanlarının ciddi bir qismini heç bir maddi mənfəət əldə etmədikləri qeyri-hökumət təşkilatlarında keçirdiklərini qeyd etməkdədir). Bu baxımdan müasir iqtisad elminin də, iqtisadi hadisələri açıqlarkən fərdi təşəbbüslərin yanında sosial qurumları, tarixi alt-strukturu, dini dəyərləri və mədəni normaları və s. qəbul edən Heterodoks İqtisada getdikcə daha da yaxınlaşdığı söylənə bilər. Yəni liberal dəyərləri tamamən rədd edən və kollektivist olan Marksist holizmdən fərqli olaraq, müasir holizm plüralist, fərdi haqlara tam sayğılı, liberal dəyərləri qucaqlayan və insanı ən müqəddəs hala gətirən bir xüsusiyyətə sahibdir.

Kvant elmi sübut edir ki, ən mükəmməl varlıqlar xaosla düzən arasındakı sərhəddədir. Buna "kaodüzən sərhədi" deyilir. Kristal və qazlar ən ucdakı iki nöqtəni - düzən və xaosu - təmsil edirlər. Ancaq ikisinin də quruluşu çox bəsitdir. Heç birində xüsusi mesaj yoxdur (bunun üçün ya kristala mesaj yazmalıyıq, ya da qaza səs dalğaları göndərməliyik).

Politologiya elminə tətbiq etsək, krisal totalitar (sosializm, kommunizm kimi) və avtoritar (faşizm kimi) kimi basqıcı rejimləri, qaz isə, ifrat düzənsiz və anarxist rejimləri doğurur. Bu İslam dinindəki "ifrat və tefritdən qorunmaq" anlayışına da tam uyğundur. Yenə müasir elmdəki yeni inkişaflar göstərir ki, bütün canlı və cansız varlıqlar həm parça (maddə, kütlə), həm də dalğa (enerji, qüvvət) funksiyalarına sahibdirlər (dalğa-parça dualizmi). Bu da fəlsəfədə, gərəkli şərait yaradılarsa insanların içindəki cövhərlərin üzə çıxacağı düşüncəsini doğurmuşdur. Dolayısilə bacarıqsız kimi görünən insanların müəyyən bir şəraitin nəticəsi olduğu və gərəkli və yetərli şərtlər təşkil olunduğunda bu insanlarda inanılmaz keyfiyyət dəyişikliyi və performans artışlarının görülə biləcəyi fikri doğmuşdur.

Müasir holizm paradiqmasının yaranmasında XX əsrdə yüksək kimyəvi reaksiyalar nəticəsində, atomların özlərinin də daha kiçik parçalardan (elektron, neytron və pozitron) təşkil olunmasının böyük rolu olmuşdur. Bu düşüncə, eyni zamanda, bütünün meydana gəldiyi parçaların toplamasından daha çox olduğu (sıfırdan fərqli müsbət toplamalı) fəlsəfəsinə dayanır. Buna elmdə sinerji təsiri deyilir. Riyazi olaraq ifadə edərsək 1+1>2'dir. Yəni iki nəfər ayrı ayrılıqda istehsal etdiklərindən daha çoxunu bir araya gəldikləri zaman istehsal etməkdədirlər.

Çox sevindirici haldır ki, yuxarıda qeyd edilən elmi həqiqətlər Azərbaycanlı akademik Xudu Məmmədov tərəfindən çox öncədən anlaşılmış və "Quruluş Nəzəriyyəsi" adı altında

sistematik şəklə qovuşdurulmuşdur. Bu nəzəriyyə eyni tərkibdən ibarət olan müxtəlif quruluşların müxtəlif varlıqlara müxtəlif mahiyyət verməsi ilə bağlı təməl bir prinsipə dayanır. Məsələn, qrafit və almaz eyni atomlardan təşkil olunmaqlarına rəğmən, xüsusiyyətləri olduqca fərqlidir. Dünyadakı ən sərt maddə olan almaz eyni zamanda çox parlaqdır. Qrafit isə, çox yumşaq və tutqundur. Eyni şəkildə, almaz əmsalsız və təmiz, qrafit isə, dəyərsiz və çirklidir.

Əslində son illərdə inkişaf etmiş Qərb ölkələrində liberalların yanına demokratiya sözcüyünü alaraq liberal-demokrat və sabiq sosialistlərin də sosial-demokrat olmaları, bu ölkələrin qeyd etdiyimiz elmi gerçəkləri görmüş olmalarından qaynaqlanır. Bu baxımdan "Üçüncü Yol" axımını başladan və son seçimləri də qazanan İngilis Leyborist Partiyası xüsusilə maraqlı bir misaldır. Bu görüş mülkiyyət bərabərliyi anlayışı yerinə fürsət (şans) bərabərliyini önə çıxarmaqda, çalışanların firma içi qərar mexanizminə qatılmasını tələb etməkdə və bazar iqtisadiyyatının axsadığı nöqtələrdə bazar mexanizminin işləyişini pozmayacaq şəkildə yeni axtarışlara yönəlmək gərəkliliyini müdafiə etməkdədir.

Son olaraq qeyd edək ki, müasir liberalizm düşüncəsi ictimai qurumları tamamən rədd etmir. Tam tərsinə bu qurumların bazarı inkişaf etdirici rolunu qəbul edir. Sadəcə olaraq iqtidarın mütləq olaraq tək əldə (dövlət) toplandığı monocentric bir sistem yerinə bu iqtidarın dövlət içindəki lokal hökumətlər və qeyri-hökumət təşkilatlarından qlobal təşkilatlara qədər geniş bir yelpazə tərəfindən paylaşıldığı polycentric bir sistemi müdafiə edir. Qısaca yeni liberalizm decentre (adəmi-mərkəziyyətçi) qərar alma mexanizminə dayanır.

Göründüyü kimi, artıq ideologiyalar çağı bitmişdir. Və bütün duyğu, düşüncə və davranışlarımız gedərək daha çox kvant paradiqmasına uyğun hala gəlməkdədir. Tarix isə da-

vam edir. Həm də heç bir zaman olmadığı qədər sürətli və qeyri-müəyyən şəkildə...

Son söz əvəzi olaraq, bu yazının qələm sahibinə olduqca maraqlıdır, görəsən elmdəki bu paradiqma dəyişikliyi Azərbaycandan, xüsusilə də siyasi partiya və elm çevrələrindən necə görünür və yaxud görünürmü?...

# Kuhn paradiqmaları və ya Aristotel niyə liberal deyildi?*

*Natiq Sabiroğlu*

Paradiqma məfhumunu ən pik zirvəsinə çatdıran Thomas Kuhna görə, dar mənada paradiqma bir elmi topluluqdakı üzvlərin və sadəcə onların paylaşmış olduğu dəyərlər sistemidir. Daha geniş mənada isə paradiqma, bir cəmiyyətdəki kiçik bir elitanın (idarəçilər, aydınlar, elm adamları və s.) paylaşdığı dəyər və normalar topluluğudur. Bu baxımdan elmi paradiqma, hər elmi nəzəriyyənin təməlində yatan və birindən digərinə keçildiyi zaman elmin inkişafını təmin etməkdədir. Bir elmi paradiqma nəzəri və praktiki elmi araşdırmanın maraqlanacağı problemləri, istifadə edəcəyi metodları və qəbul edilə biləcək cavabları müəyyənləşdirib məhdudlaşdıran bir tərkibə sahibdir. Hər hansı bir elmi sahədə paradiqma, bir dəfə ümumi qəbul gördükdən sonra, elm adamları artıq o paradiqmanın cızdığı sərhədlər daxilində normal elm icra etmə səylərinə girişirlər.

Paradiqma mövcud çərçivəsi daxilində tədqiqatçıları yeni problemlərə yönəltdiyi müddətcə önəmini və keçərliliyini qoruyur. Bir elmi paradiqmanın yeni problemləri həll etmə qabiliyyətinin zəifləməsi isə, o sahədəki elmi böhranın əsasını hazırlayır. Fəqət qurulduğu zaman olduqca mütərəqqi bir rola sahib olan paradiqma, bu mərhələdə, "bu günün inqilabçıları sabahın mühafizəkarlarıdır" deyimini isbat edərcəsinə, gerici bir davranış sərgiləyərək qatı bir ortodoksluğa bürünür. Əgər bir sınaq mövcud elmi nəzəriyyələrlə tərs düşərsə, elm adamları bu nəticələri gizlədirlər, çünki bu nəticələr mövcud düzən

* *4 iyun 2005.*

baxımından dekonstruktivdir. Elmi anormallıqlar artıq göz ardı edilə bilməyəcək bir nöqtəyə çatdığında ancaq o zaman, zəmin yeni bir elmi inqilab üçün hazır hala gəlir. Elmi böhranlardan çıxışın üç yolu mövcuddur:

- Böhranın mövcud paradiqma içində normal elmi fəaliyyətlərlə həll edilməsi;
- Böhranın həllinin sonrakı bir tarixə ertələnməsi;
- Elmi inqilab və yeni bir paradiqmanın doğması.

Qısaca paradiqmatik dəyişikliklər prosesini aşağıdakı kimi göstərə bilərik:

Elm Öncəsi => Normal Elm => Böhran - İnqilab => Yeni Normal Elm => Yeni Böhranlar

Ümumi olaraq sosial elmlərdə, xüsusilə də iqtisad elmində yeni bir paradiqmanın köhnənin yerini ala bilməsi texnik elmlərə nəzərən daha çətindir. Bunun başlıca səbəbi, sosial fenomenlər dünyasında fərd, qrup və dövlətlərin mənfəətlərinin də işə qarışmasıdır ki, belə bir paradiqma dəyişikliklərinin böyük ölçüdə siyasi və sosial inqilablarla eyni mənaya gəlməsidir.

Paradiqmalar seçkin elm adamlarına xitab edərkən, sadə xalqa da mövcud elmin sərhədləri ideologiyalar vasitəsilə çatdırılır. Yəni ilk başda ideologiyalar da, elmi paradiqmalar kimi, ictimai həyatda mütərəqqi bir rol oynayırlar. Lakin daha sonra, elmi paradiqmadakı geriləməyə paralel olaraq, ideologiya da totalitar və avtoritar bir hal alır. Yəni ortaya çıxış mərhələsində milliyyətçilik, dinçilik və s. ideologiyaların oynadığı müsbət rol göz ardı edilməməlidir.

Günümüzdə yeni paradiqma kvant elmidir. İdeologiyası da sosial-demokrat və ya liberal-demokrat kimi ideologiyalardır. Elmin inkişafını əngəlləyən köhnə qatı, radikal, mütləqiyyətçi və doqmatik ideologiyalar artıq tarixə qarışmaqdadır. Fəqət ideoloji çağdan fərqli olaraq yeni ideologiyalar mütləq

doğruların olmadığından hərəkətlə daha elastik bir quruluşa sahibdir. Bu baxımdan yeni ideologiyalar daimi qarşılıqlı təsir içərisində və bir-birilərinin tamamlayıcısı durumundadırlar.

İqtisadın formalist (şəkilçi) tərifinə görə iqtisad, məhdud ehtiyatların qeyri-məhdud insan tələbatlarını təmin etmək üçün müxtəlif istifadə sahələri arasında ən optimal bölgüsü ilə əlaqədar fəaliyyətləri araşdıran elmdir.

Substantivist tərifə görə isə iqtisad elmi, insanla çevrəsi arasında, insanlar tərəfindən qurulmuş (instituted) bir prosesdir. Bu proses insan tələbatlarını qarşılayan maddi istehsalın davamlılığını təmin edir.

Karl Polanyi iqtisadın substantivist tərifindən yola çıxaraq iqtisadi düzənin təməlində yer alan üç əsas davranış prinsipini müəyyənləşdirmişdir. Qarşılıqlılıq (reciprocity), yenidən bölgü (redistribution) və mübadilə (exchange). Bu üç davranış prinsipinin simmetriya (symmetry), mərkəzləşmə (centricity) və sərbəst bazar (market) kimi üç institusional düzənləmənin yanında yer aldığını söyləməkdədir.

Qarşılıqlılıq, qohum-əqrəbalıq münasibətlərində olduğu kimi, bir-birilərinə qarşı sahib olduqları sosial mövqenin məcburiyyəti ilə müəyyən məsuliyyətlər daşıyan simmetrik qruplar arasındakı münasibətləri ifadə etməkdədir. Yenidən bölgü, mal və xidmətlərin bir mərkəzdə toplanıb sonra yenidən cəmiyyətin müxtəlif təbəqələrinə bölgüsünü təmin edən bir mərkəzi idarə sistemini ifadə edir. Mübadilə isə, sərbəst bazar sistemi çərçivəsində, anonim fərdlər arasında əl dəyişdirən mal və xidmətlərin hərəkətini açıqlamaqda istifadə edilməkdədir.

Qarşılıqlılıq, qəbilə toplumlarında həm ailə yaşamında, həm də istehsalın davamlılığında yardımçı olan bir prinsip idi. Məsələn, hər kişinin bacısına və onun ailəsinə baxmaqla məsul olduğu Qərbi Melanezyanın Trobriand adalarındakı kimi... Yəni hər kişi bacısının ərinə qarşılıqsız bir xidmət verirdi.

Polanyi bu düzənin xüsusilə, ibtidai toplumlarda keçərli olduğunu söyləyərkən, fikrimizcə ölkəmizə ciddi bir haqsızlıq etməkdədir. Çünki bu münasibətlər Azərbaycanda hələ də iqtisadi münasibətlər sistemində olduqca müəyyənləşdirici bir rola sahibdir. Məsələn, qız ərə gedərkən ona cehiz verilməsi, toylarda pul atılması, xaricdə yaşayan həmvətənlərimizin öz ailələrinə mütəmadi pul göndərmələri və s. bu qəbildəndir.

Tarixdə önəmli rol oynamış böyük imperiyalar və sosialist ölkələr, yenidən bölgü prinsipinin keçərli olduğu toplumların tipik nümunələrini təşkil edirlər. Burada, ya bütün istehsal dövlət tərəfindən gerçəkləşdirilməkdə, ya da güclü bir mərkəzi sistemə bağlı, inkişaf etmiş bir bürokratiyanın idarə etdiyi vergi yığma və bunlardan istifadə iqtisadi fəaliyyətin ən önəmli yönünü təşkil etməkdədir.

Bu deyilənlərdən yola çıxaraq Polanyi, Aristotelin yaşadığı cəmiyyətdə (e.ə. IV əsr), iqtisadi münasibətlərin açıqlanmasında qarşılıqlılıq və yenidən bölgü prinsiplərinin müəyyənləşdirici olduğunu, fəqət mübadilə prinsipinin çox da önəmli olmadığını önə sürməkdədir. Dolayısilə, iqtisadi olanla siyasi olan iç-içə keçmişdir.

Əslində Aristotelin yaşadığı dövrdə Afinada bazarlar böyük əhəmiyyət qazanmaya başlamışdı. Aristotel də, buna paralel olaraq, qiymətin əmələ gəlməsi ilə bağlı düşünmüşdür. Fəqət bu düşüncə onu, bazarda yaranmış "təbii qiymət" yerinə dövlət tərəfindən süni olaraq müəyyənləşdirilmiş "ədalətli qiymət" (just price) prinsipinə aparmışdır. Yəni Aristotel zamanının "yenidən bölgü"çü və "simmetrik" praktik paradiqmasından hərəkətlə buna uyğun bir ideoloji norma ("ideal dövlət") formalaşdırmışdır. Bu norma da, siyasətin iqtisadi sahəyə müdaxilə etmədiyi bir liberalizm ideologiyasının təməlini təşkil edən mübadilə prinsipini rədd edirdi. İqtisadi münasibətlər tarixindən məlumdur ki, mübadilə önəmli hala gəlmə-

dikcə kapital yığımı, genişlənən təkrar istehsal prosesi başlaya bilməzdi.

# Alternativsizlik böhranı?![*]

*Natiq Sabiroğlu*

Dünya tarixi özünü əvəzedilməz və yeri doldurulmaz zənn edən insan, zümrə və qurum örnəkləri ilə doludur. Bu xüsusiyyətlərin paradiqmaların daxili quruluşundan irəli gəldiyini qeyd edən Thomas Kuhna görə, böhran dönəmlərində paradiqmalar qatı bir avtoritar şəklə bürünür. Hətta düşünür, bu avtoritar meyllərin müsbət olduğunu söyləməkdədir. Çünki bu meyllər yeni və daha üstün bir paradiqmanın doğuşunun xəbərçisidir. Özünü "müxalif" adlandıran paradiqma isə, həqiqətdə hakim paradiqmanın yerini ala biləcək daha yüksək səviyyəyə çatmadığı üçün müxalifətdədir. Fəqət müxalif paradiqmanın mövcudsuzluğundan üzülməyə dəyməz. Çünki gec-tez mövcud paradiqmanın yetərsizliklərini ortadan qaldıracaq daha təkmil bir paradiqma ortaya çıxacaqdır. Zamanın uzun və ya qısalığı isə biz insanların fiziki gücündən çox zehni səylərinə bağlıdır.

Ümumi olaraq sosial elmlərdə, xüsusilə də politologiya və iqtisad elmində yeni bir paradiqmanın köhnənin yerini ala bilməsi texnik elmlərə nəzərən daha çətindir. Bunun başlıca səbəbi, sosial fenomenlər dünyasında fərd, qrup və dövlətlərin mənfəətlərinin də işə qarışmasıdır. Buradakı paradiqma dəyişiklikləri, böyük ölçüdə və müsbət mənada, siyasi, sosial və iqtisadi inqilablarla eyni mənaya gəlməkdədir. Bu məqalədə paradiqma inqilabının çox çətin olduğu iqtisad elmindəki metod mübahisələri təklif-tələb yönü nöqteyi-nəzərdən təhlil ediləcəkdir.

Bilindiyi kimi, Klassik iqtisadçılar iqtisadiyyatın əsasən təklif tərəfinə daha çox əhəmiyyət verməkdə idilər. Bu feno-

---

[*] *20 yanvar 2006.*

men ən yaxşı şəkildə "Hər təklif öz tələbini yaradır" şəklində konspektləşdirilə bilən "Say Qanunu"nda ifadəsini tapmışdır. "Məxrəclər Qanunu" olaraq da bilinən bu qanuna görə, sərbəst bazar iqtisadiyyatında tələb yetərsizliyindən və ya ifrat istehsaldan dolayı geniş bir qeyri-iradi işsizliyin ortaya çıxması mümkün deyildir. Bir mal və xidmət istehsal edildiyi zaman sadəcə bir təklif yaradılmış olmamaqda, eyni zamanda, istehsal edilən mal və xidmət miqdarı qədər də bir tələb yaradılmış olmaqdadır. Dolayısilə iqtisadiyyatda məcmu tələb daima məcmu təklifə bərabər olacaq, əldə satılmayan mal və xidmət artığı qalmayacaqdır.

Klassik iqtisada alternativ olaraq ortaya çıxan Marksist iqtisad da təməldə təklif yönümlüdür. Karl Marx da, iqtisadiyyatda təklif tərəfinin tələb tərəfinə görə mütləq üstünlüyünü qəbul etməklə birlikdə, təklifin məhsuldar qüvvələri (ehtiyatları) baxımından Klassiklərdən ayrılmaqdadır. Belə ki, Marxa görə, istehsalın, eyni zamanda təklifin, yeganə əsas faktoru əməkdir. Və dəyəri yaradan bu əmək istismar edilməkdədir (Əmək-Dəyər Nəzəriyyəsi). Klassiklərin qəbul etdiyi digər istehsal faktorları (torpaq, kapital və təşəbbüs) da əmək olmadan mənasızdır. Belə ki, təşəbbüskar əmək istismarçısıdır, kapital isə daha öncə bu istismar nəticəsində yığılmış əməkdir. Dolayısilə, əmək bu günü, kapital da dünəni təmsil etməkdədir. Çünki Marksizmdə bütün kapital (dünən) əməyin bu günü və sabahı üçün istifadə edilməkdədir. Kapitalizmdə isə, əməyin (bu gün) məqsədi kapital yığımını (dünəni) artırmaqdır. Yəni Marksizm mütərəqqi, kapitalizm isə mürtəcedir. Qısacası Marksizm kapitalizmi öz silahı ilə vurmuşdur.

Bu zərbə Klassikləri yeni arayışlara yönəltmişdir. Bu proses, 1870-ci illərdə iqtisadiyyatın tələb tərəfinə üstünlük verən marjinalizm (Neo-Klassik Model) axımının (Walras, Jevons, Menger və s. öndərliyində) ortaya çıxışına səbəb olmuşdur. Bi-

lindiyi kimi, marjinalistlər qiymətin əmələ gəlməsində fərdi faydaya istinad edirdilər. Bu düşüncə qiymətin yaranmasında təklif yönünü, dolayısilə əməyin istismarını arxa plana keçirməkdə idi. Ayrıca bu dönəmdə iqtisad elmində riyazi düstur və modellərin geniş bir şəkildə istifadə edilməsiylə (burada xüsusilə, Jevons, Walras, Pareto və Edgeworthun önəmli rolları olmuşdur) konkret kapitalist-əmək istismar münasibətlərinin yerini məcazi modellər almışdır.

Klassiklər Marksizmin nəzəri təməllərini tam olaraq sarsdıqları sırada, bu dəfə də əsas önəmi iqtisadiyyatın tələb yönünə verən Keynesçi sistem (1930-cu illərdə John Maynard Keynes) ortaya çıxdı. İki sistem də tələbə əsas əhəmiyyəti verməklə bərabər, Keynesçilər tələbi idarə etmə və tənzimləmə işini sərbəst bazara deyil, dövlətə buraxmaqda idilər. 1929 Böyük Dünya Böhranının ortaya çıxması və böhrandan çıxışda klassik reseptlərin yetərsiz qalması və məcazi riyazi modellərə ən az Klassiklər qədər önəm verməsi, bir mənada kapitalist və marksist sistemin sintezi olan, Keynesçi sistemin ümumi olaraq hər kəs tərəfindən qəbul edilməsini təmin etmişdir. Qısacası bu dəfə də Keynesçilər Klassikləri öz silahı ilə vurdular.

Nəhayət bütün bu metod mübahisələri 1970-ci illərdə yenidən iqtisadiyyatın təklif yönünə ümumi üstünlüyü verən Yeni Neo-Klassik Modellərin (Monetarizm, Təklif Yönlü İqtisad, Rasional Gözləntilər, Konstitusion İqtisad və s.) ortaya çıxması ilə, hələlik, nəticələndi. Fəqət iqtisadi artımda texnologiyanı endogen olaraq ələ alan bu modellər dövləti tamamən bazarın xaricində təsəvvür etməməkdə, tam əksinə, uyğun hökumət politikalarının əhəmiyyətini (xüsusən Robert Barro) də vurğulamaqdadırlar.

Günümüzdə mübahisəsiz bir üstünlüyə sahib olan və keçərli ideologiyaları (liberal-demokratiya və sosial-demokratiya) da formalaşdıran bu sistemə çıxacaq alternativi böyük ma-

raqla gözləyirik. Çünki alternativsizlik kvant fəlsəfəsinin ruhuna da ziddir.

# Gəlirlərin formalaşması və yoxsulluq problemi*

*Əkbər Eldaroğlu*

İsveçrənin Davos şəhərində 2001-ci ilin yanvar ayında Dünya İqtisad Forumu (WEF) tərəfindən keçirilən ənənəvi illik toplantıda Forum tərəfindən hazırlanan raport açıqlandı. Raporta görə son beş ildə Türkiyə iqtisadiyyatı 1999-cu ildəki zəlzələyə baxmayaraq Ümumi Daxili Məhsulda (ÜDM) illik ortalama olaraq 6.5 faizlik artıma nail olmuşdur. Eyni zamanda raportda, Beynəlxalq Valyuta Fondunun proqnozlarına dayanaraq gələcək 10 il içərisində bu rəqəmin ortalama olaraq 5.5 faiz olacağı (yəni, Avropa Birliyindən iki dəfə artıq) qeyd edildi.

Azərbaycanda isə 2000-ci ilin sosial-iqtisadi göstəriciləri ÜDM-də 11.4 faiz artım olduğunu göstərir. Yuxarıdakı artım templəri ilə müqayisə olunduqda Azərbaycanın daha yüksək inkişaf tempinə nail olduğu söylənilə bilər. Lakin əvvəlki illərdəki ciddi tənəzzüldən sonra 2000-ci il üçün ÜDM-dəkı 11.4 faizlik artım əhalinin yaşayış standartlarında da bənzər bir artım yarada bilirmi?

Bu suala cavab vermək üçün hər şeydən əvvəl Azərbaycanda gəlirlərin bölüşdürülmə formasına baxmaq lazımdır. Gəlirlərdəki artım əhalinin daha az bir qrupunu əhatə edirsə, bu xalqın ümumi həyat səviyyəsinin yüksəlməsini təmin edə bilməz.

Statistik materialların təhlili Azərbaycanın iqtisadi reallığını düzgün əks etdirmir. 2000-ci ilin statistikasına görə, Azərbaycanda adam başına orta hesabla təqribən 600 ABŞ dolları

* *15 mart 2001.*

həcmində ÜDM düşür. Əgər bu ÜDM-un tamamı şəxsi istehlaka yönəlsə belə (baxmayaraq ki, ÜDM-un hamısı şəxsi istehlaka yönəlmir), yenə də əsas maddi tələbatın ödənilməsinə kifayət eləməz. Təxmini hesablamalar isə, orta illik gəlirin rəsmi statistikada göstərilənlərdən 3 dəfə artıq olduğunu ortaya qoyur. İnsanların fiziki varlığını sürdürməsi və təkrar iş qüvvəsinin bərpası baxımından bu rəqəm daha inandırıcı görünür.

Yenə də qeyri-rəsmi hesablamalara görə Azərbaycanda bütün mənbələr üzrə əldə olunan gəlirlər 11-12 milyard ABŞ dolları təşkil edir ki, bunun da 1 milyard dollara yaxın bir hissəsi dövlət büdcəsi vasitəsilə 2 milyondan artıq insanın (təqaüdlər və sosial müavinətlər də daxil olmaqla) pul gəlirlərini formalaşdırır. Bu da ölkədə yaradılan gəlirin təqribən 8 faizinin əhalinin təqribən 25 faizi arasında paylaşdığını göstərir. Azərbaycanda gəlirlərin bölüşdürülməsində bir maraqlı cəhət də ondan ibarətdir ki, ən optimist hesablamalarda da ölkə əhalisinin 20 faizinin ümumi gəlirlərinin 80 faizini, 80 faizinin gəlirlərin 20 faizini mənimsədiyi göstərilir.

2000-ci ildə Azərbaycanda orta aylıq əmək haqqı təqribən 46 ABŞ dollarına bərabər olmuşdur. İstehlak səbətinin 350-390 min manat (təqribən 85-90 ABŞ dolları) olduğu nəzərə alınarsa, əhalinin rəsmi pul gəlirlərinin istehlak səbətinin təqribən 50 faizini təşkil etdiyini söyləmək mümkündür. Bütün ölkələrdə o şəxs və ya ailə yoxsul hesab olunur ki, onun pul gəlirləri əsas tələbatını ödəməyə kifayət etmir. Analoji olaraq bunu Azərbaycana tətbiq eləsək, gəlirləri dövlət büdcəsindən formalaşan insanların 90 faizindən yuxarısı yoxsulluq kateqoriyasına aid edilməlidir. Azərbaycanda ortalama olaraq bir ailənin dörd nəfərdən ibarət olduğu nəzərə alınarsa, vəziyyətin daha da kritik olduğu ortaya çıxar.

Bu gün Azərbaycanda əhalinin normal yaşayış səviyyəsinə sahib olduğunu iddia edənlər ya rəsmi statistik rəqəmlərin

reallığı düzgün əks etdirmədiyini, ya da ölkədə korrupsiya ilə müşahidə olunan gizli iqtisadiyyatın miqyasının böyük olduğunu etiraf etməlidirlər.

Təsadüfi deyil ki, "International Transparency" bir neçə ildir ki, Azərbaycanın korrupsiyaya qurşanmış ölkələrə liderlik etdiyini açıqlayır. Eyni zamanda Dünya Bankının bir mütəxəssisinin bankla birlikdə apardığı tədqiqatın nəticələrində də siyahıya Azərbaycan və Bolqarıstanın liderlik etdiyi qeyd edilir və bunun Azərbaycanda yüksək rütbəli dövlət məmurları tərəfindən himayə olunduğu göstərilir.

Yuxarıda sadalananlardan belə qənaətə gəlmək olar ki, Azərbaycanda 2000-ci ildə (əvvəlki illər də daxil olmaqla) iqtisadi inkişafın artım sürəti yaxın gələcəkdə də əhalinin həyat səviyyəsində köklü irəliləyiş yarada bilməyəcək. Bu olsa-olsa əhalinin pul gəlirlərinin istehlak səbətinə yaxınlaşması ilə səciyyələnəcək.

Qısası, Azərbaycanda yoxsulluğun azalması üzrə dövlət proqramının qəbul edilib həyata keçirilməsinə ehtiyac var. Bununla bağlı hökumət layihə hazırlayır və Beynəlxalq Valyuta Fondu missiyasının martın axırında Bakıya səfəri zamanı müzakirə ediləcəyi gözlənilir. Proqrama gəlirlərin artırılması ilə yanaşı, ətraf mühitin, su təchizatı və kanalizasiya sistemlərinin, səhiyyə xidmətlərinin, təhsilin yaxşılaşdırılması və s. məsələlərin həllinin də daxil ediləcəyi dövlət rəsmiləri tərəfindən bildirilir. Qeyd edilməlidir ki, struktur islahatları həyata keçirilmədən qəbul ediləcək belə proqramlarla nəticə əldə etmək mümkün deyil.

# Struktur islahatları və idarəetmə sistemi*

*Əkbər Eldaroğlu*

Bu gün Azərbaycanda struktur islahatlarının yenidən müzakirəyə çıxarılması Beynəlxalq Valyuta Fondu, Dünya Bankı və Avropa Şurasının ölkədə struktur islahatlarının aparılmasına dair təkidli çağırışları ilə əlaqədardır. Mart ayının sonunda Beynəlxalq Valyuta Fondunun missiyasının Azərbaycana növbəti səfəri olacaq. Səfər 2001-2003-cü illərdə Azərbaycanın iqtisadi və maliyyə siyasəti proqramının son variantı, həmçinin Azərbaycanda yoxsulluğun azaldılması proqramı ilə tanışlıq məqsədi daşıyır. Səfər zamanı ekspertlər perspektiv proqramda əksini tapmış yoxsulluqla mübarizə, dövlət strukturu, həmçinin finans və bank sektorunda islahatlarla bağlı tədbirlərin səmərəliliyini müəyyənləşdirəcəklər.

Lakin, sadəcə bu qurumların tələblərinə görə deyil, ümumiyyətlə sərbəst bazar iqtisadiyyatına keçid dövrünü yaşayan Azərbaycanda hökumət bu sistemə uyğun idarəetmə strukturunu formalaşdırmağa məcburdur. Sərbəst bazar iqtisadiyyatı yolu ilə inkişaf edən ölkələrin təcrübəsi göstərir ki, dünyada bu və ya digər formada siyasi sistem, dövlət quruluşu və hökumətin iqtisadiyyata müdaxiləsinin məzmununu düzgün formalaşdıra bilməyən heç bir ölkə yüksək iqtisadi inkişaf səviyyəsinə nail ola bilməyib. Hüquqi dövlət prinsipinə söykənən demokratik sistemin iqtisadi yüksəlişi təmin edən ən mükəmməl və dinamik sistem olduğu qəbul edilməkdədir. Lakin buna baxmayaraq dünyada hətta avtoritar siyasi sistemlərin də iqtisadi inkişaf üçün əlverişli iqtisadi mühiti yaratdıqları müşahidə edilmişdir. Bu gün avtoritar idarəetmə sistemindən demokratik sistemə keçid dövrünü yaşayan Azərbaycanda iq-

* *22 mart 2001.*

tisadi inkişaf üçün sadəcə siyasi sistemin sabitləşməsi yetərli sayıla bilməz. Bunun ardınca, Azərbaycanda hökumətin iqtisadiyyata müdaxiləsinin optimal nisbətinin müəyyənləşməsi və paralel olaraq iqtisadi artımın yüksək tempini təmin edən qurum və strukturların fəaliyyətinin təkmilləşdirilməsi tələb olunur.

Bəzi yeni qurum və strukturların iqtisadiyyatın inkişafına xidmət etmək üçün sadəcə formal şəkildə təşkil olunması iqtisadi yüksəlişi labüd prosesə çevirmir. Necə ki, Azərbaycanda son dövrlər Ümumi Daxili Məhsulun yarıdan çoxunu istehsal edən özəl sektora xidmət etməsi məqsədilə xüsusi strukturlar yaradılmışdır. Bu gün sərbəst bazar iqtisadiyyatı yolu ilə inkişaf edən ölkələrdə fəaliyyət göstərən Qiymətli Kağızlar Üzrə Dövlət Komitəsi, Fond Birjası, Əmlak Nazirliyi, Sahibkarlığa Kömək Fondu, Orta və Kiçik Sahibkarlığın İnkişafı Agentliyi və s. kimi qurumlar Azərbaycanda da təsis edilmişdir. Bununla bərabər son dövrlər sərbəst bazar iqtisadiyyatının tələblərinə cavab verməyən qurumların ləğv edilməsi istiqamətində də müəyyən addımlar atılmışdır. Xarici İqtisadi Əlaqələr Nazirliyi ilə Ticarət Nazirliyinin bazasında yeni nazirliyin yaradılması, Xidmət Konserni və Sənaye Ticarət Konserninin ləğv edilməsi və s. buna əyani misal ola bilər. Lakin bütün bunlara baxmayaraq 8 milyon əhalisi olan Azərbaycan nazirlik, baş idarə və komitələrin sayına görə dünyada aparıcı yerlərdən birini tutur. Bununla bərabər bütün müşavirə və təkliflərdə ölkə başçısı özünün statusu və strukturlarının təkmilləşdirilməsinə ehtiyac duyulan Nazirlər Kabinetinin qarşısında iqtisadiyyatının yeni idarəetmə prinsiplərinə uyğun idarə olunmasını və təşkilat strukturunun təkmilləşdirilməsi vəzifəsini qoyur.

Bu gün Azərbaycanda struktur islahatları adı altında təşkilat strukturu və fəaliyyəti bir-birini təkrar edən qurumların birləşdirilməsi istisna olmaqla, bəzi qurumların adlarının də-

yişdirilməsi, ləğv edilməsi və ya birinin digərinin nəzdində fəaliyyətinin təşkil olunması arzu olunan nəticəni verməyəcək. Məsələn, Vergilər Nazirliyi ilə Dövlət Gömrük Komitəsi Maliyyə Nazirliyinə birləşdirilərsə, bu addım onların iş performanslarına da müsbət təsir göstərəcəkmi? Doğrudur, bununla büdcə xərclərinə qənaət etmək mümkün ola bilsə də, bu qurumların fəaliyyətində ciddi bir dönuşun yaranacağı şübhəli görünür.

Azərbaycanda struktur islahatlarını bir neçə nazirlik və ya komitənin ləğvi və ya birləşdirilməsi ilə eyniləşdirmək olmaz. Əslində bu gün Azərbaycanda struktur islahatlarının prioritet istiqamətini mövcud iqtisadi idarəetmə sisteminin səmərəliliyinin artırılması təşkil etməlidir. Çünki, Uzaq Şərqi Asiya ölkələrinin də inkişaf təcrübəsi göstərir ki, fərqli iqtisadi sistem və struktura malik olan ölkələrin iqtisadi inkişafında sistemin quruluşundan daha çox idarəetmənin səmərəlilik dərəcəsi əhəmiyyətlidir. Bu isə, sərbəst bazar iqtisadiyyatının hüquqi, siyasi və mədəni mühitinin formalaşdırılması ilə mümkündür.

# Struktur reformlarını gecikdirmə limiti tükənib*

*İlkin Sabiroğlu*

Azərbaycanın müstəqilliyini qazanmasından bu yana struktur reformları əhəmiyyətinə görə ən aktual mövzulardan biri olma xüsusiyyətini bu günə qədər qoruyub saxlamışdır və uzun müddət də bu məsələ ətrafında müzakirələrin gedəcəyini asanlıqla proqnozlaşdırmaq mümkündür. Beynəlxalq Valyuta Fondunun (BVF) Azərbaycan hökuməti ilə birgə 1995-ci ildən həyata keçirdiyi proqram üzrə ilkin təklifləri sırasında makroiqtisadi stabilliyin təmin olunması, manatın kursunun stabilləşməsi, inflyasiyanın və büdcə kəsirlərinin minimuma endirilməsi və büdcənin gəlirləri ilə xərclərinin balanslaşdırılması, mülkiyyət münasibətlərinin transformasiyası ilə birlikdə struktur islahatlarının həyata keçirilməsi də yer almışdı. Lakin struktur reformları gecikdirildiyindən Azərbaycana ayrılan son kredit tranşı da verilmədi.

Bu gün artıq açıq şəkildə məlum olmuşdur ki, struktur reformları həyata keçirilmədən ən mükəmməl iqtisadi siyasətlərin tətbiqi belə (halbuki indiki şəraitdə bu imkanlar belə çox məhduddur) Azərbaycanda ciddi iqtisadi inkişafa nail olmağa imkan verməyəcəkdir. Lakin qeyd edilməlidir ki, qanunların mükəmməlliyindən daha çox onu icra edənlərin mükəmməlliyi zəruri olduğu kimi, idarəetmədə də islahatlar aparılmasa struktur islahatları formal xarakter daşıyacaq.

BVF ilə həyata keçirilməsi nəzərdə tutulan son proqramda struktur reformlarının əsası kimi dövlət idarəçiliyinin təkmilləşdirilməsi məsələsi xüsusi yer tutur. Ümumiyyətlə hökumət

---

* *29 mart 2001.*

qurumlarının səlahiyyətləri, onlara bağlı təşkilatlar, qərar vermə prosesi, iş prosedurası tamamilə yenidən ələ alınmalı və bu qurumlar yenidən strukturlaşdırılmalıdır. Dövlətin funksiyalarının nədən ibarət olduğunun yenidən açıqlanmasına ehtiyac olduğu bir dövrdə dövlət sektorunun bu yeni funksiyaya görə (bir çox sahədə sadəcə düzənləyici və nəzarət edici) reorqanizasiyası zərurət halını almışdır. Qeyd edilməlidir ki, korrupsiyaya qarşı ən səmərəli mübarizə metodu da dövlətin funksiyalarının yenidən gözdən keçirilməsi, struktur reformları çərçivəsində dövlət bürokratiyasının məhdudlaşdırılmasıdır. Bir çox ölkələrin təcrübəsi göstərir ki, dövlətin çəkisinin azaldığı yerdə korrupsiyanın səviyyəsi də azalır.

Azərbaycanda dövlət sektorunda səmərəliliyin və məhsuldarlığın artırılmasının yeganə yolu struktur reformlarından keçir. Struktur reformları içərisində əsas yeri isə şübhəsiz ki, dövlət xidmətlərinin idarə olunması və mərkəzi hökumətin təşkilatlanması, məmur çalışdırma, əmək haqqı, maaş və bənzər digər təşviq sistemləri ilə bağlı stuktur dəyişikliklərinə əhəmiyyət verəcək reorqanizasiya reformları tutmalıdır. Bunlar dövlətin maaş və əmək haqqı ödəmələri ilə məşğulluq siyasətinin yaxşılaşdırılması məqsədilə alınacaq və dövlət sektorunun həcmini və məsrəflərini məhdudlaşdırmağa yönəlik təcili tədbirlər paketindən təşkil olunmalıdır.

Bu sahədəki çatışmamazlıqları aşağıdakı kimi sinifləndirmək mümkündür:

- dövlət sektorunda çalışanların əksəriyyətinin məhsuldarlığı aşağıdır;
- verilən təşviqlər və motivasiyalar yetərsizdir;
- dövlət xidmətlərinin məsrəfləri yüksəkdir;
- əmək haqları çox aşağıdır;
- dövlət qurumlarının tələbatlarından artıq məmur çalışdırmaları səbəbindən toplam əməkhaqqı ödəmələri yüksəkdir.

Burada görülə biləcək əsas tədbirləri də aşağıdakı kimi sıralaya bilərik:

- işə yeni məmurun alınmasını müvəqqəti bir müddət üçün dayandırmaq;
- dövlət sektorundakı boş qalan iş yerlərini ləğv etmək;
- müəyyən bir xidmət müddətini doldurmuş məmurların təqaüdə çıxmasını təşkil etmək;
- təhsil qurumlarından dövlət sektoruna avtomatik keçişləri önləmək və s.

Əlavə və yardımçı texniki tədbirlər kimi aşağıdakı addımlar atıla bilər:

- məmurları "yetərlilik testi" adlanan imtahanlardan keçirmək;
- işini itirənlərin təhsil almalarına və yeni iş qura bilmələrinə yardımçı olmaq məqsədilə kredit proqramlarını həyata keçirmək;
- əməkhaqqı sistemini yenidən düzənləmək, sadələşdirmək, ən aşağı əmək haqqı ilə ən yuxarı əmək haqqı arasındakı fərqi yenidən nəzərdən keçirmək və əmək haqlarını artırmaq;
- işləyənləri məhsuldar ola bilmələri üçün bacarıqlarına və təcrübələrinə uyğun sahələrdə çalışdırmaq;
- üst səviyyəli idarəçilər üçün idarəçilik bacarıqlarını inkişaf etdirə biləcəkləri kursları təşkil etmək və s.

Sonda qeyd edək ki, hətta ən doğru və mükəmməl iqtisadi siyasi proqramlarının müvəffəqiyyət dərəcəsi də onları həyata keçirəcək olan qurumların gücü və məmurların bacarıq səviyyələri ilə məhdudlaşır. Dolayısı ilə, struktur reform tədbirləri, bu proqramları həyata keçirməli olan qurumların iş performanslarını artıraraq daha səmərəli və məhsuldar çalışmalarını təşkil edə biləcək tədbirləri də mütləq əhatə etməlidir.

# Mülkiyyətin toxunulmazlıq prinsipi pozulmaqdadır*

*Əkbər Eldaroğlu*

Son vaxtlar Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində abadlaşdırma işləri adı altında küçə ticarəti və ticarət köşklərinin yığışdırılması əməliyyatına başlanılmışdır. Bu həyata keçirilənlər zahiri əlamətlərinə görə təqdirəlayiq hesab olusa da əməliyyatlar eyni zamanda mülkiyyətin toxunulmazlıq prinsipinin kobud şəkildə pozulması ilə həyata keçirilir. Əvvəlcə qeyd olunmalıdır ki, paytaxtımızın mərkəzi meydanlarında heç bir gigiyenik normalara riayət olunmayan şəraitdə ərzaq məhsullarının satılması yolverilməzdir. Lakin icra orqanlarımızın bunu əlində rəhbər tutaraq Bakının bütün rayonlarında vətəndaşların uzun illərdən bəri rəsmi strukturların sərəncamı əsasında yaratmış olduqları iş yerlərini aradan qaldırması da yolverilməz hesab edilməli idi. Əgər doğrudan da bu günə qədər Bakı Şəhəri İcra Hakimiyyətinin bir əvvəlki rəhbərliyi tərəfindən verilmiş olan sərəncamlar qanunsuz xarakter daşıyırdısa, görəsən buna görə cinayət məsuliyyətinə cəlb edilən olubmu?

Artıq yeni merin paytaxtda apardığı "abadlaşdırma islahatları"nın davamı olaraq, paytaxtın bəzi rayonlarında qanunsuz tikilən evlərlə yanaşı rəsmi sənədləri olan villaların sökülməsi prosesi başlayıb. Bakı Şəhəri İcra Hakimiyyəti Mətbuat Xidmətindən bildirilir ki, bu binaların rəsmi sənədi olsa belə, onlar şəhərin ümumi arxitekturasına uyğun qaydada tikilməyib və yaxud elə ərazilərdə inşa edilib ki, seysmik və geoloji cəhətdən həmin ərazilərdə yaşayış binalarının tikilməsi qada-

---

* *19 aprel 2001.*

ğandır. Bu da ölkədə bu günə qədər qurulan istənilən inşaatın sökülməsi üçün kifayət qədər subyektiv əsasların formalaşmasına zəmin yaradır.

Görəsən abadlaşdırma islahatlarının növbəti qurbanları kimlər olacaq? Başqa bir ifadə ilə, ölkədə istehsala yeni qədəm qoyan xırda və orta müəssisələr "abadlaşdırma islahatları"nın növbəti hədəfinə çevrilməyəcək ki? Dünya ölkələrinin təcrübəsində qanunun nəzərdə tutduğu hallar istisna olmaqla xüsusi mülkiyyətin dövlətləşdirilməsi zamanı hökumətin bu mülkiyyət sahiblərinə kompensasiya ödəməsi nəzərdə tutulur. Eyni zamanda, ödənən kompensasiya mülkiyyətin həqiqi dəyərinə uyğun olmadığı təqdirdə, vətəndaşın məhkəmə vasitəsilə öz hüququnu bərpa etməsinə imkan verilir. Bu prinsip Azərbaycanda Mülkiyyətin Qorunması Haqqında Qanunda da öz əksini tapmışdır. Azərbaycan Respublikasının Mülkiyyət Qanununun 6-cı maddəsində göstərilir ki, qanunun nəzərdə tutduğu hallar istisna olmaqla, mülkiyyət sahibinin razılığı olmadan mülkiyyət haqqının ləğv edilməsinə icazə verilə bilməz. Ölkənin qarşılaşdığı təbii fəlakətlər və bəzi fövqəladə hallarda dövlətin rəsmi orqanlarının qanun çərçivəsində, mülkiyyət sahibinə mülkün dəyərini ödəyərək, mülkü ondan müvəqqəti və ya birdəfəlik almaq səlahiyyəti verilmişdir. Buna əməl olunmaması onu deməyə əsas verir ki, bu gün ölkədə hökumət kiçik biznes adamları ilə konfrontasiya vəziyyətindədir. Öz vətəndaşları ilə belə ziddiyyət halında olan bir sistemin iqtisadiyyatının inkişaf etməsi imkansızdır.

Qərbi Avropanın inkişaf təcrübəsini tədqiq edən iqtisadçı alim D.Nört bu ölkələrin inkişafında iki amilin əhəmiyyətli olduğunu irəli sürmüşdür.

1. Effektli iqtisadi təşkilatlanmanın formalaşdırılması;
2. Mülkiyyət hüquqlarının qorunması.

Sərbəst bazar iqtisadiyyatı yolu ilə inkişaf edən ölkələrin təcrübəsi göstərir ki, bu inkişaf ölkədə yüksək təşəbbüskarlıq ruhuna sahib olan vətəndaşlar tərəfindən həyata keçirilir. Dövlətin qarşısında duran əsas vəzifə isə, iş adamlarının mülkiyyət hüquqlarını qorumaq və eyni zamanda ölkədə təşəbbüskarlıq ruhunu yüksəltmək üçün əlverişli iqtisadi mühiti yaratmaqdır.

Lakin Azərbaycanda kiçik biznes adamlarına qarşı olan belə ədalətsiz münasibətin nəticəsidir ki, respublikadan Rusiya və Türkiyə iqtisadiyyatına yönələn kapitalın həcmi, həmin ölkələrdən respublikaya daxil olandan qat-qat yüksəkdir. Çünki hökumətin bu addımı vətəndaşlarda ona qarşı olan cüzi etimadın daha da sarsılmasına səbəb olmuşdur. Həmçinin ölkədə mülkiyyət hüquqlarının qorunmaması, iri layihəli investisiyaların həyata keçirilməsinə öz mənfi təsirini göstərə bilər. Digər tərəfdən qeyd edilməlidir ki, ölkə vətəndaşlarının gələcəklərinin təminat altında olduğuna inanmaları həmin ölkədə siyasi stabilliyin başlıca qarantiyası sayılır. Mülkiyyət hüquqlarının tanınması da bu təminatın tərkib hissəsidir.

Nəticə olaraq deyə bilərik ki, hökumətin itirmiş olduğu etimadı yenidən qazanması onu itirdiyi qədər asan olmayacaq.

# Özəlləşdirmə sonrası iqtisadi təhlükəsizlik problemi*

*Əkbər Eldaroğlu*

2001-ci il mart ayının 22-də Azərbaycan Respublikası dövlət başçısının sərəncamı ilə, ölkədə aparılan özəlləşdirmə islahatları yeni mərhələyə qədəm qoymuşdur. Dövlət başçısının imzaladığı sərəncama əsasən "Azərkimya Dövlət Şirkəti", "Biyan" İstehsalat Birliyi, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin, Azərenerji və Azəriqaz Səhmdar Cəmiyyətlərinin, həmçinin neftkimya və neftmaşınqayırma sənayesinin bir sıra müəssisələri özəlləşdirməyə açılmışdır. Bu müəssisələrin əksəriyyəti investisiya müsabiqəsi yolu ilə, institut proqramının 16.4 bəndinə uyğun olaraq (profil saxlamaq şərti ilə kiçik müəssisə və ya orta və iri müəssisə), qalan müəssisələr isə qanunvericilikdə nəzərdə tutulan üsullarla özəlləşdiriləcək. Dövlət əmlakının investisiya müsabiqəsi yolu ilə özəlləşdirilməsi üçün investisiya proqramının yerinə yetirilməsi tələb olunur. Bunun üçün tələb olunan şərtlər dövlət başçısı və dövlət əmlak naziri tərəfindən müəyyən edilir. İnvestisiya müsabiqəsinə özələşdirilən müəssisənin səhm paketinin 51 və ya daha çox hissəsi çıxarılır. Müəssisənin səhmlərinin qalan hissəsinin satış nisbəti və bölgüsü dövlət başçısının və dövlət əmlak nazirinin müvafiq qərarında göstərilir.

Bununla bərabər, özəlləşdirmədə yerli investorlarla yanaşı, xarici investorların da iştirakına icazə verilib. Lakin Azərbaycanda özəlləşdirmə prosesinə cəlb edilən xarici investorların özəlləşdirmədə iştirak edə biləcəkləri sahələr və özəlləşdirmədə iştirak payları hələ də müəyyənləşdirilməyib. Azərbaycan-

---

* *26 aprel 2001.*

da iri müəssisələrin özəlləşdirilməsində xarici investorların iştirakı mühüm yer tutmuşdur. Bu günə qədər xarici investorlar 50-dən çox müəssisənin səhmlərini əldə etmişdir. Eyni zamanda birinci mərhələdə xarici investorlar tərəfindən 18 milyon ədəd opsionların satın alınması, onların özəlləşdirmə prosesində iştirak etmək marağında olduqlarına əyani sübut kimi göstərilməlidir.

Özəlləşdirmənin açıqlığı ölkəyə xarici kapitalın axınına və investisiyaların canlanmasında ciddi rol oynaya bilər. Bu gün bütün ölkələr xarici investisiyalar uğrunda rəqabət mübarizəsi aparmaqdadırlar. Lakin bu prosesin tamamilə nəzarətsiz şəkildə həyata keçirilməsi ölkə iqtisadiyyatının bilavasitə xarici ölkələrin təsiri altına düşməsi təhlükəsini yarada bilər. Bu eyni zamanda ölkədə iqtisadi inkişafın xarici dinamiklərdən asılı olduğu son dərəcə təhlükəli bir vəziyyətin yaranması ilə nəticələnir. Belə təhlükənin qarşısını almaq üçün hökumət xarici investorların özəlləşdirmə prosesində iştirakına ciddi nəzarət etməli, eyni zamanda xarici investorların iştirakı nəzərdə tutulmayan sahələr (strateji müəssisələr, hərbi sənaye kompleksinə aid olan sahələr, təbii inhisarlar və s.) qabaqcadan hökumət tərəfindən müəyyənləşdirilməlidir.

Dünya ölkələrinin təcrübəsinə görə, özəlləşdirmə prosesində xarici investorların iştirakı həmişə dövlətin ciddi nəzarəti altında həyata keçirilmişdir. Avropa Birliyi ölkələrində xarici investorların özəlləşdirmədə iştirak payı 25 faizlə məhdudlaşdırılmaqla yanaşı, qanunvericilik səviyyəsində onların iştirakını qadağan edən iqtisadi fəaliyyət sahələri də müəyyən edilmişdir. Bundan başqa dünyanın bir çox ölkələri iqtisadiyyatın mühüm strateji sahələrinin, xüsusilə hərbi sənaye kompleksinin və təbii inhisar sahələrinin özəlləşdirilməsində xarici investorların iştirakını belə məqsədəuyğun hesab etməmişlər.

22 martda Azərbaycan Respublikası dövlət başçısı tərəfindən imzalanan sərəncamla özəlləşdirmə prosesində xarici investorların iştirakına icazə verilsə də, qanunvericilik səviyyəsində onların iştirakını məhdudlaşdıran sahələr müəyyən edilməyib. Özəlləşdirilmədə xarici kapitalın rolu düzgün qiymətləndirilməsə, bu Azərbaycan iqtisadiyyatını iqtisadi təhlükəsizlik problemi ilə üzləşdirə bilər.

Unutmayaq ki, Azərbaycanla Ermənistan arasındakı münaqişə ilə bağlı hazırkı "nə hərb, nə də sülh" vəziyyəti uzun müddət davam edə bilməz. Bu gün Azərbaycanın işğal olunmuş torpaqlarını hərb yolu ilə azad etmək variantı istisna edilməməkdədir. Belə bir vəziyyətdə, ikili standartların hökm sürdüyü dünyada, Azərbaycan üçün bu problemin nə qədər əhəmiyyətli olduğu nəzərdən qaçırılmamalıdır. Müharibənin yenidən başlayacağı təqdirdə, həmin xarici investorların təmsil etdikləri dövlətlərin Azərbaycanın haqlı mübarizəsində tutacaqları mövqe qeyri-müəyyəndir. Nəzərə alaq ki, həmin dövlətlərin tutacağı mövqe bu investorların da Azərbaycandakı fəaliyyətinə birbaşa təsir göstərə bilər. Buna görə də, Azərbaycan hökuməti özəlləşdirmə prosesində ölkənin iqtisadi təhlükəsizlik problemini hər zaman diqqət mərkəzində saxlamalıdır.

# İnsan və xarici kapital*

*Natiq Sabiroğlu*

*İnvestorlar Azərbaycana sadəcə altında neft olan torpaq parçası kimi baxırlar*

Nəhayət, çox gözlənilən Birləşmiş Millətlər Ticarət və İnkişaf Konfransının (UNCTAD) 2003-cü il Beynəlxalq İnvestisiya Raportu açıqlandı. Raportda diqqəti ən çox cəlb edən ölkə İrlandiya oldu. Belə ki, 5 milyon əhalisi olan bu ölkə adı çəkilən raporta görə, son on ildə 157 milyard ABŞ dolları həcmində birbaşa xarici investisiya cəlb edib (müqayisə üçün qeyd edək ki, xarici investisiyaların həcmi ilə çox öyünən Azərbaycan iqtisadiyyatına son 5 il ərzində cəmisi 6,5 milyard dollar birbaşa xarici investisiya qoyulub). 90-cı illərin əvvəllərinə nəzər saldıqda İrlandiyada bu rəqəm, təxminən yüz qat az olub. O zaman İrlandiya Avropa Birliyi içində Yunanıstan, İspaniya və Portuqaliya ilə birlikdə ən az inkişaf etmiş dörd ölkədən biri sayılırdı. Elə isə bu sıçrayışın səbəbi nədir?

Burada ən çox gözə çarpan insan amilidir. İnsana verilən əhəmiyyətdəki artış neoliberal iqtisadi siyasətlərin geniş şəkildə istifadə olunmasına yol açdı. İrlandiyada görülən ən maraqlı hadisə, bu ölkənin klassik infrastruktura, demək olar ki, heç əhəmiyyət verməməsidir. Burada klassik infrastruktur dedikdə, yollar, su, elektrik şəbəkələri və s. kimi sabit investisiyalar nəzərdə tutulur. Lakin UNCTAD-ın yeni infrastruktur anlayışında üç əsas sahə var: təhsil, səhiyyə və ətraf mühit. Yenə BMT-nin yeni olan İnsan İnkişafı İndeksində ölkədəki insanların ortalama təhsil səviyyəsi, səhiyyə sisteminin inkişaf səviyyəsi və insanların fizioloji, sosial və özünü inkişaf etdirməsinə yetəcək gəlir səviyyəsi kimi üç əsas meyar nəzərə alın-

---

*18 sentyabr 2003.*

maqdadır. İrlandiya, 90-cı illərin əvvəllərindən başlayaraq məhz təhsilə verdiyi önəmi artıraraq, buna nail olub. Ölkə bir növ əzbərçi, standart və kütləvi təhsil sisteminin yerinə atipik (standart olmayan) insanlar yetişdirməyə yönələn, fərdlərin bilik və qabiliyyətini ön plana çıxaran təhsil sistemini gətirməklə inqilab edib. Əhalinin az olması, İrlandiyaya klassik infrastrukturu arxa plana atmaqda kömək edib.

Bu investisiya həcminə çatmaqda başqa amillər də rol oynayıb. Burada bir zamanlar İrlandiyadan Amerikaya köçmüş və orada böyük sənaye təsislərini qurmuş irlandların varlığı, çox mükəmməl və liberal xarici investisiya qanununun olması, praktikada çox ciddi təşviqlərin (5-10 il arası vergidən azad olunmalar, pulsuz torpaq təmini, banklardan xarici kapitala dövlət təminatı ilə ucuz kreditlərin verilməsi, bəzi az inkişaf etmiş bölgələrdə fabriklərin dövlət tərəfindən tikilib xarici investorlara verilməsi və s.) həyata keçirilməsinin rolu olub. Eyni zamanda gəlir transferindəki çətinliklərin aradan qaldırılması, gəlir vergilərinin azaldılması da bunlara aiddir. Ayrıca, Beynəlxalq Arbitraj Məhkəməsini qəbul etməklə İrlandiya xarici investisiyaya dövlətüstü bir təminat mexanizmini gətirmiş oldu. Artıq Avropa İttifaqına girmək istəyən xarici kapitalın (xüsusən, Amerikan mənşəli) üçdə birindən artığının İrlandiyaya baş çəkdiyini görürük. Bütün infrastrukturlar bir tərəfə qoyularaq, təhsil sistemində köklü inqilabi dəyişikliklərə verilən əhəmiyyətin ölkəni nə qədər inkişaf etdirdiyinin şahidi oluruq.

Azərbaycanın İrlandiyadan götürəcəyi dərslər çoxdur. Azərbaycan artıq anlamalıdır ki, sadəcə bol yeraltı və yerüstü təbii sərvətlərə malik olmaq həqiqi zənginlik deyil. Yəni ucuz işçi qüvvəsinin olması xarici kapital üçün elə də cəlbedici faktor sayılmır. İrlandiya təbii sərvətlər baxımından o qədər də zəngin bir ölkə deyil. Xarici kapital da ucuz işçi qüvvəsindən

çox təhsil səviyyəsi yüksək, keyfiyyətli və nisbətən orta qiymətli işçi qüvvəsini tələb edir. Bunu biz Cənubi Koreya misalında da açıqca görürük.

Azərbaycan artıq yer altı təbii sərvətlərinə deyil, yerüstü sərvətlərinə, yəni insanlarına əhəmiyyət verməlidir. Nə qədər ki, neftimizin çox olması ilə öyünürük xarici kapital da bizə üzərində insanların insan kimi yaşamaq haqqına sahib olduğu bir ölkə kimi deyil, altında neft olan torpaq parçası kimi baxacaq.

# Neft üzərində qurulan iqtisadiyyat*

*Natiq Sabiroğlu*

Sovet iqtisadi inkişaf konsepsiyası ağır emalat sənayesinə dayanırdı. Azərbaycanda da inkişaf edən sektorlar neft, ağır emalat, tikinti və yeyinti sənayeləridir. Başqa "inkişaf edən" bir iqtisadi sahə də, Çin, Türkiyə, İran, Rusiya, Birləşmiş Ərəb Əmirlikləri və s. kimi inkişaf etməkdə olan ölkələrdən vergisi ödənilmədən ölkəyə gətirilən orta keyfiyyətli malların ticarətidir.

Məlum olduğu kimi, iqtisadiyyatda dörd əsas sektor var: Sənaye, ticarət, kənd təsərrüfatı və xidmətlər. Hazırda dünyanın inkişafında ən böyük paya sahib olan sektor xidmətlər sektorudur. Belə ki, ABŞ-da ümumi məşğulluq səviyyəsinin 80 faizi məhz bu sektorun payına düşməkdədir. Təəssüf ki, bizdə xidmətlər sektoru dedikdə tikinti sənayesi başa düşülür. Halbuki, bilgi çağının təməlini qoyan informasiya və kommunikasiya texnologiyaları (İKT) da xidmətlər sektoruna daxildir. Qeyd edək ki, 1999-cu ildə 2,1 trilyon dollar olan global İKT xərclərinin 2003-cü ildə 3 trilyon dollara yüksələcəyi proqnozlaşdırılır. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, fabrik və zavodlarda sadəcə yüksək texnoloji infrastrukturun tətbiqi də yetərli deyil. Məqsədə çatmaq üçün eyni zamanda iqtisadi mentalitet və anlayış dəyişikliyi də zəruridir. Bizdəki məmur burjuaziyasının sovet iqtisadi düşüncə tərzilə yeni texnologiyaları tətbiq etməsinin bir səmərəsinin olmayacağı aydındır. Elə isə nə etməli?

Oxuma-yazma nisbətinin 98 faiz olduğu ölkəmizdə, əhalinin potensialından neft və tikinti sənayeləri kimi fiziki əmək tələb edən geri qalmış sahələrdəmi istifadə etməliyik, yoxsa

---

* *1 oktyabr 2003.*

bu gənc və dinamik əhalinin təhsil səviyyəsini yüksəldib, bilgi və qabiliyyətini artırıb, informasiya və kommunikasiya texnologiyalarını istifadə edə biləcək səviyyəyəmi gətirməliyik. Müqayisə üçün qeyd edək ki, Hollandiya əhalisinin 20 faizi magistr təhsili alıb. Yaponiya, Azərbaycanın Ümumi Daxili Məhsulundan təhsilə ayırdığı nisbi paydan daha çox qismini, yəni ÜDM-nin 3 faizini innovasiya sahəsinə yönəldir.

Rəsmi qeydə alınmayan, 300 min işsizin olduğu respublikamız artıq ekocoğrafi əhəmiyyətə malik mövqeyə keçməlidir. Burada ekocoğrafi dedikdə, üzərində təhsil səviyyəsi yüksək, bilgili, qabiliyyətli, dinamik və təşəbbüskarlıq ruhu yüksək olan zehni əməklə məşğul gənclərin yaşadığı, Avropa və Asiya bazarları arasında körpü rolunu oynaya biləcək bir ölkə mövqeyini nəzərdə tuturuq.

Unutmayaq ki, indi iqtisadiyyatımızda inkişaf edən sahələr əsasən ekoloji cəhətdən ən zərərli olan sahələrdir. Əgər neftə söykənən sənayeləşmə yolunu seçəcəyiksə 40 ildən sonra neft bitdiyi zaman Azərbaycan, üzərində insanların yaşaya bilməyəcəyi çölə dönmüş olacaq. Halbuki informasiya və kommunikasiya investisiyaları təbiət dostu, ekoloji cəhətdən təmiz, yaşıl texnologiyaların tətbiq edilməsini zəruri edir. Burada təkrar istehsal böyük əhəmiyyətə malikdir. Yəni bir sahənin tullantıları digər bir sahənin xammalını təşkil edir.

Bilgi çağına keçmə yolunda 40 il daha ləngiməyə haqqımız yoxdur. Artıq fiziki əmək potensialımızı intellektual potensiala çevirməyin zamanıdır. Avtomobil sənayesi belə inkişaf etmiş ölkələrdə ömrünü tamamlamış iqtisadi sektor sayılır. Məsələn, "Mercedes" firması artıq Almaniyadakı istehsalını azaldıb Türkiyə kimi inkişaf etməkdə olan ölkələrdə fabriklər açmağa yönəlib, İtaliyanın məşhur "FIAT" firması iqtisadi böhran içindədir. Bütün bu tendensiyaları görərək, hələ də neftin ölkəmiz üçün parlaq gələcəyindən bəhs etmək absurddur.

# Tədiyyə balansının müasir vəziyyəti*

*Əfsun Ələkbər*

Respublikamızda tədiyyə balansının strukturunun optimallaşdırılması, onun tənzimlənməsi əsas makroiqtisadi problemlərdən biridir. Bununla yanaşı əksər makroiqtisadi göstəricilər məhz bu informasiya mənbəyində cəmləşdiyindən hökumətin iqtisadiyyat sahəsində apardığı islahatların nəticəsi öz əksini bu sənəddə tapır.

Müstəqil ölkə kimi Azərbaycanın xarici iqtisadi fəaliyyəti 1991-ci ildən formalaşmağa başlamışdır. Bu dövrə qədər bütün iqtisadi siyasət mərkəzi Moskva hökuməti tərəfindən həyata keçirilirdi. Buna görə də bütün sabiq müttəfiq Respublikalarda, o cümlədən Azərbaycanda xarici iqtisadi fəaliyyətin uçotu və statistikası aparılmırdı.

Yalnız 5 ildən bir Azərbaycan Dövlət Statistika İdarəsi tərəfindən sahələrarası balans hazırlanırdı ki, burada da Azərbaycandan çıxarılan və gətirilən malların statistikası verilirdi. Azərbaycan Respublikasının keçmiş SSRİ tərkibində axırıncı dəfə sahələrarası balansı 1987-ci ildə hazırlanmışdır.

1991-ci ildən etibarən Azərbaycan Respublikası müstəqil xarici iqtisadi fəaliyyət həyata keçirməyə başladı. Həmin ildən etibarən Beynəlxalq Valyuta Fondu (BVF) nəşriyyatı tərəfindən hər il Azərbaycan Respublikasının tədiyyə balansı dərc olunur. Məlumat üçün qeyd edək ki, Azərbaycan Respublikasının tədiyyə balansını Dövlət Statistika Komitəsinin, Dövlət Gömrük Komitəsinin, bank statistikasının və digər nazirlik və təşkilatların məlumatlarına əsasən Azərbaycan Respublikasının Milli Bankı işləyib hazırlayır.

* *5 avqust 2004.*

Qeyd etmək lazımdır ki, BVF-nin İnkişaf Etməkdə Olan Ölkələrə tövsiyə etdiyi tədiyyə balansı 120-dən artıq maddədən ibarətdir. Lakin Azərbaycanda bu sənəd tərtib olunarkən göstərilən sxemdən kənara çıxmalara yol verilir.

Ümumiyyətlə, hər hansı bir ölkənin tədiyyə balansı nəzərdən keçirilərkən ilk növbədə onun birinci bölməsi cari əməliyyatlar balansının tərkib hissəsinə - ticarət balansına baxılır. Lakin qeyd etmək lazımdır ki, tədiyyə balansına ticarət balansının o hissəsi daxil edilir ki, faktiki olaraq ödənişlər ya edilib, ya da tezliklə ediləcəkdir.

2003-cü ilin yekunlarına əsasən xarici ticarət dövriyyəsi 5347.2 milyon ABŞ dolları təşkil etmiş və bu 2002-ci ilin müvafiq göstəricisindən 29.5 faiz çoxdur. İdxal edilmiş məhsulların həcmi isə 2624.5 milyon dollar təşkil etmişdir.

İxracın strukturunda yenə də istehsal təyinatlı yanacaq-xammal ehtiyatları mühüm yer tutur və onların payına ümumi ixracın 85.7 faizi düşür. İdxal olunmuş malların strukturu isə ixracın strukturundan köklü surətdə fərqlənir. Belə ki, neft kontraktları ilə bağlı idxal malları istisna olmaqla, ümumi idxal malları içərisində ərzaq mallarının payı 44.2 faiz təşkil edir.

Fikrimizcə, ticarət balansındakı mənfi saldonun yaranmasının əsas səbəbləri kimi aşağıdakıları qeyd etmək olar:

1. İstər xarici ticarət əməliyyatlarının strukturunda, istərsə də artım tempi ilə bağlı disproporsiyaların ortaya çıxma səbəblərindən ən əsası kimi xarici ticarətlə bağlı vahid konsepsiyanın işlənib hazırlanmamağıdır. Bu da öz əksini ticarət əlaqələrinin düzgün qurulmamağında, müqavilə şərtlərinə əməl olunmamağında tapır. Son zamanlar avro-dollar paritetində baş verən hadisələrin ölkənin valyuta-kredit siyasətindən sərf nəzər edilməsini də ticarətin vəziyyətini pisləşdirən əsas amillərin sırasında göstərmək olar.

2. İdxal-ixrac əməliyyatlarında barter qaydasında aparılan hesablaşmaların xüsusi çəkisinin hələ də yüksək olması. Barter əməliyyatlarının xüsusi çəkisi hələ də nəzərəçarpacaq dərəcədədir və 20 faiz təşkil edir.

Cari əməliyyatlar balansının ikinci əsas ünsürü xidmətlər balansıdır. Bu xidmətlərin ümumi məbləği 2003-cü ildə 3025.8 milyon ABŞ dolları təşkil etmişdir. Hesablamalara görə qeyri-rezidentlər tərəfindən Azərbaycanın hüquqi və fiziki şəxslərinə 2541.2 milyon ABŞ dolları məbləğində xidmət göstərildiyi halda, Azərbaycanın xarici ölkə rezidentlərinə göstərdiyi xidmətlərin dəyəri cəmi 484.6 milyon dollar olmuşdur. Beləliklə, xidmətlər balansının saldosu mənfi 2056.5 milyon ABŞ dolları olmuşdur. Xidmətlər balansı kəsirinin də belə yüksək olmasının əsas səbəbi beynəlxalq neft kontraktları çərçivəsində xarici dövlətlərin rezidentləri ilə aparılan əməliyyatlarla bağlıdır. İkinci səbəb kimi fikrimizcə, infrastruktur və idarəetmədə struktur dəyişiklikləri ilə əlaqədar beynəlxalq maliyyə qurumları tərəfindən ayrılan kreditlərin istifadəsidir. Belə ki, bu qurumlarla bağlanan kredit sazişlərində beynəlxalq məsləhətçi şirkətlərin kreditin istifadəsinə nəzarətçi kimi çıxış etməsi əsas şərt kimi qoşulur. Nəzərə alsaq ki, bu xidmətlərin payı ayrılan kreditlərin 15-20 faizini təşkil edir, bu faktorun nə qədər önəmli olduğunun şahidi oluruq.

Tədiyyə balansının əsas bölmələrindən biri də kapitalın və investisiyaların hərəkəti balansıdır. 2003-cü il üzrə rəqəmlər göstərir ki, ölkəyə xarici kapital axını keçən illə müqayisədə 1.9 dəfə artaraq 4438.9 milyon ABŞ dolları məbləğində olmuşdur.

İqtisadi artımın stimullaşdırılması baxımından bu investisiyaların 89 faizinin birbaşa formada olması müsbət haldır. Lakin bu investisiyaların strukturunda neft-qaz sektorunun xüsusi çəkisinin 98.8 faiz təşkil etməsi tədiyyə balansının digər

bölmələrində olduğu kimi bu bölməsində də neft asılılığının yüksək olduğunu göstərməkdədir.

Azərbaycan Respublikasının tədiyyə balansını optimal səviyyəyə gətirmək üçün aşağıdakıların həyata keçirilməsi məqsədə müvafiq olardı:

1) İstehsal təyinatlı məhsulların idxalı artırılmalı, ixrac yönümlü sahələr üçün dövlət stimullaşdırma tədbirləri daha da intensiv xarakter daşımalıdır.

2) İdxal-ixrac əməliyyatlarında barter hesablaşmalarının xüsusi çəkisi azaldılmalı, valyuta ilə aparılan əməliyyatlara üstünlük verilməlidir.

3) Dövlət Gömrük Komitəsi və Dövlət Statistika Komitəsi tərəfindən gömrük yük bəyannamələrinin doldurulması və işlənib hazırlanmasında tədiyyə balansının tərtibi baxımından şəffaflığa və beynəlxalq standartlara əməl edilməsi məqsədəuyğun olardı.

4) Ölkənin daxili iqtisadi siyasəti ilə xarici iqtisadi siyasəti sistem şəklində ələ alınmalı, pərakəndəliyə yol verilməməlidir.

Nəhayət, onu da qeyd etmək lazımdır ki, tədiyyə balansının strukturunun optimallaşdırılması ilə yanaşı hesablaşmalar balansının nəticələri də nəzərdən qaçırılmamalıdır. Yəni hər iki sənəddə müsbət nəticələrin əldə edilməsi cəhdləri paralel həyata keçirilməlidir.

# Azərbaycanda su sektorunun perspektivləri*

*Əfsun Ələkbər*

Bu yaxınlarda New York Times qəzetini vərəqlədiyim zaman məqalə başlıqlarından biri diqqətimi cəlb etdi. Eyni ilə belə deyilirdi: "İndi Texas üçün maye qızıl neft deyil, sudur." Əslində Texasın bugünkü həyatında su qıtlığı hiss olunmasa da gələcək illərdə içməli və aqrar təsərrüfata yararlı suyun problem olacağını bilən amerikalı elm adamları indidən düşünməyə başlayıblar. Araşdırma apardığım Texas A&M Universitetinin maliyyə qaynaqlarının böyük bir hissəsi də məhz bu sahədəki elmi araşdırmalara yönəldilməkdədir.

1995-ci ildə Dünya Bankının vitse-prezidenti İsmayıl Serageldinin "Əgər bu əsrin müharibələri neft uğrundadırsa gələcək əsrin müharibələri su uğrunda olacaqdır" şəklindəki məşhur deyimi yuxarıda göstərilən problemin getdikcə qloballaşacağı xəbərini verməkdədir. Dünya Bankının hesablamalarına görə hələ 1998-ci ildə su üzündən korluq çəkən ölkə sayısı 28 olmuşdur. Bu rəqəmin 2025-ci ildə 56 olacağı təxmin edilir. Belə ki, 1990-cı ildən 2025-ci ilədək su korluğu çəkən əhali sayının 131 milyondan 817 milyona qədər yüksələcəyi proqnozlaşdırılır. Onu da qeyd edək ki, Dünya Bankının qəbul etdiyi terminologiyaya əsasən adambaşına düşən illik əldə edilə bilən su miqdarı 1000 kub metrdən azdırsa həmin ölkənin su problemi ilə üzləşdiyi qəbul edilir.

Bu problem Azərbaycan üçün nə dərəcədə realdır? Azərbaycanın mövcud su infrastrukturu su probleminin həlli üçün yetərlidirmi?

---

* *8 aprel 2005.*

Dünya Bankı ekspertlərinin 2002-ci ildəki araşdırmalarının nəticələrinə görə Azərbaycanda adambaşına düşən əldə edilə bilən su miqdarı illik olaraq 995-1000 kub metr təşkil edir. Bu rəqəm indilik əldə edilə bilən su miqdarının yetərli olduğunun göstəricisidir. Su potensialının reallaşdırılması üçün isə kifayət dərəcədə inkişaf etmiş su infrastrukturu tələb olunur. Təəssüflər olsun ki, bu sahədə vəziyyət ürəkaçan deyil. Sovetlər İttifaqı dağıldıqdan sonra mövcud infrastrukturun qorunub saxlanılmasına çalışılmış, bu məqsədlə Dünya Bankı və digər maliyyə institutlarının kreditləri cəlb olunmuşdur. Lakin bu kreditlər problemin tamamən deyil qismən aradan qaldırılmasına xidmət etməkdədir. Kommunal sektordakı tariflər Tarif Şurasında müəyyən edildiyi üçün "Azərsu" Səhmdar Cəmiyyəti istehsal etdiyi suyu maya dəyərindən aşağı qiymətə satmaqdadır. İqtisadi İnkişaf Nazirliyindən və Nazirlər Kabinetindən verilən son açıqlamalarda su ilə bağlı tariflərin 2005-ci ildə qaldırılmayacağı və 2006-cı il üçün də belə halın nəzərdə tutulmaması "Azərsu" Səhmdar Cəmiyyətinin subsidiyalaşdırma siyasətini davam etdiriləcəyini göstərir. Qeyd edək ki, tariflərin artırılması ilə Dünya Bankı kreditlərinin növbəti tranşlarının ayrılması arasında birbaşa əlaqə mövcuddur. Dünya Bankı öz hesabatlarına və imzaladıqları sazişlərə tariflərin periodik olaraq qaldırılması şərtini qoşmaqdadır. Göründüyü kimi tariflərin dondurulacağı təqdirdə maliyyə qurumlarının kreditləri də risk altına girəcəkdir. Respublika büdcəsinin imkanları isə məhduddur. Bütün bu hallar alternativ yolların axtarılması zərurətini meydana gətirməkdədir. Məlumat üçün qeyd edək ki, Mantgomery Watson Konsalting (ABŞ) şirkətinin 2015-ci il üçün Böyük Bakıya (Abşeron yarımadası, Bakı və ətraf rayonlar) dair Baş Sxemində göstərilir ki, bu regionun su və kanalizasiya infrastrukturunun yenidən qurulması üçün təxminən 6 milyard ABŞ dolları tələb olunur. Bu vəsaitin

nə kreditlər, nə də respublika büdcəsi hesabına əldə edilməsi real görünmür.

Alternativ variant özəl sahibkarlığın su sektoruna cəlb edilməsidir. Beynəlxalq təcrübə göstərir ki, özəl sahibkarlığın kommunal sektora cəlb olunmasının bir neçə forması mövcuddur:

1) Birgə Saziş modelinə əsasən təbii inhisara malik şirkət ilə özəl şirkət arasında saziş imzalanır və bu sazişə uyğun olaraq özəl şirkət digər şirkətin işçi heyətini lazımi idarəetmə resursları və bilikləri ilə təmin edir, lakin əməliyyatlara görə heç bir öhdəlik daşımır;

2) Tam xidmət kontrakt formasında isə idarəetmə və istismar özəl şirkətə həvalə edilir;

3) DBO (design-build-operate) tipli kontraktda layihə, tikinti, istismar, idarəetmə işləri, mövcud avadanlıqların yenilənməsi kimi işlər uzun müddətə tamamən özəl şirkətin məsuliyyətinə çevrilir;

4) Tamamən özəlləşdirilmə. Yəni, infrastrukturun özəlləşdirilərək xüsusi mülkiyyətə verilməsi.

Fikrimizcə, Azərbaycanın su sektorunun xüsusiyyətləri nəzərə alınaraq yuxarıdakı formaların birinə seçim etməklə infrastrukturun yaxşılaşmasına nail oluna bilər. Belə olan halda özəl sahibkarlığın iştirakının forması işlənib hazırlanarkən sektordakı məşğulluq, ətraf mühit və digər iqtisadi təsirlər mütləq nəzərə alınmalıdır.

# Konstitusiya və iqtisadi inkişaf*

*İlkin Sabiroğlu*

Məqalənin adı yəqin ki, sizə konstitusion iqtisadı xatırladacaq. Bilindiyi kimi, Nobel Mükafatı Laureatı iqtisadçı Kenneth Arrow ictimai seçim sıralamasını ifadə etmək üçün "ictimai rifah funksiyası" yerinə konstitusiya kəlməsinin istifadə edilməsinin daha uyğun olacağını, çünki bir ictimai rifah funksiyasına sahib ola bilmək üçün konstitusiyanın mövcud olması zərurətini irəli sürmüşdür. Həmçinin "İmkansızlıq Teoremi"ni ortaya atan Arrowa görə (baxmayaraq ki, yazar özü bu teoremi "İmkan Teoremi" – "Possibility Theorem" adlandırmışdı, amma iqtisadi ədəbiyyatda "İmkansızlıq Teoremi" olaraq yer almaqdadır), istənilən halda fərdi seçimlərdən bir ictimai seçim sıralamasını əldə etməyə imkan verəcək və əxlaqi yöndən qəbul edilə biləcək bir metod tapmaq imkansızdır. Bir digər Nobel Mükafatı Laureatı iqtisadçı James M. Buchanan isə Arrowun "İmkansızlıq Teoremi"nə etiraz etmiş və ictimai seçimin siyasi bir proses içərisində müəyyənləşdiyini, bu siyasi prosesə də çox saylı vətəndaşın qatıldığını, bu səbəbdən tutarlı bir ictimai seçim funksiyasını əldə etməyə ümid etmənin mənasız olacağını ifadə etmişdir. Konstitusion iqtisadiyyata Fritz A. Hayek və Milton Friedmandan isə dəstək gəlmişdir. Milton Friedman, inflyasiyanın "hər yerdə və hər zaman monetar bir problem olduğunu" söyləmiş və konstitusiyaya əlavə ediləcək bir maddə ilə siyasi iqtidarın pul təklifini "ildə 5 faizdən çox 3 faizdən az olmayacaq şəkildə artırmasının təşkilini" təklif etmişdir.

Amma qeyd edək ki, bu yazımızın mövzusu konstitusion iqtisadiyyat deyil. Sən demə bir ölkənin konstitusiyası ilə o öl-

---

* *27 avqust 2004.*

kənin iqtisadi inkişafı arasında qurula biləcək əlaqələr bunun-la məhdud deyilmiş.

Məşhur iqtisad qəzeti Financial Times, konstitusiyası uzun mətinlərdən təşkil olunan ölkələrdə iqtisadiyyatın zəif inkişaf etmiş, xalqın isə yoxsul olduğunu, qanunlar qısaldıqca zənginliyin və rifahın artdığını iddia edir.

Financial Times dünyanın ən saygın iqtisad qəzetidir və bu qəzet anayasa mətninin uzun olduğu ölkələrdə uzun perspektivdə iqtisadi artımın yavaşladığını və xalqın daha yoxsul olduğunu irəli sürərkən, konstitusiyasında 26 min 316 kəlimə olan Türkiyəni buna nümunə olaraq göstərir.

Amerikalı riyaziyyatçı Kazimierz Wiesak Financial Times-da yayımlanan məqaləsində, konstitusiyasında ən çox kəlimə olan ölkələrin, eyni zamanda adam başına düşən milli gəliri ən aşağı olan ölkələr olduğunu söyləyir.

Pennsylvania Əyalət Universitetinin müəllimi olan Wiesak, iddiasına sübut olaraq Hindistan, Braziliya və Türkiyəni nümunə kimi göstərib. Hindistanın konstitusiyasında 77220 kəlimə varmış. Braziliya və Türkiyə konstitusiyaları isə uyğun olaraq 42371 və 26316 kəlmədən ibarət imiş. Bu üç ölkənin satın alma qabiliyyəti paritetinə görə hesablanan adam başına düşən milli gəlirləri də uyğun olaraq 2900, 7400 və 6700 dollar. Digər tərəfdən ABŞ-ın konstitusiyasında 7764, Yaponiyanın konstitusiyasında isə 5044 kəlimə var. Bu ölkələrin adam başına düşən milli gəliri uyğun olaraq 37800 və 28000 dollar səviyyəsindədir.

Yəni konstitusiyası uzun olan Hindistan, Braziliya və Türkiyədə xalq, qanun sayı az olan ABŞ-da yaşayan bir şəxslə müqayisədə daha yoxsul bir həyat standartlarına sahibdir. Wiesak bu prinsipin dünyanın bütün ölkələrində keçərli olmaya biləcəyini qəbul etməklə birlikdə, təhlil etdiyi 20 ölkədə

konstitusiyanın uzunluğu ilə zənginlik və rifah arasındakı əlaqəni sübut etdiyini söyləyir.

Görəsən bu araşdırmanın arxasında duran məntiq nədən ibarətdir? Wiesakə görə nəticələr heç də sürpriz deyil. Konstitusiyanın uzun olması bürokratiyanın artmasına və həm şirkət həm də dövlət səviyyəsində digər iqtisadi fəaliyyətlərin də məhdudlaşdırılmasına imkan yaradır. Qanunların məhdudlaşdırdığı hökumət və məclislər korrupsiyanı əngəlləməkdə çətinlik çəkirlər. Dolayısı ilə ölkədə iqtisadi artım aşağı düşür və adam başına düşən milli gəlir azalır.

Nəhayət səbirsizliklə gözlənən rəqəmi açıqlayırıq. Kompüterimizin hesablamasına görə Azərbaycan Konstitusiyası təqribən 11000 kəlmədən ibarətdir. Maraqlıdır ki, Wiesak Azərbaycanda korrupsiyanın və adam başına düşən milli gəlirin səviyyəsi ilə 11000 kəlmədən ibarət konstitusiyamız arasındakı münasibəti necə izah edərdi?

# Kənd təsərrüfatında "bolluq paradoksu"*

*Bəhruz Məmmədli*

Bu yaxınlarda Dövlət Statistika Komitəsinin sədri ilin 8 aylıq yekunlarına dair keçirdiyi mətbuat konfransında bu il istehsal edilən taxıl miqdarının ötən ilə görə 20-25 min ton az olacağını; pambıq, kartof, tərəvəz və bostan bitkilərinin isə daha çox olacağını bəyan edib.

Diqqət edirsinizsə, Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsalı ildən-ilə kəskin dalğalanmalarla müşayiət olunur. Gah artır, gah da azalır. İllik istehsaldakı bu cür dalğalanmalar əkinçiləri də çətin vəziyyətə salır. Bəs bu dalğalanmaları necə izah etmək mümkündür? Təbii ki, bunun bir çox səbəbi var və hər məhsul ayrılıqda ələ alınmalıdır. Amma bir də ümumi bir qanunauyğunluq var.

Bu qanunauyğunluq iqtisadi ədəbiyyatda "bolluq paradoksu" teoremi ilə izah olunur. Əkinçilər cari ilin istehsal səviyyəsini keçmiş ilin istehsal miqdarı və qiymətlərinə baxaraq müəyyənləşdirir. Belə ki, əgər bir il əvvəl kənd təsərrüfatı məhsulunun tələbinin təklifindən yüksək olması səbəbindən qiyməti də yüksək olubsa, əkinçi cari ildə daha çox torpaq sahəsini həmin məhsulun istehsalına ayıraraq daha çox məhsul əldə edir. Cari ildə əldə etdikləri məhsulu bazara götürdükdə isə böyük bir ehtimalla xəyal qırıqlığı ilə üzləşir. Ona görə ki, hər kəs eyni cür davrandığından bazarda məhsulun təklifi yüksəlir və nəticədə qiyməti aşağı düşür. Beləliklə, əkinçi zərər etmiş və ya umduğundan çox-çox az qazanmış olur. Belə hallar, hətta bəzən məhsulların bir qisminin yığılmayaraq tarlalarda çürüməsi ilə nəticələnir.

---

* *30 sentyabr 2005.*

Ölkəmizdə bu il pambıq istehsalının yüksəlməsi ötən ildə pambıq qiymətinin yüksək olmasından qaynaqlanır. Komitə sədrinin bu duruma verdiyi izah çox doğrudur: "Bu il ötən illə müqayisədə 30 min hektar çox pambıq sahəsi var. Bu da bazarda pambığın qiymətinin qalxması ilə bağlıdır. Belə ki, 1995-2000-ci illərdə dünya bazarında pambığın qiyməti xeyli aşağı düşdü. Ona görə də pambıq emal edən zavodlar pambığı çox ucuz qiymətə alırdılar. Bu səbəbdən də kənd əməkçiləri pambıq əkməyə maraq göstərmirdilər. Bununla əlaqədar Azərbaycanda pambıq istehsalı azalmışdı. Lakin son illər bazarda pambığın qiyməti artdı ki, bu da kənd zəhmətkeşlərinin pambıq istehsalına marağını artırdı". Ancaq pambıq istehsalındakı bu artım, yetərsiz tələb və bundan qaynaqlanan ucuz qiymətlə, yəni bir "bolluq paradoksu" ilə qarşılaşsa necə olacaq?

Kənd təsərrüfatı zəhmətkeşlərinin yenə sıxıntılı hala düşməməsi üçün hansı tədbirlər alına bilər? Kənd təsərrüfatı ilə məşğul olanları istehsal dalğalanmalarından qorumaq və zərərlərini azaltmaq üçün nə etmək olar? Bunun üçün aşağıdakı göstərdiyimiz iki istiqamətdə tədbirlər görülməlidir:

Birincisi, asimmetrik bilginin önlənməsi üçün addımlar atılmalıdır. Asimmetrik bilgi, kənd təsərrüfatı mallarının istehsalı və bazar vəziyyəti ilə əlaqədar məlumatların hər kəs tərəfindən bərabər səviyyədə bilinməməsi anlamına gəlir. Yəni, bəzi qrup və təşkilatlar daha çox bilgiyə (xüsusi ilə cari ilə dair) malik olduqları halda, böyük əksəriyyət daha az və yetərsiz bilgi ilə yetinmək məcburiyyətində qalır. Kənd təsərrüfatı məhsulları ilə əlaqədar çox bilgiyə sahib olanlar kənd təsərrüfatı nazirliyi, kənd təsərrüfatı sahəsində hər il ətraflı araşdırma aparan quruluşlardır. Ancaq əkinçilər isə ən az bilgiyə sahib olurlar və əllərindəki bilgilər cari ildən ziyadə bir il öncəsinə aid bilgilər olur. Ona görə də, kənd təsərrüfatı sahəsində asimmetrik bilgi halının qabağının alınması demək, əkinçiləri də

cari ildə gerçəkləşəcəyi ehtimal olunan tələb və qiymət səviyyəsi ilə əlaqədar bilgi sahibi etməkdir. Bunu üçün də əkinçilərə yönəlik televiziya proqramları, jurnal və qəzet yayımları daxil olmaqla bir çox fəaliyyət birbaşa nazirlik və araşdırma quruluşları tərəfindən həyata keçirilməlidir.

İkincisi, ölkədə kənd təsərrüfatı məhsulları birjası yaradılmalıdır. Bilirik ki, birja istehsalçılarla istehlakçıları biri araya gətirən bir qurumdur. Birja, məhsulların qiymətini və hansı məhsulların nə qədər istehsal edilməsi gərəkliliyini müəyyənləşdirir. Kənd təsərrüfatı məhsulları birjasının yaradılmasının iki əhəmiyyətli yararı daha var. Kənd təsərrüfatı malları xüsusiyyətləri etibarı ilə dayanıqsız, yəni tez xarab olan mallardır. Birjanın inkişaf etməsi ilə bu mallar çürüməkdən qurtulacaq. İkincisi, birjalar opsiyonlu satış sözləşmələrinin imzalanmasına şərait yaradacaqdır ki, bu da kənd təsərrüfatı istehsalçısının öz məhsulunu yetişməmişdən bir neçə ay əvvəl satmasına imkan verəcək. Beləcə də, aqrar sahədəki qeyri müəyyənlik halı böyük ölçüdə aradan qalxmış olacaq, yəni "zərərli" dalğalanmalar azalacaqdır.

Asimmetrik bilginin önlənməsi və taxıl birjası, pambıq birjası kimi kənd təsərrüfatı məhsulları birjasının yaradılması "bolluq paradoksu" effektini azaldaraq fermerlərin, kənd təsərrüfatı zəhmətkeşlərinin zərər görməməsinə səbəb olar. Onların sabah qarşılaşacaqları bazar şərtlərindən birja bilgisi və birja alətləri vasitəsi ilə özlərini qoruya bilmələrinə imkan yaradar.

# Əlvida, proletariat![*]

*Əkbər Eldaroğlu*

*(Paris iğtişaşlarına epiloq)*

Oktyabrın 27-də Parisdə pasport yoxlaması sırasında polisin təqibindən qaçmağa çalışan iki Şimali Afrika əsilli gəncin yüksək gərginlikli transformatorda gizlənərkən həyatını itirməsi və bir nəfərin ağır yaralanması insanlarda illərdən bəri yığılan qəzəbi küçələrə daşıdı. Bu hadisələr əslində uzun illər həll edilməmiş problemlərin üst-üstə toplanmasının və yabançılara ögey münasibətin nəticəsiydi. Fransanın daxili işlər naziri Sarkozinin mitinqçilər haqqında təhqiramiz ifadələr işlətməsi, ardından da məscidlərin birinə bomba atılması hadisələrin daha idarəolunmaz xarakter almasına səbəb oldu. Daxili işlər nazirinin açıqlamaları dünyanın bəzi ölkələrində Avropa Birliyində feodal düşüncə tərzinin yenidən təzahürü kimi də xarakterizə edildi.

Baş verən hadisələr ölkələrin müasir çağda yalnız təbii fəlakətlərlə deyil, sosial fəlakətlərlə (işsizlik) də yıxıla biləcəyini gözlər önünə gətirdi. Ən maraqlı cəhət isə bu hadisələrin Avropanın aparıcı dövlətlərindən biri olan Fransada baş verməsidir. Fransa həyata keçirdiyi inqilablarla, sadəcə, öz ölkəsində deyil, bütün dünyada insanlara siyasi, iqtisadi və mədəni haqları qazandıran bir ölkə olub.

Amma bu dəhşətli hadisələrin görünməyən tərəfi də var. Sənaye inqilabının lokomotivi olan Fransa bilgi çağına keçiddə ləngiyir. Ötən əsrin 80-ci illərində Avropada Tetçerin, Amerikada isə Reyqanın təşəbbüsü ilə yeni iqtisadi siyasət gündəmə gətirildi. Bu siyasət əsasən iqtisadiyyatda dövlətin payının

---

[*] *30 noyabr 2005.*

azaldılmasına, bazar iqtisadiyyatının daha da gücləndirilməsinə dayanırdı. Sərbəst bazar iqtisadiyyatına alternativ olan sistemlər yavaş-yavaş səhnəni tərk etməyə başladılar.

Artıq müəyyən edilib ki, ən çox korrupsiyaya uğrayan ölkələr, ən çox dövlətçi iqtisadiyyata malik olan ölkələrdir. Əslində bu gün Fransanın özü Avropanın ən dövlətçi iqtisadiyyatlarından biri hesab edilir. Bununla paralel olaraq informasiya və telekommunikasiya texnologiyalarında baş verən sürətli inkişaf iqtisadi paradiqmaları da dəyişdirir. Böyük fabriklərin yerini qutu boyda kompüterlər əvəz edincə, yeni işsizlər ordusu da yaranır. Haradasa qol gücünə olan tələb hər gün azalır, yüksək ixtisaslı mühəndislərə tələbat artır. Fransada 10 il əvvəl bir araşdırma mərkəzi fransızlara "Özünüzü hər hansı sosial sinfə aid edirsinizmi?" sualı ilə müraciət etmiş respondentlərin 50 faizi bu suala "bəli" cavabını vermişdi. Bu gün isə hər 2-3 fransızdan biri özünü hər hansı sosial sinfə aid edir. Bu, əslində inkişaf etmiş ölkələrdə olduğu kimi, Fransada da işçi sinfinin ortadan qalxdığını göstərir.

Fransa Avropada ən böyük işsizlik (10%) səviyyəsinə sahib olan ölkələrdən biridir. Bu ölkə öz işsizləri ilə bacara bilmədiyi halda, Afrika və ərəb ölkələrindən gələn işsizlər vəziyyəti daha da dramatikləşdirir. Bunların da əksəriyyəti təhsilsiz insanlardır ki, bu insanlara olan tələb hər gün azalır. Ayrıca da bu işsiz insanlar dövlət üçün ağır bir maddi yükə də çevrilir. Bir tərəfdən də Almaniya Hindistandan kompüter mühəndisləri idxal edir.

Hadisələrin alovlandığı ərazilərdəki gəlmələrin 50%-dən çoxunu 20 yaşdan aşağı gənclər təşkil edir ki, onların da 45%-i işsiz insanlardır. Gənclər üçün baş verən hadisələr işsizliyin doğurduğu cansıxıcı həyatda macəradan başqa bir şeyə bənzəmir.

Fransa indi bilgi çağına keçidin sancılarını yaşayır. Əslində sənaye inqilabı yavaş-yavaş gerçəkləşmişdi və aqrar ölkələrə sənaye çağına uyğunlaşmaq üçün zaman tanımışdı. Bilgi çağının ruhu isə sürətə dayanır və bu çağ yaratdığından daha çox iş yeri yox etməkdədir. Modern istehsal işçi əməyinin yerini əvəz edir. Bu çağda istehsalın əsas amili rolunda bilgi çıxış edəcək. Bu da bilgili və təhsilli insanlara tələbatı artırır. Çünki artıq təhsil işsizliyi ortadan qaldıracaq tək çarə kimi görülür. Təhsilsiz və işsiz insanlar isə Fransada olduğu kimi, dünyanın hər yerində potensial təhlükə mənbəyi kimi qalacaqlar…

# Biz Qərbə çata bilərikmi?*

*Əkbər Eldaroğlu*

*"İslam ölkələri niyə geri qalır?" sualına tarixi baxışdan doğan nəticələr*

İqtisadçı həmkarım Bəhruz Məmmədlinin bir yazısı dərc olundu və bildiyim qədər müəyyən çevrələrdə geniş müzakirələr yaratdı. Yazı belə adlanırdı: İslam ölkələri niyə inkişaf etmədi? Yazıda problemə Malayziya baş nazirinin baxışlarına dayanaraq cavab verilirdi. Sual başqa bir şəkildə və tarixi aspektə qoyula bilər: Bu gün inkişaf etmiş demokratik ölkələr arasında niyə bir İslam ölkəsinə rast gəlinmir?

İslam ölkələrində kiçik bir qrupun lüks şəraitdə yaşamasına baxmayaraq əhalinin böyük əksəriyyətinin səfalət içərisində yaşaması bu ölkələrin öz tarixləri ilə bağlıdır. Əslində, tarixi və ictimai prosesləri tək bir hadisəyə görə izah etmək elmi cəhətdən məqbul hesab edilmir. Lakin tarixə keçmişdəki siyasət, siyasətə isə bugünkü tarix gözü ilə baxıldığına görə yenə də tarixə qısa bir ekskursiya etmək zərurəti yaranır. Çünki İslam ölkələrinin geri qalmasının əsas səbəbi də məhz tarixin daha dərin qatlarında yer almaqdadır.

Sənaye inqilabı 18-ci əsrin ortalarında Qərbdə baş versə də, Əkinçilik İnqilabı miladdan təqribən 8 min əvvəl Şərqdə baş vermişdir. Ona görə də əkinçilik və heyvandarlıq şərqli cəmiyyətlərin ilkin məşğuliyyət növü sayılırdı. Əkinçiliyin inkişafı şərq ölkələrinin hidrolik və ya suvarma sisteminə dayanan cəmiyyətlərə çevirdi. Suvarma sisteminə nəzarət mərkəzi dövlətin inhisarında idi, bu da mərkəzi dövlətin güclənməsinə səbəb olurdu. Mərkəzi dövlətin güclənməsi isə özəl sektorun inkişafını əngəlləyirdi. Özəl sektor güclənə bilmədiyinə görə

* *9 avqust 2005.*

özəl mülkiyyət də inkişaf edə bilmədi (Marks - Asiya tipi istehsal modeli). Mülkiyyət anlayışının inkişaf edə bilməməsinin nəticəsi olaraq şüurlu, qərarlı və davamlı bir azadlıq mübarizəsi meydana çıxmadı. Buna görə də nə azadlığın təminatçısı olan bir hüquq sistemi formalaşdı (Hegel), nə də plüralist bir sivil cəmiyyət.

Təkçilik, mütləqiyyət hər şeyə hegemon oldu: tək mülkiyyət (dövlət mülkiyyəti), tək mənafe (idarə edən təbəqəni mənafeyi), tək fikir (kişinin hegemonluğu və qadının arxa planda qalması). Din də bu strukturu dəstəkləyəcək şəkildə izah olundu və inkişaf etdirildi. O da dönüb bu ictimai strukturu daha da möhkəmlətdi.

Qərbin son 200 ildə şərqə nüfuz etməsi ilə yuxarıdan başlanan modernləşmə hərəkatı hər bir şərq ölkəsində fərqli modellər ortaya çıxardı. Hansı ki, qərbdə modernləşmə kənardan olan təzyiqlə deyil, aşağıdan gələn hərəkatla, yəni sosial dinamizmin nəticəsi kimi təzahür etmişdir.

Qərblə Şərq arasındakı uçurum Sənaye inqilabından sonra daha da dərinləşdi. Çünki 18-ci əsrdən bəri elm, sənət, mədəniyyət, ordu, səhiyyə və s. hamısı gücünü iqtisadiyyatdan alırlar. Ayrıca da İngiltərənin inkişaf baxımından İspaniyanı geridə qoyması İngiltərənin daha çox demokratikləşməsi ilə bağlı oldu. Qərbdəki plüralizmə dayanan demokratik sistemi gücləndirən iqtisadiyyatdakı inkişaf, yəni mal və xidmət istehsalındakı artım olmuşdur. Buna görə də dünyanın inkişaf etmiş ölkələri məhz iqtisadi cəhətdən inkişaf etmiş ölkələr hesab edilir. Amerikanı dünyanın super güc dövlətinə çevirən də məhz dünyadakı mal və xidmət istehsalının 25 faizinin (10 trilyon dollar) bu ölkənin payına düşməsidir.

Artıq yeni dünya düzəni gücünü siyasətdən deyil, iqtisadi mexanizmlərdən alan bir anlayışdır. İndi dünyada daha çox nüfuz sahibi olmaq, dünyaya verilə biləcək xammal (neft və

təbii qaz) ilə deyil, müasir texnologiya ilə bağlıdır. Əhalisi haradasa Azərbaycanla eyni olan Finlandiya sadəcə "Nokia" telefonunun ixracatı ilə 300 milyonluq İslam ölkələrinin neft istisna olmaqla toplam ixracatından daha çox gəlir əldə etməkdədir. Bunun da əsas səbəbi Finlandiyanın avtoritar İslam ölkələrindən fərqli olaraq demokratiya və bazar iqtisadiyyatı ilə idarə olunmasıdır.

Bu gün bizim də bir şərq ölkəsi kimi geridə qalmağımızın başlıca səbəbi iqtisadi inkişafa sağlam modellər axtarmaq yerinə, bir tərəfdən hələ də şərqli imiş kimi cəmiyyəti "mentalitetə" çəkməyə, başqa tərəfdən də sanki bir anda istehlak qəliblərimizi dəyişdirməklə qərbli ola biləcəyik kimi cəmiyyəti "Avropalılaşdırmağa" çalışmağımızdır. Bunlar yanlış axtarış və çabalardır. Çünki çıxış yolu cəmiyyətdəki iqtisadi və siyasi azadlıqların artırılmasından və aşağıdan gələn təşəbbüskarlığın önünün açılmasından keçir. Biz Qərbə bu yolla çata bilərik.

# Kim? Kimin üçün?*

*Əkbər Eldaroğlu*

İqtisad elmində məhdud ehtiyatların səmərəli istifadəsinə yaxından nəzər saldığımız zaman, bütün cəmiyyətlərin üç əsas suala cavab axtarmaq məcburiyyətində qaldığını görürük. Birincisi, kim tərəfindən hansı mal və xidmətlərin hansı miqdarda istehsal edilməsidir. İkincisi, bu mal və xidmətlərin hansı metodlarla istehsal ediləcəyidir. Üçüncüsü isə, istehsal edilən mal və xidmətlərin kimlər arasında necə paylaşmasıdır.

Bu üç klassik suala cavab axtaran iqtisadi sistemlər əsasən sərbəst bazar və inzibati-amirlik sistemi arasında fəaliyyət göstərirlər. Əsasən keçmiş sosialist ölkələrində tətbiq olunan inzibati-amirlik sistemində insan ehtiyaclarının qarşılanması üçün məhdud ehtiyatların istifadə edilməsinə mərkəzi dövlət qərar verirdi. Sərbəst bazar iqtisadiyyatında isə məhdud ehtiyatların optimal paylaşmasını bazar mexanizminin özü tənzimləyir. Bu model məhdud ehtiyatlardan daha səmərəli istifadəni təmin etməkdədir.

70 il inzibati-amirlik sistemi ilə idarə olunan ölkəmizdə, sərbəst bazar sistemi vəhşi bazar etiqadı kimi qəbul edilirdi. Müstəqillikdən sonra isə bazar modeli iqtisadi inkişafı təmin edəcək tək çarə kimi görülməyə başladı. Lakin bu günə qədər çağdaş bir kapitalist ölkə olmaq üçün zəruri islahatlar aparılmadı. Bu gün ölkədə bazar modeli olma yolunda böyük əngəllər mövcuddur ki, bunların da başında iqtisadiyyata yersiz dövlət müdaxilələri durur. Dünya Bankının son hesabatında 155 ölkə arasında 98-ci sırada dayanmağımız da əsasən nə kapitalist, nə də sosialist sistemini tam mənada mənimsəmədiyimiz, yəni sistemsizliyimiz ilə bağlıdır. Azərbaycan bu gün

---

* *6 oktyabr 2005.*

Qərbə doğru üzən bir gəmiyə bənzəsə də, gəminin içərisindəki bəzi məmurlar şərqə doğru avar çəkir. Ona görə də gəmi nə Qərbə, nə də şərqə doğru gedə bilir.

1980-ci ildən bəri inkişaf etmiş ölkələr bazar modelini gücləndirərək dövlətin iqtisadi həyata yersiz müdaxilələrini məhdudlaşdırırlar. Bu gün dünyada ən çox inkişaf etmiş ölkələr iqtisadi azadlıqları ən çox təmin edən və iqtisadi həyata ən az müdaxilə edən ölkələrdir. Azərbaycan qədər təbii sərvətə malik olmayan İsveçdə rifah səviyyəsinin bizdən qat-qat yüksək olmasının səbəbi də məhz bizdən fərqli olaraq bazar iqtisadiyyatı yolu ilə inkişaf etməsindədir. Bazar iqtisadiyyatını azad təşəbbüskarlıq ruhu olan insanlar qururlar. Bu sistemdə məhdud ehtiyatlardan səmərəli istifadə edənlər sərvətlərini artırır, rasional davranmayanlar isə azad rəqabətdə sıradan çıxırlar. Dövlətin burada əsas vəzifəsi isə imtiyazlı sahibkarlar yaratmaq deyil, tərəfsiz bir arbitr rolunu oynamaqdır.

Dövlət bir ölkədə iqtisadi azadlıqları məhdudlaşdırıb bütöv iqtisadi həyatı nəzarət altına almağa başladığı zaman, müxtəlif qrupların və fərdlərin cəmiyyət həyatında layiq olduğu ictimai mövqe və status məsələsi, istər-istəməz ən mühüm siyasi məsələ halına gələcəkdir. Bu ölkədə hər bir iqtisadi və ya ictimai məsələ, eyni zamanda siyasi bir mahiyyət alacaqdır. İnsanlara nə bəxş ediləcəyini, onlara hansı statusun veriləcəyini dövlət müəyyən etdiyinə görə, hər kəs dövlət idarəsində iştirak etməyə can atmaqda fayda görəcəkdir. Məhz buna görədir ki, ölkədə parlament uğrunda amansız bir mübarizəyə şahidlik etməkdəyik.

Məşhur "Kim? Kimin üçün?" sualını ilk dəfə sovet hakimiyyətinin başlanğıc illərində Lenin ortaya atmışdı. Kim kimin üçün planlar hazırlayacaq, kim kimin üçün mal və xidmət istehsal edəcək, kim insanların cəmiyyətdəki yeri və statusu haqqında qərar qəbul edəcək, kimlər başqaları tərəfindən

onun haqqında qəbul edilən qərarlarla razılaşacaq? Bütün bu suallara siyasi hakimiyyətin başında duranlar tək başlarına qərar verəcəkdilər.

Belə rejimlərdə insanın hansı zamanda nəyə sahib ola bilməsi hakimiyyətin iradəsinə bağlı olduğuna görə, hakimiyyətin iradəsi bəzi insanları qazana biləcəkləri hər şeydən də məhrum edə bilir. Sərbəst bazar iqtisadiyyatı isə siyasi və dini dünya görüşündən asılı olmadan hər kəsin qanunun qadağan etmədiyi istənilən sahibkarlıq növü ilə məşğul ola bildiyi və mülkiyyətin də hüquq tərəfindən təminat altına alındığı bir sistemidir. Sərbəst bazar modeli ilə inzibati-amirlik sistemi arasında fərq də məhz burada yatmaqdadır. Bütün bunlara görə də Azərbaycan üçün tək yol bazar iqtisadiyyatını onun hüquq və mədəniyyəti ilə birlikdə formalaşdırmaqdır. Çünki "Kim? Kimin üçün?" sualını bazar modeli daha ədalətli şəkildə cavablandırır.

# Bürokratik dövlətdən rifah dövlətinə doğru*

*Əkbər Eldaroğlu*

Aristotelə görə dövlət səlahiyyətlərin bütün ünsürlərini əlində cəmləşdirən və sadəcə yaşamaq üçün deyil, həm də yaxşı yaşamaq üçün daha üst səviyyədə strukturlaşmış bir təşkilatdır. Əgər bir ölkədə "rifah dövləti" anlayışı hakimdirsə, burada dövlət vergiləri ilə bəsləndiyi xalqına xidmət göstərmək üçün mövcuddur.

Bizim "rifah dövləti" qura bilməməyimizin əsas səbəbi "xalqın vergiləri ilə bəslənən dövlət modeli" ortaya qoya bilməməyimizdir. Dövlət büdcəmizdə birbaşa və dolaylı şəkildə neftin payı yüksək olduğundan "neft ilə bəslənən dövlət modeli" yaratmışıq.

Rifah dövləti ilə bürokratik dövlət arasındakı fərqin əsasını cəmiyyətlərin inkişaf səviyyəsi müəyyən edir. Dünya bir tərəfdən yeni texnologiyaların sayəsində yeniləşir, özgürləşir və bütünləşirkən, bir tərəfdən də Haiti, Çad və başqa geridə qalmış ölkələr də daxil olmaqla qlobal inkişafdan kənarda qalmağın sıxıntılarını yaşayır.

Avropa ölkələri vətəndaşlarını daha da özgürləşdirir. Çünki, oradakı dəyişiklik burjuaziyanın öncüllüyündə baş verir. Burjuaziya həm zənginləşir, həm də zənginləşdirir. Ayrıca da orada sosial strukturun və münasibətlərin əsasını "bilgi cəmiyyəti" anlayışı təşkil edir. Bizdə isə sosial təbəqələr inkişaf etmədiyinə görə bürokratik hegemonluq hökm sürür. Bürokratiya isə hər zaman zənginləşdiyi halda, cəmiyyət bu zənginlikdən yetəri qədər pay ala bilmir.

---

* *15 aprel 2005.*

Yer kürəsində "sənaye çağı" çoxdan başa çatdı. Bürokratik hakimiyyətin yerini burjua hegemonluğu alıb. Elə bu səbəbdən müasir çağda ən effektiv dövlət, iqtisadi həyata ən az müdaxilə edən dövlət hesab olunur.

Bunu ABŞ-ın təcrübəsində də görmək mümkündür. 1999-cu ildə ABŞ Başqanı B. Clinton 54 yaşında 8 il oturduğu qoltuğu 43-cü başqana dövr edərkən etdiyi çıxışında bir sıra iqtisadi göstəriciləri sıraladı. Adam başına gəlir 12 min dolar artmışdı, 22 milyon insana yeni iş yeri yaradılmışdı. İnflyasiya 2 faizlərə qədər düşmüş, 29 il açıq verən büdcə 230 milyon dolar artıq vermişdi. Bu inkişaf "Hər bir Amerikalının tələbatlarının ödənməsi üçün zəruri vasitələrin və şərtlərin yaradılmasına yönəlik idi."

Robert A. Mundell dünyanın tanınmış Amerikalı iqtisadçılarındandır. Nobel iqtisad mükafatının sahibidir. Ona görə "Clinton heç bir şey etmədiyi üçün bu nailiyyətə imza atmışdı. İqtisadiyyat 1982-ci ildə Başqan Reagan dövrü ilə birlikdə öz xəttinə oturdu.

O zamandan bəri, 18 ildə tam 38 milyon yeni iş yaradıldı. Clinton isə öz xəttində gedən bir inkişafa müdaxilə etməmə ağıllılığını göstərdi, o qədər. Şəffaflıq təmin edildiyinə görə artıq bu gün Amerikada hər 100 nəfərdən 70-i səhm sahibidir."

Bir ölkənin inkişafı, dövlətin iqtisadi həyata ifrat müdaxiləsi ilə tərs mütənasibdir. Uzun illərdən bəri ifrat dövlət müdaxiləsinə, bürokratik hegemonluğa, totalitar düşüncə və korrupsiyalaşmış idarəetmə sisteminə sahib olan Sovetlər Birliyinin 1990-cı illərdə necə tənəzzülə uğradığını bütün dünya zövqlə seyr etmişdi. Ayrıca da sərbəst bazar iqtisadiyyatını 70 il vəhşi bir bazar etiqadı olaraq tərif edən dövlət bürokratiyası, sonra bunu dövlət kürsüsündən xəstəliyi sağaldacaq çarə kimi təbliğ etməyə başladı. Bu da dünyanın inkişafından geridə qalmağın acı paradokslarından biri idi. Amma təəssüf ki, bu-

nu da praktik həyata tətbiq etmək və nəticədə Avropa Birliyinə üzv olmaq sadəcə Baltik respublikalarına nəsib oldu. Avropa Birliyi demək demokratiya və sərbəst bazar iqtisadiyyatına əsaslanan, "Rifah Dövləti" anlayışının hakim olduğu cəmiyyət deməkdir.

# Dünya yenidən yaranır?*

*Əkbər Eldaroğlu*

İnsanlıq tarixi aşağıdakı mərhələləri keçərək bugünkü səviyyəyə gəldi. Təqribən miladdan 8 min əvvəl Şərqdə əkinçilik inqilabı baş verdi. O dövrdə hər kəs həyatını torpaqdan qazanırdı. Torpaq həm də zənginliyin əsas mənbəyi kimi çıxış edirdi. Lakin dünyada adambaşına düşən yararlı torpaq sahəsinin 1980-ci illərdən etibarən 7 faiz azalması torpağın da keçmişdə olduğu kimi səmərə vermədiyini göstərir.

Ardından Avropa sənaye inqilabına imza atdı. 1750-ci illərdən sonra Qərbi Avropa əl əməyindən fabrik istehsalına keçdi. Torpağın yerini fabriklər aldı. İnsanlar qol gücünü sataraq həyatlarını sürdürməyə başladılar. İqtisadi artımda torpağın yerini kapital almağa başladı. Tarladan fabrikə keçid insanların qarderobunu da dəyişdirdi. Bu eyni zamanda milli dövlətlərin də ortaya çıxmasını şərtləndirirdi.

Sənaye inqilabından əvvəl Avropa nə sənayedə nə də elm və texnologiyada Şərqdən irəlidə deyildi. Hətta o zaman Şərqin ən böyük dövlətlərindən biri olan Osmanlı imperatorluğunun bir çox sahələrdə daha üstün olduğunu göstərən dəlillər də mövcuddur. Lakin Avropada baş verən dəyişikliyə laqeyd münasibətin əvəzini Anadolu türkləri imperatorluğun süqutu ilə ödədi.

Bu gün isə torpaq kimi fabriklərin dövrü də geridə qaldı. 1970-ci illərdən sonra dünya yeni bir çağa yelkən açıb ki, buna da bilgi cağı deyilir. Bilgi cəmiyyəti ilə yeni bir çağa daxil olan insanlıq sənaye inqilabının yaratdığından daha böyük bir "Kvant sıçraması" yaşamışdır.

---

* *12 dekabr 2004.*

Artıq nəhəng fabriklərin, zavodların yerini qutu boyda kompüterlər alınca, milli dövlətlər də ciddi dəyişikliyə daxil olur və millət üstü təşkilatlanmaya (Avropa Birliyi kimi) doğru addımlayırlar. Lakin hər çağın öz ruhu vardır. Bilgi çağının da ruhu sürətə dayanır. Məsələn, 1865-ci ildə ABŞ başqanı Linkolnin ölümü İngiltərədə 12 gün sonra duyulmuşdu. Bu gün isə informasiyanın saniyələrlə ölçüldüyü bir dünyada yaşayırıq.

"Microsoft"un apardığı bir analizə görə əgər avtomobil və fəza texnologiyası kompüter və bilgi texnologiyaları ilə eyni sürətlə inkişaf etsəydi; yeni bir avtomobili 2 dollara ala biləcək və haradasa 1 litr benzinlə 600 mil gedə biləcəkdik. Bir pizza qiymətinə isə bir Boeng 747 təyyarəsi satın alına bilərdi.

Dünyadakı transformasiyaya İsveçdən örnək versək "Volvo" dünənin, "Ericsson" isə bu günün şirkətidir. "Volvo" bir zaman sonra orada qala bilməyəcək, istehsalı başqa bir Azərbaycan kimi inkişaf etməkdə olan ölkəyə buraxılacaq. "Ericsson" isə yeni çağın məhsulu kimi orada hələ bir müddət qalmaq imkanına sahibdir. Necə ki, qumdan kompüter cipləri (chip) istehsal etməyi bacaran cəmiyyətlər, beynəlxalq əmək bölgüsündə qumdan şüşə istehsal etməyi ciplərini satmaq istədikləri bir alt qrupdakı cəmiyyətlərə buraxırlar. Amma bunun fərqinə varan və beyin gücü kapitalına yatırım yapan alt qrupdakı cəmiyyətlər üst qrupa sıçrama imkanına yiyələnirlər.

XXI əsrdə yalnız beyin gücü kapitalına investisiya qoyanların rəqabət edə biləcəyi düşünülməkdədir. Azərbaycan isə hələ də zənginliyi dünyada ömrünü başa vurmuş sənaye sahələrində (neft və mədənçilikdə) axtarır. Çünki bura dünyadakı iqtisadi rasionallığı inkar edən bir məkandır. Ürdün belə bilgi sənayesində böyük investisiyalara imza atmaqla 50.000-dən artıq insanı bu sahədə məşğulluğa cəlb etməyi bacardı. Proqramlaşdırma və biotexnologiyaya qoyduğu investisiyalara

görə artıq uzun zamandır ki, Hindistan dünyanın öndə gedən informasiya və telekommunikasiya şirkətlərinin diqqətini özünə cəlb etməkdədir. Ölkəmizin isə bilgi çağına keçid sürətinə nəzər salanda sanki, heç bir zaman dünya ilə ayaqlaşa bilməyəcək və liberal dövlət ola bilməyəcəyimizin pessimizminə qapılırsan.

Artıq liberal dövlət olmadan, demokratiya və özgürlüyü mənimsəmədən dünyadakı zənginlikdən yetəri qədər pay almaq mümkün deyil. Təsadüfi deyil ki, dünyada inkişaf etmiş ölkələr də insan haqları, sərbəst bazar iqtisadiyyatı və demokratiya kimi bəşəri dəyərlərə ən çox sahib çıxan ölkələrdir. Çünki, bir ölkə özgürləşdiyi səviyyədə zənginləşir, zənginləşdiyi səviyyədə də demokratikləşir.

Zamanında sənayeləşmədə gecikmənin bədəlini xalqının xeyli hissəsi yoxsulluq səviyyəsində yaşayaraq ödəyiriksə, bilgi çağına gecikmənin də bədəlini bir gün ödəmək məcburiyyəti ilə üzləşəcəyimizdən hər kəs əmin olmalı. Çünki, tarix ona laqeyd olanları hər zaman cəzalandırır.

# Daxili imkanlar iqtisadiyyatı*

*Rahib Bayrambəyli*

Bizim iqtisadçılarımızdan soruşsalar ki, bu gün Azərbaycan iqtisadiyyatının mühüm problemlərindən biri nədir, cavab şübhəsiz dövlət qeydiyyat sistemi və özəl mülkiyyət arasında qalan və aradakı boşluqlardan məharətlə istifadə edərək inkişaf edən kölgə iqtisadiyyatı olacaq. Azərbaycana xas xüsusiyyətlər daşıdığı üçün, bu tip iqtisadi münasibətlərə əslində daxili imkanlar iqtisadiyyatı adını da qoya bilərik.

İnsanların cürbəcür iqtisadi ehtiyatları istifadə prinsiplərinə baxsaq, əsasən dövlət təlimatlarıyla sərf edilən ehtiyatların axımı, bazar üsuluyla qiymətlərin sərbəst formalaşdığı ehtiyatların axımı və qeyri-formal şəkillər alan, müxtəlif qeyri-qanuni ehtiyat axımlarını qeyd edə bilərik.

Azərbaycanda Sovet dövründə, zəmanənin prinsiplərinə əsasən, ehtiyatların paylaşdırılması kağız üstündə dövlət kanallarıyla həyata keçirilirdi. Amma ehtiyat axımlarının tərs üzündə əslində dədə-babalarımızdan qalma qeyri-formal münasibətlər də yer alırdı.

Yaxın keçmiş tariximizə nəzər salsaq, məsələn, bir sovxoz sədrinin rəhbərlik fəaliyyəti geniş məsuliyyət daşıyırdı. İqtisadi mənada üst rəhbərliyə gedən bütün sənədlər, iqtisadi nəaliyyətləri əks etdirirdi və kağız üzərində sovxoz rəhbərinin məharətlərini sübut edirdi. İşin kökünə baxdığımızda, sahibsizlik mühitində səhlənkarlığa yol verməmək üçün, sovxoz sədri sovxozun ehtiyatlarını öz dədə-baba mülkü kimi idarə etmək məcburiyyətində idi. Yəni, kağız üzərində sovxozun mülkiyyəti nə qədər də dövlətin mülkiyyəti kimi görünsə də,

* *15 fevral 2004.*

sovxoz sədri onu şəxsi mülkü kimi istifadə edib ən yüksək iqtisadi nəaliyyətlər əldə etmək məqsədini daşıyırdı.

Bunun həm müsbət, həm də mənfi cəhətləri var idi. Əgər rəhbərlik edən fərdin məharətinə görə qiymət verməyə çalışsaq, məharətli sovxoz rəhbəri həm dövlət qarşısındakı öhdəlikləri yerinə yetirirdi, həm kollektivinə lazımi qayğını göstərib mükafatlandırılırdı, həm də öz şəxsi mənfəətləri doğrultusunda, xəzinəsini dolduraraq məsul şəxslər qarşısında məharətlərini göstərirdi*. Və beləcə də vəzifəsini qorumaq üçün əlindən gələn səylərini əsirgəmirdi. Dövlətin ehtiyat axımlarını tənzimlərkən, qeydiyyat sistemində natamamlıqlar və boşluqlar olduğu üçün, sovxoz sədri, yuxarıda sıralanan hər üç mənbəyi də (necə deyərlər) yola verməliydi.

Burada sovxoz sədrinin istər istəməz qanundan kənar hərəkətləri olduğu üçün (bunların hamısına qeyri-qanuni deməmiz düzgün olmaz), üst rəhbərlərin yanında gözü kölgəli olaraq qalırdı. Və heç kimə ertəsi gün o sovxoz sədrinin, məsələn həbs olunub zindana göndərilməsi təəccüblü gəlmirdi. Bu da mənfi cəhət mənasında Sovet insanımızın sistem qarşısında nə qədər dəyərsiz və aciz qalmasının nümunəsiydı.

Dövlətin mülkiyyət münasibətlərində qalmaqal və ehtiyat axımlarında qeyri-formal münasibətlərin üstünlüyünü günümüzdə müstəqil Azərbaycanda da müşahidə edə bilərik. Şübhəsiz tariximizi bir gündə döndərib, bütün eybəcərliklərimizdən qurtulmamız mümkün deyil və olmayacaq.

Görünən o ki, zəmanəmiz (kağız üzərində) nə qədər də bazar münasibətləri və günbəgün inkişaf edən dövlət vergi-rü-

---

* Ehtiyat xəzinəsi dediyimizdə həm pul vahidiylə ifadə edilən, həm də insan gücü/ intellektual xəzinə mənasında ehtiyatları nəzərdə tuturuq. Əgər vəzifəli şəxs, şəxsi xəzinəsini yetərincə fikirləşməyib, başqa istiqamətlərə ehtiyatlarını həddindən artıq xərcləmiş olsa, ertəsi günlər qarşılaşacağı çətinliklər qarşısında aciz qalıb hər şeyini itirə bilər.

sum sistemindən bəhs etsə də, daxili imkanlar iqtisadiyyatı fərdlərimizin hər addımında özünü hələlik büruzə verəcək.

Unutmamalıyıq ki, bu günümüz - keçmişimiz və gələcəyimiz arasında bir körpüdür. Bu nöqteyi-nəzərdən, güclü bazar iqtisadiyyatı münasibətləri və həqiqətən möhkəm dövlət intizamı əldə etmək üçün, ehtiyat (resurs) axımlarının daxili imkanlar iqtisadiyyatından çıxıb bazarla dövlətin dövriyyələrində yer almalıdır.

Hər birimiz indiki Azərbaycan iqtisadiyyatında "daxili imkanların" izlərini müşahidə edib, bununla əlaqəli öz şəxsi təəssüratlarımızı gözümüzdə canlandıra bilərik. Bütün keçmiş Sovet respublikalarında da kölgə iqtisadiyyatının yaraları özünü göstərir. Bir mənada "keçid iqtisadiyyatları" adını almalarının da səbəbi, məhz bu spesifik eybəcər yaraların mövcudiyyətiylə əlaqəlidir.

# Yüngül sənayenin dirçəldilməsi yolları axtarılırmı?*

*Əkbər Eldaroğlu*

Beynəlxalq təcrübəyə əsasən inkişaf etməkdə olan ölkələr sənayeləşmə siyasətinə çox vaxt gündəlik istehlak mallarının istehsalı ilə başlayırlar. Çünki bu sahədə daxili bazarda əvvəlcədən hazır tələb mövcud olur. Bununla bərabər bu sahələrdə istehsal böyük kapital və yüksək texnologiyaya bir o qədər də ehtiyac olmayan kiçik müəssisələr tərəfindən həyata keçirilməkdədir. Təsadüfi deyildir ki, Azərbaycanın müstəqilliyinin ilk illərində dövlət səviyyəsində "Sahibkarlığın İnkişafının Öncül İstiqamətləri" proqramı ərzaq məhsullarının istehsalını prioritet istiqamət elan etmişdi. Bunun nəticəsi olaraq 2000-ci il ərzində yeyinti sənayesinin ümumi sənayenin sahə quruluşundakı payı qənaətbəxş hesab edilmişdir. Belə ki, yeyinti sənayesinin emal sənayesində xüsusi çəkisi 1990-cı ildə 30 faizdən 2000-ci ildə 55 faizə çatmışdır.

Analoji nailiyyətlərin bu günə qədər yüngül sənayedə də qazanıldığını söyləmək mümkün deyil. Azərbaycanda indiyə qədər konkret olaraq sənaye müəssisələrinin 70 faizi özəlləşdirilib. Bütün bunlara baxmayaraq özəlləşdirilən müəssisələrin demək olar ki, əksəriyyəti işləmirlər. Hazırda yüngül sənayeyə aid 76 müəssisədən yalnız 6-sı öz fəaliyyətini davam etdirir. Fəaliyyətini davam etdirənlər də 20 faiz istehsal gücü ilə işləyir. Nazirlər Kabinetinin mütəxəssisləri tərəfindən hazırlanmış yüngül sənaye müəssisələrinin dirçəldilməsi və inkişafı proqramının həyata keçirilməsi, vəsait çatışmamazlığından qeyri-müəyyən vaxta qədər təxirə salınmışdı. Bu proqram

---

* *17 May 2001.*

yüngül sənaye müəssisələrinin 30 faizinə qədərini dirçəltmək üçün lazım olan kompleks tədbirləri nəzərdə tuturdu. Bununla əlaqədar hökumətdə hesab edirlər ki, ikinci özəlləşdirmə proqramı çərçivəsində yaxın vaxtlarda başlanacaq iri müəssisələrin özəlləşdirilməsi prosesi ən azı 10 il müddətinə dayandırılmalıdır. Dövlət bu müəssisələrə vəsait yatıraraq onların yenidən qurulmasına, istehsal güclərinin artırılmasına, borclarının ödənilməsinə imkan yaratmalıdır. Müəssisələrin rentabelliyi bərpa edildikdən sonra isə onları özəlləşdirmək olar. Yalnız bu halda sənaye müəssisələrini kiçik hissələrə bölməklə ciddi xarici sərmayədarların onlara marağını cəlb etmək olar.

Struktur islahatları çərçivəsində Nazirlər Kabinetində fəaliyyət göstərən və bu cür təkliflərlə çıxış edən yüngül sənaye şöbəsinin ləğv edilməsi təsadüfi hesab edilməməlidir. Bu cür səmərəsiz təkliflərin ortaya atılması hökumətin yüngül sənayenin inkişafı ilə bağlı konkret və ciddi bir proqrama malik olmadığını göstərir.

Özəlləşdirilən sənaye müəssisələrinin işləməməsi ilə bağlı müxtəlif fikirlər mövcuddur. Bunlardan biri, birinci özəlləşdirmə proqramı çərçivəsində sənaye müəssisələrinin özəlləşdirilməsinin qeyri professional şəkildə aparılması ilə əlaqədardır. Lakin burada nəzərdən qaçmaması lazım gələn əsas cəhət ondan ibarətdir ki, sovet dövründə fəaliyyət göstərən yüngül sənaye müəssisələrinin əksəriyyətində istehsal daxili bazardakı tələbatdan daha yüksək olmuşdur. Eyni zamanda bu müəssisələrin istehsal etdikləri məhsullar, sənayesi daha yüksək inkişaf etmiş ölkələrə nisbətən daha az rəqabətli məhsullar idi. Dövlət müstəqilliyinin əldə edilməsi ilə bərabər ittifaq respublikaları ilə təsərrüfat əlaqələrinin pozulması və eyni zamanda bu müəssisələrdə yeni texnologiyaların tətbiq edilə bilməməsi yüngül sənayedəki tənəzzülü daha da dərinləşdirmişdir.

Məlumat üçün qeyd etməliyik ki, yeni istehsala qədəm qoyan müəssisələrin rəqabət qabiliyyətinin təmin edilməsi üçün müasir iqtisadi ədəbiyyatda 3 ilə 8 il arasında dəyişən müddətin lazım ola biləcəyi düşünülür. Lakin dünya ölkələrinin təcrübəsində hökumətin himayə müddəti ölkədən ölkəyə, sektordan sektora, dövrdən dövrə böyük fərqlər göstərmişdir. Məsələn, Yaponiyada yüngül sənayenin inkişafı 20-30 il, Cənubi Koreyada 40 il, gəmiqayırma sənayesi isə 1-2 ildə inkişaf etdirilə bilmişdir.

Lakin yeni istehsala qədəm qoyan müəssisələrin gömrük rüsumları ilə himayə edilməsində son dövrlər yaşanmış təcrübə göstərmişdir ki, himayə müddəti əksər hallarda çox olmuşdur. Və eyni zamanda daha uzun müddət himayə edilən müəssisələr himayə edilmənin verdiyi rahatlıqla nə qiymət, nə də keyfiyyət göstəriciləri ilə beynəlxalq rəqabətə qarşı hazırlanmamaqdadırlar. 2003-cü ildə Dünya Ticarət Təşkilatlarına üzv olmağa hazırlaşan Azərbaycanda gömrük rüsumları ilə proteksionist tədbirlərə əl atmaq imkanları bir az da məhdudlaşacaq. Bu məqsədlə də gömrük rüsumları vasitəsilə himayə edilmənin yerinə istehsalın ilkin mərhələsində bir dəfəlik təşviqlərin (subvensiyaların) verilməsi daha yararlı ola bilər.

# İşsizlikdə Yaponiyanı geridə qoya bilərik*

*İlkin Sabiroğlu*

*Və ya rəsmi statistikaya inansaq, belə qənaətə gəlmək mümkündür ki, Amerika Birləşmiş Ştatlarını və Avropa Birliyi ölkələrini sosial partlayış təhlükəsi gözləyir*

2000-ci ildə Avropa Birliyi ölkələrində ümumi işsizlik səviyyəsi ortalama olaraq 9 faizə düşmüşdür. Almaniyada işsizlik səviyyəsi 1999-cu ildə 8,3 faiz olduğu halda, 2000-ci ildə bu rəqəm 7,7 faizə düşmüşdür. Amerika Birləşmiş Ştatlarında isə, işsizlik səviyyəsi 1996-cı ildə 5.6 faiz idisə, 2000-ci ildə bu rəqəm 6.3 faizə yüksəlmişdir. Bu sahədə ən diqqət cəlb edən nəticələr Yaponiyada əldə edilmişdir: 1996-cı ildə 2.9 faiz olan işsizlik səviyyəsi 2000-ci ildə 2.3 faizə enmişdir.

Amma ən "maraqlı" rəqəmlər Azərbaycana məxsus olmuşdur. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 12 saylı məruzəsinə görə, "2000-ci il dekabr ayında iqtisadi fəal əhalinin sayı 3749.1 min nəfər, yaxud respublika əhalisinin 47.1 faizini təşkil etmişdir. Onlardan 3705.9 min nəfəri (98.8 faiz) iqtisadiyyatda məşğul olanlar, 43.2 min nəfəri (1.2 faiz) işsizlərdir".

Dövlət Statistika Komitəsinin rəqəmlərinə inansaq Azərbaycanın işsizlik sahəsində opponenti Yaponiya sayılmalıdır, hərçənd ki, o da bizdən təqribən iki dəfə geridədir. Lakin inanmağa davam etsək başqa mətləblərin də üstü açılır. Belə ki, Azərbaycan Avropa Şurasına üzv olub. O ölkələrin də vətəndaşları Azərbaycanda məşğulluq sahəsində əldə edilən bu nəticələrlə gec-tez tanış olacaqlar. İşsizlik səviyyəsi müstəqilliyini yeni qazanan Azərbaycandan 7.5 dəfə artıq olan Avropa

* *5 iyul 2001.*

Birliyi ölkələrində, 5.25 dəfə artıq olan ABŞ-da nəyə görə vətəndaşlar sosial tələblərlə küçələrə axışmasınlar.

Digər tərəfdən Dövlət Statistika Komitəsinin rəqəmləri Azərbaycanda özəlləşdirmə və struktur islahatları ilə bağlı Beynəlxalq Valyuta Fondunun israrlarına da fərqli baxışı tələb edir. Bundan bir qədər əvvəl Neftçilərin Hüquqlarının Müdafiə Komitəsindən bəyan etmişdilər ki, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (ARDNŞ) 65 təşkilatının özəlləşdiriləcəyi təqdirdə 20 min nəfər işsiz qala bilər. Bu isə o deməkdir ki, Azərbaycanda işsizliyin səviyyəsi 1,76 faizə yüksələ bilər. Həmçinin, rəsmi rəqəmlərə görə, hazırda Azərbaycanda dövlət sektorunda çalışanların sayı 1 milyondan artıqdır. Struktur islahatlarından sonra bunların bir qisminin işsiz qalacağını nəzərə alsaq, belə çıxır ki, Azərbaycan işsizliyin səviyyəsinə görə, Yaponiyanı geridə qoya bilər.

Ona görə də hökumət bir tərəfdən kredit ala bilmək üçün Beynəlxalq Valyuta Fondunun şərtlərini yerinə yetirirsə, digər tərəfdən də həmin şərtləri kompensasiya edəcək addımlar üzərində fikirləşir. Yeni bir məlumata görə, bundan belə torpaq payı olan kəndlilərə də işsizlik statusu verilməməsi məsələsi aktuallıq qazanıb. Belə ki, bu günlərdə parlamentdə "Məşğulluq haqqında" qanun layihəsi müzakirə olunur. Sənədi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi hazırlayıb. Həmin sənəddə pay torpağı olan kəndlilərə heç bir halda işsizlik statusu verilməməsi nəzərdə tutulur.

Nəticə olaraq deyə bilərik ki, hökumətin əlində hər zaman alternativlər mövcuddur. Bu alternativlərdən səmərəli istifadə edilərsə, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəqəmlərinə arxalananlar Azərbaycanda işsizliyin səviyyəsi ilə yenə də fəxr edə biləcəklər.

# Azad İqtisadi Zonaların əhəmiyyəti*

*Əkbər Eldaroğlu*

Bu yaxınlarda Beynəlxalq Pul Fondu Azərbaycanda yoxsulluğun aradan qaldırılması proqramı çərçivəsində respublikaya 100.2 milyon ABŞ dolları həcmində kredit ayırmaq barədə qərar verib. Proqramın əsas məqsədi makroiqtisadi sabitliyin qorunması, idarəetmənin təkmilləşdirilməsi və qeyri-neft sektorunda iqtisadi artımın təmin edilməsidir. Azərbaycanda qeyri-neft sektorunda istehsal səviyyəsinin iflic durumu, yüksək işsizlik səviyyəsi hər kəsə məlumdur. Üstəgəl əhalinin alıcılıq qabiliyyətinin aşağı olması, xarici şirkətlərin Azərbaycanı tərk etməsi v.s. Və bütün bunların kökü bir məsələdə toplanır: Azərbaycanda lazımi iqtisadi şərait yaradılmayıb. Amma Azad İqtisadi Zonaların (AİZ) yaradılması ən azından regional olaraq bu şəraitin formalaşmasına imkan verərdi. Məsələn Türkiyədə 20-dən artıq AİZ var və bunlar regionların tarazlı inkişafında müstəsna rol oynayır. Bizdə bir ara Sumqayıtda, Lənkəranda və Naxçıvanda belə zonaların yaradılması məsələsi gündəlikdə idi. Qeyd edək ki, bu ərazilərdə dəmir yolu xətlərinin mövcudluğu, Sumqayıt və Lənkəranın dənizə açılması, Lənkəran və Naxçıvanda aeroportun olması və eyni zamanda Naxçıvanın bir neçə ölkə ilə xarici sərhədinin varlığı AİZ-lərin yaradılmasını əlverişli edirdi. Qeyri-neft sektorunun inkişafında AİZ-lər mühüm rol oynaya bilərdi. Xatırladaq ki, hələ müstəqilliyimizin ilk illərində bir çox ölkələrdə əhəmiyyətli rola sahib olan AİZ-lər Azərbaycanda da aktuallıq qazanaraq müzakirəyə çıxarılmışdı. 1994-cü ilin noyabr ayında hökumət Birləşmiş Millətlər Təşkilatının İnkişaf Planına Sumqayıtın AİZ-yə çevrilməsi təklifi ilə müraciət etmişdi. Bununla

* *26 iyul 2001.*

əlaqədar Birləşmiş Millətlər Təşkilatının təmsilçiləri həmin ərazidə olaraq, ərazinin sosial və iqtisadi vəziyyəti ilə tanış olmuşdular. Müəssisələrin çox az bir qisminin fəaliyyətinin davam etdiyi Sumqayıtda AİZ-nin həyata keçirilməsinin mümkün ola biləcəyi qeyd edilmiş və eyni zamanda bəzi addımlar da atılmışdı.

Bu sahədə Birləşmiş Millətlər Təşkilatının Azərbaycandakı əlaqələndiricilərindən ən fəal hesab edilən Paolo Lembo daha çox yadda qalıb. Xüsusilə onun Sumqayıt AİZ-nin yaradılması yönündə göstərdiyi cəhdlər yəqin ki, hamının yadındadır. Çox təəssüflər olsun ki, BMT kimi nüfuzlu təşkilatın təmsilçisinin təklifləri həmin vaxtlar hökumət tərəfindən qulaqardına vuruldu. Aktiv fəaliyyəti ilə daima mətbuatın gündəmində olan Lembo təmsilçilik müddəti bitdiyinə görə ölkəmizi tərk edib Tacikistana getdikdən sonra bu məsələ bütünlüklə unuduldu. Bizim hökumət təmsilçilərimizsə öz çıxışlarında onun Sumqayıtla bağlı təkliflərini qeyri-peşəkar təklif kimi xarakterizə etdilər. Lakin bəzi rəsmilərimiz tərəfindən qeyri-peşəkarcasına AİZ-lərin ölkənin ərazi bütövlüyünü pozacağı fikri də səsləndi.

Bu gün dünyada sayı 400-dən artıq olan AİZ-lər ölkənin xarici ticarət həcmini artırmaq, ixracat və idxalatı sadələşdirmək, valyuta gəlirlərini və məşğulluq səviyyəsini artırmaq, sənayenin inkişafını canlandırmaq, ölkəyə mütərəqqi texnologiyaları cəlb etmək məqsədilə qurulurlar. AİZ-lər bir çox ölkələrin sənayelərinin inkişafında müstəsna rol oynamışdır. Belə ki, bunların içərisində ən önəmliləri aşağıdakılardan ibarət olmaqdadır:

AİZ-lərin verdiyi ən əhəmiyyətli faydalardan biri ölkənin valyuta rezervlərinin artırılmasına müsbət təsir etməsidir. Bu zonada mal ixracı həm ixrac gəlirlərinin, həm də ixrac bazarlarının genişlənməsini təmin edə bilər.

Bundan başqa AİZ-lərdə xarici investorlar tərəfindən qurulan fabriklərin tələbi olan xammal və yarı emal məhsulları əsasən yerli ölkədən təmin edildiyinə görə, bu yolla əldə ediləcək gəlirlər ixracatda əlavə artım yarada bilər. Təcrübədə bəzi ölkələrdə AİZ-lərdə yaradılan əlavə dəyərin 30-50 faizinin ölkə daxilindən təmin edilməsi şərti gətirilmişdir. Məsələn, Hindistanın Kandi AİZ-sində ixracatın 30 faiz dəyərinin yerli mənbələrdən təşkil olunan xammal və ya yarı emal məhsullarından təmin edilməsi şərti qoyulmuşdur.

Azərbaycanda AİZ-lərin təşkil edilməsi hər şeydən əvvəl dünya ölkələrinin təcrübələrinin öyrənilməsini və hazırlıqların çox mütəşəkkil şəkildə aparılmasını tələb edirdi. Hələ 1996-cı ilin aprel ayında AİZ-nin təşkil edilməsinə başlanılmalı idi. Dünya ölkələrinin təcrübəsinə əsasən hər hansı bir ərazidə üç il ərzində AİZ təşkil edilə bilmirsə, sonradan onun həyata keçirilə bilməsi şübhə doğurmağa başlayır. Çünki AİZ-nin təşkilinin yubadılması xarici investorlarda zonaya qarşı olan marağın azalmasına səbəb olur. Gələcəkdə Azərbaycanın başqa ərazilərində (Lənkəran və Naxçıvan) AİZ-lərin yaradılması nəzərdə tutulurdusa, bu hökumətin Sumqayıt layihəsi üzərində hər cür fədakarlığı həyata keçirməsini zəruri edirdi.

# Azərbaycan öz iqtisadi modelini necə yaratmalıdır?*

*Əkbər Eldaroğlu*

Azərbaycan dövlət müstəqilliyini qazandıqdan sonra, birinci növbədə özünün milli iqtisadiyyatını hansı sosial – iqtisadi sistemdə inkişaf etdirmək problemi ilə üzləşdi. Başqa post-sovet respublikaları kimi Azərbaycan da sərbəst bazar münasibətləri sistemi şəraitində inkişaf etmək yolunu seçdi. Yenicə müstəqillik qazanan Azərbaycan hökuməti keçid dövrü adlandıran mürəkkəb bir dövrə qədəm qoymuş, əksər ölkələrin inkişafında xüsusi rol oynayan sərbəst bazar iqtisadiyyatına keçməyi öz qarşısında əsas vəzifə olaraq müəyyənləşdirmişdir.

Eyni zamanda müstəqilliyimizin ilk illərində Azərbaycanın hansı bazar iqtisadiyyatı modelini qəbul etməsi ilə bağlı ciddi müzakirələr açılmışdır. Respublikamız üçün "tənzimlənən, bazar iqtisadiyyatı modeli" məqbul sayılmış və ona söykənərək sosial - iqtisadi inkişafımızın təmin edilməsi uyğun görülmüşdür. İqtisadçılarımızın çoxu tərəfindən də bu modelin Azərbaycan xalqının milli mənafelərinə tam uyğun gələn bir model olduğu qəbul edilmişdir. Qeyd edilməlidir ki, bütün ölkələrdə həyata keçirilən iqtisadi siyasət üçün vahid model mövcud deyildir. Ölkələrin tarixi inkişaflarına, struktur quruluşlarına, qarşılaşdıqları problemlərə və cəmiyyətin davranışlarına bağlı olaraq həyata keçirdikləri iqtisadi siyasətləri dəyişiklik göstərməkdədir. Bir neçə yüz ildir ki, respublikamız da özünün milli iqtisadiyyatına malik olmayıb.

Bəs görəsən müstəqillikdən bəri həyata keçirilən islahatlar bu gün respublikamızda sərbəst bazar iqtisadiyyatının forma-

* *23 avqust 2001.*

laşdığını söyləməyə imkan verirmi? İki səbəbə görə bu gün respublikada bazar iqtisadiyyatının formalaşdığını söyləmək çətin görünür. Birincisi, sərbəst bazar iqtisadiyyatı son dərəcə güclü inkişaf etdirilmiş və təkmilləşdirilmiş özəl bir hüquq sistemidir. Müstəqillikdən sonra hüquq sahəsində həyata keçirilən islahatlara baxmayaraq bu gün ölkədə sərbəst bazar iqtisadiyyatının hüquq sistemi və mədəni mühiti formalaşdırılmayıb.

İkincisi, dövlətin bu gün iqtisadi həyata müdaxiləsinin məzmunu sərbəst bazar iqtisadiyyatının prinsiplərinə uyğun gəlmir. Belə ki, bəzi iqtisadi qurumlar öz iş prinsipləri ilə sərbəst bazar modelindən çox, korrupsiya doğuran və qayda – qanun tanımayan bir model qurmaqdadırlar. Çünki bu qurumlara rəhbərlik edən kadrların çoxu sovet dövründə işləmiş kadrlardır. Bunlar sərbəst bazar iqtisadiyyatının qaydalarına bələd olmamaqla bərabər yeni şəraitə də uyğunlaşmaq istəmirlər.

Sərbəst bazar iqtisadiyyatı hər kəsin öz qabiliyyətini reallaşdıra bildiyi, insanların öz həyatını istədiyi kimi yaşadığı, siyasi dünyagörüşündən asılı olmayaraq hər kəsin qanunvericiliklə qadağan olunmayan istənilən müstəqil iqtisadi fəaliyyət növü ilə məşğul ola bildiyi bir sistemdir. Lakin o da qeyd edilməlidir ki, hər hansı bir model o modelin işləyişini təmin edə bilən hüquqi və siyasi mədəniyyətlə birlikdə mövcud ola bilər. Azərbaycanda isə sərbəst bazar iqtisadiyyatı təfəkkürü hələ də arzu edilən səviyyədə formalaşmayıb. İnsanlara qarşı tətbiq edilən iqtisadi və siyasi təzyiqlər onların iqtisadi fəaliyyətini məhdudlaşdırır. Bu gün mövcud siyasi rejimin himayəsində olmadan hər hansı bir müstəqil iqtisadi fəaliyyət növü ilə məşğul ola bilmənin çətinliyi hər bir respublika vətəndaşı tərəfindən bilinməkdədir.

Hal-hazırda respublikada dəyişməkdə olan sosial - iqtisadi şərait kadr probleminə yeni meyarlarla yanaşmağı tələb edir. Çünki mövcud kadr potensialı ilə sərbəst bazar iqtisadiyyatı sistemini qurmaq və idarə etmək mümkün deyildir. Nəticə olaraq deyə bilərik ki, Azərbaycanda sərbəst bazar iqtisadiyyatı münasibətlərinin bərqərar olmasını yalnız bu sistemə dair dərin biliklərə və yüksək iqtisadi təfəkkürə malik olan kadrlar həyata keçirə bilər.

# Neft Fondunun vəsaitlərindən necə istifadə etməli?*

*Əkbər Eldaroğlu*

Rəsmi məlumatlara görə, artıq bu günə qədər Neft Fondunun hesabına 350 milyon ABŞ dollarına qədər vəsait toplanıb. Həmçinin mütəxəssislərin hesablamaları yaxın 30 ildə Azərbaycana neftdən təqribən 45 milyard dollar vəsaitin daxil olacağını göstərir. Bu, Neft Fondunun (NF) icraçı direktoru Samir Şərifov tərəfindən də təsdiqlənib. Onun sözlərinə görə, indiki mərhələdə ölkə neft və qaz sənayesinin strateji inkişafından ilkin nəticələr əldə etməyə başlayıb. Mənfəət neftinin satışından ilk gəlir əldə edilib və onun əhəmiyyətli dərəcədə artacağı gözlənilir. NF rəhbərliyinin digər məlumatlarında Azəri, Çıraq, Günəşli yataqlarından neft hasilatının, deməli həm də valyuta daxilolmalarının ən yüksək həcminin 2008-2015-ci illərə təsadüf edəcəyi göstərilir. Bu dövrdə respublika ildə təqribən 5-6 milyard dollar (son yekunda 35-42 milyard dollar) əldə edəcək. Şahdəniz yatağının işlənməsindən gözlənilən daxilolmalar isə, 2000-2029-cu illər ərzində 7 milyard dollardan artıq olacaq. Qeyd edilməlidir ki, bu proqnozlar qiymətlərin bir barel üçün 25 dollar olmaqla nəzərdə tutulub.

Azərbaycan hökuməti neftdən gələn gəlirlərin ölkə iqtisadiyyatının başqa sahələrinin də inkişafı üçün səmərəli istifadə edilməsinə xüsusi diqqət yetirməlidir. Hələ keçən ilin iyun ayında "British Know How Fund" NF-nun modeli ilə bağlı hesabat hazırlamışdı. Azərbaycan hökumətinə təqdim edilən həmin hesabatda təklif edilirdi ki, neft ixracından əldə olunan vəsaitləri xarici banklarda yerləşdirmək və ancaq ondan əldə

* *21 iyun 2001.*

ediləcək gəlirlərdən istifadə etmək lazımdır. NF-nun öz vəsaitlərindən nə üçün istifadə edilməməsinin zəruriliyi isə açıq şəkildə göstərilməmişdi. Bu təklifin həyata keçirilməsini zəruri edən əsas səbəb kimi sadəcə o göstərilirdi ki, NF-nun gələcək fəaliyyəti və vəsaitlərin düzgün istifadə olunmaması nəticəsində Azərbaycan iqtisadiyyatı "Holland Sindromu"na yoluxa bilər. Yəni ki, neft sektorundan gələn gəlirlər ölkədə mövcud pul kütləsini artıracaq, bu isə, valyutanın mübadilə kursunun artımına gətirib çıxaracaq. Nəticədə isə qeyri neft sektorunda fəaliyyət göstərmək səmərəsizləşəcək və ölkə iqtisadiyyatı bir tərəfli inkişaf edəcək.

Hazırda isə Azərbaycanda "Holland Sindromu"ndan da təhlükəli vəziyyət yaranmışdır. Belə ki ixracatda neft və neft məhsullarının xüsusi çəkisi 90 faizi keçmişdir. Büdcə gəlirlərinin 50 faizə qədəri neft və neftlə əlaqədar sahələrdən formalaşmaqdadır. Beləliklə, büdcənin neft gəlirlərindən, neft gəlirlərinin isə dünya bazarının konyekturasından asılılığı "Holland Sindromu"nun daha ağır variantını da Azərbaycan üçün meydana çıxarmışdır. Yalnız qeyri-neft sektoru xaricindəki ixracat yönümlü sahələr deyil, ixracat yönümlü olmayan sahələr də inkişaf etməmişdir. Dünya ölkələrinin inkişaf təcrübəsi göstərir ki, Azərbaycan kimi daxili bazarı kiçik olan ölkələr idxal əvəzedici sənayeləşmə modelini deyil, ixracata yönəlik sənayeləşmə modelini seçməlidirlər. Xüsusilə, Azərbaycan kimi iqtisadiyyatı neftdən asılı olan ölkələrdə bu problem daha qabarıq şəkildə gözə çarpır. Bu baxımdan Azərbaycanda ixracat yönümlü olmayan sahələrin inkişafı hələ "Holland Sindromu" probleminin aradan qaldırılması üçün kifayət etməyəcək.

Bu günlərdə Azərbaycanın kənd təsərrüfatı siyasətinin əsas istiqamətlərinin müəyyən edilməsi üzrə tədqiqatlara başlanacaq. Tədqiqatlar Dünya Bankının maliyyələşdirdiyi "Azərbaycanda Kənd Təsərrüfatının Kreditləşdirilməsi və İnkişafı" layi-

həsinin "Kənd Təsərrüfatının Strategiyası" komponenti çərçivəsində müsabiqə yolu ilə seçilmiş təşkilatlar tərəfindən həyata keçiriləcək. Strategiyaya görə, NF-na daxil olan vəsaitlərin bir hissəsi aqrar sektorun maliyyələşdirilməsinə yönəldilməlidir.

Biz, NF vəsaitlərindən kənd təsərrüfatının inkişafı üçün istifadə edilməsinin əleyhinə deyilik. Lakin bu vəsaitlərin aqrar sektora yönəlməsi ölkəni düçar olduğu "Holland Sindromu"ndan xilas edə bilməyəcək. Ölkə iqtisadiyyatının bu xəstəlikdən azad olması ixrac yönümlü sənaye sahələrinin inkişaf etdirilməsi ilə mümkündür. Burada NF-nun vəsaitlərindən istifadə edilməsində sənayeləşmə siyasətində olduğu kimi "seçicilik prinsipi" əsas götürülməlidir. Yəni, bu vəsaitlərdən istifadə edilməsində sənaye sahələri üçün zəruri olan investisiya layihələrinə üstünlük verilməlidir və eyni zamanda bu sahələrin də ixrac yönümlü olmasına diqqət yetirilməlidir. Çünki, Azərbaycan kimi daxili bazarı kiçik olan ölkələr yalnız ixrac yönümlü sənayeləşmə ilə yüksək inkişafa nail ola bilərlər. Eyni zamanda NF-nun vəsaitlərindən bu istiqamətdə istifadə edilməsi Azərbaycan iqtisadiyyatının düçar olduğu "Holland Sindromu"ndan da xilas olmasını təmin edə bilər.

------------------------------------------------------

Çapa imzalanıb: 06.06.2006.
Formatı: 60x84 1/16. Həcmi: 23,5.

**"CBS", POLYGRAPHIC PRODUCTION**
Tel/Fax: 447 75 04, Tel.: 447 75 05
mətbəəsində çap olunub